CƏLAL ALLAHVERDİYEV

İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

“Elm və təhsil”
Bakı – 2022

Elmi redaktor: **Hikmət Babaoğlu**
siyasi elmlər doktoru, professor

İdeya müəllifi: **Hidayət Orucov**
ictimai-siyasi xadim

Rəyçilər: **Nizami Cəfərov**
akademik

Fərrux Rüstəmov
pedaqoji elmlər doktoru, professor

Cəlal Vaqif oğlu Allahverdiyev.
İrəvan Müəllimlər Seminariyası.
Bakı, "Elm və təhsil", 2022, 272 səh.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyevin bu kitabında qədim tarixə, zəngin mədəniyyətə və ədəbi irsə malik olan İrəvan şəhərində fəaliyyət göstərən, pedaqoji fikir tariximizdə mühüm yer tutan İrəvan Müəllimlər Seminariyasının yaranmasından, onun Azərbaycan şöbəsinin keçdiyi çətin tarixi və şərəfli yoldan bəhs edilir.

Müəllif erməni şovinizmi əhatəsində ana dilli məktəblərimizin pedaqoji kadrlarla təmin edilməsində böyük fədakarlıq göstərmiş, adları təhsil tariximizə qızıl hərflərlə yazılmış ziyalıların fəaliyyətindən geniş söhbət açır. Kitabda İrəvan Müəllimlər Seminariyası və onun xələfi olan İrəvan Türk Pedaqoji Məktəbinin fəaliyyəti, təşəkkül və inkişaf yolları, üzləşdiyi problemlər kompleks şəkildə araşdırılmış görkəmli məzunlarının elm, təhsil, mədəniyyət, dövlət quruculuğu sahələrindəki fəaliyyətləri barədə də məlumatlar verilmişdir.

4702000000
N-98-2022 qrifli nəşr

© "Elm və təhsil", 2022

İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin – İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir.

1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli

maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi İrəvan Müəllimlər Seminariyasının 140 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 dekabr 2021-ci il

Xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli bir dövr olmuşdur. Biz bunu qiymətləndirməliyik, heç vaxt unutmamalıyıq. Biz tariximizə doğru, ədalətli qiymət verməliyik. Sözün əsl mənasında Azərbaycan məktəbi məhz iyirminci əsrdə yaranmışdır. Azərbaycan dilində, xalqımızın öz ana dilində uşaqlara, gənclərə təhsil verən və millətimizi təhsilləndirən məktəb yaranmışdır. Bizim bu gün malik olduğumuz iqtisadi və siyasi potensiala, təhsil potensialına görə o dövrdə yaranaraq inkişaf etmiş təhsil sisteminə borcluyuq.

HEYDƏR ƏLİYEV
Azərbaycan xalqının ümummilli lideri

Biz tarixi torpaqlarımızı da unutmamalıyıq və unutmuruq. Bu, gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır, Zəngəzur, Göyçə mahallarıdır. Bunu gənc nəsil də, dünya da bilməlidir. Mən şadam ki, bu məsələ ilə bağlı - bizim əzəli torpaqlarımızın tarixi ilə bağlı indi sanballı elmi əsərlər yaradılır, filmlər çəkilir, sərgilər təşkil olunur. Biz növbəti illərdə bu istiqamətdə daha fəal olmalıyıq və dünyanın müxtəlif yerlərində sərgilər, təqdimatlar keçirilməlidir. Çünki İrəvan bizim tarixi torpağımızdır və biz azərbaycanlılar bu tarixi torpaqlara qayıtmalıyıq. Bu, bizim siyasi və strateji hədəfimizdir və biz tədricən bu hədəfə yaxınlaşmalıyıq.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

İRƏVANDA AZƏRBAYCAN TÜRKLƏRİNİN İCTİMAİ-SİYASİ VƏ MƏNƏVİ DURUMU

İrəvan şəhəri Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və ədəbi irsə malik olan mərkəzlərindən biridir. Burada xalqımızın tarixinin müxtəlif dövrlərini özündə əks etdirən abidələr, qədim qala divarları, şərq-müsəlman memarlıq üslubunda tikilmiş binalar, məscidlər, mədəniyyət mərkəzləri, etnik özümlülüyü, dini etiqadı ehtiva edən qəbirlər, toponimlər, hidronimlər, tarixi yazılar azərbaycanlıların lap qədim dövrlərdən bu yerlərin aparıcı etnosu olduğunu bir daha təsdiq edir. Bütün bunlara baxmayaraq, həmin ərazilərin əsl sahibləri və sakinləri azərbaycanlılar olsa da, tarixin müxtəlif dövrlərində zor gücünə öz əzəli torpaqlarında yaşamaq hüququndan məhrum edilmişlər. Belə ki, 1828-ci ildən başlayaraq, havadarlarının himayəsi və xüsusi qayğısı sayəsində ermənilərin müxtəlif dövrlərdə İrandan, Livandan, Suriyadan, Fransadan, Almaniyadan, Yunanıstandan və başqa ölkələrdən Cənubi Qafqaza, xüsusilə indi «Ermənistan» adlanan ərazilərə kütləvi şəkildə köçürülməsi bölgədə yeni münaqişələrin yaranmasına, azərbaycanlıların soyqırımına, deportasiyasına, terrora məruz qalmalarına zəmin yaratmış, xalqımız üçün daim təhlükə mənbəyinə çevrilmişdir.

1890-cı ildə yenə də himayədarları tərəfindən «Daşnaksütyun» terrorçu təşkilatının təsis edilməsi, ermənilə-

rin siyasi, iqtisadi, hərbi cəhətdən hərtərəfli şəkildə dəstəklənməsi, 1905-1907, 1918-1920-ci illərin soyqırımları, Azərbaycanın tarixi torpaqları hesabına «Ermənistan» adlı dövlətin yaradılması, 1948-53-cü illər deportasiyası, nəhayət, 1988-ci ildə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi şəkildə köçürülməsi və yaşadığımız dövrün gerçəklikləri - bütün bunlar hamısı tarixin danılmaz və inkaredilməz həqiqətləridir. Belə ki, 1918-ci ilin may ayında Ermənistanda qatı mürtəce mövqedən çıxış edən daşnakların hakimiyyətə gəlməsi nəticəsində azərbaycanlılara qarşı amansız və kütləvi terror, soyqırım siyasəti ən qəddar metodlarla həyata keçirilməyə başladı.

1918-20-ci illərdə İrəvan şəhəri tarixinin ən gərgin və acınacaqlı dövrlərindən birini yaşamışdır. Erməni daşnaklarının hökmranlığı dövründə törədilən kütləvi qırğın aksiyaları zamanı İrəvan şəhərinin azərbaycanlılar yaşayan məhəllələri alt- üst edilərək xarabalığa çevrilmiş və 14.000 nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir (50). Erməni quldurlaıı təkcə İrəvan şəhərində deyil, azərbaycanlılar yaşayan bütün bölgələrdə - Üçmüədzin, Zəngibasar, Vedi, Qəmərli, Qarabağlar, Basarkeçər Dərələyəz, Ağbaba, Qafan, Sisian, Allahverdi və s. bölgələrdə son dərəcə vəhşi üsullarla misli görünməmiş tarixi cinayətlər törətmişdilər. Belə ki, 1918-20-ci illərdə erməni millətçiləri tərəfindən 300-dən artıq azərbaycanlı kəndi yerlə yeksan edilmiş, on minlərlə dinc sakin kütləvi şəkildə qırılmış, yüz minlərlə azərbaycanlı isə öz əzəli torpaqlarından məcburi surətdə qovularaq didərgin salınmışdır.

Soydaşlarımız ölümün cəngindən xilas olmaq üçün İrana, Türkiyəyə, Azərbaycana və digər ölkələrə üz tutaraq sığınacaq tapmağa məcbur olmuşlar. Bununla da İrəvanda soydaşlarımızın ictimai-siyasi, ədəbi-mədəni həyatı tənəzzülə uğramış, onun görkəmli nümayəndələri soyqırıma və deportasiyaya məruz qalmışlar. Sonralar Azərbaycanda elm və mədəniyyətin inkişafında böyük rol oynamış Mustafa bəy Topçubaşov, Əziz Əliyev, Abbas Razi Məmmədzadə, Əhməd Rəcəbli, Əhməd Cəmil, Cəfər Xəndan, Mirzə Hüseyn Ağa, Ağa Məhəmməd Hüseyn İrəvanlı, Heydər Hüseynov, Maqsud Məmmədov, Səid Rüstəmov, Bəhmən Axundov, Mirzə Cabbar Məmmədzadə, Cabbar Əsgərzadə, Həsən Seyidov, Cabbar Məcnunbəyov, Əli Məhzun və başqa görkəmli şəxsiyyətlərin ailələri də bu dövrdə öz doğma ocaqlarını tərk etməyə məcbur olmuşlar.

Cənubi Qafqazda, o cümlədən «Ermənistanda» sovet hakimiyyətinin bərqərar olması siyasi-ictimai durumu dəyişdirdi, sosial münasibətlər sisteminə nisbi dinclik və sakitlik gətirdi. Bu heç də millətlərarası münasibətlərin xarakterinin dəyişməsindən, birdən-birə, gözlənilmədən ermənilərin düşmənçilik mövqelərindən çəkilib, sözdə bəyan olunduğu kimi, azərbaycanlıları dərin məhəbbətlə sevdiklərindən xəbər vermirdi. Sadəcə olaraq, millətlərarası münasibətlərdə mövcud olan ziddiyyətlər «dostluq» və «qardaşlıq» pərdəsi arxasında gizlədildi: ermənilərin xalqımıza düşmən münasibəti daha xəbis, daha gjzli səciyyə kəsb etdi.

Əgər rəsmi mənbələrə əsaslansaq, 1920-cı il noyabr ayının 29-da Ermənistanda sovet hakimiyyəti qurulmuşdur. Amma Ermənistanda «sovet hakimiyyəti» öz spesifik xüsusiyyətlərinə malik idi. Bu, hər şeydən əvvəl, erməni kommunistlərinin və dövlət xadimlərinin sözdə bir, əməldə tamamilə əks prinsiplərdən çıxış etməsində özünü büruzə verirdi. Başqa respublikalardan fərqli olaraq, Ermənistanda sosial mühitin, partiya həyatının, milli siyasətin iki - birincisi, görünən, ikincisi, görünməyən tərəfləri var idi.

Görünən tərəf «proletar beynəlmiləlçiliyi», «bolşevizm ideyalarının həyata keçirilməsi», görünməyən tərəf isə rəsmi Ermənistan rəhbərliyinin gizli surətdə həyata keçirdiyi şovinist və anliturk siyasəti idi.

Ermənistanda sovet hakimiyyəti qurulmasının və Ermənistan kommunist partiyasının yaradılmasının 40 illiyi münasibətilə 1960-cı ildə çap olunmuş tezisdə deyilirdi: «Ermənistan zəhmətkeşləri qazandıqları bütün müvəffəqiyyətlər, azad, fərəhli və xoşbəxt həyatı üçün ölməz Leninə, onun yaratdığı Kommunist partiyasına, böyük rus xalqının, sosialist vətənimizdə yaşayan digər qardaş xalqlann qərəzsiz yardımına borcludur» (18).

Hətta kommunist beynəlmiləlçiliyi pərdəsinə bürünmüş ən qatı daşnak olan Anastas İvanoviç Mikoyan yazırdı: «Daşnaklar zamanı Ermənistan yetimlər ölkəsi, göz yaşları ölkəsi, dilənçilik və vəhşi özbaşınalıq ölkəsi idi. «Daşnaksütyun» burjua millətçi partiyası özünün bütün siyasətilə imperializmin mənafeyinə xidmət edirdi.

Daşnakların müsibətlı siyasəti nəticəsində ölkə ağır fəlakət qarşısında qalmışdı» (18).

İosif Stalin isə 1920-ci ilin noyabrında «Pravda» qəzetinin müxbirinə verdiyi müsahibədə deyirdi: «Daşnak Ermənistan, heç şübhəsiz, onu Türkiyənin üstünə küşgürüb sonradan türklərin cəngində qoyub biabırcasına qaçan Antantanın fitnəkarlığının qurbanı kimi yıxıldı... Ermənistanın Rusiya ilə birləşməkdən başqa yolu qalmadı» (68, 3).

Bu fikirlərdən aydın olur ki, ermənilər heç vaxt azad düşüncəli xalq kimi yaşamamış, müstəqil dövlətə malik olmamış, zaman-zaman müxtəlif dövlətlərin əlində siyasi alət rolunu oynamışlar. Həmin dövlətlər Qafqazda öz siyasi-strateji maraqlarını həyata keçirmək üçün ermənilərı hər zaman dəstəkləmiş və onların «Böyük Ermənistan» xülyası ilə yaşamasına rəvac vermişdilər. Yaşadığımız dövrün reallıqları da bir daha bunu təsdiq edir. Tarixi prosesi izləyərkən bir daha aydın olur ki, ermənilərin müxtəlif dövrlərdə apardığı işğalçılıq, qəsbkarlıq və genosid siyasəti son anda iflasa uğramış, erməni xalqının ağır faciələrinə səbəb olmuş, onun həyatının bütün sahələrində dərin böhrana meydan açmışdır. Məğlubiyyətin acı nəticələri ilə üzləşən ermənilər qurd libaslarını çox asanlıqla dəyişib, mələk cildinə girərək özlərini dünyanın ən humanist, məzlum, yazıq bir toplumu olduqlarını, bütün xalqlarla bərabərlik, dostluq və qardaşlıq şəraitində yaşamaq arzularını bəyan etmişlər. Ermənilərin bütün xalqlarla dostluğunu və qardaşlığını elan edən mənbələr-

dən birinə nəzər yetirək: «Erməni xalqı, onun avanqardı olan Ermənistan Kommunist Partiyası SSRİ-nin bütün xalqları ilə öz dostluq və qardaşlığını çox yüksək qiymətləndirir və onu göz bəbəyi kimi qoruyurlar» (18).

Ermənilərin guya bütün xalqlarla dostluq və qardaşlıq münasibətində olduğunu bəyan edən saxta və yalan ifadələr üzərində qurulmuş yüzlərlə bu cür mənbəyə rast gəlmək olar. Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistanın rəsmi dairələrinin yalan və riyakar təbliğatı nəticəsində formalaşmış görünüşü 70 illik Sovet hakimiyyəti dövründə zahirən ermənilər haqqında beynəlmiləlçi xalq təsəvvürü yaradırdı. Amma ermənlərin əsas fəaliyyəti gizlində olmuşdur. Əslində, daşnaklar Aleksandr Xatisyan, Arşak Camalyan, Qaragin Njde, Andranik Ozanyan, Srvandzyan Hamazasp, Drastamat Kanayan (Dro) və bolşeviklər Stepan Şaumyan, Levon Mirzoyan, Aleksandr Myasnikyan, Y.Əlixanyan Bonner, Sarkis Kasyan, Ağasi Xancyan, Anastas Amatunı arasında heç bir fərq olmamışdır. Birincilər Daşnaksütyun partiyasının, ikincilər isə Kommunist Partiyasının biletlərini gəzdirirdilər. Bunların hər ikisi ideoloji baxımdan eyni mənbədən - erməni şovinizmindən qidalanırdılar. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra erməni kommunistləri 1918-1920-ci illərdə daşnakların azərbaycanlılara qarşı apardıqları siyasəti davam etdirdilər, lakin daha incə üsullara əl ataraq, maskalanmış, ardıcıl və düşünülmüş şəkildə öz məkrli planlarını həyata keçirməyə başladılar. Çoxsaylı tarixi faktlar sübut edir ki, erməni kommunist-bolşevik-

lər fürsət düşəndə daşnaklardan daha dəhşətli və amansız idilər. Daşnaklar Azərbaycan türklərini öz əzəli torpaqlarından tam təmizləyə bilmədikləri halda, kommunistlər bunu çox incə metodlarla həyata keçirə bildilər. El ağsaqqalı Şamo Vəliyev erməni daşnak siyasətinin daha müdhiş, qırmızı bolşevik pərdəsinə bürünmüş şəkildə davam eldiyini ifşa edərək azərbaycanlıların Ermənistandan 1948-1953-cü illərdə deportasiyası haqqında deyirdi: «Mikoyanın qələmi Andranikin qılıncından daha betərdir. Andronikin qılıncından qurtarıb qaçanlar ev-eşiklərinə qayıtdılar. Mikoyanın qələmi elə hökm yazıb ki, bir daha buraların üzünü görə bilməyəcəyik: deyəsən daşnaklarla sovetlər bir şeydir, onlar qılıncla, bunlar isə pambıq-sapla baş kəsiblər" (53,68).

Tarixi proseslər daşnakçılığa nisbətən bolşevizmin daha dəhşətli bəla olduğunu bir daha təsdiq edir. Bolşevik cildinə bürünmüş Ermənistan hakimiyyəti sələflərinin məqsəd və məramlarını daha ardıcıl və sistemli şəkildə dövlət səviyyəsində icra edirdi.

30 yanvar 1922-ci ildə Ermənistan Kommunist partiyasının və Ermənistan SSR Sovetlərinin birinci qurultayı keçirilmişdir. Qurultayda 252 nəfər nümayəndə iştrak etmişdir ki, bunlardan da, 14 nəfəri azərbaycanlı idi (51, 19). Cahangir Ələkbərbəyov, Bala Əfəndiyev, Rza Şeyxzadə, Əhməd Əhmədov, Rza Axundov, Əli Əkərəkli, Salman Rəhimov, Əkbər Rizayev, Mehdi Kazımov və başqaları qurultayın nümayəndələri idilər. Qurultayda təsərrüfat və mədəni quruculuğun genişləndirilməsi, o cümlə-

dən bir sıra məsələlər müzakirə edilərək, qərarlar qəbul edilmişdir. Qurultayın gündəliyində yer tutan 3 mühüm məsələ haqqında qəbul edilmiş qərara diqqət yetirək: 1. Zaqafqaziya Federativ Sosialist Respublikasının yaradılması. 2. Torpaqların kəndlilərə verilməsi 3. Xaricdən Ermənistana köçürülən ermənilərin ictimai təminat məsələsi.

Yuxarıda qeyd etdiyimiz və Moskvanın göstərişi ilə Zaqafqaziya Federativ Sosialist Respublikasının yaradılması məsələsi əslində regiondakı azərbaycanlıların əleyhinə olan bir təşkilat idi. Bu vaxt Ermənistan K(b) P rəhbəri Aleksandr Myasnikyan idi. Ona Qriqoru (Serqo) Orconikidze və Sergey Mironoviç Kirov yaxından kömək edirdi. 12 mart 1922-ci ildə Moskvanın göstərişi, Qriqori (Serqo) Orconikidzenin rəhbərliyi ilə Azərbaycan, Ermənistan və Gürcüstan MİK nümayəndələrinin konfransında Zaqafqaziya Respublikalarının federativ ittifaqı yarandı. Bu federativ ittifaq 10 dekabr 1922-ci ildə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına (ZSFSR) çevrildi.

Rəsmi sənədlərdə belə bir ittifaqın yaranması «Zaqafqaziya xalqlarının qardaşcasına birliyinin parlaq ifadəsi» kimi qeyd olunurdu (18;68; 67). Mənbələrdə bu ittifaqın yaranmasının «üç qardaş» xalqın elmi və mədəni tərəqqisinə, iqtisadi cəhətdən güclənməsinə, siyasi cəhətdən püxtələşməsinə, milli sülhün möhkəmlənməsinə əsas yaratması qeyd olunur. ZSFSR-in yaradılması SSR-nin təşkil edilməsinə hazırlıq prosesi üçün atılmış bir addım idi. 1936-cı ildə ZSFSR ləğv edilərək hər üç respublika ay-

rı-ayrılıqda SSRİ-nin tərkibinə daxil edildi. Nə ZSFSR-in, nə də SSRİ-nin təşkili Ermənistanda yaşayan azərbaycanlıların soyqırıma, deportasiyaya, təqib və təzyiqlərə, siyasi-iqtisadi, mənəvi-fiziki terrora məruz qalmalarına nəinki son qoydu, əksinə, münasibətlərin daha da kəskin xarakter almasına rəvac verdi. Bu vaxt Azərbaycan K(b) P MK katibi Sergey Mironoviç Kirov idi. Bu təşkilata Aleksandr Myasnikyan, Gürcüstanda Filipp Maxaradze başçılıq edirdilər. ZSFSR-də isə bu qurumun başında Qriqori (Serqo) Orconikidze dururdu. Bununla da Mikoyan-Kirov-Orconikidze üçlüyü yaranmış əlverişli tarixi şəraitdən istifadə edərək hər yerdə ermənileşdirmə siyasəti aparırdı. Belə ki, 1918-20-ci illərdə erməni daşnaklarının zülmü nəticəsində ən qəddar üsullarla qətlə yetirilməkdən xilas olmaq üçün doğma yurdlarını tərk etmiş azərbaycanlılar Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra yenidən öz vətənlərinə geri dönməyə başladılar. Buna görə də Ermənistan İnqilab Komitəsi «1921-ci ilin aprel ayının 10-da və 23-də ölkəni tərk etmiş qaçqınların, geri qayıtmasına icazə verdi» (133). Bununla yanaşı rəsmi İrəvan bu işdə yoluxucu xəstəliklərin yayılma ehtimalını əsas gətirərək azərbaycanlı qaçqınların geri qayıtmasını əngəlləyirdi. Burada əsas məqsəd isə «1918-20-ci illərdə Ermənistanı tərk etmiş 500 min azərbaycanlının» (50) geri dönməsinin qarşısını almaq, onların sayını minimuma endirmək idi. Bunun nəticəsində həmin dövrdə Azərbaycana, Türkiyəyə, İrana və digər müxtəlif ölkələrə üz tutmuş xeyli sayda azərbaycanlı qaçqınlıqdan geri qa-

yıtmadı. Ocaqlarına dönən azərbaycanlı qaçqınlar sovet hökumətinin ədalətli xalq hökuməti olduğuna, ölkənin tam hüquqlu vətəndaşları kimi yaşayacaqlarına inanaraq bu addımı atmışdılar. 1922-ci ilin əvvəllərindən başlayaraq torpaqların kəndlilərin istifadəsinə verilməsi tədbirlərinin həyata keçirilməsi prosesi zamanı ən münbit ərazilər ermənilər tərəfindən zəbt olunmuş, vaxtilə azərbaycanlı əhalinin tərk etdiyi yaşayış məntəqələrində isə qısa zaman içərisində xaricdən köçürülmüş ermənilər yerləşdirilmişdi. Erməni daşnaklarının dözülməz təqib və təcavüzkarlığı üzündən Ermənistanı tərk etmiş, yenidən öz vətənlərinə qayıdan azərbaycanlı qaçqınlar daxmalar tikib, orada yaşamağa məcbur olurdular. Ermənistanın şovinist hakimiyyəti xaricdən köçürülən ermənilərin ictimai təminat məsələlərini önə çəkərək, onların yerləşdirilməsindən tutmuş, məişət problemlərinin həllinə qədər xüsusi səy göstərdiyi halda, faktiki olaraq azərbaycanlılar torpaq payından, hətta öz əzəli yaşayış məntəqələrində və evlərində belə yaşamaq hüququndan məhrum edilirdi.

Apardığımız araşdırmalardan məlum olur ki, 1922-23-cü illərdə qaçqınlıqdan geri dönən 170 mindən artıq azərbaycanlı əhalinin 55 min nəfəri erməni şovinist dairələrinin yaratdığı bu cür problemlərin nəticəsində yenidən Azərbaycana və başqa ölkələrə qayıtmağa məcbur olmuş, yenidən doğma yurdlarından didərgin düşmüşdü.

Bu siyasət İrəvan şəhərində daha qabarıq şəkildə özünü göstərirdi. Geri dönən azərbaycanlı qaçqınların

İrəvan şəhərində öz doğma yurdlarında məskunlaşmasını Ermənistanın kommunist cildinə girmiş daşnak hakimiyyəti müxtəlif vasitələrlə əngəlləyirdi. Məcburiyyət qarşısında qalan azərbaycanlılar İrəvana yaxın ətraf bölgələrdə - Üçmüədzin, Zəngibasar, Qəmərli və s. yerlərdə məskunlaşırdılar. Bu cür təqib və təzyiqlərlə üzləşən azərbaycanlı qaçqınların əksəriyyəti isə yenidən İrəvanı, o cümlədən Ermənistanı tərk etməyə məcbur olurdu. Erməni şovinistləri aydın başa düşürdülər kı, «Ermənistanı» ermənileşdirmək üçün ilk növbədə azərbaycanlıların mənəvi-mədəni istinadgahları olan İrəvanda onların mövqeyini sarsıtmaq mühüm şərtdir. İrəvanın türksüz şəhərə çevrilməsi, ermənilərin sonralar «uca» məramını həyata keçirmək Qərbi Azərbaycanı azərbaycanlılardan «azad etmək» üçün daha asan idi. Beləliklə, Ermənistanda sovet hakimiyyətinin bərqərar olması nə Ermənistan rəhbərliyində, nə də cəmiyyətin sıravi nümayəndələrində köklü dəyişikliyə səbəb olmadı. «Beynəlmiləlçilik», «qardaşlıq» ideyaları köhnə iyrənc məqsədləri həyala keçirmək üçün son dərəcə rahat və əlverişli pərdə oldu.

Erməni - azərbaycanlı münasibətlərinin yenidən kəskinləşəcəyindən ehtiyat edən Zaqafqaziya Ölkə Komitəsi bu vəziyyəti dözülməz hesab etmiş və 1922-ci ilin iyununda Ermənistan K(b)P MK nəzdində «Azsaylı xalqlar şöbəsi» yaratmağı tövsiyə etmişdir. Beləliklə, vaxtilə İrəvan əhalisinin 75%-ni təşkil edən Azərbaycan türkləri azsaylı xalq statusu ilə yaşamağa məcbur edildilər. Bununla belə "Azsaylı xalqlar şöbəsi" Ermənistanda yaşa-

yan azərbaycanlıların hüquqlarının qorunmasında onların qarşılaşdıqları problemlərin həll edilməsində, çox böyük rol oynamış, bir növ soydaşlarımızın ictimai-siyasi, ədəbi-mədəni mərkəzinə çevrilmişdi. Azərbaycanın görkəmli oğlu, maarif xadimi Bala Əfəndiyevin bu bölməyə rəhbər təyin olunmasından sonra onun fəaliyyəti daha da gücləndirilmişdi. Azərbaycanlılara qarşı təqib və təzyiqlər qismən səngimiş, münasibətlərdə müəyyən dərəcədə nisbi və zahiri həlimlik yaranmışdı. Bu bölmənin və burada çalışan mətin iradəli azərbaycanlı ziyalıların fəaliyyəti sayəsində 1922-ci ildə İrəvanda Azərbaycan teatrı yenidən bərpa olunmuş, 1923-cü ildə azərbaycanlı Qadınlar klubu, 1924-cü ildə İrəvan Türk Pedaqoji Texnikumu 1924-cü ildə «Zəngi» qəzeti, 1927-ci ildə azərbaycanlı yazarlar bölməsi, 1928-ci ildə İrəvanAzərbaycanlı Kənd Təsərrüfatı Texnikumu, bir sıra mədəni-maarif ocaqları yaranaraq fəaliyyətə başlamışdı. Bu şöbəyə ilk vaxtlar Cahangir Ələkbərbəyov, Məmmədəli Nasir, Əkbər Rizayev, 1923-1927-ci illərdə Bala Əfəndiyev, sonralar isə Əhməd Əhmədov rəhbərlik etmişdir. Həmin dövrdə Bala Əfəndiyev İrəvan şəhərinin ictimai-siyasi həyatında fəal iştirak etmiş, burada yaşayan azərbaycanlıların mənəvi atası olmuşdur. Bunu iki cəhətdən izah etmək olar. O,

Bala Əfəndiyev

1921-ci ildən 1929-cu ilə qədər İrəvanda işlədiyi dövrdə Ermənistan KP MK-nın, Ermənistan MİK-in üzvü, Respublika Daxili İşlər Komissarının müavini, MK-nın bölmə müdiri və Ermənistan İctimai Təminat Naziri vəzifələrində çalışmışdı. Bala Əfəndiyevin yüksək vəzifələrdə çalışması ona dövlət idarələri qarşısında Azərbaycan türklərinin problemlərini qoymağa və bu problemlərin həllinə nail olmağa imkan yaratmışdır.

O, Azərbaycanda başlanan latın əlifbası hərəkatının İrəvanda rəhbəri olmuş, 1926-cı ildə Bakıda keçirilən Birinci türkoloji qurultayda Ermənistan nümayəndə heyətinin başçısı kimi iştirak etmişdir. İrəvanda yaşadığı müddətdə xalqımızın savadlanmasından tutmuş, hüquqlarının qorunmasına qədər səriştəli bir rəhbər işçi kimi çalışmış, həmçinin İrəvanda Azərbaycan dilində əvvəlcə «Rəncbər» (1922), sonralar isə «Zəngi» (1924) adı ilə nəşr olunan qəzetin məsul redaktoru olmuşdur. Onun təşəbbüsü ilə «Zəngi» qəzetinin iki səhifəsi latın əlifbası ilə çap olunmuşdu.

Bala Əfəndiyev İrəvanda teatrın, türkdilli mətbuatın, azərbaycanlıların savadlanması və yeni türk əlifbasının həyata keçirilməsi işində tükənməz bir enerji ilə çalışmışdır... 1929-cu ilin ortalarında Bala Əfəndiyev Azərbaycan KP MK-da məsul vəzifəyə dəvət edilir. Burada o, 3 il ərzində Azərbaycan KP MK-nin Mərkəzi Nəzarət Komissiyasının katibi vəzifəsində işləyir. 1933-34-cü illərdə Sabirabad, 1934-cü ildə Lənkəran Payon İcraiyyə Komitələrinin sədri, 1935-ci ildə isə Zaqatala rayon Partiya Ko-

mitəsinin birinci katibi vəzifələrində çalışmışdır. Bala Əvəndiyev İrəvanı tərk etdikdən sonra da soydaşlarımızın ictimai-siyasi, ədəbi-mədəni həyatı ilə hər zaman yaxından maraqlanmış, onlardan diqqət və qayğısını əsirgəməmişdir. Azərbaycan DTK-na doluşmuş erməni müstəntiqləri repressiya dövründə digər ziyalı azərbaycanlılar sırasında onu da əksinqilabçı, pantürkist kimi məhv etmişlər.

Bala Əfəndiyev kimi ziyalılar İrəvanda çox idi. Amma onlar ya yüksək kürsülərə buraxılmır, ya da təqib edilirdilər. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, 1925-cı ildə Ermənistanda 120.000 azərbaycanlı yaşayırdı ki, bunun da 6.000 nəfəri İrəvan şəhərinin payına düşürdü (25). 1918-ci ilə qədər İrəvanda əhalinin əksəriyyətini təşkil edən azərbaycanlıların inqilabdan sonra sayının kəskin şəkildə azalması, ermənilərin isə artımı təkcə İrəvanda deyil, eyni zamanda bölgələrdə də Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni mühitinə öz təsirini göstərməyə bilməzdi. Sovet hakimiyyətinin ilk illərində də azərbaycanlıların təqib və təzyiqlərə, deportasiyaya məruz qalması heç kimə sirr deyildir. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, 1929-cu ildə İrəvanda 2258 nəfər, 1930-cu ildə 1610 nəfər xaricdən köçürülmüş erməni yerləşdirilmişdir. 1929-cu ildə 806 nəfər, 1930-cu ildə isə 1018 nəfər azərbaycanlı İrəvanı tərk etmişdir (5). Əvvəlki illərlə müqayisədə İrəvanda yaşayan azərbaycanlıların sayı getdikcə azalmağa başlamışdır. Əsl erməni xisləti savadlı azərbaycanlılara dözülməz şərait yaratdığı üçün or-

ta məktəblərdə dərs deyən müəllimlər, ziyalılar, aktyorlar və digər peşə sahibləri maddi çətinliklərə və mənəvi sıxıntılara dözə bilməyib İrəvanı tərk edirdilər. Aparılan tədqiqatlardan məlum olur ki, sovet hakimiyyətinin ilk illərində Azərbaycan məktəblərində A.Hamparyan, T.Altunyan, K.Salaxyan, A.Salovyan, M.Minasyan, M Maruxyan, H.Turacyan və bir çox başqaları azərbaycanlılara Azərbaycan dili öyrədirlər. Ermənilər Azərbaycanlıların sıxışdırılması istiqamətində bu cür mənəvi-terror vasitələrinə də əl atırdılar.

Azərbaycanlı ziyalılar nəinki mənəvi, həmçinin fiziki terrora da məruz qalırdılar: istedadlı azərbaycanlı ziyalılardan Hacı Məşədi Hüseyn oğlu Axundov, qabaqcıl maarif işçisi, 1925-ci illərdə Nərimanlı (Uluxanlı) kəndində müəllim işləmiş, 1931-ci ildə Leninqradda ali təhsil almış Musayev İsgəndər Piri oğlu 2 iyul 1935-ci il tarixdə Uluxanlıda Tatoş Bjiniyan tərəfindən, daha sonra isə İrəvan Pedaqoji İnstitutunun müəllimi, filologiya elmləri namizədi Mehdi Həsənov İrəvanda erməni quldurları tərəfindən xüsusi amansızlıqla qətlə yetirilmişdilər. Görkəmli ictimai-siyasi xadim, yazıçı-şair, böyük şəxsiyyət Hidayət Orucov istedadlı dilçi alim Mehdi Həsənov haqqında yazır: "Mehdi görkəmli dilçi alim Muxtar Hüseynzadənin rəhbərliyi ilə dissertasiya müdafiə elədi. Belə savadlı gəncin İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsində müəllim işləməsi yalnız bu bölmənin tədris həyatını deyil, ümumiyyətlə, İrəvanın Azərbaycan ziyalı mühitini zənginləşdirirdi. Yaşasaydı Azərbaycanın ən

görkəmli dilçi alimlərindən biriydi. Yaşaya bilmədi. Otuz beş yaşında ikən müəmmalı şəkildə ayrıldı bizdən". (29 s. 394)

İrəvanda Sovet hakimiyyəti qurulduqdan sonra "erməni xəstəliyi"nin virusu daha da geniş yayılmış, "Böyük Ermənistan" xülyası nəinki yoxa çıxmamış, əksinə, daha artıq erməni beynini zəhrləmişdir. Bu strateji məqsədə nail olmaq üçün Ermənistanın türksüzləşdirilməsi birinci və eyni zamanda ən mühüm addım hesab olunurdu.

Azərbaycanlılara qarşı tarixi cinayətlər soyqırım, deportasiya, təqib və təzyiqlər, iqtisadi-mənəvi, terror siyasəti bütün sahələrdə – azərbaycanlı kadrların tutduqları vəzifələrdən kənarlaşdırılmasında, 1928-ci ildən sonra başlanmış kollektivləşmənin gedişində, mədəni-maarif sahəsində, türk mənşəli toponimlərin, maddi mədəniyyət abidələrinin adlarının kütləvi şəkildə dəyişdirilərək ermənileşdirilməsində, milli-mənəvi dəyərlərimizin mənimsənilməsində, dini ibadətgahların, məscidlərin, qəbirlərin dağıdılmasında bu və ya digər formada həyata keçirilmişdir. Türk mənşəli yer-yurd adlarının dəyişdirilərək ermənileşdirilməsində əsas məqsəd bu ərazilərin azərbaycanlılara məxsus olduğunu tarixin yaddaşından silmək idi.

1920-30-cu illərin ortalarından başlayaraq azərbaycanlılara qarşı ermənilərin siyasi-mənəvi soyqırım siyasəti sonrakı "dinc dövrlərdə" də mərhələli şəkildə davam etmişdir. Ermənistanın şovinist hakim dairələri azərbay-

canlıların qədim dini və adət-ənənələrinin sıxışdırılması, hətta yasaq edilməsi istiqamətində də ən iyrənc üsullardan istifadə edirdilər. Ermənistan Sovet Şuralar Cumhuriyyətinin, MİK-in və XKŞ-nın 18 iyun 1928-cı il tarixli qərarı ilə azərbaycanlıların dini mərasimlərinin istər məscidlərdə, istərsə də dini ibadətgahlarda keçirilməsi yasaq edilərək, cinayət əməli hesab olunmuşdu. Əks təqdirdə, mərasim iştirakçıları məsuliyyətə cəlb edilirdi. Yüzlərlə azərbaycanlı din xadimləri "fırıldaqçı", "ziyankar" kimi saxta ittihamlar əsasında repressiyaya məruz qalmışdılar. Hacı Əhməd Hacı Aslan oğlu, Əsgər Kərbəlayi Əhməd oğlu, Rahim Kərbəlayi Qurban oğlu, Kərbəlayi Əli Qulu oğlu. Molla Abbas Əli Əliyarov, Məşədi Hüseyn Kərbəlayi, Molla Məmməd Salman oğlu və başqa nüfuzlu din xadimləri repressiyanın qurbanı olmuşlar. Bir çoxları isə 1928-ci ildə Kərbəla ziyarətinə getdikləri üçün həbs edilmişdilər. EK(b)P MİK-in Rəyasət Heyəti Ermənistan ərazisinin rayonlaşdırılması haqqında 12 iyul 1929-cu il tarixdə qərar qəbul etmişdir.

Ermənistan ərazisi 5 qəzadan və 31 rayondan təşkil olunmuşdu. Rayonlaşdırma zamanı bir sıra azərbaycanlılar sıx yaşayan kəndləri parçalamaq məqsədi ilə həmin bölgələri ermənilərin çoxluq təşkil etdiyi rayonların tabeçiliyinə keçirdilər.

1930-cu ildə Ağasi Xancyan EK(b) P MK-nın birinci katibi seçildikdən sonra azərbaycanlılara qarşı təqib və təzyiqlər daha da sərtləşərək amansız xarakter almışdı.

1929-cu ilin sonlarından başlayaraq kənd təsərrüfatının kollektivləşdirilməsinin həyata keçirilməsi "tədbirləri ən sərt şəkildə, Ermənistanda yaşayan azərbaycanlılara qarşı tətbiq edilirdi" (50). Kənd təsərrüfatının yenidən qurulması prosesi zamanı 10 minlərlə azərbaycanlının ən yaxşı təsərrüfatçıları "qolçomaq", "əkssovet", "kulak", "şübhəli ünsür" adı ilə saxta ittihamlar əsasında Sibirə və Qazaxıstana sürgün etdilər. Beləliklə də kolxoz sədrlərindən tutmuş MTS siyasi şöbə rəisi və eləcə də digər vəzifələrə ermənilərin təyin olunması, azərbaycanlıların isə sıxışdırılaraq kənarlaşdırılması prosesi daha da kütləvi xarakter kəsb etdi.

Kolxozları möhkəmləndirmək, təsərrüfatları dırçəltmək adı altında yeni mütəxəssis qüvvəsinə ehtiyac olduğunu bəhanə gətirərək kütləvi şəkildə xaricdən ermənilərin Ermənistana köçürülməsi siyasəti həyata keçirilirdi. Vaxtilə azərbaycanlıların öz zəhmətləri hesabına qazanmış olduqları var-dövləti, əmlakı müsadirə edilir, özləri isə ən sərt şəkildə cəzalandırılırdı. 1931-ci ildə Ermənistan Xalq Komissarları Şurasının sədri Ter-Qabrielyan Fransada səfərdə olarkən orada nəşr olunan "Bizim yolumuz" adlı qəzetə müsahibə vermiş, səfərinin məqsədini açıqlayaraq, Fransada yaşayan ermənilərin bir hissəsinin Ermənistana köçürülməsi niyyətində olduğunu bildirmişdir. Elə həmin ildə Fransadan və Yunanıstandan Ermənistana 17 min erməni köçürülmüşdür. Sonrakı iki il ərzində ölkənin 10 minlərlə ermənini qəbul etmək qabiliyyətində olduğunu elan etmişdir. Xaricdən köçüb gələn

ermənilər Tfuda, Ani-Pemzada və Zorakeşdə yerləşdirilmişdilər. 1933- 34-cü illərdə isə daha 8500 erməni köçürülmüşdür (59).

30-cu illərdə, xüsusilə 1937-1938-ci illərdə bütün SSRİ-də həyata keçirilən repressiyalarla əlaqədar ermənilərin azərbaycanlılara qarşı təzyiqi müxtəlif bəhanələrlə daha da gücləndi. Sovet hakimiyyətinin, o cümlədən müxtəlif vəzifələrdə yer tutan erməni şovinistlərinin əli ilə misli görünməmiş repressiyalar həyata keçirildi. Lakin 1937-1938-ci il hadisələri əvvəlki dövrlərdə Azərbaycan türklərinin kütləvi şəkildə çıxışdırılması prosesinin "məntiqi" davamı idi. Hələ 1934-cü ildə repressiyadan canını qurtarmaq üçün Göyçə gölünün güney sahilləri əhalisinin böyük hissəsi Azərbaycana köçmüşdü. Azərbaycanlı ziyalılara türk casusu, pantürkist damğası vuraraq ya məhv edir, ya da ölkədən qovurdular. Azərbaycanlılara qarşı planlı şəkildə "antisovet təbliğatı aparır", "sovet hakimiyyətini istəmir" kimi düşünülmüş saxta ittihamlar irəli sürülürdü. Qondarma ittihamlar əsasında Ermənistanda 60 minə yaxın azərbaycanlı repressiyanın qurbanı olmuşdur. İrəvanın ədəbi-mədəni həyatında fəal iştirak edən Saleh Güllücinski, Əli Haqverdiyev, Mustafa Hüseynov, şair Abbas Azəri, Hüseyn Münşiyev, Əhməd Əhmədov, Mir Abbas Ağa, Rübabə Bağırbəyova, Məsumə Mirbağırova, Abdulla Mirzəyev, Əli Əkbər Rəcəbov, Məcid Axundzadə, Hüseyn Salmanov, İbrahim Əliyev, Feyzi Çobanzadə, Xədicə xanım Mirbabayeva, Teymur Abdullayev, Cavad Rzayev, Əziz bəy Sultanov, Xəlil Ka-

zımbəyov, Mirzə Əsgərov, Yunis Ağayev, Səttar Ağa Kəngərlinski, Bağda Kazımbəyova, İsfəndiyar bəy Sultanov, Vəli Abdullayev, İrəvan ədəbi mühitinin parlaq simalarından olan Mirzə Hüseyn Ağa kimi ziyalılar repressiyanın qurbanı olmuşlar.

1930-37-ci illərdə bir çox ziyalılar Mir Hüseyn Mirbağırov, Lala Qazıyeva, Mir Yusif Mirbabayev, Xədicə Kəngərlinski, Telman Nəzərli, Nəriman Fəxri, Möhsüm Rəcəbov, Sadıx Sadıxov, İnsaf Ağazadə, Mir Sadıq Mir Heydərzadə, Məmməd Mirbağırov, Səcidə Qayıbova, Ruqiyə Mirbağırova, Nəsib Əfəndiyev və başqaları amansız repressiyadan xilas olmaq üçün İrəvanı tərk etməyə məcbur olmuşdular. İctimai-siyasi proseslərin bu şəkildə cərəyan etməsi, təbii ki, İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin formalaşmasına və inkişafına böyük zərbə vururdu. Ermənistana kənardan baxanda təzadlar ölkəsi kimi görünürdü. Çünki bir tərəfdən 1936-1937-ci illərin repressiyası Mikoyan, Yejov, Beriya arayışı əsasında Azərbaycan kəndliləri əksinqilabçı elementlər kimi güllələnir, ölkədən qovulur, həbs edilir, mal-mülkü əlindən alınır, digər tərəfdən isə şura Ermənistanının 15 illiyi münasibəti ilə verilən şüarlarda edilən cinayətlərin üstünə pərdə çəkilirdi.

53 bənddən ibarət olan həmin şüarların 27 və 29-cu bəndlərində deyilir: "Nasionalizmin bütün görünüşlərinə qarşı inadlı və amansız mübarizə aparmalı. Yaşasın Proletar internasionalizmi... Yaşasın Şura Ermənistan xalqla-

rının, erməni, türk, rus, kürd, yunan və asori əməkçilərinin qardaşlıq əməkdaşı və möhkəm ittifaqı" (59).

Bolşevizm və kommunizm bayrağı arxasında bu cür saxta və yalançı şüarların səsləndirilməsi Ermənistanda yaşayan Azərbaycan türklərinə qarşı edilən haqsızlıqları ört-basdır etməkdən ötrü gözəl vasitə idi.

Azərbaycanlıların sıxışdırılması o dərəcəyə çatmışdı ki, EK(b) P MK və eləcə də XMK yanında "Azsaylı xalqlar şöbəsi" ləğv edilmiş, bunun əvəzində azərbaycanlıların kütləvi surətdə həbs edilməsi başlanmışdı. Zaqafqaziya Ölkə Komitəsinin 1930-cu il 4 dekabr tarixli qərarı da erməni millətçilərinin əl-qolunu açmışdı. EK (b) P MK bütün təşkilatları dövlət idarə və müəssisələrində, təhsil ocaqlarında "kulaklardan", "qolçomaqlardan" təmizləmək adı altında komissiyalar yaratmışdı. İrəvanda, bütün bölgələrdə "təmizləmə" komisiyalarının tərkibi yalnız ermənilərdən ibarət idi. Həmin komissiyaların tərkibində bir nəfər azərbaycanlı təmsil olunmuşdur ki, sonradan onun özü də repressiyanın qurbanı olmuşdur. Onlar fövqəladə "üçlüklər" və "beşliklər" yaradaraq azərbaycanlı əhalini "qanuni" əsasda qırmağa başladılar (133).

"Ermənistan"da yaradılan fövqəladə "üçlüyün" tərkibi isə bölgələr üzrə aşağıdakı kimi təşkil edilmişdir.

İrəvan şəhəri

Vartanyan İvan - sədr, fırqə üzvü, 1906-cı ildən, işçi
Zarifyan Mesrop.....1912-ci il.....
Astvadzaturyan Samson.....1918-ci il .....

İrəvan qəzası

Əli Tağızadə - sədr, fırqə üzvü, 1906-ci ildən, işçi
Hovsepyan Armenak.....1914-cü il.....
Karapetyan Soqoman.....1917-ci il.....işçi

Leninakan şəhəri

Mandalyan Tatevos-sədr.firqə üzvü, 1917-ci il.....qulluqçu
Kamaryan Misak.....1919-cu il.....işçi
Ohancanyan Levon.....1917-ci il.....işçi

Leninakan qəzası

Gevoyan Simon - sədr, l'ırqə üzvü, 1905-ci il..... işçi
Vartanyan Samson.....1919-cu il...qulluqçu
Manucaryan Kerasim.....1919-cu il..... işçi

Lori-Pəmbək

Ananyan Armenak - sədr firqə üzvü 1905-ci il .....işçi
Mardirosyan Aram.....1917-ci il. .....
Brakin İvan.....1921-ci il.....

Zəngəzur və Meğri

Sarqisyan Minas - sədr, firqə üzvü.1905-ci il .... işçi
İsrayelyan Sarkis.....1917-ci il..... işçi
Taraxcyan Vartuş.....1917-ci il..... işçi

Dilican qəzası

Kamari Hakop-sədr, firqə üzvü, 1905-ci il.... qulluqçu
Seyramyan Sərkey.....1920-ci il .....işçi
Sağatelyan Ğevork.....1917-ci il.....

Nor-Bayazid qəzası

Qazaryan Levon-sədr,fırqə üzvü, 1917-ci il. ..... qulluqçu
Tatevosyan Anuzavan.....1920-ci il..... qulluqçu

Mxitaryan Verkuş.....1917-ci il.....qulluqçu

Üçmüədzin qəzası

Ağamalyan Artem-sədr, fırqə üzvü, 1917-ci il..... işçi
Hovanesyan Akop.....1917-ci il qulluqçu
Sahakyan Ervin.....1918-ci il.....

Dərələyəz qəzası

Daştoyan Ruben-sədr, fırqə üzvü, 1917-ci il. .....qulluqçu
Porsuqyan Anuş.....1919-cu il.....
Gevorkyan Misak.....1917-ci il.....işçi

2-ci komissiya

Koloyan Ağası - sədr, fırqə üzvü, 1919-cu il.....işçi
Xacikoğlyan Tatevos.....1905-ci il..... qulluqçu
Atoyan Akop.....1917-ci il.....

Yeri gəldikdə "Təmizləmə" Komissiyasının üzvlərini əvəz etmək üçün əlavə siyahı

Bannahyan Ohannes - fırqə üzvü 1917-ci il... qulluqçu
Soğazbanyan Krikor.....1917-ci il.....işçi
Petrosyan Hayk..... 1919-cu il.....qulluqçu
Harutyunyan Aram..... 1920-ci il.....
Gurginyan Nahabet..... 1917-ci il.....
Azadyan Asadyr..... 1917-ci il.....işçi
Xoyilunts Arsen..... 1918-ci il.....
Sarkisyan Seryoja..... 1918-ci il.....
Zaxaryan Harutyun..... 1920-ci il.....
Xaçikoglyan Varos..... 1919-cu il.....
Abramyan Hacıbab..... 1920-ci il.....
Nasibyan Zamir..... 1920-ci il.....
Koletsyan Serko..... 1918-ci il.....qulluqçu

Markaryan Matevos.....	1920-ci il.....işçi
Stepanyan Levon.....	1990-cu il.....
Markaryan Minas.....	1921-ci il.....
Martirosyan Karapet.....	1921-ci il.....
Xaçaturyan Karabpet.....	1917-ci il.....
Kaspary an Levon.....	1918-ci il.....qulluqçu
Karyan Harutyun.....	1905-ci il.....qulluqçu
Kulibekov Arqil.....	1919-cu il.....
Karayan Sarıbəq.....	1917-ci il.....
Becanyan Zaqar.....	1905-ci il.....
Zalikyən Gazar.....	1917-ci il.....
Gumazyan Sandro.....	1918-ci il.....
Sogomonyan Setrak.....	1918-ci il.....
Qamalyan Sarkis.....	1921-ci il.....

Azərbaycanlılara qarşı tepressiya o qədər geniş və qəddar xarakter almışdı ki, mahiyyəti etibarilə türkün düşməni olan, lakin eyni zamanda SSRİ-də sabitliyin qorunmasına can atan mərkəzi da narahat etmişdi. Bununla belə havadarları erməni şovinistlərini dəstəkləməkdə davam edirdi. Anastas Mikoyanın və onun əlaltılarının əlinə fürsət düşmüşdü ki, onlar türkləri (həm Ermənistanda, həm də Azərbaycanda) məhv edə bilsinlər.

1934-cü il dekabrın 1-də Leninqradda Sergey Mironoviç Kirovu öldürdülər. Elə həmin gün SSRİ MİK qərar qəbul etdi. Bu qərara əsasən dövlətə, dövlətçiliyə, dövlət rəhbərinə qarşı suçlanan adamlar fövqəladə "üçlüklərin" ixtiyarına verilirdi. Həmin üçlüyün iclasında vəkil və şahid iştirak etmirdi. Üçlüyün iclası cəmi 15-20 dəqiqə çə-

kirdi. Onun hökmündən şikayət vermək olmazdı. Hökmün 99%-i belə olurdu: "güllələnsin", "əmlakı müsadirə edilsin", "hökm qətidir və dərhal icra edilməlidir". Azərbaycan xalqının ulu öndəri H.Əliyev deyirdi: "Cənubi Qafqazın digər respublikalarına nisbətən Azərbaycana qarşı münasibət tamamilə başqa idi. Cənubi Qafqazın digər respublikalarında təhlükəsizlik orqanlarında həm yerli milli kadrlar əksəriyyət təşkil edirdi, həm də onların rəhbərləri - birinci şəxs öz yerli - milli kadrlarından ibarət idi. Belə bir faktı xatırlayıram. Deyəsən, 1972-1974-cü illərdə Ermənistanda Dövlət Təhlükəsizliyi Komitəsinin sədrini dəyişdirib oraya Moskvadan rus göndərdilər. Xatirimdədir, bir dəfə görüşümüzdə Andropov mənə danışırdı ki, belə bir qərar qəbul ediləndən sonra Mikoyan ona telefonla zəng etmiş və öz narazılığını, etirazını bildirmişdi. Bəyan etmişdi ki, Ermənistana təhlükəsizlik orqanının başçısı vəzifəsinə rus təyin etmək mümkün deyildi. Siz bunu nə üçün etdiniz. O vaxt mən Andropova dedim ki, bəs Mikoyan düşünmürmü ki, Azərbaycanda on illərlə bu vəzifəyə heç vaxt azərbaycanlı təyin olunmayıbdır" (20).

Azərbaycan DTK rəhbərlərindən tutmuş, müstəntiqlərinə qədər əksəriyyəti heç bir orta savadı belə olmayan, xeyli sayda erməni zabit işlədiyi halda, Ermənistan DTK-da bircə nəfər də azərbaycanlı yox idi.

Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistanda heç vaxt kommunistlər beynəlmiləlçi olmamışdır. Bunu 1937-ci il sentyabr ayının 28-də "Pravda" qəzetində dərc olu-

nan bir yazı da bir daha bunu təsdiq edir. 1937-ci ildə EK(b) P MK katibi Ağası Xancyanın Tiflisdə ezamiyyətdə olarkən özünü öldürdüyü haqda məlumat yayılmışdı. Sonradan belə bir xəbər yayılmışdı ki, onu guya Beriya öldürtdürmüşdür. Bununla da iş sakitləşmişdi. Amma "Pravda" qəzetində dərc olunmuş həmin məqalənin tərcüməsi "Qızıl şəfəq" qəzetinin 29 sentyabr 1937-ci il tarixli nömrəsində erməni rəhbərlərinin iç üzünü tamamilə açır. Məqalədə oxuyuruq: "Ermənistan Kommunist Partiyasının Mərkəzi Komitəsinə uzun vaxt erməni xalqının düşməni, iyrənc xain Ağasi Xancyan başçılıq etmişdi. O, daşnak - trotiskiçi ünsürlərlə birlikdə konturrevolyusion nasionalist iş aparmışdır. Xancyan ifşa olunduqdan sonra Ermənistan K(b) P MK katibi vəzifəsini Amatuni tutmuşdur. Yeni rəhbər Xancyanın ifşa edilməsinin guya özünə aid olmadığını dəfələrlə deyirdi. Halbuki indi aydın olur ki, Amatuni Xancyanın əlaltısı imiş. Amatuni çoxdan bəri xalqın maraqlarına xəyanət edirmiş. O, 1924-1925-ci illərdə Trotiskist oppozisyasına qoşulmuş və bunu partiyadan gizlətmişdir. 1927-ci ildə erməni nasionalist «spesifizminin» lideri Aşot Ohanesyana göndərdiyi gizli məktublarında Amatuni sədaqəti haqqında and içmiş, alçaqcasına iki üzlülük edərək bütün öz cinayətlərini partiyadan gizlədərək konturrevolyusiya lagerinə ildən- ilə daha çox yerimişdir.

...Amatuni daşnak agenti Akopovu özünə yaxınlaşdırmış, onu EK(b) P MK ikinci katibi vəzifəsinə irəli çəkmişdir. Akopov öz iyrənc işi üçün xarici ölkələrdən bol

peşkəşlər almış – məşhur casus daşnak Şahverdyan onları ona gətirmişdir ...süni surətdə Milli İttifaq əmələ gətirmək məqsədilə ziyancılar türk kolxozçularının əlindən torpağı almışlar» (3, s.46). Bolşevik cildinə girmiş daşnaklar torpaqları türk kolxozçularının əlindən xüsusi qəddarlıqla alırdılar. 1936-cı ildə Hamamlıda 14 nəfər türk kolxozçusu qətlə yetirilmiş, kəndlərin planlaşdırılması zamanı 36 azərbaycanlı yaşayış məntəqəsi "perspektivsiz" kənd kimi ləğv edilmiş, azərbaycanlılara məxsus olan yüz hektarlarla üzüm bağları məhv edilmişdir (3, s.47). Həmin ərazilərdə isə xaricdə yaşayan ermənilərin yerləşdirilməsi üçün yeni yaşayış qəsəbələri salınmışdı.

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, 1920-ci ildən 1936-cı ilə qədər xaricdən 42 min erməni köçürülmüşdür (133). Daşnakların azərbaycanlılara qarşı amansız genosid siyasətini EK (b)P MK-nın rəhbərləri olmuş Sarkis Kasyan (1920- 1921), Aleksandr Myasnikyan (1922-1924), Aşot Ohanesyan (1924- 1926), Hayk Osipyan (1926-1927), Haykaz Kostanyan (1928- 1929), Ağasi Xancyan (1930-1936), Anastas Amatuni (1936-1937), Qriqor Harutyunyan (1937-1953), Anton Koçinyan (1966-1974), Karen Demirçiyan (1974-1986) və başqaları daha müdhiş şəkildə həyata keçirmişdilər.

1936-cı ildə Konstitusiyanın qəbul edilməsi ilə əlaqədar olaraq Ermənistan SSRİ-nin tərkibinə müttəfiq respublika kimi daxil oldu. 1938-ci il iyunun 12-də yeni konstitusiya əsasında Ermənistan SSR Ali Sovetinə seçkilər keçirildi. 1939- cu ildə Ermənistan yerli sovetlərə seç-

kilər keçirilərkən azərbaycanlı əhalidən də seçilənlər var idi. İrəvan Şəhər Sovetinin 286 deputatından 5-i rus, 2-si gürcü, 8-i azərbaycanlı (Cəfər Vəlibəyov, Yunis Nuri, Tacirə Bağırova, Kubra Məmmədova, Xəlil Səfərov, Əziz Əzizov, Məmməd İsgəndərov, Zəhra Hüseynova) idi. İrəvan şəhərinin 4 rayonu üzrə yerli sovetlərə keçirilən seçkilərdə də azərbaycanlıların adına rast gəlirik.

İrəvan şəhəri Stalin rayonu üzrə - 76 deputatdan 3-ü rus, 1-i azərbaycanlı (Abbas Sultanov); İrəvan şəhəri Kirov rayonu üzrə - 92 deputatdan 1 nəfər azərbaycanlı (Dürrü Əliyeva); İrəvan şəhəri Spandaryan rayonu üzrə - 97 deputatdan, 6 nəfər rus, 5 nəfər azərbaycanlı (Züleyxa Babayeva, Baxşı Qələndərli, Əli Əliyev, Nəcəf Məmmədov, Xəlil Qurbanəliyev); İrəvan şəhəri Molotov rayonu üzrə -91 deputatdan - l rus, 2 azərbaycanlı (Hüseynov Hidayət, Cəfərov Hüseyn) (3, s.48).

1940-cı illərdən sonra azərbaycanlılara qarşı aparılan siyasi-mənəvi terrorun yeni mərhələsi başlandı. Azərbaycanlı ziyalıların, müxtəlif idarə və müəssisələrdə, partiya və dövlət orqanlarında çalışan kadrların vəzifələrdən tamamilə kənarlaşdırılması prosesi özünün kulminasiya nöqtəsinə çatdı. Yuxarıda adlarını qeyd etdiyimiz şəxslər də bir müddət sonra tutduqları vəzifələrdən kənarlaşdırılmışdılar.

1941-1945-ci illərdə İkinci dünya müharibəsi zamanı İrəvanda yaşayan azərbaycanlıların əksəriyyətinin cəbhəyə göndərilməsi də böyük itkilərə səbəb olmuşdur. Müharibənin azərbaycanlılara vurduğu zərbənin ağır fəsad-

larına baxmayaraq, 1945-cü ilin noyabr ayında SSRİ XKS-nin sədri Stalinin «tarixi» qərarı çıxır. Bunu ermənilər özünəməxsus bir riyakarlıqla Stalinin təşəbbüsü adlandırmışlar. Bunun isə mənası çox böyükdür. Böyük Sovet Ensiklopediyasının 1950-ci il nəşrində erməni alimlərinin özü tərəfindən yazılmış "Армянская Советская Социалистическая Республика" adlı oçerkdə deyilir: "1945-ci ilin noyabr ayında İ.V.Stalinin təşəbbüsü ilə Sovet hökuməti xaricdəki ermənilərin Sovet Ermənistanına qayıtması üçün tarixi qərar qəbul elmişdir. Xarici dövlətlərdən qayıdan ermənilərin qəbulu və yerləşdirilməsi üçün Ermənistan SSR-ə böyük miqdarda maliyyə vəsaiti ayrıldı. 1946-1948-ci illərdə Sovet Ermənistanına 100 minə qədər erməni qayıtmışdı" (68, s.68).

Artıq 1946-cı ilin ortalarından başlayaraq ermənilərin Ermənistana köçürülməsi prossesinə başlanmışdı. Yuxarıda qeyd etdiyimiz statistik rəqəm Ermənistana köçürülən ermənilərin heç də dəqiq sayını əks etdirmir. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.Papyan 1948-cı ildə "Şanlı ildönümü" adlı məqaləsində yazır: "Keçən iki il ərzində xarici ölkələrdən vətənə qayıdan ermənilər üçün bir neçə min ev tikilmişdir, indi 6.500 ev də tikilir" (3, s.49). Apardığımız araşdırmalardan bir daha aydın olur ki, təkcə 1920-53-cü illərdə Ermənistana 300 mindən artıq erməni köçürülmüşdür.

"Təkcə 1946-cı ildə Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50,9 min nəfər, 1947-ci ildə Fələstin, Suriya, Fransa, ABŞ. Yunanıstan, Misir, İran, Li-

van və s. kimi ölkələrdən 34,4 min nəfər erməni qəbul edilib Ermənistanda yerləşdirilmişdir" (3, s.49, 50).

Başqa respublikalarda olduğu kimi, İrəvanda da elmi-ədəbi konfranslar keçirilirdi. Buraya hətta Azərbaycandan da alim və yazıçılar dəvət olunur, incəsənət kollektivləri qastrollara gedir, rus və Azərbaycan dillərində qəzet və kitab nəşr edilirdi. Bir sözlə, ermənilər İrəvanda işi iki səviyyədə görürdülər: bir dərin qatda görülən işlər – azərbaycanlılara qarşı genosid siyasəti, Ermənistandan onları didərgin salmaq, Qərbi Azərbaycanı ermənileşdirmək, ərazi iddiaları və s. İkincisi, üz qatda görülən işlər – beynəlmiləlçiliyin yüksək səviyyədə olduğu kommunist Ermənistanı.

1947-ci il dekabr ayının 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz, ovalığına köçürülməsi haqqında" qərar qəbul edir. O vaxtlar SSRİ Nazirlər Soveti sədrinin müavini olan Anastas İvanoviç Mikoyanın hazırladığı plan əsasında Stalin tərəfindən qəbul edilmiş bu qərar azərbaycanlılara qarşı növbəti tarixi cinayət idi.

10 mart 1948-ci ildə isə SSRİ hökuməti bu məsələ ilə bağlı növbəti dəfə qərar qəbul etmişdir. Azərbaycanlı əhalinin "könüllülük əsasında" köçürülməsi prinsipinə riayət olunmasının detalları nəzərdə tutulmuşdur.

Hələ 23 dekabr 1947-ci il tarixli birinci qərarda məcburi köçürüləcək əhalinin sayı da əvvəlcədən müəyyənləşdirilmişdi - 100 min. (53).

"1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min azərbaycanlı deportasiya edilməli idi. Bu 100 min nəfəri Ermənistan rəhbərliyi 130 minə çatdıra bildi" (53). Azərbaycanlıların tərk etdikləri yaşayış məntəqələrində isə xaricdən köçürülən ermənilər yerləşdirildi. 1948-53-cü illərdə azərbaycanlı əhali ilə yanaşı onlara məxsus olan bir sıra mədəni-maarif ocaqları da deportasiyaya məruz qalmışdı. İrəvanda Azərbaycan teatrının fəaliyyəti dayandırılmış, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi Xanlar rayonuna, İrəvan Pedaqoji İnstitutu isə Bakıya–Azərbaycan Pedaqoji İnstitutuna köçürüldü. İrəvandan fəaliyyət göstərən azərbaycanlı qadınlar klubunun, İrəvan Azərbaycan teatrının, İrəvan azərbaycanlı qızlar məktəbinin, Ermənistan Şura Yazıçıları Cəmiyyətinin nəzdində yaradılmış türk yazarlar bölməsinin və bir sıra ümumtəhsil məktəblərinin də fəaliyyəti dayandırıldı. II Dünya müharibəsindən sonra azərbaycanlıların öz doğma torpaqlarından kütləvi deportasiyası ermənilərin xalqımıza qarşı həyala keçirdiyi siyasətin ən müdhiş nəticəsi idi. Apardığımız araşdırmalar, tarixi faktlar bir daha təsdiq edir ki, bütün dövrlərdə İrəvanda Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni mühiti erməni şovinizmi əhatəsində son dərəcə gərgin, mübariz tarixi bir yol keçmişdir. Ermənilərin azərbaycanlılara qarşı apardığı məkrli siyasət Stalin öləndən sonra bir qədər zəiflədi. Amma bir gün də olsun unudulmadı.

Ermənilərin azərbaycanlılara qarşı dövlət səviyyəsində apardığı soyqırım siyasəti, deportasiya aksiyası İrə-

vanda Azərbaycan ictimai-siyasi, ədəbi-mədəni, ictimai-siyasi mühitinə də böyük zərbə vurmuşdur. Ədəbi-mədəni və ictimai-siyasi mühitin aparıcı nümayəndələri olan Mehdi Kazımov, Adil Axundov, Rza Şeyxzadə, Əsgər Əsgərzadə, Yusif Kazımov, Rəhim Allahverdiyev, Bəhlul Yusifov, Bülbül Kazımova, Həbib Məhəmmədzadə, Fəhrad Fəhradov, Əsgər Cəfərov, İsmayıl Şükürzadə, Rəziyə Abdullayeva, Əşrəf Bayramov, Zaman Vəliyev və başqaları 1948-ci il deportasiyasına məruz qalmışlar.

Nikita Xruşşovun hakimiyyətə gəlməsi Ermənistanda milli ayrı-seçkilik ovqatını daha da gücləndirdi. Ermənistanda yaşayan azərbaycanlıların köçürülmə prosesi bundan sonra da mərhələ-mərhələ davam etdirilirdi. Mərhələli köçürülmə prosesi ermənilərin uzun illərdən bəri "Türksüz Ermənistan" yaratmaq ideyasına zəmin yaradırdı. Ermənilərin məkrli ideyaları, nəhayət, 1988-ci ildə reallaşaraq, monoetnik Ermənistan dövləti yaradılması ilə sonuclandı.

CƏNUBİ QAFQAZDA DÜNYƏVİ TƏHSİL VERƏN MƏKTƏB – İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı İrəvan Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Azərbaycanın elm və mədəniyyət tarixinə "İrəvani" təxəllüsü ilə daxil olmuş və öz önəmli töhfələrini vermiş xeyli alimlərə, ədəbiyyat və incəsənət xadimlərinə rast gəlmək olar. Mirzə Qədim İrəvani (1825-1875), Fazil İrəvani (1782-1885), Mirzə Məhəmməd İrəvani (1718-1799), Şeyx Mövla Həsən İrəvani, Balağa İrəvani, Mirzə Müslüm İrəvani (1755-1823), Aşub İrəvani (1813-1891), Ləli İrəvani (Mirzə Əlixan Hükəma Ləli), Dəlil İrəvani (1763-1817), Şeyx Əbdülkərim İrəvani (1810-1891), Çeşmə İrəvani (1763-1817), Hacı Şeyx Əli Əsğər İrəvani (1810-1891), Hacı Molla Məhəmməd İrəvani, Şakir İrəvani, Mirzə Əli İrəvani (1894-1935), Hacı Şeyx Cavad İrəvani (1870-1958), Qabil İrəvani, Mirzə Ağası İrəvani, Əbdülqasim İrəvani (1774-1823) və başqa görkəmli şəxsiyyətlərin yaradıcılığı bunu bir daha təsdiq edir.

Onu da qeyd etmək yerinə düşər ki, İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində, ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun təsiri bu gün də ədəbi-mədəni prosesdə duyulmaqdadır. Bütün bunlara baxmayaraq,

həmin ərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılar olsa da, tarixin müxtəlif dövrlərində zor gücünə öz əzəli torpaqlarında yaşamaq hüququndan məhrum edilmişlər.

Amma bütün dolanbac, keşməkeşli yollarına baxmayaraq, bəşər tarixi xalqlararası münasibətlərdə tədricən ədalət prinsipinin bərqərar olması ilə xarakterizə olunur. Bu baxımdan, XIX və XX əsrlərdə xalqımızın xəbis qonşumuz ermənilər tərəfindən üz-üzə qoyulduğu problemlər zaman-zaman Azərbaycan xalqının və Azərbaycan mədəniyyətinin misli görünməmiş amansız və faktiki olaraq aramsız repressiyaları ilə müşayiət olundu.

Bununla belə ermənilərin gah gizli, gah açıq, gah rəsmi, gah da qeyri-rəsmi şəkildə Ermənistanda Azərbaycan maarifini, mədəniyyətini, incəsənətini sıxışdırmaqla bağlı siyasətləri İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin öz böyük potensialını bütöv şəkildə gerçəkləşdirməyə imkan verməmişdir.

Yeri gəlmişkən qeyd etməyi vacib bilirik ki, 1979-cu ildə Ermənistan SSR-də xalq təhsilinin tarixi ilə bağlı B.A.Baqdasaryanın "Lyus" mətbəəsində rus dilində "Народные образование в Армянской ССР" adlı kitabı nəşr edilmişdir. Kitabın müəllifi B.A.Baqdasaryan istər çar Rusiyası, istərsə də sovet Rusiyası dövründə Ermənistanda təhsil barədə xeyli məlumat vermişdir. Amma kitabda Azərbaycan məktəblərindən və təhsilindən bir kəlmə də olsun belə danışılmamışdır. Aydındır ki, B.A.Baqdasaryan bunu bilərəkdən məqsədli etmişdir. O, Ermənistanda Azərbaycan məktəblərinin, təhsilinin,

maarifçilik mühitinin zənginliyini və bu sahədəki nailiyyətləri, irəliləyişləri gizlətməklə inkar etməyə çalışmışdır.

Hər zaman "yersiz gəldi, yerli qaç" prinsipindən çıxış edən ermənilər azərbaycanlıların indi "Ermənistan" adlanan tarixi yurdunda xalqımızın yaratdığı milli mədəni irsi hər vasitə ilə nə qədər inkar etməyə can atsalar da, amma buna nail ola bilməmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyi haqqında" 29 dekabr 2006-cı il, "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2021-ci il tarixli sərəncamları eyni zamanda İrəvanda Azərbaycan maarifçilik mühitinin dərindən araşdırılması baxımından aktuallıq kəsb edən mövzulardan biri olmaqla yanaşı, təhsil tariximizin ümumiləşdirilmiş və kompleks şəkildə öyrənilməsinə, araşdırılmamış səhifələrinin üzə çıxarılmasına xidmət edir və bu sahədəki tarixi faktları saf-çürük etməyə, sistemləşdirməyə imkan verir. Bu baxımdan Azərbaycan maarifi və təhsili tarixində özünəməxsus yeri və rolu olan İrəvan Müəllimlər Seminariyası da istisna deyil.

Məlumdur ki, XIX əsrin 70-ci illərinədək bütün Qafqazda dünyəvi fənlər tədris edən məktəb, bu fənlərdən dərs demək üçün pedaqoji kadrlar hazırlayan hər hansı bir təhsil ocağı yox idi. Azərbaycanda olduğu kimi, İrəvanda da dünyəvi məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir. İvan İvanoviç Şopen

XIX əsrin iyirminci illərində İrəvan xanlığının əhalisinin kameral siyahıya alınmasını və inzibati-ərazi bölgüsünün təsvirini hazırlayarkən İrəvan şəhərində Zal xan məscidi, Novruzəli bəy məscidi, Sərtip xan məscidi, Hüseynəli xan məscidi, Hacı İmamverdi məscidi, Hacı Cəfər bəy məscidinin mövcudluğu barədə məlumat verir. Bundan başqa İrəvanda dağıdılmış digər iki məscidin qalıqlarının olduğunu da qeyd edir. Bu məscidlərin hər birinin nəzdində mollaxana və mədrəsə fəaliyyət göstərirdi ki, burada da İrəvandan və müxtəlif bölgələrdən onlarla gənc gəlib dini təhsil alırdılar. İ.İ.Şopen həmin dövrdə təkcə Hüseynəli xan məscidinin nəzdində fəaliyyət göstərən mədrəsədə təhsil alan şagirdlərin sayının 200 nəfər olduğu barədə məlumat verir. (8, s.468; 49, s.71).

Tədqiqatçı Sərraf Kərimov isə həmin dövrdə İrəvanda doqquz məscidin – Göy məscidin, Qala məscidinin, Hacı bəy məscidinin, Zalxan məscidinin, Günlüklü məscidinin, Günbəzli məscidinin, Sərtip xan məscidinin, Novruzəli məscidinin və Hüseynəli xan məscidinin fəaliyyət göstərdiyini yazır. Göründüyü kimi İ.Şopen XIX əsrin 20-ci illərində İrəvan şəhərində 8 məscidin, Sərraf Kərimov isə 9 məscidin mövcud olduğunu bildirir (37). İrəvan müsəlman dini abidələrindən olan Salehxan məscidi barədə isə heç bir məlumat verilmir.

Apardığımız araşdırmalardan aydın olur ki, Salehxan Saqıncaqlı öz dövründə İrəvan şəhərinin tanınmış, böyük nüfuza malik zəngin şəxslərindən biri olub. Saleh-

xan Qərbi Azərbaycanda doğulduğu Saqıncaqlı bölgəsinin adını özünə təxəllüs götürmüşdür.

1884-cü ildə Salehxanın oğlu Cəlilxan atası şərəfinə İrəvanda yeddi kümbəzli məşhur "Salehxan camesi"ni bina etmiş və "bu camenin səthində dəxi üsuli-cədid üzrə ümumi diniyyə üçün bi mədrəsə bina etdirdi ki, ruhani üləmalar bu məktəblərdən çıxanlardan olsunlar" (38). Müqəddəs dini abidəmiz olan bu məscid 1921-ci ildə ermənilər vandalizmi nəticəsində dağıdılaraq onun yerində sirk binası tikilmişdir. Araşdırmalardan belə qənaətə gəlmək olur ki, təkcə İrəvan şəhərində fəaliyyət göstərən məscidlərin nəzdindəki mollaxana və məktəblərdə oxuyan şagirdlərin sayı 1000 nəfərdən artıq olmuşdur.

Mollaxanalar və mədrəsələr təkcə İrəvan şəhərində deyil, Uluxanlıda, Vedibasarda, Basarkeçərdə, Ağbabada, Qafanda, Sisianda və s. bölgələrdə də fəaliyyət göstərmişdir. Bütün bunlara baxmayaraq, əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişini təmin edə bilməmiş, onun inkişaf prosesini ləngitmişdir. XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzzülə uğrayır, öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu.

Cənubi Qafqaz, o cümlədən Azərbaycan xanlıqları Rusiya tərəfindən işğal edildikdən sonra həyatın bütün

sahələri Rusiya tərəfindən idarə olunmağa başladı. 1829-cu il avqustun 2-də Rusiya Maarif Nazirliyi "Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında" qərar qəbul etdi. Həmin qərarda qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi ilə idarə edilməsi öz əksini tapmışdır. Həmin qərarın icrası ilə əlaqədar 1830-cu ilin dekabr ayında Şuşa, mart ayında isə Tiflis qəza məktəbi açılmışdı. Həmin ildə İrəvanda – 100, Naxçıvanda – 50, Ordubadda 50 şagirdlik qəza məktəblərinin açılması nəzərdə tutulmuşdu. Amma həmin il üçün nəzərdə tutulan qəza məktəblərinin açılması mümkün olmamışdır (16, s.14).

Bundan başqa, Cənubi Qafqazın müxtəlif yerlərində daha 20 qəza məktəbinin açılması nəzərdə tutulmuşdu ki, bunun üçün usiya tərəfindən 119700 rubl vəsait ayrılmışdı. Artıq XIX əsrin 70-ci illərində həmin məktəblərdə elmin əsaslarını uşaqlara yeni üsulla tədris edən təhsil ocaqlarının ciddi şəkildə təşkilinə başlanıldı. Cənubi Qafqazda başlanan bu maarifçilik hərəkatına İrəvanda da onlarla tərəqqipərvər azərbaycanlı ziyalı qoşularaq azərbaycanlı gənclərin təhsilə cəlb edilməsi uğrunda mübarizəyə başladılar.

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, İrəvanda ilk qəza məktəbinin 1831-ci ilin mart-oktyabr aylarında açılmasına ciddi səy göstərilsə də, amma hansısa səbəblərdən həmin ildə bu təşəbbüsün gerçəkləşməsi mümkün olmamışdı. Müəyyən səylərdən sonra 14 yanvar 1832-ci ildə İrəvanda ilk qəza məktəbi açılmışdı. İrə-

vanda ilk qəza məktəbinin açılması bütövlükdə bölgədə qabaqcıl maarifçilik ideyalarının yayılmasında əhəmiyyətli dərəcədə böyük rol oynamışdır.

İrəvanda açılan ilk qəza məktəbində müxtəlif millətlərin uşaqları ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. 14 yanvar 1832-ci ildə açılan İrəvan qəza məktəbi 1869-cu ildə progimnaziyaya, 31 mart 1881-ci ildən isə 5 sinifli gimnaziyaya çevrildi.

1836-cı ildən 1969-cu ilə qədər İrəvan qəza məktəbində 301, 1869-cu ildən 1881-ci ilə kimi isə 359 azərbaycanlı təhsil almışdır. İldən-ilə istər qəza məktəbində, istəsə də sonralar progimnaziyaya çevrilmiş bu təhsil ocağında oxuyan azərbaycanlıların sayı artmışdır.

XIX əsrin 70-ci illərindən başlayaraq çar hakimiyyəti tərəfindən Cənubi Qafqazda qəza məktəblərinin təşkili prosesi daha da sürətləndi. Elmin əsaslarını yeni üsulla tədris edən dünyəvi Azərbaycan məktəbləri İrəvanda (1880), Uluxanlıda (1881), Böyük Vedidə (1883), İmanşalıda (1883), Üçmüədzin qəzasının Qurduqulu kəndində (1883), Sürməli qəzasının Aralıx Baş kəndində (1884), İrəvanda (1884), Basarkeçərin Məzrə kəndində (1884), Basarkeçərin Zod kəndində (1885), Gözəldərədə (1883), Qarxunda (1885) Qəmərlidə (1890), Çobankərədə (1890) və başqa bölgələrdə də açılaraq fəaliyyət göstərməyə başlamışdır. Bu qəza məktəbləri həm dövlət tərəfindən ayrılan vəsaitlər, eyni zamanda qismən də camaatdan toplanan könüllü ianələr hesabına açılırdı. Yerli camaat bu tip

məktəblərin açılmasını böyük ruh yüksəkliyi ilə qarşılayırdılar. Bu məktəblər təkcə Qərbi Azərbyacanda deyil, Cənubi Qafqazdakı kənd məktəbləri içərisində fərqlənirdilər. Qəza məktəblərinin sayının getdikcə artması həmin təhsil müəssisələrində müəllim kadrlarına olan tələbatı daha da artırırdı. Çar hakimiyyəti qəza məktəblərində müəllim kadrları ilə bağlı yaranmış ehtiyacı təmin etmək üçün Cənubi Qafqazda pedaqoji kadrlar hazırlayan müəllimlər seminariyalarını təşkil etməyə başladı. Rusiya Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli qərarına əsasən yaradılan bu tip təhsil müəssisələrindən biri də təhsil tariximizdə əhəmiyyətli dərəcədə böyük rol oynamış, zəngin və şərəfli tarixi bir yol keçmiş İrəvan Müəllimlər Seminariyasıdır.

1891-ci ildə Tiflisdə nəşr edilən "Qafqaz təhsil dairəsinin sərəncamları" adlı məlumat kitabında Qafqaz dairəsinin 17 iyul 1881-ci ildə verdiyi 3651 nömrəli sənəd vardır. Həmin sənəd İrəvan şəhərində müəllimlər seminariyasının açılması barədə Cənubi Qafqazın Baş Maarif İdarəsinə göndərdiyi izahatdır. İzahatda göstərilmişdir ki, Rusiya Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli sərəncamını nəzərə alaraq, 1881-ci ilin ikinci yarısı üçün İrəvan Müəllimlər Seminariyasına 14.175 min rubl vəsait ayrılmışdır. 1882-ci il üçün bütöv ştat məsrəfi olaraq 28.350 rubl nəzərdə tutulmuşdur.

İrəvan Müəllimlər Seminariytasının həmin il üçün ştat cədvəli üzrə pedaqoji heyətin əmək haqqı və digər

məsrəf xərcləri aşağıdakı kimi müəyyənləşdirilmişdir. Seminariyanın ştat cədvəlində müxtəlif fənlərlə yanaşı, Azərbaycan dili və şəriət dərslərinin tədris edilməsi də öz əksini tapmışdı. Yeri gəlmişkən onu da qeyd edək ki, Cənubi Qafqazda müxtəlif şəhərlərdə təşkil edilmiş seminariyalardan fərqli olaraq, İrəvan Müəllimlər Seminariyasında Azərbaycan dili və müsəlman dini üzrə şəriət dərslərinin tədrisini təsadüf hesab etmək olmaz. Seminariyada Azərbaycan (Tatar) dilinin və müsəlman dini üzrə şəriət fənninin tədris edilməsi bir tərəfdən mövcud dövrün tələbi idisə, digər tərəfdən isə qədim İrəvan şəhərində yaşayan yerli əhalinin 75 faizini azərbaycanlıların təşkil etməsi idi.

Rusiya Dövlət Şurasının qərarından 1 il sonra 1881-ci il noyabr ayının 8-də İrəvanda pedaqoji kadrlar hazırlayan ilk təhsil müəssisəsi – İrəvan Müəllimlər Seminariyası açıldı. Görünür, seminariyanın açılmasını ləngidən əsas səbəblərdən biri tədris binasının olmaması ilə bağlı idisə, digər səbəb isə müəllimlərin bu təhsil ocağına cəlb edilməsi, şagird qəbulu, maliyyə çətinliklərinin həll edilməsi idi.

ШТАТЫ и ТАБЕЛИ

55

Штатъ Учительской Семинаріи въ Эриванской губерніи.

	Число лицъ.	Содержаніе въ годъ. Одному. Жалованья.	Столовыхъ.	Квартирныхъ.	Всего.	Классы и разряды. По должности.	По штату на муд.	По выслугѣ.
		Рубли.						
Директоръ	1	1.200	1.300	Казен. кварт	2.500	V	V	По учебной службѣ.
За преподаваніе Закона Божія, Православнаго и Армяно-Григоріанскаго исповѣданій, а равно и Мусульманскаго закона	3	—	½	—	1.500			
Учители Русскаго и Армянскаго языковъ, а также другихъ предметовъ	4	650	550	195	5.580	VIII	VIII	По учебной службѣ.
За преподаваніе Татарскаго языка	—	—	—	—	445			
Учитель приготовительнаго класса при Семинаріи	1	650	—	195	845	X	X	По учебной службѣ.
Учитель начальнаго училища	1	600	—	180	780	X	X	
На плату учителямъ за дежурство въ пансіонѣ при Семинаріи	—	—	—	—	1.500			
На обученіе пѣнію, музыкѣ, гимнастикѣ и ремесламъ	—	—	—	—	1.200			
На обученіе садоводству	—	—	—	—	400			
Врачъ	1	300	—	—	300	VIII	VIII	По медицинской службѣ.
Письмоводитель (онъ же Экономъ)	1	500	—	—	500			
На содержаніе 50 казенно-коштныхъ воспитанниковъ Семинаріи, по 130 руб. на каждаго	—	—	—	—	6.500			
Имъ на учебныя пособія	—	—	—	—	400			
На награды оканчивающимъ курсъ	—	—	—	—	200			
На лекарства	—	—	—	—	200			
На библіотеку и учебныя пособія въ преподаваніи	—	—	—	—	300			
На наемъ помѣщенія	—	—	—	—	3.000			
На содержаніе дома, отопленіе, освѣщеніе и на ремонтъ мебели	—	—	—	—	1.400			
На наемъ служителей, канцелярскія издержки и непредвидѣнные расходы	—	—	—	—	800			
Итого	—	—	—	—	28.350			

84 V 25

Seminariyanın ilkin fəaliyyət dövrünə nəzər saldıqda məlum olur ki, cəmi 11 nəfər heyətlə – onlardan 1 direktor, 9 müəllim, 1 nəfəri həkim, 42-si isə şagird olmaqla fəaliyyətə başlamışdır. İrəvan Müəllimlər Seminariyasının ilk direktoru Yakob Stepanoviç Şuşevski təyin edilmişdir. Qriqori Qambarov ilahiyyat (pravoslav), Axund Molla Məhəmmədbağır Qazızadə Azərbaycan dili və ilahiyyət (islam), Andrey Anastasoviç Karamosko və İvan Avetisoviç Tamamşev rus dilini, Adolf Osipoviç Rayteman bədən tərbiyəsi, Karl Bazileviç və Emiley Karl Bayor musiqi fənnini tədris etmişdir. Seminariyada digər iki müəllim də fəaliyyət göstərmişdir. Mixail Aloizov Porçinski isə həkim kimi çalışmışdır. Karl Bazileviç musiqi fənnini tədris etməklə yanaşı, həm də seminariyada kargüzar vəzifəsində çalışmışdı (71, s.90).

Araşdırmalar göstərir ki, İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk vaxtlarda bir sıra çətinliklərlə üz-üzə qalmışdır. Seminariya fəaliyyətə başladığı ilk dövrdə tədris prosesi üçün lazımi səviyyədə əlverişli şəraiti olmayan, illik icarə haqqı 5 min rubl olan bir mərtəbəli binada yerləşmişdi. Seminariyanın yerləşdiyi binanın qapısının üzərinə isə kiçik bir lövhə vurulmuşdu. Həmin lövhənin üzərində əski ərəb əlifbası ilə bu sözlər yazılmışdı: "Əcəb səadətə çatdıq görüb əsl səidi, bu zülmət içrə göründü gözə "Ziyayi-Rəşidi".

İrəvan Müəllimlər Seminariyası 1905-ci ildə İrəvanın Daşlı küçəsində yeni inşa edilmiş ikimərtəbəli binaya köçmüşdü. Binanın 3-cü mərtəbəsinin tikilməsi üçün isə 1906-cı ildə xəzinədən 30000 rubl vəsait ayrılmışdı.

Axund Molla Məhəmmədbağır Qazızadə

İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və tatar (Azərbaycan) dili müəllimi, dövrün görkəmli elm, maarif və din xadimi **Axund Molla Məhəmmədbağır** Hacı Molla Mehdi oğlu Qazızadə təyin edilir. Axund Molla Məhəmmədbağır Qazızadə 1829-cu ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan İrəvan şəhərində bölgənin tanınmış din xadimi Hacı Molla Mehdinin ailəsində dünyaya gəlib. Atası Axund Molla Mehdi onun həyatında mühüm rol oynayıb. Yeri gəlmişkən, onu da qeyd edək ki, Azərbaycanda elmin, mədəniyyətin, təhsilin, dövlət quruculuğunun və digər mühüm sahələrin inkişafında Qazızadələrin böyük xidməti olub. Qazızadələr soyu XVIII-XIX əsrlərdə nəinki Cənubi Qafqazda, bütün Yaxın Şərqdə tanınırdı. Bu sülalə son iki əsr ərzində Azərbaycanın elmi, ədəbi-mədəni, ictimai-siyasi mühitinə dəyərli şəxsiyyətlər bəxş edib.

İlk dini savadını atasından alan Məhəmmədbağır Qazızadə sonra İrəvanda mədrəsədə oxuyub. Bu müddətdə özünün səyi və çalışqanlığı sayəsində Quranı, fars və ərəb dilini öyrənib. Elm və maarifə böyük marağı olan Məhəmmədbağır mədrəsə təhsilini başa vurduqdan sonra İrəvan qəza məktəbinə daxil olub, dünyəvi təhsil alır. İrəvanda mədrəsədə və qəza məktəbində təhsil aldığı vaxtlarda yüksək istedada malik bir gənc kimi tanınan Məhəmmədbağır İrəvan qəza məktəbini bitirdikdən sonra elmini və təhsilini daha da təkmilləşdirmək, ali ruhani təhsili almaq üçün qədim mədəniyyət mərkəzlərindən olan Nəcəf şəhərinə gedir və təhsilini orada davam etdirir. Nəcəf şəhərində yerləşən ali dini təhsil müəssisələrinin əsasnamələrinə əsasən burada ali dini təhsilə yiyələnən müdavimlər eyni zamanda xüsusi bir ixtisas seçiminə də malik olurdular. Məhəmmədbağır Qazızadə ali dini təhsilə yiyələnməklə yanaşı xüsusi ixtisas seçimi kimi riyaziyyat elmini seçir. Məhəmmədbağır Qazızadə Nəcəf şəhərinin tanınmış alimlərindən təhsil aldığı illərində o, Şərq ədəbiyyatını, tarixini və digər elm sahələrini də böyük həvəslə dərindən öyrənməyə müvəffəq olur. Demək olar ki, Nəcəf mühiti Məhəmmədbağır Qazızadənin həyatında mühüm mərhələ təşkil edir. Öz üzərində səylə çalışan Məhəmmədbağır Qazızadə riyaziyyata, tarixə, ədəbiyyatla məntiqə dair çoxlu kitablar oxuyar, ciddi mütaliə nəticəsində onları daha mükəmməl mənimsəməyə çalışardı. Ümumiyyətlə, burada oxuduğu dövr onun dünyagörüşünə, həyat və yaradıcılığına ciddi təsir göstə-

rir. Məhəmmədbağır Qazızadə Şərq ədəbiyyatının, mədəniyyətinin gözəl bilicisi olmaqla yanaşı, paralel olaraq Avropa ölkələrinin maarif sisteminə, mədəniyyətinə də dərindən yiyələnir.

Məhəmmədbağır Qazızadə Nəcəf şəhərindəki ali dini təhsilini başa vurduqdan sonra doğma vətəni İrəvana qayıdır. Zaqafqaziya Ruhani İdarəsində imtahan verərək axund titulu alır. 1873-cü ildə İrəvan Quberniyası Ruhani Məclisinin üzvü seçilir və Ruhani Məclisinin sədri Axund Molla Xəlil Qazızadə, məclis üzvləri Axund Hacı Molla Abasqulu Sultanhüseynbəyov, Lütvəli bəy Qazıyevlə birlikdə çalışmağa başlayır. Axund Molla Məhəmmədbağır Qazızadənin İrəvan Quberniyası Ruhani Məclisinin üzvü kimi fəaliyyəti istər möminlər, istərsə də azərbaycanlı əhali arasında ona böyük hörmət və nüfuz qazandırmışdı (41, s.85).

Məlumdur ki, XIX əsrin əvvəllərində çar Rusiyası Cənubi Qafqazı işğal etdikdən sonra bütün sahələrdə olduğu kimi, dini məsələlərə də nəzarət etmək üçün bu qurumları təsis etmişdi. İrəvan Qubernatorunun Zaqafqaziya Şiə Ruhani İdarəsinə 9 dekabr 1892-ci il tarixdə göndərdiyi 3218 №-li əmrlə Axund Molla Abasqulu Sultanhüseynbəyov İrəvan Quberniyası Ruhani Məclisinin sədri və qazisi vəzifəsindən azad olunur. 28 fevral 1893-cü il tarixli 892 №-li əmrlə Axund Məhəmmədbağır Qazızadə İrəvan Quberniyası Ruhani Məclisinin sədri və qazisi təyin edilir (41, s.36-37). Onu da qeyd edək ki, 1829-cu ildə yaradılmış İrəvan Quberniyası Ruhani Məclisi İrəvanda-

kı Göy məsciddə yerləşirdi. İrəvan Quberniyası Ruhani Məclisi quberniyanın İrəvan, Aleksandropol, Naxçıvan, Üçmüədzun, Yeni Bəyazid, Şərur-Dərələyəz, Sürməli, Ordubad qəzalarının müsəlmanlarına xidmət göstərirdi. Quberniya Ruhani Məclisi qəza qazilərini, şəhər və kənd axundlarını təyin etmək, kəbin və nikah işlərini, boşananları, ailə münaqişələrini, quberniya ərazisində olan vəqf torpaqlarını idarə etmək, icarəyə vermək, ruhani titullarının verilməsi və s. kimi səlahiyyətlərə malik idi.

Axund Məhəmmədbağır Qazızadə İrəvan Ruhani Məclisinin sədri olmaqla yanaşı, eyni zamanda o, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və müəllimi kimi də öz vəzifəsinin öhdəsindən yorulmaq bilmədən, tükənməz enerji ilə layiqincə gəlmişdir.

Axund Molla Məhəmmədbağır Qazızadə İrəvan Quberniyası Ruhani Məclisinin üzvləri Axund Mirzə Abdulla Qazıyev, Axund Hacı Molla Əli Müzəffərzadə, İsmayıl bəy Bağırbəyov, qəza qaziləri Axund Məmmədəli Qazızadə (Üçmüədzin), Axund Hacı Molla Əli Axundzadə (Naxçıvan), Axund Qurban Cənnətzadə (Novobəyazid), Axund Hacı İsmayıl Nadirxanzadə (Şərur-Dərələyəz), Axund Molla Abbasqulu bəy Sultanhüseynbəyov (Ordubad), Molla Qənbər Axundzadə (Sürməli) və müxtəlif vaxtlarda başqaları ilə birlikdə çalışıb.

Dərin biliyə və erudisiyaya malik olan Məhəmmədbağır Qazızadənin azərbaycanlı əhali arasında böyük hörmət və ehtirama sahib olmasında başlıca cəhət, o bilik və bacarığını təkcə bir məscidin, bir icmanın maraqları

baxımından deyil, bütövlükdə xalqa, onun inkişafına xidmət naminə sərf etməsi etməsi idi. Dövrün qabaqcıl maarifçiləri kimi Məhəmmədbağır Qazızadə də yeni tipli məktəblərin yaradılması, pedaqoji kadrlara olan ehtiyacı ödəmək, savadlı kadrlar hazırlamaq zərurətini görüb, İrəvanda onun həyata keçirilməsi uğrunda mübarizə aparanların önündə gedirdi.

Fədakar maarif xadimi Axund Məhəmmədbağır Qazızadə nəinki çalışdığı seminariyada, yaşadığı İrəvanda, bütün Şərqdə böyük nüfuza malik idi. O, bütün ömrünü, bilik və bacarığını müəllim kadrların hazırlanmasına, yeni tipli məktəblərin yaradılmasına, Azərbaycan maarifinin və mədəniyyətinin inkişafına sərf etmişdir. Bütün bunları onun ictimai və maarifçilik fəaliyyəti ilə bağlı apardığımız araşdırmalarda daha aydın görmək olar. Axund Məhəmmədbağır Qazızadənin pedaqoji ustalığı, hər şagirdlə fərdi məşğul olması, təcrübəsi, ən fəal və qabaqcıl maarif işçisi kimi seminariyadakı fəaliyyəti bir çox xüsusiyyətlərə görə fərqlənirdi. O bir pedaqoq kimi öz ideyalarını həyata keçirmək uğrunda daim mübarizə aparırdı. O, 1898-ci ilrdə İrəvanda rus-tatar məktəbinin açılmasında xüsusi təşəbbüskarlıq görsətmişdi. Mütərəqqi ziyalı, böyük pedaqoq Axund Molla Məhəmmədbağır Qazızadənin pedaqoji fəaliyyətinin əsas orijinal xüsusiyyətlərindən biri də azərbaycanlı qızlar üçün təhsil imkanının yaradılmasına, onların məktəbə cəlb edilməsinə də ciddi səy göstərməsi idi. İrəvanda ilk qızlar məktəbinin

açılmasının təşəbbüskarı və təşkilatçısı olmuşdur. 1902-ci ildə o, İrəvanda öz evində rus-tatar (azərbaycanlı) qızlar məktəbi açmışdı. Bu Cənubi Qafqazda sayca açılan üçüncü müsəlman qız məktəbi idi. Azərbaycanlı qızlar məktəbinin açılışı İrəvanda çox böyük mədəni hadisəyə çevrilmiş, irəvanlı ziyalılar tərəfindən rəğbətlə qarşılanmışdı. Məktəbin himayəçisi İrəvan Quberniyasının vitse-qubernatoru knyaz Aleksey Çaqadayevin arvadı Yelena Çaqadayeva, müdiri Antonina Valerianovna Kalinina, rus dili müəllimi Yevgeniya Georgiyevna Pxakadze, ana dili müəllimi isə Məmmədvəli Qəmərlinski olmuşdu. Məktəbdə şəriət fənnini isə Məhəmmədbağır Qazızadənin özü tədris etmişdi. O, istər seminariyada, istərsə də məktəbdə təhsil alan, maddi imkanları hədsiz dərəcədə ağır olan azərbaycanlı şagirdlərin bir çoxuna öz vəsaiti hesabına köməklik göstərir, onları paltar və dərs ləvazımatları ilə təmin edirdi.Məhəmmədbağır Qazızadə səmərəli pedaqoji və ictimai fəaliyyətinə görə 1882-ci ildə gümüş medalla, 1898-ci ildə isə 3-cü dərəcəli müqəddəs Anna ordeni ilə təltif edilmişdi.O, 1911-ci ildə bir neçə irəvanlı müəllimin Tiflisdə Azərbaycan dilində nəşr etdirdiyi "Ana dili" dərsliyinin həmmüəlliflərindən biri olmuşdur.

Axund Molla Məhəmmədbağır Qazızadə İrəvanın ictimai-siyasi, mədəni həyatında böyük rol oynamış və hər zaman azərbaycanlı əhalinin hüquqlarının keşiyində dayanmışdı.

Sağdan birinci:Axund Məhəmmədbağır Qazızadə, nəvəsi İsmayıl Qazızadə, həyat yoldası Şəhrubani Qazızadə, İrəvan quberniyasının Vitse –Qubernatoru knyaz Aleksey Çaqodayev, Yelena Çaqodayeva, Antonina Valeriyanovna Kalinina, Yevgeniya Georgiyevna Pxakadze, Məmməd Vəli Qəmərlinski, Mirzə Cabbar Məmmədzadə, İbadulla bəy Muğanlinski və başqaları. İrəvan, 1902

1905-ci ildə ermənilərin İrəvanda azərbaycanlı əhaliyə qarşı törətdikləri total qırğınlarla bağlı Sankt-Peterburqa gedən İrəvan Quberniyası Ruhani Məclisinin sədri və qazisi Axund Molla Məhəmmədbağır Qazızadədən ibarət nümayəndə heyətinin tərkibində İrəvanda böyük nüfuz sahibi olan İrəvan şəhər dumasının üzvü Hacı Mir Abbas Ağa Mirbabayev, İrəvan Quberniyası Ruhani Məclisinin üzvü Məmməd Axundov, tanınmış vəkil Məmmədqulu bəy Kəngərlinski də olmuşdur. O, Sankt-Peterburqda Rusiyanın Qafqaz canişini knyaz Vorontsov Daşkovla görüşmüş, İrəvanda yaşayan azərbaycanlıların mənəvi və maddi ehtiyaclarını ona çatdırmışdır (16, s.24).

Axund Molla Məhəmmədbağır Qazızadə ömrünün sonuna kimi İrəvan Quberniyası Ruhani Məclisinin sədri və İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və ilahiyyat müəllimi vəzifəsində çalışmışdır. Xalqımızın tarixində və taleyində mühüm rol oynamış, Həmid bəy Şahtaxtinski, Həbib bəy Səlimov, Mirzə Cabbar Məmmədzadə, İbrahim Səfi, İbadulla bəy Muğanlinski, Saleh bəy Güllücinski, Haşım bəy Vəzirov, Rəşid bəy İsmayılov, Məmməd Nəsirbəyov və bu kimi onlarla tarixi şəxsiyyətlər, alimlər, ictimai-siyasi xadimlər onun tələbələri olmuşdur.

Məhəmmədbağır Qazızadə seminariyada ciddi çətinliklərə baxmayaraq hər il burada azərbaycanlı tələbələrin sayını artırmağa çalışırdı. Onun səyi sayəsində bir il ərzində seminariyada azərbaycanlı tələbələrin sayı dörd dəfə artaraq 23 nəfərə çatmışdı.

Həyatının 45 ilindən artıq bir hissəsini müəllimliyə, İrəvanda Azərbaycan maarifi və mədəniyyətinin inkişafına həsr etmiş ictimai-pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi Axund Molla Məhəmmədbağır Qazızadə 1911-ci ilin dekabr ayında İrəvanda vəfat etmişdir. Onun dəfn mərasimində böyük izdiham yaşanmış, regionun tanınmış din və ictimai xadimləri, o cümlədən Zaqafqaziya Müsəlmanları Ruhani Məclisinin sədri Axund Məhəmməd Pişnamazzadə də iştirak etmişdi.

İrəvanda qabaqcıl maarifçilərin sırasında öz dəstixətti ilə seçilən Məhəmmədbağır Qazızadənin ictimai-pedaqoji fəaliyyətini əhatə edən illər xalq maarifi sahəsində başlamış böyük bir canlanma ilə müşayiət olunur. Bununla yanaşı Zaqafqaziya Ruhani İdarəsinin sədri Axund Əhməd Hüseynzadə seminariyada tədris olunan şəriət qanunlarının öyrənilməsi üçün Məhəmmədbağır Qazızadənin hazırladığı proqramı daha münasib hesab etmiş və onu yüksək qiymətləndirmişdir. Axund Məhəmmədbağır Qazızadə seminariyada şəriət qanunlarının öyrənilməsi ilə bağlı tərtib etdiyi proqramda gənc nəslin formalaşmasında müəyyən rol oynayan, yüksək insani, humanist xüsusiyyətlər aşılayan, əxlaqi və tərbiyəvi mahiyyət kəsb edən, dini mövzular geniş yer verilir. Bunu Axund Məhəmmədbağır Qazızadənin Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinə verdiyi hesabatlarda və Axund Əhməd Hüseynzadə, Axund Məhəmməd Pişnamazzadə ilə yazışmalarında da görmək olar (42).

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində İrəvanda bütün çətinliklərə sinə gərib xalqın tərəqqisinə çalışan Axund Molla Məhəmmədbağır ilə birlikdə maarif və mədəniyyətin yayılmasına xidmət göstərmiş ziyalı və maarifçilər – Fazil İrəvani, Mirzə Ələkbər Elxanov, Məmmədvəli Qəmərlinski, Vahid Muğanlı, Cəfər bəy Cəfərbəyov, Cabbar Əsgərzadə, Həsənzadə Hüseyn İrəvanski, Abbasqulu xan İrəvanski, Əliqulu xan İrəvanski, Mir Məhəmməd Fətullayev, Rəhim Xəlilov, Mirzə Cabbar Məmmədzadə, Abbas Ağa Fərəcov, Mirzə Abbas Məmmədzadə, Tərlan xanım Sultanova, Fatma Qədimova, Məmməd bəy Qazıyev, Aslan bəy Nabatəlibəyov, İlya bəy Mahmudbəyov, Fərəc bəy Sultanov, Şeyx Əb Səttr Kazımov, Məşədi İsmayıl Hacı Kazımzadə, Məmməd Əliyev, Məmməd Axundov və başqalarının milli pedaqoji kadrların yetişdirilməsində danılmaz əməyi var idi. Bu maarif fədailəri öz üzərlərinə düşən missiyanı şərəflə, mərdlik və mətanətlə yerinə yetirmişlər, ictimai-pedaqoji, ədəbi fikir tariximizdə pedaqoji şüurun formalaşmasında əvəzsiz xidmətlər göstərmişdilər. Bildiyimiz kimi, bu maarif fədailərinin həyatı, pedaqoji fəaliyyəti çox az tədqiq olunmuş və yaxud da yetərincə tədqiq olunmamışdır.

Cənubi Qafqazda və digər şəhərlərdə fəaliyyət göstərən seminariyalar kimi İrəvan Müəllimlər Seminariyası da öz tərkibinə görə beynəlmiləl tədris ocağı idi. Seminariyanın fəaliyyəti təkcə Ermənistan məktəbləri üçün kadrlar hazırlamaqla məhdudlaşmamışdır. Seminariyada Azərbaycan, Gürcüstan, Şimali Qafqazdan və başqa şə-

hərlərdən də gənclər gəlib təhsil alırdı. Seminariyanı bitirən məzunlara isə kənd ibtidai məktəb müəllimi vəsiqəsi verilirdi.

Seminariya fəaliyyətə başladığı ilk dərs ilində 1881-ci ildə bura qəbul olunmuş 42 şagirddən 8-i rus, 6-sı azərbaycanlı, digərləri isə başqa xalqların nümayəndələri idi (32).

1882-ci tədris ilində isə seminariyaya qəbul olunanların sayı 54-ə çatmışdı ki, onlardan 23 nəfəri azərbaycanlı idi. Araşdırmalar göstərir ki, seminariyada təhsil alan azərbaycanlı şagirdlərin sayı ildən-ilə artmışdı. Seminariya fəaliyyətə iki qrupla başlamışdır – böyük hazırlıq qrupu və birinci qrup. 1882-ci dərs ilində ikinci sinif, 1883-cü ildə isə 3-cü sinif təşkil edilmişdir. Cənubi Qafqazda fəaliyyət göstərən müəllimlər seminariyaları kimi İrəvan Müəllimlər Seminariyası da sonadək 4 qrupdan ibarət olmuşdur. 1883-1884-cü tədris ilində hazırlıq qrupunda həftəlik dərslərin miqdarı 36 saat, 1-ci sinifdə 38, 2-ci sinifdə 39, 3-cü sinifdə isə 40 saat olmuşdur (32, s.29-30).

İrəvan Müəllimlər Seminariyasının hazırlıq qrupuna və 1-ci sinfinə hər il şagird qəbul edilirdi. 2-ci, 3-cü siniflərə isə qəbul olunmağa icazə verilmirdi. Seminariyaya 16 yaşdan yuxarı oğlan uşaqları qəbul edilirdi. Seminariyalar haqqında qəbul edilmiş əsasnaməyə görə bura yaşlı vətəndaşlar da qəbul oluna bilərdi. Amma onlar ümumtəhsil məktəblərinin 2-ci sinifi səviyyəsində, həmin sinifin proqramına uyğun olaraq rus dili, ilahiyyat, həndəsə,

coğrafiya, hesab, biologiya və tarix fənlərindən qəbul imtahanı verməli idilər.

İrəvan Müəllimlər Seminariyası fəaliyyətə başladığı ilk ildə tələbələrin təcrübə məşğələsi keçməsi üçün ibtidai məktəb hələ təşkil edilməmişdir. Çünki seminariyanın nəzdində təşkil edilmiş ikisinifli ibtidai məktəbə uşaqların cəlb edilməsi bir qədər çətinlik yaradırdı. Axund Məhəmmədbağır Qazızadənin səyi sayəsində 1883-cü ildə seminariyanın nəzdində təşkil edilmiş ibtidai məktəbə 13 nəfər azərbaycanlı uşaq cəlb olunmuşdu ki, həmin uşaqlar da dövlət hesabına pansionda yaşayırdılar.

İbtidai məktəbin fəaliyyətə başladığı ilk ilində orada təhsil alan uşaqların sayı 61 nəfər olunmuşdu. Seminariyada olduğu kimi ibtidai məktəbdə də təhsil alanların sayında ilbəil artımlar müşahidə edilir. Məsələn, 1900-cü ildə ibtidai məktəbdə təhsil alan uşaqların sayı artaraq 82 nəfərə çatmışdı ki, onlardan da 18 nəfəri azərbaycanlı idi. İbtidai məktəbdə də şəriət dərsini Axund Molla Məhəmmədbağır Qazızadə özü tədris edirdi.

Başqa seminariyalarda olduğu kimi İrəvan Müəllimlər Seminariyasında da təhsil ödənişli idi. Seminariyaya qəbul olunan şagirdlər birinci dərs ilində 240 manat, növbəti tədris illərində isə 180 manat təhsil haqqı ödəyirdilər. Şagirdlərin çox az hissəsi dövlət hesabına təhsil alırdı. Şagirdlərin oxuduğu müddətdə ödədiyi həmin təhsil haqlarının miqdarı seminariyanı bitirməsi haqqında onlara verilən şəhadətnamələrdə də qeyd edilirdi. Seminari-

yada dövlət hesabına təhsil alan şagirdlər məktəbin nəzdində fəaliyyət göstərən internatda, öz hesabına təhsil alanlar isə başqa xüsusi pansionatlarda qalırdılar. Öz hesabına təhsil alan həmin tələbələrin sayı isə azlıq təşkil edirdi. Xüsusi pansionatlarda qalanlar illik 130 rubl ödəniş edirdilər. Məsələn, 1907-ci dərs ilində seminariyada təhsil alan 70 şagirddən 50-si dövlət, 20-si isə öz hesabına təhsil alırdı (32, s.31, 73).

Müxtəlif şəhərlərdə fəaliyyət göstərən seminariyalarda olduğu kimi İrəvan Müəllimlər Seminariyasının tədris proqramına da eyni fənlər – ilahiyyat, pedaqogikanın əsasları, rus dili, hesab, həndəsə, ümumi və rus tarixi, təbiətşünaslıq, coğrafiya, hüsnxət və rəsm, bədən tərbiyəsi, nəğmə, pedaqoji təcrübə daxil idi. Bundan başqa seminariya şagirdlərə təhsil verməklə kifayətlənmir, eyni zamanda onlara kənd təsərrüfatına aid biliklərin verilməsinə də böyük diqqət yetirilirdi. Seminariyada keçirilən əlavə fənlər həm də yerli şəraitə uyğun olaraq keçirilirdi. Bu cəhətdən də İrəvanda Müəllimlər Seminariyasında bağçılıq, xarratlıq, ipəkçilik, tərəvəzçilik, cildçilik işi, arıçılıq və digər sənətkarlıq peşələri də könüllü surətdə öyrədilirdi.

Seminariyanın ilk buraxılışı 1884-cü ildə olmuşdur. 1881-ci ildə seminariyaya qəbul olunmuş 6 azərbaycanlıdan 5 nəfəri 1884-cü ildə bu təhsil ocağını bitirməyə müvəffəq olmuşdur. Seminariyanın ilk azərbaycanlı məzunu – ilk rəsmi müəllim adını alan Əli Sultanov olmuşdur. Seminariyanı bitirib kənd məktəblərinə təyinatla göndə-

rilən məzunların 6 il pedaqoji fəaliyyət göstərməsi isə məcburi idi.

Müxtəlif illər üzrə seminariyanın pedaqoji heyətini ardıcıl izlədikdə getdikcə ən savadlı, yüksək istedada malik müəllimlərlə təmin edilməsi məsələsinin daim bu təhsil müəssisəsinin rəhbərliyinin diqqət mərkəzində olduğu məlum olur. Məsələn, 1881-1882-ci tədris illərində seminariyada dərs deyən müəllimlərin sayı 9 nəfər idisə, 1885-ci ildə onların sayı 12, 1889-cu ilə isə 13-ə yüksəlmişdi. Ümumiyyətlə, seminariyaya təcrübəli pedaqoqların cəlb edilməsi bir tərəfdən tədrisin keyfiyyətinin daha da yüksəlməsinə təsir göstərirdisə, digər tərəfdən isə bura qəbul olmaq istəyənlərin sayının artmasına və eyni zamanda təlim-tərbiyə işlərinin daha da nümunəvi pozulmasına təsir göstərirdi. Araşdırmalardan məlum olur ki, seminariyada təhsil alan tələbələrin sayı ilbəil artmışdı ki, bu artım da azərbaycanlı gənclərin hesabına idi.

Araşdırmalar göstərir ki, daha çox azərbaycanlı gənclər böyük həvəslə seminariyada təhsil almaq istəyirdilər. Lakin 1897-ci ilin sonlarında Daşkənd Müəllimlər Seminariyasında müəllim işləyən mürtəce baxışlı, şovinist əqidəli Mixail Alekseyeviç Miropiyev İrəvan Müəllimlər Seminariyasına direktor təyin olunur. Mixail Miropiyev çarizmin zorla ruslaşdırma siyasətinə xidmət edən irticaçı ziyalılardan biri idi. O İrəvan Müəllimlər Seminariyasına direktor təyin edildikdən sonra azərbaycanlı seminaristlərə qarşı milli ayrı-seçkilik və haqsız münasibət başlayır. Hətta bəzən heç bir səbəb olmadan müxtəlif bə-

hanələrlə, haqsız olaraq azərbaycanlı tələbələr seminariyada sıxışdırılır, bəzi hallarda isə xaric edilirdilər. Onun azərbaycanlı seminaristlərə, bura qəbul olmaq istəyən gənc soydaşlarımıza qarşı törətdiyi maneçilik, milli ayrıseçkilik siyasəti və şovinist münasibəti getdikcə dözülməz bir hal alır. Mürtəce baxışlı seminariya direktorunun azərbaycanlı seminaristlərə olan şovinist münasibəti Axund Molla Məhəmmədbağır Qazızadəyə bərk toxunduğundan, o bu hallara qarşı dəfələrlə öz etirazını bildirir, seminariyada baş verən proseslər onlar arasında ciddi mübahisələrə gətirib çıxarır. Azərbaycanlı seminaristlərin belə çətin şəraitdə təhsil aldıqlarından xəbərdar olan Cəlil Məmmədquluzadə Mixail Alekseyeviç Miropiyevin bu antitürk əməllərini, azərbaycanlı tələbələrə qarşı olan milli ayrı-seçkilik və şovinist münasibətini tənqid edərək yazırdı: "Allah Miropiyev direktorun vücudunu bibəla etsin ki, neçə il bundan irəli İrəvan Seminariyasında direktor idi. Bir müsəlman uşağı gəlib ərizə verərdi ki, mən istəyirəm seminariyaya girəm, cənab Miropiyev əyilib diqqətlə baxardı cavanın üzünə, ərizəsini qaytarıb verərdi və deyərdi: "Bala, səni götürə bilmərəm, ondan ötrü ki, qaşın qaradır" [33, s.177].

Axund Məhəmmədbağır Qazızadə belə çətin şəraitdə fəaliyyət göstərmiş, azərbaycanlı seminaristlərin hüquqlarının qorunmasında böyük vətəndaşlıq qüruru ilə vətənpərvər bir müəllim kimi kəskin mübarizə aparmışdır. Seminariyada baş verən hadisələrlə bağlı Axund Məhəmmədbağır Qazızadə Qafqaz canişininə şikayət edərək

aşağıdakı məzmunda məktub yazır: "Axır bu seminariya ki, İrəvanda var, axır buyur görək bunu kimdən ötrü hökumət açıb, elə də bəs buyur gedək seminariyaya və dəftəri tökək qabağımıza, baxaq görək ildə buradan müsəlmanlardan neçə uşaq müəllimliyə çıxır" [43, s.110].

Bir sıra tədqiqatlarda, elmi əsərlərdə Axund Molla Məhəmmədbağır Qazızadənin 1917-ci ilə kimi İrəvan Müəllimlər Seminariyasının həm Azərbaycan şöbəsinin müdiri, həm də ilahiyyat fənnini tədris etdiyini qeyd edirlər. Bəzi mənbələrdə isə onun 1910-cu ildə vəfat etdiyini bildirirlər. Birincisi, yuxarıda qeyd etdiyimiz kimi İrəvan Müəllimlər Seminariyasında dərs deyən ilk azərbaycanlı müəllim Axund Molla Məhəmmədbağır Qazızadə olmuşdur. O seminariyada fəaliyyətə başladığı 1881-ci ildən 1911-ci ilin dekabr ayına qədər Azərbaycan şöbəsinin müdiri vəzifəsində çalışmış və eyni zamanda ilahiyyat fənnini tədris etmişdir. Azərbaycan dili dərslərini isə 1881-ci ildən 1898-ci ilə qədər demişdir.İkincisi, Axund Molla Məhəmmədbağır Qazızadə 1910-cu ildə deyil, 1911-ci ilin dekabr ayında İrəvan şəhərində vəfat etmişdir.

Bəzən elmi dövriyyələrdə Axund Molla Məhəmmədbağır Hacı Molla Mehdi oğlunu Bağır Qazızadə, Axund Məmməd Bağır Bağırzadə, Məmməd Bağır Tağızadə, Məmməd Bağır Kazımzadə kimi də təqdim edirlər. Dəqiqləşdirilməmiş bu faktlar sonralarda istinad kimi səhvən davam etdirilir.

Mixail Alekseyeviç Miropiyev İrəvan Müəllimlər Seminariyasındakı şovinist siyasətini və mürtəce fəaliyyətini Zaqafqaziya Müəllimlər Seminariyasına (1901-1909) direktor təyin olunanda orada da davam etdirmişdir. Azərbaycanın qabaqcıl maarifçiləri, xüsusilə də mollanəsrəddinçilər onun İrəvan və Zaqafqaziya seminariyalarındakı mürtəce fəaliyyətini dövri mətbuatda həmişə kəskin tənqid etmişdilər.

İrəvan Müəllimlər Seminariyasında təhsil alanlar milli tərkibinə görə müxtəlif olduğu kimi, pedaqoji kollektivin tərkibi də müxtəlif idi. Seminariyada Azərbaycan, rus, ukrayna, gürcü və digər xalqların tanınmış, təcrübəli pedaqoqları Adolf Osipoviç Rayteman, Axund Molla Məhəmmədbağır Qazızadə, Pavel Dionisoviç Tuşenko, Andrey Anastasoviç Karamosko, Simyon Nikolayeviç Kasradze, Mixail Klopov, Emiley Karl Bayor, rumıniyalı rəsm müəllimi Koltsa və başqaları dərs deyirdilər. İrəvan Müəllimlər Seminariyasında dərs deyən bu mütərəqqi pedaqoqlar müxtəlif ənənəvi tədbirlər içərisində sinifdən xaric tədbirlərin zəruriliyini dərindən dərk edərək, bunları təlim-tərbiyənin tərkib hissəsi hesab edirdilər. Bu baxımdan seminariyada bir sıra maraqlı sinifdənxaric tədbirlər, özfəaliyyət gecələri təşkil edirdilər. Belə tədbirlər tələbələrin istedad və məharətini aşkara çıxarır, onlarda teatr və musiqi sənətinə böyük həvəs və marağın oyanmasına təsir göstərirdi. Təsadüfi deyildir ki, dünya şöhrətli rəssam İbrahim Səfi, teatr xadimi Sadıq Sadıxov, bəstəkar Məmməd Nəsirbəyov və digər gör-

kəmli sənət adamları ilk yaradıcılıq fəaliyyətlərinə məhz İrəvan Müəllimlər Seminariyasında başlamışdılar.

1890-cı ildə seminariyada ilahiyyat fənnini Məmməd Axundov tədris etmişdir. O cəmi bir il seminariyada müəllim kimi çalışmışdı. Məmməd Axundov İrəvan Müəllimlər Seminariyasının məzunu olmuşdu. Seminariyanı bitirdikdən sonra Qəmərlidə müəllim işləmişdir. O eyni zamanda İrəvan Şəhər Dumasının və İrəvan Ruhani Məclisinin üzvü idi. Dövrünün tanınmış maarif xadimlərindən olan Məmməd Axundov 1912-ci ildə Mirzə Cabbar Məmmədzadə ilə birlikdə çox çətinliklə də olsa İrəvanda "Məktəbi-Xeyriyyə" adlı bir məktəb təşkil etmişdilər.

1898-ci ildən seminariyada Azərbaycan dili fənnini bu təhsil ocağının ilk məzunlarından olan Rəhim Musarza oğlu Xəlilov tədris etməyə başlayır. Seminariyanın məzunlarından olan Rəhim Xəlilovun da dövrün mütərəqqi pedaqoji fikir nümayəndələrindən biri kimi xidmətləri təqdirəlayiqdir.

Rəhim Xəlilov hələ seminariyada oxuduğu müddətdə istedadı, qabiliyyəti, bilik və bacarığı ilə müəllimi Axund Molla Məhəmmədbağır Qazızadənin diqqətini özünə cəlb etmişdir. O seminariyanı əla qiymətlərlə bitirdikdən sonra 1892-ci ildə Uluxanlı məktəbində müəllim kimi çalışmağa başlayır. Rəhim Xəlilov 1898-ci ildə vaxtilə seminariyada müəllimi olmuş Axund Molla Məhəmmədbağır Qazızadənin təqdimatı əsasında Qafqaz Təhsil dairəsinin əmri ilə İrəvan Müəllimlər Seminariyasına Azərbaycan dili müəllimi təyin olunur. Pedaqoji fəaliyyə-

ti ilə yanaşı, seminariyanın ictimai, ədəbi-mədəni işlərində də böyük həvəslə çalışan Rəhim Xəlilov qısa bir zaman ərzində müəllim və tələbə kollektivinin böyük hörmətini qazanır. O İrəvan quberniyasında təkcə maarif xadimi, eyni zamanda ədəbi yaradıcılığı ilə də böyük şöhrət qazanmışdı.

Rəhim Xəlilov yaradıcılığının əsas xüsusiyyətlərindən biri də mövcud dövrün ictimai-siyasi hadislərini özünəmxsus şəkildə ədəbi fəaliyyətinin başlıca məqsədinə çevirməsi idi. Onun 1899-cu ildə İrəvanda "İrəvan quberniyası şiə müsəlmanlarının arasında məhərrəmlik təziyədarlıgı" adlı kitabı nəşr edilmişdir. Həmin kitabda şəbih tamaşaları haqqında söhbət açılır. 1881-ci ildən başlayaraq Tiflisdə buraxılan "Сборник материалов для описание местностей племен Кафказа" adlı məcmuələrdə və digər dərgilərdə onun xeyli yazıları dərc olunmuşdur. Həmin məqalələrdə İrəvan müsəlmanlarının adət-ənənələri, dini mərasimlər təsvir edilmişdi. Bu yazılar mövcud dövrün ədəbi proseslərini izləmək və öyrənmək baxımından da olduqca əhəmiyyətlidir. Rəhim Xəlilov 1898-ci il mart ayının 29-da İrəvanda Göy məsciddə yeni tipli məktəbin açılması üçün yaradılmış 14 nəfərlik komissiyanın üzvlərindən biri idi. Rəhim Xəlilov da digər təsisçilər kimi həmin məktəbin xərclərini ödəmək üçün hər il üzvlük haqqı ödəyirdi. O, 1901-ci ilin oktyabr ayının əvvəllərində öz ərizəsinə əsasən seminariyanın Azərbaycan dili müəllimi vəzifəsindən azad edilir.

1866-ci ildə İrəvan şəhərində anadan olmuş Rəhim Xəlilov 1909-cu ildə ermənilərin xəyanəti nəticəsində zəhərlənərək dünyasını dəyişmişdir.

Seminariyanın Azərbaycan şöbəsi və onun müəllimləri İrəvanda azərbaycanlı gənclərə təkcə təhsil verməklə kifayətlənmirdilər. Onlar İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin inkişafına da öz töhfələrini verirdilər. İrəvan Müəllimlər Seminariyasının müəllim və tələbələri Bakıda və Tiflisdə çıxan mətbuat orqanlarında yaxından iştirak etməyə çalışmış, maarifin, mədəniyyətin, jurnal, qəzet, kitab nəşr etmək, bədii əsərlər və tamaşalar göstərmək, qabaqcıl ideyaların yayılması, ədəbi əlaqələrin genişləndirilməsi sahəsində dı ciddi səy göstərmişlər. Xalqımızın böyük mütəfəkkir oğlu Firuddin bəy Köçərli "İrəvandan məktub" adlı məqaləsində azərbaycanlı əhalinin mədəniyyətə, ürfana, elmə, təhsilə meyl göstərdiyini şəhərdə fəaliyyət göstərən müəllimlər seminariyasının mühüm bir hadisə olduğunu, burada təlim-tərbiyə işinin ruhani məktəblərindən tamamilə fərqləndiyini, xüsusən teatra və dramaturgiyaya marağın xeyli artdığını ruh yüksəkliyi ilə qeyd edir. Məqalədə seminariya tələbələrinin təşəbbüsü və onların iştirakı ilə 1890-cı ilin aprel ayının 4-də Mirzə Fətəli Axundovun "Məstəli şah" komediyasının tamaşaya qoyulduğu barədə məlumat verilmişdir. Həmin məqalədə seminariyanın tələbələrindən (Rzayev), (Abbas Rzayev-C.A.) soyadlı bir nəfərin ədəbi yaradıcılığa böyük maraq göstərdiyini, onun qələmə aldığı "Könülsüz nikah" adlı bir pərdəli vodevilin tamaşa-

ya qoyulduğunu da qeyd etmişdir. Firudin bəy Köçərli həmçinin yerli camaatın teatr tamaşalarına çox maraq göstərdiyini bildirir (56, s.3,9). Seminariyanın azərbaycanlı müəllim və tələbələri Nəriman Nərimanovun, Əbdürrəhimbəy Haqverdiyevin və başqa dramaturqların əsərlərini də tamaşaya qoyurdular. Bu tamaşaların hazırlanmasında seminariyanın müəllimi Mirzə Cavbar Məmmədzadənin təşəbbüsünü xüsusi qiymətləndirmək lazımdır.

Tədqiqatlardan məlum olur ki, vaxtilə bir müddət İrəvanda yaşamış və burada çalışmış Cəlil Məmmədquluzadə 1906-cı ilin iyun ayında İrəvanda olmuş, seminariyada qabaqcıl azərbaycanlı ziyalılarla, müəllim və tələbələrlə görüş keçirmiş, "Molla Nəsrəddin" jurnalı barədə geniş fikir mübadiləsi aparmışdır.

"Molla Nəsrəddin" jurnalının İrəvanda özünə möhkəm yer tutmasında İrəvan Gimnaziyasının və Müəllimlər Seminariyasının azərbaycanlı müəllimlərinin və tələbələrinin böyük rolu olmuşdur. "Tüti", "Zənbur", "İqdam", "İrşad", "Babayi-Əmir", "Məzəli", "Kaspi", "Şəlalə", "Sovqat", "Kəşkül", "Tərcüman", "Açıq söz", rus dilində çıxan "Zakafkazye", "Кавказская речь" və s. mətbuat orqanlarının İrəvanda yayılmasında azərbaycanlı ziyalılar və tələbələr böyük fəallıq göstərmişlər. Seminariyanın azərbaycanlı müəllim və məzunları təkcə Cənubi Qafqazda nəşr edilən mətbuat orqanlarında deyil, eyni zamanda Türkiyədə nəşr edilən "Türk yurdu", "Şeyda", Təbrizdə "Əxtər", "Ənkabud", Tehranda "Suri-İsrafil" və

s. mətbuat orqanlarında da fəal çıxış edirdilər. Bu mətbuat orqanları İrəvan müəllimləri və ziyalıları üçün həm də söz, fikir söyləmək baxımından bir tribunaya çevrilmişdi. İrəvanda milli şüurun oyanmasında, ictimai həyatın canlanmasında bu mətbuat orqanlarının rolu olmuşdur.

İrəvan müəllimlər seminariyasının müəllim və tələbələrindən bəziləri həmin mətbuat orqanlarında həm öz yazılarını və məqalələrini dərc etdirir, həm də bir sıra mətbuat orqanlarının İrəvan üzrə müxbirləri idilər. Həmin dövrdə İrəvanda ictimai-pedaqoji fikrin inkişafı istiqamətində mühüm addımlar atan müəllim və tələbələr İrəvanda Azərbaycan maarifinin, mədəniyyətinin, teatrının inkişafına da öz töhfələrini verirdilər. Onlar bir çox tamaşalarda müxtəlif rolların, hətta qadın rollarını belə, böyük cəsarət və məharətlə ifa edirdi.

Onu da qeyd edək ki, İrəvanda Cabbar Əsgərzadənin redaktorluğu və Mir Məhəmməd Mir Fətullayevin naşirliyi ilə işıq üzü görən həftəlik "Lək-lək" satirik jurnalının səhifələrində İrəvanda maarifçilik məsələlərinə də diqqət ayrılırdı. Xalqda elmə, maarifə böyük maraq oyanırdı. İrəvan quberniyasında dünyəvi məktəblərin açılması və bu məktəblərdə təlim tərbiyənin, tədrisin pedaqoji prinsiplərə əsaslanması da jurnalda müəyyən yer tuturdu.

Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycanın görkəmli şair və yazıçıları İrəvan ziyalılarının dəvəti ilə İrəvana etdikləri səfər zamanı seminariyada da olmuş və

burada müəllim-tələbə kollektivi ilə görüşlər keçirmişlər. 1906-cı ildə Mirzə Ələkbər Sabir, 1911-ci ildə Abdulla Şaiq və başqaları İrəvan Müəllimlər Seminariyasının qonağı olmuşdur. Mirzə Ələkbər Sabir İrəvana səfəri zamanı azərbaycanlı maarif xadimləri Axund Məhəmmədbağır Qazızadə, Həmid bəy Şahtaxtinski, Həsən bəy Qazıyev və başqaları ilə keçirdiyi görüşlərdə, İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin, İrəvan Azərbaycanlı Qızlar Məktəbinin fəaliyyəti və digər milli təhsil ocaqlarımızla yaxında tanış olarkən, burada Azərbaycan maarifçilik mühitini yüksək qiymətləndirərək demişdir: "Mirzə, sizin bu müəllimlər, məktəblər, dərs üsulunuz, xüsusən də müsəlman qız məktəbi məni valeh etdi. Yaxın gələcəkdə bizim millətin də ön sıralarda olacağına əmin olmaq olar" (45). Azərbaycandan ziyalıların hər gəlişi İrəvan ədəbi ictimaiyyətində böyük maraq doğururdu.

Ümumiyyətlə, Azərbaycanın bir çox görkəmli şair və yazıçıları – Həsən bəy Zərdabi, Abbas Səhhət, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Eynəli bəy Sultanov, Əziz Şərif, Bəkir Çobanzadə, Heydər Hüseynov və başqaları İrəvan ədəbi-mədəni mühitinin aparıcı simaları ilə sıx dostluq və yaradıcılıq əlaqələrində olmuşdur.

Rəhim Xəlilov İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi vəzifəsindən azad edildikdən sonra, 1902-ci ildə onun yerinə Axund Molla Məhəmmədbağır Qazızadənin təqdimatı əsasında Qafqaz Təhsil Dairəsinin əmri ilə vaxtilə bu təhsil ocağının məzunu olmuş Həmid bəy Şahtaxtinski təyin edilir.

Həmid bəy Şahtaxtinski

Həmid Bəy 1895-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. O, 5 iyun 1899-cu il tarixdə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Qafqaz Təhsil Dairəsinin əmri ilə 1 sentyabr 1899-cu tarixdən İrəvan rus-tatar məktəbində Azərbaycan dili müəllimi vəzifəsində çalışır. Həmid bəy 27 oktyabr 1901-ci tarixdə Qafqaz Təhsil Dairəsinin rəhbərinin 14622 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasına tatar (Azərbaycan) dili müəllimi vəzifəsinə təyin edilir. 9 aprel 1902-ci ildə Qafqaz Təhsil Dairəsinin 4958 №-li əmri ilə seminariyada Azərbaycan şöbəsinin rəhbəri təyin edilir. 4 iyun 1904-cü ildə Qafqaz Təhsil Dairəsinin 238 №-li əmrinə

əsasən Həmid bəyin kommunal xərcləri üçün ona əmək haqqına əlavə olaraq hər ay üçün 133 manat 33 qəpik təyin edilir. 23 oktyabr 1907-ci ildə Qafqaz Təhsil Dairəsi rəhbərinin 19273 №-li əmri ilə İrəvan Müəllimlər Seminariyasının tatar dili müəllimi vəzifəsindən azad edilir. Seminariyadan azad edildikdən sonra 1908-ci ildə İmperator Novorossiysk universitetinin hüquq fakültəsinə dinləyici kimi qəbul edilir. Sonra isə universitetin qəbul komissiyası tərəfindən sınaq imtahanı verərək hüquq fakültəsinə daxil olur. 30 may 1913-cü ildə həmin universitetin hüquq fakültəsini bitirmişdir. 2 fevral 1915-ci ildə Qafqaz Təhsil Dairəsinin 2568 №-li əmri ilə Yelizavetopol Müəllimlər Seminariyasına bir ştatdan artıq riyaziyyat müəllimi təyin edilir. 1 avqust 1916-cı ildə Qafqaz Təhsil Dairəsi rəhbərinin 21266 №-li əmri ilə Yelizavetopol quberniyasının xalq məktəblərinin inspektoru təyin edilir. 14 iyul 1917-ci ildə Qafqaz Xüsusi Komitəsinin 6319 №-li əmri ilə Qafqaz Təhsil Dairəsinin inspektoru təyin edilir. Həmid bəy Azərbaycanda Xalq Cumhuriyyəti dövründə Maarif və dini etiqad naziri vəzifəsində çalışmışdır. Yeni əlifba üzrə Dövlət Komissiyasının üzvü kimi yeni əlifba ideyasının həyata keçirilməsi işində böyük rolu olmuşdur. Bakı Dövlət Universitetinin yaradılmasında xüsusi xidməti olan Həmid bəy bir müddət həmin təhsil müəssisəsində prorektor vəzifəsində çalışmışdır. O 1928-ci ildə Tiflisdəki Zaqafqaziya Universitetinin tibb fakültəsini bitirib, sonralar Azərbaycan Tibb Universitetinə (1930-1940) professor vəzifəsində çalışıb. Hə-

mid bəy Şahtaxtinski 1944-cü il fevral ayının 3-də Arxangelskidə vəfat etmişdir [16, s.27, 38].

XIX əsrin sonlarında Cənubi Qafqazda qəza məktəblərinin sürətlə artması, həmin məktəblərin idarə edilməsi üçün kənd məktəbləri müəllimləri və müdirlərinin bəziləri müxtəlif illərdə İrəvan Müəllimlər Seminariyasında ekstern imtahan verərək müəllimlik hüququna yiyələnirdi. Seminariyanın pedaqoji şurasının qərarına əsasən ekstern müəllimlik hüququna layiq görülənlər arasında azərbaycanlılar da vardı. Amma başqa xalqların nümayəndələri ilə müqayisədə ekstern yolu ilə müəllimlik hüququ olan azərbaycanlıların saylı cəmi 4-5 nəfər idi. Bir sıra mənbələrdə 1895-ci ildə seminariyanın azərbaycanlı tələbələrindən Cəlil Mirzəyevin, Məmməd bəy Qazıyevin, Tağı bəy Səfiyevin, 1902-ci ildə isə Cabbar Məmmədovun, İbadulla bəy Muğanlinskinin, Şəmdin bəy Mahmudbəyovun ekstern yolu ilə imtahan verərək İrəvan Müəllimlər Seminariyasının pedaqoji şurasının qərarına əsasən müəllimlik hüququ aldıqları barədə məlumatlara rast gəlinir. Birincisi, Mirzə Cəlil Mirzəyev (Şurbi) 1888-ci ildə seminariyaya daxil olub, 1892-ci ildə, Tağı bəy Səfiyev 1889-cu ildə seminariyaya daxil olub, 1993-cü ildə, Məmməd bəy Qazıyev 1882-ci ildə seminariyaya daxil olub, 1886-cı ildə bu təhsil ocağını bitiribsə, bu şəxslərin ekstern yolu ilə imtahan verərək müəllimlik hüququ aldıqları barədə verilən məlumatlar həqiqəti əks etdirmir. İkincisi, Cabbar Məmmədzadə, İbadulla bəy Muğanlinski, Şəmdin bəy Mahmudbəyov hər üçü 1898-ci ildə semi-

nariyaya daxil olmuş, 1902-ci ildə seminariyanı bitirmiş və bu təhsil ocağının 18-ci buraxılışının məzunları olmuşlar. Eyni zamanda həmin buraxılışda Həmid bəy Şahtaxtinskinin, Ağa Sultanovun, Yaqub Babayevin də adları vardır.

Mirzə Cabbar Məmmədzadə

1907-ci ildə Qafqaz Təhsil Dairəsinin 19273 №-li əmri ilə Həmid Bəy İrəvan Müəllimlər Seminariyasının Azərbaycan dili müəllimi vəzifəsindən azad edildikdən sonra onun yerinə Mirzə Cabbar Məmmədzadə tatar (Azərbaycan) dili müəllimi təyin edilir. Mirzə Cabbar Məmmədzadə 20 yanvar 1882-ci ildə qədim İrəvan şəhərində anadan olmuşdur. İrəvanda "Fars Abbas" ləqəbi ilə tanınan, xalq müəllimi, şair və alim Abbas Razi Məmmədzadənin ailəsində dünyaya göz açmışdır. Mirzə Cabbar Məmmədzadə təhsilini İrəvan Müəllimlər Seminariyası nəzdində fəaliyyət göstərən ibtidai məktəbdə almışdır. O, 1902-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra həmin ilin sentyabr ayında Nehrəm kənd 2 sinifli məktəbinə müəllim təyin edilir. 1903-cü ildə İrəvan quberniyası xalq məktəbləri direktorunun qərarı əsasında Qəmərli 2 sinifli məktəbinə müəllim vəzifə-

sinə dəyişdirilir. 1904-cü ildə İmanşalı məktəbinə, 1903-cü ilin sentyabr ayında isə Qəmərli kənd məktəbinə nəzarətçi təyin edilir. 1906-cı il avqustun 29-da ailə vəziyyətinə görə tutduğu vəzifəsindən azad edilib, İrəvan şəhərində İbadulla bəy Muğanlinskinin açdığı xüsusi hazırlıq məktəbinə rus dili müəllimi təyin edilir. 1907-ci ildə Qafqaz tədris dairəsi müdirinin əmrinə əsasən İrəvan Müəllimlər Seminariyasına Azərbaycan dili müəllimi təyin edilir.

Mirzə Cabbar Məmmədzadə 1908-ci ilin may ayının 23-də İrəvan Müəllimlər Seminariyasının pedaoji şurasında imtahan edildikdən sonra ona "aşağı və orta tədris müəssisələrində Azərbaycan dili" müəllimi adı verilir. 23 may 1908-ci il tarixindən etibarən Qafqaz təhsil dairəsi müdirinin əmrinə əsasən Mirzə Cabbar Məmmədzadə İrəvan Müəllimlər Seminariyasına Azərbaycan dili müəllimi və kollec katibi vəzifəsinə təyin olunur. 1910-cu ildə İrəvanda Daşlı küçəsində III dərəcəli xüsusi məktəb açır. Həmin məktəb İbadulla bəy Muğanlinski rus dilini, özü isə Azərbaycan dili və ilahiyyət fənnini tədris edir. Araşdırmalardan məlum olur ki, məktəbdə dərslər 31 dekabr 1910-cu ildə Mirzə Cabbar Məmmədovun tərtib etdiyi cədvəl əsasında keçirilmişdir. Məktəbin ilk ilində fəaliyyətə başladığı vaxtda 8-11 yaşlı 20 oğlan təhsil almışdı. 1911-ci ildə uzunmüddətli səmərəli xidmətinə görə Mirzə Cabbar Məmmədzadə titulyor müşavir rütbəsinə yüksəlir. 1913-cü il yanvar ayının 19-da İrəvan Quberniya Xalq məktəbləri direktoruna ərizə ilə müraci-

ət edərək İrəvan Müəllimlər Seminariyasından İrəvan rus-tatar məktəbinə dəyişdirilməsini xahiş edir. 1913-cü il fevral ayının 13-də İrəvan xalq məktəbləri direktoru Mirzə Cabbar Məmmədzadəyə İrəvan rus-tatar məktəbində müəllim işləməyə icazə verir [67, s.6]. Mirzə Cabbar Məmmədzadə eyni vaxtda həm İrəvan Müəllimlər Seminariyasında, həm də İrəvan rus-tatar məktəbində çalışmışdır.

1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı həmin məktəblərin də fəaliyyəti dayandırıldı. Mirzə Cabbar Məmmədzadə Naxçıvana köçməyə məcbur olur. 1918-ci ilin dekabr ayında Naxçıvan ali-ibtidai məktəbinə Azərbaycan dili və coğrafiya müəllimi təyin edilir. O 1920-ci ilədək bu vəzifədə çalışır.

1920-ci ilin sentyabrında ailəsi ilə birlikdə Bakıya köçür. Azərbaycan Dövlət Universitetində, sonra isə Azərbaycan Politexnik İnstitutunda (indiki Texniki Universitetində) Azərbaycan dili fənnini tədris edir. 1928-ci ildə M.H.Qədirli adına Əczaçılıq Texnikumuna Azərbaycan dili müəllimi vəzifəsində çalışan Mirzə Cabbar Məmmədzadə 1930-cu ilin sentyabrından başlayaraq Azərbaycan dilinin metodikası müəllimi kimi fəaliyyət göstərir.

1932-ci ilin sentyabr ayında İstehlak Kooperasiyası İnstitutunda (indiki ADİU-da) Azərbaycan dili kafedrasının müdiri və dosent vəzifəsinə təyin edilir. Mirzə Cabbar Məmmədzadə 35 ildən artıq pedaqoji fəaliyyəti döv-

ründə Azərbaycan maarifi və mədəniyyətinin inkişafında böyük rol oynamışdır. Hindşünas, akademik A.Şor və Moskva, Ukrayna, Belarusiya, Leninqrad və digər ölkələrdən Mirzə Cabbarın yanına gələn görkəmli alimlər ondan Azərbaycan dilini öyrənmişlər. (61 s. 7)

Mirzə Cabbar Məmmədzadə pedaqoji fəaliyyəti ilə yanaşı elmi fəaliyyətinin də davam etdirmişdir. Azərbaycan və rus dillərinin tədrisi metodikasına, dilşünaslığa və ədəbiyyat tədrisinə dair bir sıra dəyərli elmə əsərlərin, dərsliklərin müəllifidir. Onun "Azərbaycan dilini sərbəst öyrənən ruslar üçün" kitabı 13 dəfə nəşr edilmişdir. "Azərbaycan tədris metodikası tarixi" adlı əsərinə görə 1937-ci ildə pedaqoji elmlər doktoru alimlik dərəcəsi və professor elmi adını almışdır. Azərbaycanın görkəmli mədəniyyət xadimləri Fərhad Ağazadə və Səməd Ağamalıoğlu ilə birlikdə I siniflər üçün latın əlifbası ilə dərslik yaradılmasında yaxından iştirak etmişdir. Yeni əlifbanın yaradıcılarından olan Mirzə Cabbar Məmmədzadə Ümumittifaq türkoloji qurultayında nümayəndə qismində iştirak etmişdir. Bakıda yaşadığı dövrdə Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Firudin bəy Köçərli, Məmmədəli Sidqi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Rza Təhmasib və başqa görkəmli elm, mədəniyyət xadimləri, yazıçı, şairləri ilə dostluq və yaradıcılıq əlaqəsi saxlamışdır. Bu ədəbi-mədəni əlaqələr onun fəaliyyətində xalqına daha çox fayda gətirməsinə imkan vermişdir. Mirzə Cabbar Məmmədzadə İrəvan Müəllimlər Seminariyasında və İrəvan qəzasında

fəaliyyət göstərən rus-tatar məktəblərində tədrisin keyfiyyətini yaxşılaşdırmaq üçün Abdulla Şaiqin "Gülzar", "Türk çələngi", "Uşaq gözlüyü", "Gözəl bahar", "Gülşəni ədəbiyyat" və başqa dərsliklərini yaymışdır. Dövrün ən məzmunlu dərslikləri sayılan bu əsərlərdən Mirzə Cabbar Məmmədzadə yüksək dəyərləndirib Azərbaycan dili dərslərinin tədrisi üçün hazırladığı proqrama daxil etmiş və bunun əsasında seminariyada geniş istifadə etmişdir. Görkəmli maarif xadimi Cabbar Məmmədzadə Abdulla Şaiqin "Gülzar" adlı dərsliyini yüksək qiymətləndirərək yazırdı: "Belə bir kitaba ehtiyacımız qayət dərəcə çoxdan var idi. Seminariyanın ikinci və üçüncü klasslarında kitabsızlıqdan sıxıntı çəkirdim. Allah səni çətinlikdən qurtarsın" (17).

Abdulla Şaiq, Abbas Səhhət və başqaları öz əsərlərini İrəvan qəzasında da və Naxçıvanda yaymaq, şagirdlərə öyrətmək, dərs proqramlarına daxil etmək və bəzən də çap etdirmək üçün Mirzə Cabbara göndərərdilər. Çox vaxt həmin dərsliklərə Mirzə Cabbar rəy verirdi. Abdulla Şaiq 1912-ci ildə çapdan çıxmış "Gülzar" adlı dərsliyini İrəvan Müəllimlər Seminariyasının azərbaycanlı tələbələrinə hədiyyə olaraq göndərmişdi. Xalqına bağlılıq, bütün şüurlu həyatını onun tərəqqisi və maarifləmməsinə həsr edən bu iki böyük şəxsiyyət sıx yaradıcılq əlaqəsində olmaqla yanaşı çox möhkəm dost olmuş və uzun illər məktublaşmışlar (17).

Ömrünü Azərbaycan maarif və mədəniyyətinə həsr edən görkəmli alim, icimai xadim Mirzə Cabbar Məm-

mədzadə 1937-ci ildə amansız repressiyanın qurbanı olmuş və güllələnmişdir.

Araşdırmalardan müəyyən edilir ki, 1937-ci ildə repressiyaya daha çox məruz qalanların əksəriyyəti də elə İrəvan Müəllimlər Seminariyasının və gimnaziyasının, buradakı dünyəvi məktəblərin məzunları olmuşdur. Azərbaycanın iqtisadi, siyasi, elmi tərəqqisinin inkişafında böyük xidmətləri olan İrəvan Müəllimlər Seminariyasının məzunları Həbib bəy Səlimov, Saleh Güllüçinski, Heydər Vəzirov güllələnmiş, Həmid bəy Şahtaxtinski, Rəşid bəy İsmayılov, Fəraməz bəy Mahmudbəyov, Tağı bəy Səfiyev həbs edilərək sürgün edilmişlər. 1937-ci ildə seminariyanın onlarla məzunu amansız repressiyanın qurbanı olmuşdur.

1907-ci ildə Sergey Nikolayeviç Streleçki İrəvan Müəllimlər Seminariyasının direktoru təyin edilir. O, İrəvan Müəllimlər Seminariyasından əvvəl Zaqafqaziya Müəllimlər Seminariyasının direktoru vəzifəsində çalışmışdı. Sergey Nikolayeviç Streleçkinin İrəvan Müəllimlər Seminariyasına direktor təyin olunması, vaxtilə bu təhsil müəssisəsinin direktoru vəzifəsində işləmiş Mixail Alekseyeviç Miropiyevin azərbaycanlı seminaristlərə qarşı olan milli ayrı-seçkilik ovqatını daha da gücləndirmişdi.

Sergey Nikolayeviç Streleçki vaxtilə Zaqafqaziya Müəllimlər Seminariyasının dorektoru vəzifəsində çalışdığı dövrdə o azərbaycanlı seminaristlərə qarşı milli ayrıseçkilik və qəddar şovinist mövqeyi ilə tanınırdı. Hətta Azərbaycan şöbəsinin inkişafının qarşısını almaq üçün

şöbənin inspektoru Aleksey Osipoviç Çerniyayevskinin səlahiyyətini məhdudlaşdıraraq, onun mütərəqqi tədbirlərinə maneçilik törədirdi.

Müxtəlif vaxtlarda Yakob Stepanoviç Suşevski (1881-1896), Mixail Alekseyeviç Miropiyev (1897-1901), İvan Andreyeviç Pasyuteviç (1903), Aleksey Martinoviç Zazuboviç (1904-1906), Sergey Nikolayeviç Streleçki (1907-1910), Valentin Vasilyeviç Dobrotin (1913-1917) İrəvan Müəllimlər Seminariyasının direktoru olmuşdular. Adlarını qeyd etdyimiz bu şəxslərin bəziləri müxtəlif vaxtlarda həm Zaqafqaziya Müəllimlər Seminariyasının, həm də İrəvan Müəllimlər Seminariyasının direktoru vəzifəsində çalışmışdılar.

Azərbaycanda elmin, mədəniyyətin, maarifin və dövlət quruculuğunun inkişafında xidmətləri olan bir çox görkəmli şəxsiyyətlər – Əhməd bəy Qaziyev, Əli Əşrəf Qaziyev, Həsən bəy Axund Molla Xəlil bəy oğlu Qaziyev, Fəraməz bəy Mahmudbəyov, Yusif bəy Qaziyev (Qazızadə), Məmməd bəy Əli bəy oğlu Mahmudbəyov, Xəlil Məmmədəliyev, Məmməd Nəsirbəyov, ictimai xadim Saleh Məşədi Teymur oğlu Güllücinski, Ağa bəy Rəhim bəy oğlu Firudinbəyov, Abbas Allahverdi oğlu Qədimov, Qasım Camalbəyov, Mir Haşım bəy Vəzirov, Əli Sultanov, Fərrux Ağakişibəyov, Əli Cəlilzadə, Hacı Məmmədəli oğlu, Şixəli bəy Firudinbəyov, İbrahim Şahtaxtlı və başqaları İrəvan Müəllimlər Seminariyasında təhsil almışlar. İrəvan Müəllimlər Seminariyasını bitirib müxtəlif bölgələrdə çalışan, xalqın tərəqqisi naminə mübarizə

aparan bəşəri duyğulara malik bu maarif fədailəri gənc nəslin təlim-tərbiyəsinə, onların dünyəvi təhsil almalarına böyük diqqət və qayğı göstərirdilər. Demokratik görüşlü bu pedaqoqlar dünyəvi təhsil verən məktəblər açır və qabaqcıl maarifçilik ideyalarını yaymaq üçün qüvvə və bacarıqlarını əsirgəməmişdilər. İrəvanda pedaqoji fikir tarixində bir xüsusiyyət də diqqəti cəlb edir ki, burada fəaliyyət göstərən pedaqoji fikrimizin yaradıcıları istər pedaqoji, istərsə əməli fəaliyyətlərində eyni mövqedə dayanmış və birlikdə mübarizə aparmışlar.

1908-1909-cu illərdə seminariyada bədən tərbiyəsi dərslərini Cumhuriyyət dövründə general rütbəsinə kimi yüksəlmiş görkəmli hərbi xadim Həbib Bəy Səlimov tədris etmişdir. Həbib bəy Səlimov 1881-ci ildə fevral ayının 8-də İrəvan şəhərində anadan olmudur. İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Yüksək savada, istedada malik olan Həbib bəy Səlimov İrəvan Müəllimlər Seminariyasında cəmi iki il bədən tərbiyəsi müəllimi kimi fəaliyyət göstərmişdir. O 1900-cu ilin avqust ayında indiki Gəncə (keçmiş Yelizavetpol) şəhərində 156-cı suvari alayında xidmət etmişdir. Həbib bəy Səlimov 1902-ci ildə Tbilisidə Hərbi Süvari məktəbini bitirdikdən sonra Üçüncü Qafqaz Atıcı batalyo-

Həbib bəy Səlimov

nunda xidmətə başlamışdı. 1918-ci ilin avqustunda Qafqaz İslam ordusunun komandanı Nuru Paşanın əmri ilə Azərbaycan korpusu yenidən təşkil edilməyə başlayanda böyük hərbi təcrübəyə və biliyə malik olan Həbib bəy Səlimov həmin korpusun qərargah rəisi təyin edilir. O hərbi peşəkarlığını artırmaq üçün Peterburqda Baş Qərargahın Nikolayev Hərbi Akademiyasına daxil olmuş və oranı uğurla başa vurmuşdur. 26 fevral 1919-cu ildə Azərbaycan Cumhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarovun əmri ilə Həbib bəy Səlimova genaralmayor rütbəsi verilmişdir. 1919-cu ilin iyul ayında general Həbib bəy Səlimovun komandanlığı ilə Muğanda və Lənkəranda Azərbaycan Milli hökumətini tanımaq istəməyən malakan və rus-erməni qüvvələri darmadağın edildikdən sonra o həmin bölgə üzrə qısa müddətə vali təyin edilmişdir. Azərbaycan milli ordusunun formalaşmasında general Həbib bəy Səlimovun da böyük xidmətləri olmuşdur. 1920-ci ildə Azərbaycan Rusiyanın XI Qızıl ordusu tərəfindən işğal edildikdən bir ay sonra bolşeviklər general Həbib bəy Səlimovu 1920-ci ilin dekabr ayının 30-da güllələmişdi.

Seminariyada rus dili, Azərbaycan dili, riyaziyyat, coğrafiya, idman və s. fənlərlə yanaşı müsiqi fənni də tədris edilirdi. 1885-ci ildə seminariyada musiqi fənnini tədris edən Simyon Nikoloyeviç Kasradzenin rəhbərliyi altında 69 nəfər musiqi təhsili almışdır ki, onların arasında azərbaycanlılar da var idi.

İrəvan Müəllimlər Seminariyasının məzunları Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışlar.Onlar azərbaycanlılar yaşayan bölgələrdə yeni məktəblərin açılmasında, azərbaycanlı balalarının təhsilə cəlb edilməsində fəal iştirak etmişlər. Bu maarif fədailəri daha çox İrəvanda, Naxçıvanda, Azərbaycanın müxtəlif bölgələrində milli intibah istiqamətində böyük fədakarlıq göstərmişlər.

Tədqiqatçı alim Taleh Xəlilov yazır: "XIX əsrin sonu – XX əsrin əvvəllərində Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının böyük rolu olmuşdur. İrəvan Müəllimlər Seminariyasının məzunları Azərbaycanın bir çox bölgələrində uğurla pedaqoji işlə məşğul olmuş, xalqın, millətin tərəqqisində və irəli getməsində mühüm işlər görmüşlər" (31, s. 113). Bununla bərabər XIX əsrin sonlarında və XX əsrin əvvəllərində Cənubi Qafqazda milli maarifçilik hərəkatının genişlənməsi, canlanması və pedaqoji fikrin inkişafında Azərbaycanın aparıcı elm, ədəbiyyat, mədəniyyət mərkəzlərindən biri kimi İrəvan bölgəsi əhəmiyyətli dərəcədə mühüm rol oynamışdır.

Axund Məhəmmədbağır Qazızadə, Məmməd Axundov, Abbas Razi Məmmədzadə, İlya bəy Mahmudbəyov, Rəhim Xəlilov, Abbas ağa Fərəcov, Məmməd Əliyev, İbadulla bəy Muğanlinski, Aslan bəy Nabatəlibəyov, Mirzə Cabbar Məmmədzadə, Mehdi Kazımov, Şəmdin bəy Mahmudbəyov, Cəfər bəy Cəfərbəyov, Məmmədvəli Qəmərlinski, Məşədi İsmayıl Hacı Kazımzadə, Axund

Əbülhəsən Qazızadə, Tərlan xanım Sultanova, Fatma Qədimova, Məmməd bəy Qazıyev, Cəfər Kərimov və başqaları İrəvanda xalqımızın mədəni yüksəlişi yolunda təkcə səy və bacarıqlarını deyil, həyatlarını və maddi imkanlarını da bu ülvi məqsədə sərf etməkdən belə çəkinməmişlər. İrəvanda yeni tipli məktəblər, mədəniyyət ocaqları, mətbuat orqanları açıldıqca mütərəqqi görüşlü ziyalıların sayı da artırdı. Mütərəqqi ziyalıların səyi və bacarığı nəticəsində cəmiyyət və məktəb münasibətləri daha sıx qurulduğundan gündən-günə yeni məzmun alırdı. Seminariyanın məzunları Cəfər bəy Cəfərbəyov İrəvanda III dərəcəli xüsusi məktəb açmağa nail olmuş və eyni zamanda İrəvanda açdığı pansionata rəhbərlik etmiş, Əsgər Axundov İrəvan şəhərində III dərəcəli birsinifli, pansionlu məktəb açmış, əslən Qəmərlidən olan Şəmdin bəy Mahmudbəyov seminariyanı bitirdikdən sonra 1906-cı ildən 1917-ci ilə kimi Uluxanlı kənd məktəbinin müdiri olmuşdur. Seminariyanın digər məzunları Şixəli bəy Firudinbəyov Qəmərli kənd məktəbinin, Yaqub Babayev Dvin-Aysor kənd məktəbinin, Mirzə Cabbar Məmmədov Göy Məscid kənd məktəbinin, İbadullah bəy Muğanlinski Dərəçiçək kənd məktəbinin müdirləri olmuşlar. Əhməd Haşımov Çobankərə kəndində, Şixəli bəy Firudinbəyov, Cəlil Məmməd oğlu Mirzəyev, Mirzə Məmməd Axundov Qəmərlidə, Həsənbəy Axund Molla Xəlil bəy oğlu Qazıyev, Məmməd bəy Lütvəli bəy oğlu Qazıyev Uluxanlıda, Cəfər Kərimov Şərurda müəllim işləmişlər.

İrəvanda və bölgələrdə fəaliyyət göstərən bu müəllimlər milli tərəqqi üçün çox böyük işlər görmüşlər. Hüseynəlibəy Rüstəmbəyov Azərbaycanın İsmayıllı rayonunun Lahıc, Yaqub Babayev Basqal, Vahid Mustafayev Qəbələ kənd məktəbində böyük maarifçilik işləri aparmışdı. 1884-cü ildə 5, 1885-ci ildə 9, 1886-cı ildə 14, 1887-ci ildə 6, 1888-ci ildə 10, 1889-cu ildə 13, 1890-cı ildə 12, 1891-ci ildə 12, 1892-ci ildə 4, 1893-cü 10, 1894-cü ildə 9, 1895-ci ildə 14, 1897-ci ildə 8, 1899-cu ildə 13, 1900-cü ildə 15, 1901-ci ildə 19, 1902-ci ildə 19, 1907-ci ildə 16, 1908-ci ildə 20, 1915-i ildə 22, 1916-cı ildə 22, 1917-ci ildə 23 nəfər azərbaycanlı İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. İrəvan Müəllimlər Seminariyasının fəaliyyət göstərdiyi 37 il ərzində 34 buraxılışı olmuş, azərbaycanlı məktəbləri üçün 400-ə qədər xalq müəllimi hazırlamışdır.

İrəvan Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri və ilahiyyat müəllimi Axund Molla Məhəmmədbağır Qazızadə 1911-ci ilin dekabr ayında vəfat etdikdən sonra onun yerinə 1913-cü ildə Axund Əbülhəsən Qazızadə təyin edilir (67). Axund Əbülhəsən Qazızadə 1862-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Seminariyanın Azərbaycan şöbəsinin müdiri və ilahiyyət müəllimi vəzifəsində çalışan Axund Əbülhəsən Qazızadə sələfinin fədakar fəaliyyətini ləyaqətlə davam etdirmişdir. O eyni zamanda İrəvan Quberniyası Ruhani Məclisinin üzvü idi. 1909-cu ildə İrəvan Quberniyası Ruhani məclisinin Ordubad qəzası üzrə sədri olmuşdur. Axund Əbülhəsən Qazızadənin 1911-ci ildə İrəvanda "Kultura"

mətbəəsində 4 cildlik "Durisi-şəriə" adlı kitabı nəşr edilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, islam alimləri arasında Axund Əbülhəsən Qazızadənin də xüsusi yeri vardır.



Sağdan: 3-cü sıradan 6-cı Axund Əbülhəsən Qazızadə, 8-ci Seminariyanın direktoru Valentin Vasilyeviç Dobrotin seminariyanın tələbələri və ibtidai məktəbinin şagirdləri ilə birlikdə, İrəvan 1917

1915-ci ildə yanvar ayının əvvəlində çar Maarif Nazirinin əmrilə seminariya müvəqqəti olaraq Şimali Qafqazın Armavir şəhərinə köçür. Seminariya Armavirdə tədris prosesi üçün heç bir əlverişli şəraiti olmayan darısqal bir binada yerləşir. Hətta dərs keçmək üçün sinif otaqları

belə çatışmadığından, bəzən dərslər boş keçirmiş. Seminariyanın Azərbaycan şöbəsinin müdiri və ilahiyyat müəllimi Axund Əbülhəsən Qazızadə Armavir şəhərinə gec getdiyindən onun dərslərini də bir müddət Mirzə Cabbar Məmmədzadə əvəz etmişdir. Seminariyanın nəzdindəki ibtidai məktəb isə fəaliyyətini İrəvanda davam etdirirdi. 1916-cı ilin may ayında seminariya yenidən İrəvan şəhərinə köçmüşdü.

Bir sıra araşdırmalarda Haşım bəy Nərimanbəyov, Şamil Mahmudbəyov, Nəcəf bəy Vəzirov, Mirzə Abbas Məmmədzadə seminariyanın məzunu, Axund Məmmədbağır Kazımzadə, Rəşid bəy Şahtaxtinski, Cəfər bəy Cəfərbəyov, İbadulla bəy Muğanlinski, Axund Məmmədbağır Tağızadə, Mirzə Məmmədvəli Qəmərlinski, İsmayıl bəy Şəfibəyov seminariyanın Azərbaycan şöbəsində dərs deyən müəllimlər kimi təqdim edilirlər. Bu kimi həqiqəti əks etdirməyən məlumatların elmi dövriyyəyə təqdim edilməsi göztərir ki, bu yanlışlıqlar araşdırmaçılar tərəfindən istinad kimi sonralar da davam etdirilmşdir.

Ümumiyyətlə, Qərbi Azərbaycanda xalqın maarifləmməsində, Abbasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni şovinistlərinə qarşı mübarizədə İrəvan Müəllimlər Seminariyasının və Gimnaziyasının Azərbaycan şöbəsini bitirənlər mərdliklə vuruşmuşlar. Seminariyanın məzunları Fəraməz bəy Mahmudbəyov, Şəmdin bəy Mahmudbəyov və başqaları "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı döyüşlərdə misilsiz qəhrəmanlıqlar göstərmişlər.

Şəmdin bəy

Şəmdin bəy İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Böyük Vedi kəndində müəllimlik fəaliyyətinə başlamışdır. 1905-ci ildə isə Nehrəm kənd məktəbinə nəzarətçi müəllim təyin edilir. 1906-cı ildən 1917-ci ilə kimi isə Uluxanlı kənd məktəbində əvvəlcə nəzarətçi, sonra isə həmin məktəbin müdiri təyin olunur. Yaşlı nəslin nümayəndələrinin dediyinə görə Şəmdin bəy geniş ərazisi olan məktəbin həyətini gülzara çevirmiş, məktəbin həyətinə müxtəlif cür meyvə ağacları əkmişdir ki, həm məktəbin ehtiyacı ödənilsin, həm də məktəbə gələn şagirdlər faydalansın. Uluxanlı məktəbi İrəvan qəzasında nümunəvi təhsil ocaqlarından biri olmuşdur. El arasında bu gün də həmin məktəbi "Şəmdin bəyin məktəbi" adlandırırlar. 1918-ci ildə ermənilərin Vedibasara hücumu zamanı gedən döyüşlərdə Şəmdin bəy Mahmudbəyov şücaət göstərərək həlak olmuşdur.

Aparılan tədqiqatlardan müəyyən edilir ki, 1937-ci ildə repressiyaya daha çox məruz qalanların əksəriyyəti də məhz elə İrəvan Müəllimlər Seminariyasının, Gimnaziyasının və buradakı dünyəvi məktəblərin məzunları olmuşlar. 1918-ci ilə qədər Azərbaycan maarifinin, ədəbiy-

yatının, mədəniyyətinin tərəqqisində müstəsna xidmətləri olan və müxtəlif sahələrdə milli intibaha yol açan, təhsil tariximizin şərəfli səhifələrini təşkil edən İrəvan Müəllimlər Seminariyası, eləcə də onun məzunlarının tədqiq edilərək öyrənilməsi zəruri və vacibdir. Bu baxımdan İrəvan Müəllimlər Seminariyasının bir sıra məzunları haqqında məlumat verməyi məqsədəuyğun hesab edirik.

Cəfər bəy Cəfərbəyov İrəvan şəhərində anadan olmuşdur. 1897-ci ildə İrəvan gimnaziyası nəzdində hazırlıq məktəbini, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Seminariyanı bitirdikdən sonra 1 avqust 1901-ci ildə Qafqaz popeçitelinə ərizə yazaraq onu sentyabr ayının 1-də Məmmədqulu bəy Kəngərlinskinin (Kərim Sultanlı) açacağı məktəbə tərbiyəçi təyin etməsini xahiş edir. Araşdırmalardan məlum olur ki, Cəfər bəyin bu ərizəsinə müsbət cavab verilməmişdir. O seminariyanı bitirdikdən sonra Yenigicə kəndində, sonra isə Günrüdə (Aleksandropolda) müəllimlik etmişdir. Cəfər bəy İrəvanda məktəb açmaq üçün 1907-ci ildə Qafqaz popeçitelinə ərizə ilə müraciət edir. Qafqaz popeçiteli 20 noyabr 1907-ci ildə İrəvan quberniyası xalq məktəbləri direktoruna yazdığı 21252 saylı məktubu ilə Cəfər bəyə İrəvanda üçüncü dərəcəli xüsusi təhsil müəssisəsi açmaq üçün icazə verir. İrəvanda milli maarifçiliyin təşəkkülündə Cəfər bəy Cəfərbəyovun da adı hər zaman minnətdarlıqla yad edilir.

Saleh Güllücinski

Saleh Məşədi Teymur oğlu Güllücinski 1899-cu ildə İrəvan yaxınlığındakı Güllücə kəndində anadan olmuşdur. İrəvandakı Puşkin adına şəhər məktəbini bitirdikdən sonra İrəvan müəllimlər Seminariyasına daxil olur. 1915-ci ildə seminariyanı bitirmişdir. 5 mart 1916-cı ildə İrəvan dairə məhkəməsində işləməyə başlayır. 6 iyun 1918-ci ildə dairə məhkəməsində tərcüməçi vəzifəsinə işə qəbul edilir. Yüksək savada və siyasi biliyə malik olan Saleh bəy Güllücinski 1920-ci ilin noyabr ayında Ermənistanda sovet hakimiyyətinin qurulduğu ilk vaxtlarda Fövqəladə Komissiyasında müstəntiq, sonra isə Vedi rayonunda İnqilab Komitəsinin sədri vəzifəsində çalışmışdır. 1923-cü ildə Tiflisdə açılmış Zaqafqaziya Kommunist Universitetində təhsil almağa göndərilmişdir. Universiteti bitirdikdən sonra Bakı şəhərinə köçərək burada müxtəlif vəzifələrdə çalışmışdır. İctimai xadim Saleh Güllüçinski Azərbaycan K(b)P MK-nin yanında fəaliyyət göstərən Kənd Təsərrüfatı Məktəbinin rektoru olmuşdur. 1937-ci ildə amansız repressiyanın qurbanı olaraq güllələnmişdir.

Əhməd Haşimov İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Seminariyanı bitirdikdən sonra Çobankərə

kəndində müəllim işləmişdir. 1922-ci ildə Naxçıvan Xalq Maarif Komissarı vəzifəsini əvəz etmişdir. Naxçıvanda çıxan "Şərq qapısı" qəzetinin nəşr edilməsində onun da xidməti vardır. 1923-cü ildə "Şərq qapısı" qəzetinin redaktoru olmuşdur.

Əhməd bəy Qazıyev İrəvan şəhərində anadan olmuşdur. O 1891-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Seminariya tərəfindən ona verilən 223 nömrəli şəhadətnaməni imzalayanlar arasında bu təhsil ocağının Azərbaycan şöbəsinin müdiri Axund Molla Məhəmmədbağır Qazızadənin də imzası vardır. Sonralar o Moskvada ali təhsil almışdır. Amma bəzi çətinliklər səbəbindən təhsilini davam etdirə bilməyib geri qayıtmışdır. Bir müddət Şərur (Noraşen) rayonunun Yengicə kənd məktəbində müəllim işləmişdir. 1896-cı ildən isə Yaycı kəndinə müəllim təyin edilmişdir.

TağI Bəy Səfiyev Sərur rayonunun Cəlilkənd kəndində anadan olmuşdur. İlk təhsilini Cəlil Məmmədquluzadənin dərs dediyi məktəbdə almışdır. 1889-cu ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. 1893-cü ildə seminariyanı bitirdikdən sonra Cəlilkənd məktəbində müəllimlik etmişdir. 1895-1896-cı illərdə Cəlil Məmmədquluzadənin müdiri oldu-

Tağı bəy Səfiyev

gu məktəbdə müəllim kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. "Molla Nəsrəddin" satirik jurnalında bir sıra məqalələri çap olunmuşdur. 1921-ci ildə Qars müqaviləsinin imzalanmasında Naxçıvanın təmsilçisi kimi iştirak etmişdir. 1920-ci illərdə də pedaqoji fəaliyyətini davam etdirmişdir. O, 1937-ci ildə amansız repressiyaların qurbanı olmuşdur.

Haşım bəy Vəzirov 4 fevral 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini Şuşa şəhərində almışdır. Şuşa şəhər məktəbini bitirdikdən sonra İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. Seminariyanı uğurla başa vurduqdan sonra, ilk dəfə İrəvan yaxınlığındakı Böyük Vedi kəndində müəllimlik fəaliyyətinə başlamışdı. Sonralar isə Bərdə, Şəki və Şuşa şəhərlərində müəllimlik etmiş və məktəb müdiri işləmişdir.

Haşım bəy Vəzirovun maarifçilik fəaliyyətinin müəyyən dövrü Şuşa şəhəri ilə bağlı olmuşdur. Haşım bəy Vəzirov 1898-ci il oktyabr ayının 6-da Şuşada açılan ikisinifli rus-tatar məktəbinə müdir təyin edilir. Haşım bəy təkcə müəllimlik fəaliyyəti ilə deyil, eyni zamanda milli mətbuatımızın inkişafında da böyük rol oynamışdır. O 1907-1916-cı illərdə "Tazə həyat", "İttifaq", "Səda", "Sadayi Vətən", "Sədayi Həqq", "Məzəli" və s. mətbuat orqanlarını nəşr etdirmişdir. Haşım bəyin Azərbaycanda kitab nəşri sahəsində də böyük rolu olmuşdur. Onun "Döymə qapımı, döyərlər qapını", "Evlənmək su içmək deyil", "Xan-xan" adlı komediyaları işıq üzü görmüş və teatr səhnələrində oynanılmışdır. O, tərcüməçilik sənəti

ilə də məşğul olmuş, Şekspirin məşhur "Otello" əsərini doğma dilimizə tərcümə etmişdir. Haşım bəy 1916-cı ildə vəfat etmişdir.

Mirzə Cəlil oğlu Mirzəyev– "Şürbi" 1874-cü ildə fevral ayının 12-də Naxçıvan şəhərində anadan olmuşdur. 1888-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. 1892-ci ildə seminariyani bitirdikdən sonra Şərur-Dərələyəz qəzasının Aralıq məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. İki il Aralıq məktəbində işlədikdən sonra 1894-cü ildə Cəlil Məmmədquluzadənin müdiri olduğu Nehrəm məktəbində müəllim kimi çalışmağa başlayır. Bir müddət burada işlədikdən sonra Naxçıvan şəhər ibtidai məktəbində müəllimlik fəaliyyətini davam etdirir. 1903-1908-ci illərdə Ordubad qəzasının Vənənd kənd məktəbinin, 1909-1913-cü illərdə isə Naxçıvan şəhər rus-tatar məktəbinin müdiri olmuşdur. Səmərəli pedaqoji fəaliyyətinə görə "Kollec regisratoru" rütbəsi almışdır.

Cəlil Məmmədquluzadənin dəstəyi ilə teatr sənətinə cəlb edilmiş və Naxçıvan teatrında bir sıra rolların, o cümlədən qadın rollarını da etmişdir. O, Naxçıvanın ədəbi-mədəni mühitində fəal iştirak etmişdir.

Mirzə Cəlil Mirzəyev 27 avqust 1914-cü ildə müəllim işləmək üçün Şahbuz rayonuna göndərilir. Amma onu müəyyən bəhanələrlə tutduğu müəllimlik vəzifəsindən azad edirlər.

"Şürbi" təxəllüsü ilə klassik üslubda xeyli şeirlər yazmışdır. Onun yazdığı şeirlərdə geriliyə, cəhalətə qarşı

tənqidi və yeniliyə, maarifçiliyə, elmə çağırış ifadə edən fikirlər "Şurbi" nin şeirlərində açıq şəkildə təzahür edir. O "Molla Nəsrəddin" jurnalının Naxçıvan üzrə təmsilçisi kimi çox böyük fəaliyyət göstərməklə yanaşı eyni zamanda onun yayımını da təşkil edirdi. Onun "Molla Nəsrəddin" jurnalında, "Şərqi-rus" qəzetində bir sıra məqalələri dərc olunmuşdur. Şair, tərcüməçi, maarifçi Mirzə Mirzəyev (Şürbi) 1915-ci ildə vəfat etmişdir.

Rəşid İsmayılov

Rəşid Bəy Əsəd Bəy oğlu ismayIlov 1877-ci ildə İrəvan şəhərində kübar ailəsində anadan olmuşdur. Orta təhsilini İrəvandakı rus-tatar məktəbində almışdır. 1888-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1892-ci ildə buranı bitirmişdir. Yeri gəlmişkən, onu da qeyd edək ki, qardaşı Mehdi bəy Əsəd bəy oğlu İsmayılov Azərbaycan Ticarət Kooperativ İnstitutunun (indiki ADİU-nun) ilk direktoru olmuşdur. Böyük qardaşı Kərim bəy Əsəd bəy oğlu İsmayılov isə Qori müəllimlər Seminariyasının məzunu olmuş, "Molla Nəsrəddin" satirik jurnalının ən aktiv əməkdaşlarından idi. Atası Əsəd bəy 1894-cü ildə ailəliklə Şəkiyə (Nuxa şəhərinə) köçmüşdür. Rəşid bəy 1902-ci ildə Tiflis şəhərinə köçür. 1903-cü ildə "Şərqi-rus" qəzetində bu mətbuat orqanın redaktoru Mə-

həmməd ağa Şahtaxtinski, Cəlil Məmmədquluzadə, Ömər Faiq Namanzadə və başqaları ilə birlikdə çalışmağa başlayır.

"Şərqi-rus" qəzeti Qafqaz senzura komitəsinin təzyiqlərindən sonra öz fəaliyyətini dayandırmağa məcbur olur. Həmin dövrdə Tiflisdə yaşayan Rəşid bəy İsmayılov 1905-ci ildə "Tazə zaman" adlı qəzet çıxarmaq üçün Qafqaz senzura komitəsinə müraciət edir. Həmin komitədə məsul vəzifələrdə çalışan ermənilər Kişmişev və Qaraxanovun donosu əsasında panislamizm ideyasının daşıyıcısı olduğunu "əsas" gətirərək onun bu ideyasını gerçəkləşdirməyə imkan verməmişdilər.

Dövrün tanınmış ziyalıları ilə olan dostluq və yaradıcılıq əlaqələri onun fəaliyyət arealını daha genişləndirməyə göstərmişdir. Böyük imkan yaratmışdı. Digər bir tərəfdən isə rus dilini mükəmməl bildiyindən Cənubi Qafqazda və Rusiyada nəşr edilən mətbuat orqanlarında da mütəmadi çıxışlar etməsi də onun nüfuzunun artmasına böyük təsir edirdi. Qeyd etdiyimiz kimi, "Şərqi-rus" qəzetinin fəaliyyəti dayandırıldıqdan sonra Rəşid bəy "Novoye obozreniya" qəzetinin Yaxın Şərq və müsəlman şöbəsinə rəhbərlik edir.

Rəşid bəy publisist fəaliyyətlə yanaşı, elmi araşdırmalarla da məşğul olub. Onun 1904-cü ildə Tiflisdə "Şərqi-rus" qəzetinin mətbəəsində "Müxtəsər Qafqaz tarixi və Zaqafqaziyada zühur edən məşhur türk ədib və şairlərinin müxtəsər tərcümeyi halları" kitabı nəşr edilmişdir. Rəşid bəy İsmayılov Xalq Cumhuriyyəti dövrün-

də Nazirlər Şurasında məsul vəzifədə çalışmışdır. 1918-ci ildə İrəvanda ermənilərin azərbaycanlılara qarşı törətdikləri total qırğınlar zamanı 15 yanvar 1919-cu ildə Bakıda keçirilən İrəvan quberniyasında yaşayan azərbaycanlıların fövqalədə iclasında təsis edilən "Həmyerlilər cəmiyyəti"nin məsul katibi secilmiş və bu yöndə səmərəli fəaliyyət göstərmişdir. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qrulduqdan sonra Bakıdakı 18 saylı məktəbdə tarix müəllimi işləmişdir. 1923-cü ildə "Azərbaycan tarixi" adlı kitabı nəşr edilmişdir. 1937-ci ildə amansız repressiyanın qurbanlarından olmuşdur. Milli mətbuatımızın yaranmasında, inkişafında əvəzsiz xidmətləri olan, tərcüməçi, pedaqoq, mətbuat xadimi Rəşid bəy İsmayılov 1964-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Vahid Musabəyov 1 avqust 1864-cü ildə Qutqaşendə (indiki Qəbələ) anadan olmuşdur. 1885-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. 1889-cu ildə seminariyanı bitirmişdir. Seminariyada aldığı təhsil onun pedaqoji baxışlarının formalaşmasına güclü təsir göstərmişdir. Araşdırmalar göstərir ki, o seminariyanı təhsil aldığı illərdə nümunəvi tələbələrdən olmuşdur. Seminariyanı bitirdikdən sonra o Yelizavetpol quberniyasının Nuxa qəzasının Qutqaşan kəndində 1 sinifli məktəbə müəllim təyin edilir. Məktəbdə tədris Azərbaycan və rus dilində aparılırdı. Məktəbin müdiri və ilk müəllimi görkəmli Azərbaycan pedaqoqu və maarifçisi Rəşid bəy Əfəndiyev olmuşdur. Rəşid bəyin təlim üsulunu onun davamçısı Vahid Musabəyov davam etdirirdi. Vahid Musabə-

yov 55 il fasiləsiz olaraq Qutqaşen kənd məktəbində rus dili fənnini tədris etmişdir. Nuxa qəzasında müəllimlər 1893-cü ildə həmin məktəbdə keçirilmişdir. V.Musabəyov 34 il həmin məktəbin müdiri olmuşdur. V.Musabəyovun pedaqoji fəaliyyəti bütün Nuxa qəzasında təlim üsulu kimi tətbiq edilmişdi. V.Musabəyov 1925-ci ildə Nuxa dairəsindən Ümumrusiya müəllimlər qurultayına nümayəndə seçilmiş, 1931-ci ildə Azərbaycan müəllimlər qurultayının nümayəndəsi olmuşdur. 15 oktyabr 1931-si ildə "Əmək qəhrəmanı" adına layiq görülmüş və bir sıra fəxri fərman, mükafatlarla təltif edilmişdir. 13 may 1943-cü ildə vəfat etmişdir.

Həsən Axund Molla Xəlil oğlu Qazıyev 1879-cu ildə İrəvan şəhərində anadan olmuşdur. O 1891-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. 1896-cı ildə İrəvan Müəllimlər Seminariyasını birtirdikdən sonra Uluxanlı məktəbinə rus dili müəllimi təyin edilmişdir. 1918-ci ilə kimi İrəvanda müxtəlif azərbaycanlı məktəblərində rus dili fənnini tədris etmişdir. Həsən bəy və qardaşı Abdulla bəy İrəvan quberniyası müsəlmanlarının dini icmasının üzvü idi. O 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar zamanı Naxçıvan şəhərinə köçmüş və buradakı müxtəlif məktəblərdə rus dili müəllimi işləmişdir. XX əsrin 20-50-ci illərində Naxçıvanda maarifin inkişafında böyük xidmətləri olmuşdur. Uzuzn müddət Naxçıvan pedaqoji texnikumunda rus dili fənnini tədris etmişdir. Səmərəli pedaqoji

fəaliyyətinə görə "Əməkdar müəllim" adına layiq görülmüşdür. 1950-ci ildə vəfat etmişdir.

Əli İbrahimov

Əli Əzim oğlu İbrahimov 1894-cü ildə Ağdamda anadan olmuşdur. Həmin müddət xalq maarifi sahəsində fəaliyyət göstərmişdir. Ə. İbrahimov 1910-cu ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1914-cü ildə bu təhsil ocağını bitirmişdir. Sonra inqilabi hərəkata qoşulmuş və bu hərəkatın fəallarından biri olmuşdur. O, 1914-cü ildən 1916-cı ilə qədər Böyük Vedi kəndində müəllim işləmişdir. 1916-cı ilin əvvəllərində Ağdama köçmüş və burada rus dili fənnini tədris etmişdir.

Həsən Səfərli

Həsən Səfər oğlu Səfərli 1888-ci ildə noyabr ayının 23-də Naxçıvanda anadan olmuşdur. İbtidai məktəbi bitirdikdən sonra, 1913-cü ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. Semi-

nariyada təhsil aldığı vaxtlarda təhsil ocağındakı dram dərnəyinin fəal üzvlərindən biri olmuşdur. İrəvan teatr truppasında da epizodik rollarda səhnəyə çıxıb. 1917-ci ildə seminariyanı bitirdikdən sonra Naxçıvana qayıdıb və həmin ildən müəllimlik fəaliyyəti ilə yanaşı, həvəskarlar truppasında, 1931-ci ilə qədər Naxçıvan Dram teatrında aktyor, rejissor, baş rejissor kimi çalışıb. Pambıqçılıq texnikumunda, İkiillik Müəllimlər İnstitutunda dərs deyib. 1965-ci ildə Naxçıvanın "Əməkdar müəllimi" fəxri adına layiq görülüb.

Fərrux bəy Əlikişi oğlu Ağakişibəyov 1879-cu ildə Şuşa qəzasının Pərioğlular (indiki Ağdam rayonunun Pərioğlular kəndi) kəndində anadan olmuşdur. 1895-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1899-cu ildə bu təhsil ocağını bitirmişdir. Seminariyanı bitirdikdən sonra Zəngəzur qəzasının Lənbəran, Qarıqışlaq, Minkənd kənd məktəblərində və o cümlədən Gəncə şəhər məktəbində dərs demişdir. F.Ağakişibəyov 1909-1914-cü illərdə Odessa Universitetinin tibb fakültəsində ali təhsil almışdır. Odessa qəzasında, Odessa-Poltava cəbhəsində həkim işləmişdir. 1915-ci ildə Odessa cərrahi hospitalın ordinator qəbul edilmişdir.

Fərrux bəy Ağakişibəyov 1918-ci ildə Azərbaycana qayıtmış, qısa zamanda ölkəmizdə cərrah kimi böyük nüfuz qazanmışdır. O, Şuşa xəstəxanasında cərrah işləmiş, 1920-ci ildə isə həmin rayonun səhiyyə şöbəsinin müdiri olmuşdur. Onun təşəbbüsü və təşkilatçılığı ilə 1922-ci ildə Ağdam rayonunda xəstəxana, ambulatoriya

yaradılmışdır. 1925-ci ilə Ağdamda tikilən üç korpuslu xəstəxana və yardımçı binalar da onun təşəbbüsü sayəsində tikilmişdir. 1936-cı ildə Ağdamda tibb məktəbinin açılması da F.Ağakişibəyovun adı ilə bağlıdır. 1925-ci ildə həkimlərin Mockvada keçirilən I Ümumittifaq qurultayının nümayəndəsi olmuş F.Ağakişibəyov 1942-ci ildə Azərbaycanın "Əməkdar həkim"i adına layiq görülmüşdür. O 1956-cı ildə Bakıda vəfat etmişdir.

Fəraməz Mahmudbəyov İrəvan qəzasının Qəmərli bölgəsində anadan olmuşdur. İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. Böyük Vedi dördillik məktəbinin ilk müəllimi və təşkilatçılarından biri olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvanda İnqilab Komitəsinin tərkibinə daxil olmuş üç nəfərdən biri Fəraməz Mahmudbəyov olmuşdur. Abbasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"in tərkibində ermənilərə qarşı vuruşmuşdur. 1920-ci illərdə "Şərq qapısı" qəzeti ilə yaxından əməkdaşlıq etmişdir. Naxçıvanda maarifçiliyin inkişafında xidmətləri olan Fəraməz Mahmudbəyov həm də dövlət xadimi kimi də xalqımızın tarixinə daxil olmuşdur.

Məmməd bəy Lütfəli bəy oğlu Qazıyev 1867-ci ildə İrəvan şəhərində anadan olmuşdur. 1882-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1886-cı ildə seminariyanı bitirmişdir. 1886-cı ildə seminariyanı bitirdikdən sonra təyinatla Uluxanlı məktəbinə müəllim vəzifəsinə göndərilmişdir. Səhhəti ilə bağlı olaraq 1887-ci ildə Uluxanlı məktəbinin müəllimi vəzifəsindən azad olun-

muşdur. 1888-ci ildə Noraşen (indiki Şərur) ikisinifli məktəbinin müdiri kimi fəaliyyət göstərmişdir. Məmməd bəy 1896-cı ildə yenidən Uluxanlı məktəbinə nəzarətçi təyin edilir və ömrünün sonuna kimi Uluxanlı məktəbində çalışır. Maarif sahəsindəki xidmətlərinə görə üçüncü dərəcəli "Müqəddəs Anna" ordeni təltif edilmişdir.

Hüseynəli bəy Həsən bəy oğlu Rüstəmbəyov 1878-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini mollaxanada almış, sonra isə Şuşa realnı məktəbində oxumuşdur. O İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 19 sentyabr 1895-ci ildə Şuşada III dərəcəli xüsusi məktəb açmışdır. Amma müəyyən səbəblərdən məktəb bir il fəaliyyət göstərmişdir. Hüseynəli bəy Rüstəmbəyov işini Şamaxı qəzasının Lahıc kənd məktəbinə dəyişməsi ilə əlaqədar olaraq məktəb fəaliyyətini dayandırmışdı. O 2 dekabr 1920-ci ildə Şuşa şəhərində vəfat etmişdi.

Ağabəy Rəhimbəy oğlu Firudinbəyov 1885-ci ildə İrəvanda anadan olub. 1901-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olub, 1905-ci ildə seminariyanı bitirib. 1905-ci ildən 1915-ci ilə kimi müxtəlif məktəblərdə müəllim kimi çalışıb. 1915-ci ildə İrəvan quberniya idarəsində çalışmağa başlayıb. 1917-ci ilin dekabr ayından həmin idarənin katibi təyin edilib.

İbrahim Qafar oğlu Səfiyev 1898-cu ildə Naxçıvanın Şərur rayonunda anadan olmuşdur. İlk təhsilini Şərurun Cəlilkənd məktəbində almışdır. 1909-cu ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş 1906-cı ildə oranı bitirmişdir.

İbrahim Səfiyev

Seminariyada təhsil aldığı illərdə peşəkar rəssam olmaq arzusunu gerşəkləşdirməyi qarşısına məqsəd qoyan İbrahim 1920-ci ildə Türkiyədə keçirilən Avropa rəssamları müsabiqəsinin mükafatına layiq görülmüşdür. Moskva Rəssamlıq Universitetinə daxil olmuş, amma müəyyən səbəblərə görə təhsilini davam etdirə bilməyib Naxçıvana geri qayıtmışdır. Geri dönməsinin əsas səbəbi isə 1917-ci ildə Rusiyadakı inqilabi hadisələr olmuşdur. Sonra isə I Dünya müharibəsi illərində Zaqafqaziyadakı ordunun tərkibində Türkiyəyə yollanır və bir daha geri qayıtmır. Ömrünün sonuna qədər Türkiyədə yaşayır. 1923-cü ildə Türkiyədə Gözəl Sənətlər Akademiyasının məzunu olur. 1924-cü ildən sərgilərdə iştirak etməyə başlayır. Türkiyədə İbrahim Səfi kimi tanınmağa başlayan rəssam 1924-1925-ci illərdə Atatürkün portretini çəkən ilk rəssamlardan olmuşdur. Onun Fransa, ABŞ, Avstriya, İsveçrə və digər ölkələrdə sərgiləri nümayiş etdirilmişdir. Əsərləri Türkiyə və o cümlədən Azərbaycan İncə-

Məmməd Nəsirbəyov

sənət Muzeyində saxlanılır. Görkəmli rəssam İbrahim Səfi 4 yanvar 1983-cü ildə Türkiyədə vəfat etmişdir.

Məmməd Həsən oğlu Nəsirbəyov 6 iyun 1897-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1907-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuşdur. 1911-ci ildə seminariyanı bitirmişdir. Gözəl, məlahətli səsə malik olan Məmməd Naxçıvan şəhər məktəbinin xor kollektivində və eyni zamanda konsertlərdə solo ifaçısı kimi çıxışlar edir. 1914-cü ildə ailəsi ilə birlikdə Bakıya köçən Məmməd xalq musiqisinin öyrənilməsinə böyük maraq göstərir və tar çalmağı öyrənir. Musiqi sənətinə olan güclü həvəs onun xalq mahnı və rəqslərinə, muğamlarına olan marağını daha da artırır. 1923-cü ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə açılan musiqi məktəbinə daxil olur. 1927-ci ildə isə Bakı Musiqi Texnikumunda təhsilini davam etdirir. 1932-ci ildə Məmməd Nəsirbəyov Pyotr Çaykovski adına Moskva Konservatoriyasında professor Litinskidən kompozisiya və Polifoniyadan dərs almışdır. Bir ildən sonra Bakıya qayıdıb Bakı Konservatoriyasında Leapold Rudolfun, Pyotr Ryazanovun, Boris Zeydmanın sinfində təhsilini davam etdirir. Azərbaycan xalq musuqisinin əsaslarını isə böyük bəstəkarımız Üzeyir Hacıbəyovdan öyrənmişdir. O bir sıra musiqi alətlərində fortepiano, valtorna, skripka çalmağa yiyələnmişdi. O, 1940-cı ildə Bakı Konservatoriyasının bəstəkarlıq fakültəsini bitirmişdir. O xeyli sayda əsərlər bəstələmişdir. Onun təşəbbüsü sayəsində Bakının Suraxanı, Maştağa bölgələrində musiqi məktəbləri açılmışdır.

Məmməd Nəsirbəyov pedaqoji texnikumda, teatr texnikumunda, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda dərs demiş, musiqi sahəsində neçə-neçə sənətkarın yetişməsində böyük rolu olmuşdur. Yaradıcılıq sahəsində göstərdiyi xidmətlərə görə də müxtəlif fəxri fərman və medallarla təltif olunmuşdur.

Əkbər Mehdi oğlu Əkbərov İrəvan şəhərində anadan olmuşdu. 1898-ci ildə İrəvanda Haşım bəyin açdığı rus-tatar məktəbinə daxil olmuşdur. 1903-cü ildə məktəbi uğurla başa vuran Əkbər Əkbərov həmin ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1907-ci ildə oranı bitirmişdir. Seminariyanı bitirdikdən sonra bir müddət Təbriz şəhərində müəllim işlədikdən sonra 1911-ci ildə İrəvana qayıdıb vaxtilə özünün təhsil aldığı Haşım bəyin məktəbində müəllim kimi çalışmağa başlamışdır.

Heydər Vəzirov

Heydər Sadiq oğlu Vəzirov 1893-cü ildə Naxçıvanın Nehrəm kəndində anadan olmuşdu. İbtidai təhsilini 1894-cü ildə Naxçıvan şəhərində Məhəmməd Tağı Sidqi tərəfindən açılan "Məktəbi-tərbiyyə"də almışdı. 1943-cü ildə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 1914-1918-ci illərdə Birinci Dünya müharibəsi başlanan qısa müddətdə hərbi məktəbdə təhsil almışdır. 1925-ci illərdə

Göyçay Qəza İcraiyyə Komitəsinin sədri, 1927-ci ildə Gəncə Qəza İcraiyyə Komitəsini sədri, 1931-ci ildə Zaqafqaziya Xalq Torpaq komissarı, 1933-cü ildə Azərbaycan Torpaq komissarı vəzifəsinə təyin edilir. 1937-ci il iyul ayının 21-də əksinqilabçı kimi həbs edilərək güllələnmişdir.

Sadıq Xəlilov 1864-cü il dekabr ayının 20-də Naxçıvan şəhərində anadan olmuşdur. Fəal maarifçilərdən biri olmuş, bütün qüvvəsini yorulmadan milli maarifimizin inkişafına həsr etmişdir. Onun təkcə müəllim kimi deyil, eyni zamanda milli teatr sənəti sahəsində də böyük xidmətləri olmuşdur. 1886-cı ildə İrəvan Müəllimlər Seminariyasını bitirən Sadıq Xəlilov ilk pedaqoji fəaliyyətinə elə həmin ildə Yengicə ibtidai məktəbində başlamışdır. 1888-ci ildə Nehrəm ibtidai məktəbinə dəyişilmiş, 1892-ci ildə isə yenidən Yengicə ibtidai məktəbində pedaqoji fəaliyyətini davam etdirmişdir. 1901-ci ildə isə Naxçıvandakı üçsinifli şəhər məktəbinə Azərbaycan dili və şəriət müəllimi təyin edilir. Sadıq Xəlilov 1905-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar və qırğınlar zamanı qəddarcasına qətlə yetirilmişdir.

Ibadulla bəy Muğanlinski

Ibadulla Bəy Muğanlinski 1879-cu ildə İrəvan şəhərində anadan olmuşdur. 1902-ci ildə İrəvan Müəllimlər Seminariyasını bitirmişdir. 1906-cı ildə İrəvanda açdığı III dərəcəli məktəbdə rus dili Müəllimi işləmişdir. İbadulla bəyin açdığı məktəbdə rus-tatar məktəbləri üçün şagird hazırlayan yüksək biliyə malik olan müəllimlər dərs deyirdi. 1915-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar zamanı Bakı şəhərinə köçmüşdür. 1919-cu illərdə Bakı Realnı Məktəbində müəllim vəzıfəsində çalışmışdır. 1922-ci ildə İrana köçmüş və burada müxtəlif vəzifələrdə çalışmışdır.

1948-ci ildə İranda vəfat etmişdir.

İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ XƏLƏFİ İRƏVAN AZƏRBAYCANLI PEDAQOJİ MƏKTƏBİ

1918-20-ci illərdə İrəvan şəhəri tarixinin ən gərgin və acınacaqlı dövrlərindən birini yaşamışdır. Erməni daşnaklarının hökmranlığı dövründə törədilən kütləvi qırğın aksiyaları zamanı İrəvan şəhərinin azərbaycanlılar yaşayan məhəllələri alt-üst edilərək xarabalığa çevrilmiş və 14.000 nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir. Erməni quldurları təkcə İrəvan şəhərində deyil, azərbaycanlılar yaşayan bütün bölgələrdə – Üçmüədzin, Zəngibasar, Ağbaba, Vedi, Qəmərli, Basarkeçər, Zəngəzur, Dərələyəz, Allahverdi və s. rayonlarda son dərəcə vəhşi üsullarla misli görünməmiş tarixi cinayətlər törətmişdilər. Belə ki, 1918-20-ci illərdə erməni millətçiləri tərəfindən 300-dən artıq azərbaycanlı kəndi yerlə yeksan edilmiş, on minlərlə dinc sakin kütləvi şəkildə qətlə yetirilmişdir. Xalqımıza məxsus bir çox mədəniyyət, maarif ocaqları dağıdılmışdı.

Bununla da 1918-20-ci illərdə ermənilər tərəfindən azərbaycanlıların total şəkildə məhv edilməsi İrəvan ədəbi-mədəni mühitinin tənəzzülə uğramasına səbəb olmuşdu. Ədəbi-mədəni mühitin görkəmli nümayəndələrinin bir qismi məhv edilmiş, bir qismi isə amansızcasına qətlə yetirilməkdən xilas olmaq üçün Türkiyə, İran, Azər-

baycan, Orta Asiya və başqa ölkələrə üz tutmuşdular. Bununla da İrəvanda yaşlı nəslə mənsub ziyalı qalmadığından, nəsillər arasında sələf-xələf münasibətləri tamamilə pozulmuşdu. Şübhəsiz ki, bu, İrəvan ədəbi məktəbinin yaradıcı potensialına təsir etməyə bilməzdi.

Bütün bunlara baxmayaraq, 1920-ci il noyabr ayının 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra başqa respublikalarda olduğu kimi, burada da məktəb və maarif probleminə münasibət dəyişərək, təhsilin inkişafı tarixində yeni bir mərhələ başlandı. Bolşevik rejimi 1920-ci ilin noyabr ayının 29-na qədər Ermənistanda mövcud olan təhsil sistemindən imtina edərək, yeni tipli sovet təhsil sisteminin yaradılmasını ön plana çəkdi. Elə ilk gündən başlayaraq xalq maarifinin inkişafına ciddi səy göstərildi və bir sıra mühüm tədbirlər həyata keçirilməyə başlandı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan 7 gün sonra Ermənistan İnqilab Komitəsi 6 dekabr 1920-ci ildə bütün məktəblərin dövlət ixtiyarına keçməsi haqqında dekret imzalayır. Həmin dekretdə Ermənistanda yaşayan hər bir xalqa ana dilində pulsuz ibtidai təhsil almaq və təhsildə bərabər hüquqa malik olmaq hüququ verilirdi.

1921-ci il dekabr ayının 17-də Ermənistan Xalq Maarif Komissarlığının verdiyi əmrə əsasən köhnə tipli məktəblər ləğv olunaraq, məzmunca yeni tipli sovet məktəblərinin təşkilinə başlanıldı. Ermənistan Maarif Komissarlığının verdiyi əmrdə açılacaq yeni tipli məktəblərin

strukturu, təlimin məzmunu və s. qaydaları ümumi şəkildə olsada məyyənləşdirildi.

Yeni tipli məktəblərin təşkili ilə əlaqədar olaraq 1921-ci il aprel ayının 23-də Ermənistan Xalq Maarif Komissarlığının verdiyi əmrdə göstərilirdi ki, respublikada yaşayan azərbaycanlılar öz ana dilində təhsil almalıdırlar (6; 3; s.54). Bundan başqa, xarici dillərdən birinin öyrənilməsi isə məcburi hesab edilirdi.

Beləliklə, azərbaycanlı məktəblərinin yeni məzmunda təşkili istiqamətində ilk addımlar atılaraq birillik, ikillik və xüsusi məktəblər ləğv edildi. Yeni tipli ibtidai, yeddillik, səkkizillik və tam orta məktəblər təşkil edilməyə başlandı. Sovet hakimiyyətinin ilk illərində İrəvanda, Uluxanlıda, Vedibasarda, Ağbabada və s. bölgələrdə, kəndlərdə ilk məktəblər təşkil olunmağa başladı. Yeni tipli məktəblər təşkil edildikdən sonra İrəvanda və eləcə də azərbaycanlılar yaşayan bütün bölgələrdə doğma dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına təkan verdi. Qərbi Azərbaycanda 1922-23-cü illərdə 36, 1924-cü ildə 62, 1929-30-cu illərdə 112, 1931-ci ildə isə 245 azərbaycanlı məktəbi fəaliyyət göstərirdi ki, bunlardan da 45-i İrəvan qəzasında idi (3, s.55). Həm də Azərbaycan məktəblərində şagirdlərin sayının sürətlə atrmasının əsas səbəblərindən biri də 1918-1920-ci illərdə erməni daşnaklarının zülmü nəticəsində ən qəddar üsullarla qətlə yetirilməkdən xilas olmaq üçün doğma yurdlarını tərk etmiş soydaşlarımızın Ermənistanda sovet hakimiyyəti qurul-

duqdan sonra bir qisminin yenidən öz vətənlərinə geri dönməsi ilə bağlı idi.

Milli dilimizdə təhsil ocaqları şəbəkəsinin genişlənməsi və idarə edilməsi, orada təhsil alan şagirdlərin sayının sürətlə artması müəllim kadrlarına olan tələbatı daha da artırırdı.

Azərbaycanlı əhali arasında mədəni-maarif işlərini gücləndirmək məqsədilə 1922-ci ildə Ermənistan Xalq Maarif Komissarlığı nəzdində "Azlıqda qalan millətlər bürosu" təşkil edildi. Həmin büroya İrəvanın tanınmış maarifçilərindən olan Mehdi Kazımov müdir təyin olunmuşdu. Bu büronun tərkibinə müxtəlif millətlərin nümayəndələri daxil idi. "Azadlıqda qalan millətlər bürosu" 1923-cü ilin iyun ayında "Azlıqda qalan millətlər şurası"na çevrildi. Bu şöbə tədris proqramlarının, dərsliklərin əldə olunması, çap edilməsi, müəllim kadrlarının hazırlanması, gecə kurslarının və təlim-tərbiyə məsələlərinin təşkili, zəhmətkeş balalarının hamılıqla təhsilə cəlb edilməsi kimi mühüm işlərlə məşğul olurdu. Azərbaycan məktəblərinin müəllim kadrları ilə təmin olunması üçün, 1922-ci ildə Ermənistan K(b)P MK-nin yanında yaradılmış "Azsaylı xalqlar şöbəsi" və onun müdiri Bala Əfəndiyev, Ermənistan Xalq Maarif Nazirliyinin nəzdində təşkil edilmiş "Azlıqda qalan millətlər şurası"nın müdiri Mehdi Kazımovun səyi nəticəsində 1922-ci ildə İrəvanda xüsusi hazırlıq kursları təşkil edildi. Həmin illərdə müəllimlik kurslarından keçmiş şəxslər müəllim kadrları kimi məktəblərə göndərilirdi. Sovet hakimiyyətinin ilk illə-

rində İrəvan şəhərində, Uluxanlı, Qorçulu, Haçaparak, Zirək, Zöhrablı, Göykümbət, Çarbax, Şurnuxu, Yarpızlı, Narınbağ, Təkərli, Murxuz, Şəhərcik, Qaraçanta, Güllübulaq, Zəhmət, Ğığı, Aldərə, Çiləxanlı, Gülüdüz, Zod, Böyük Vedi, Çobankərə, Hacı Elyas, Əcili, Qızıldaş və digər kəndlərdə ilk yeni tipli məktəblər təşkil olundu.

Görülən bütün tədbirlərə baxmayaraq, bu hazırlıq kursları da İrəvanda milli məktəblərimizin müəllim kadrlarına olan tələbatını ödəyə bilmirdi. Məsələn, 1922-1923-cü dərs ilində Ermənistanda olan 36 Azərbaycan məktəbində 1521 şagird təhsil alırdısa, 1931-ci dərs ilində Azərbaycan məktəblərinin sayı artaraq 245-ə çatmış və orada təhsil alanların sayı isə 19362 nəfər təşkil edirdi.

Azərbaycanlı ziyalılar tərəfindən ana dilli məktəblər üçün pedaqoji kadrlar hazırlayan tədris müəssisəsinin yaradılması məsələsi 30 yanvar 1922-ci ildə EK (b) P MK-nin birinci qurultayında qaldırılsa da, onların tələblərinə məhəl qoyulmamışdı.

Amma buna baxmayaraq , Azərbaycan məktəbləri üçün müəllim çatışmazlığı problemini həll etmək məsələsi yenə Azərbaycanlı ziyalıların qaşısında mühüm bir vəzifə kimi gündəlikdə qalırdı. Azərbaycanlı məktəbləri üçün pedaqoji kadrların hazırlanması məsələsi Ermənistan Kommunist Partiyasının 1923-cü il martın 29-da keçirilən ikinci qurultayında yenidən müzakirə olunmuşdu. Qurultayda Ermənistanda maarif və məktəb sahəsində mövcud vəziyyət geniş təhlil edilərək bir sıra mühüm qərarlar qəbul edilmişdi. Qurultayda EK(b)P MK-nin ya-

nında fəaliyyət göstərən "Azlıqda qalan millətlər" şöbəsinin müdiri Bala Əfəndiyev çıxış edərək öz təkliflərini vermişdir, hətta qurultayda azərbaycanlı məktəbləri üçün pedaqoji kadrların hazırlanması məsələsi ilə bağlı müvafiq qərar qəbul edilməsinə baxmayaraq, yenə də məsələ öz həllini tapmamışdı. Qəbul edilmiş qərarda müəllimlərin maddi vəziyyətini yaxşılaşdırmaq, yeni məktəb binalarının tikilməsi, məktəbyaşlı uşaqların, xüsusilə də qızların təhsilə cəlb edilməsi və s. bu kimi məsələlərdə öz əksini tapmışdır. Amma qurultayda Ermənistanın şovinist dairələri və eləcə də Xalq Maarif Komissarı A.Mravyan azərbaycanlı məktəblərini müəllim kadrları ilə təmin etmək üçün Azərbaycandan pedaqoji kadrların dəvət olunmasını daha məqsədəuyğun hesab edirdi. Ermənistanın şovinist dairələri isə azərbaycanlı məktəbləri üçün İrəvanda yerli pedaqoji kadrlar hazırlayan hər hansı bir təhsil müəssisəsinin yaradılması məsələsini məqsədli şəkildə, müxtəlif vasitələrlə əngəlləyirdilər. Burada bolşevik cildinə bürünmüş erməni daşnaklarının ən başlıca əsas məkrli məqsədlərindən biri azərbaycanlıların savadlanmasının, mədəni tərəqqisinin və gələcək perspektivlərinin hər vasitə ilə qarşısını almaq idi.

Azərbaycanlı məktəblərində pedaqoji kadrlara olan ehtiyacı, qismən də olsa, aradan qaldırmaq üçün Ermənistan K(b)P MK-nın "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyevin və Ermənistan Xalq Maarif Komissarlığının nəzdində fəaliyyət göstərən



Mehdi Kazımov

"Azlıqda qalan millətlər şurası"nın müdiri Mehdi Kazımovun təşəbbüsü və səyi nəticəsində 1922-ci ilin noyabr ayında İrəvanda 2 aylıq yay hazırlıq kursu təşkil edildi. İlk olaraq bu kurslar azərbaycanlı müəllimlərin hazırlanması işini canlandırdı. Azərbaycanlı məktəblərində çalışmaq üçün bu hazırlıq kursunu elə həmin ildə 30 nəfər bitirmişdi. Həmin hazırlıq kursunda Azərbaycan məktəbləri üçün 60-dan artıq müəllim hazırlanmışdı (16, s.31). Bundan başqa, Uluxanlıda, Vedidə, Basarkeçərdə, Zəngəzurda, Ağbabada və azərbaycanlılar yaşayan bölgələrdə də hazırlıq kurslarının təşkil edilmişdir. Bir çox pedaqoji kadrlar məhz belə kurslarda təhsil almaqla püxtələşmişdi. 1923-cü ilin sonlarında müxtəlif bölgələrdə təşkil edilmiş bu hazırlıq kurslarında 1926-cı ilə qədər 143 müəllim hazırlanmışdı ki, bunlardan da 6 nəfəri qadın idi (26, 27). Bu kursların təşkilində İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin aparıcı simalardan olan Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun, Miryusif Mirbabayevin, Əkbər Rzayevin, Rza Şeyxzadənin və başqalarının böyük rolu olmuşdur. Bu müəllim hazırlığı kurslarında nəzəri və təcrübi məşğələləri yuxarıda adlarını qeyd etdiyimiz şəxslərin özləri aparırdı.

Araşdırmalardan məlum olur ki, azərbaycanlı məktəblərində dərs demək üçün 1923-cü ilin ortalarında Ermənistan Xalq Maarif Komissarlığının nəzdində fəaliyyət göstərən "Azlıqda qalan millətlər bürosu"nun müdiri Mehdi Kazımov Azərbaycan Xalq Maarif Komissarlığına müraciət edərək İrəvanda və bölgələrdə müxtəlif ixtisaslar üzrə Azərbaycandan müəllim kadrların göndərilməsini xahiş etmişdir. Azərbaycan Xalq Maarif Komissarlığı Mehdi Kazımovun xahişini nəzərə alaraq 20-yə qədər müəllim göndərmişdi. Həmin pedaqoji kadrlar İrəvanda, Vedidə, Qəmərlidə, Basarkeçərdə və s. bölgələrdə müəllim kimi fəaliyyət göstərməklə yanaşı, həm də mədəni-maarif quruculuğu sahəsində də yaxından iştirak edirdilər. Əsl erməni xisləti azərbaycanlı məktəblərində dərs deyən həmin müəllimlərə dözülməz şərait yaratdığı üçün onlar da maddi və mənəvi sıxıntılara dözə bilməyib Ermənistanı tərk etməyə məcbur olurdular. Hətta müəllimlər aylarla maaş, onlara verilən ərzaq normalarını belə ala bilmirdilər. Erməni şovnizminin azərbaycanlı müəllimlərə qarşı yaratdığı bu problem uzun illər bu şəkildə davam etmişdir.

Müəllim çatışmazlığı problemini, qismən də olsa aradan qaldırmaq üçün Azərbaycan Xalq Maarif Komissarlığının razılığı əsasında İrəvandan Bakıya 1923-cü ildə 16, 1925-ci ildə 38, 1926-cı ildə 11, 1929-cu ildə isə 8 nəfər pedaqoji təhsil almaq məqsədilə müxtəlif ali təhsil müəssisələrinə göndərilmişdi. Mamed Həsənov, Zəhra Abbasova, Əziz Əzizov, Tacirə Bağırova kimi gənclər

Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirdikdən sonra İrəvana qayıdaraq maarifin inkişafına öz töhfələrini verirdilər.

Sovet hakimiyyətinin ilk illərində İrəvanda azərbaycanlı qızlar məktəbi, İrəvan yeddillik azərbaycanlı məktəbi, Əzizbəyov adına azərbaycanlı məktəbi, Asrıyev, Dzerjinski və Şaumyan adına beynəlmiləl məktəblərin isə azərbaycanlı bölmələri fəaliyyət göstərirdi. İlk vaxtlarda milli məktəblərimizdə müəllim kadrlarına böyük tələbat olduğundan, çox vaxt İrəvan 7 illik azərbaycanlı məktəbinin şagirdlərindən də dərs demək üçün istifadə edirdilər. Hətta qış tətilində Zaqafqaziya Kommunist Universitetində təhsil alan azərbaycanlı tələbələr İrəvanda və yerlərdə təşkil edilmiş səyyar məktəblərdə dərs deməyə dəvət edilirdi.

Bütün bunlara baxmayaraq, görülən bu tədbirlər müəllim kadrlara olan tələbatı ödəyə bilmirdi. Ermənistanın şovinist dairələri azərbaycanlı məktəbləri üçün pedaqoji kadrlar hazırlayan müstəqil tədris müəssisəsinin yaradılmasını isə istəmirdilər. Erməni şovinist dairələri Erməni Pedaqoji Texnikumunun nəzdində azərbaycanlı şöbəsinin açılmasını daha məqsədəuyğun hesab edirdilər. Müəllim çatışmazlığı probleminin aradan qaldırılması işini qaydaya salmaq üçün yerli kadrlar hazırlayan təhsil müəssisəsinin yaradılmasının təxirəsalınmaz tələbat olduğunu aydın dərk edən "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyevin "Azlıqda qalan millətlər şurası"nın müdiri Mehdi Kazımovun, "Zəngi" qəzeti-

Mustafa Hüseynov

nin məsul redaktoru Mustafa Hüseynovun, İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin aparıcı simalarından olan Əkbər Rizayevin, Qulam Fərhadovun, Rza Şeyxzadənin, Miryusif Mirbabayevin, Əhməd Əhmədovun, Abbas Fərəcovun, Murtuza Muradovun və başqa qeyrətli azərbaycanlı ziyalıların erməni şovinist dairələri qarşısında təkidli tələbi, ciddi səyi, siyasi və milli iradəsi sayəsində Ermənistan Xalq Maarif Komissarlar Şurası İrəvan Pedaqoji texnikumunun təşkil edilməsi barədə qərar qəbul etdi. Mövcud dövrün diktə etdiyi bu tələbi həyata keçirmək üçün qarşıya çıxan maneələr, çətinliklər yuxarıda adlarını çəkdiyimiz qeyrətli azərbaycanlı ziyalıları bu ali məqsədə çatmaq üçün apardıqları mübarizədən bir anda olsun belə geri çəkindirmədi. Onların bu tarixi xidmətin bu gündə dərin minntədarlıq hissi ilə yad edilir.

Beləliklə, 1924-cü ilin oktyabr ayının 15-də İrəvan Müəllimlər Seminariyasının xələfi olan İrəvan Türk Pedaqoji Texnikumu açıldı (16, s.11, 14). Onu da qeyd edək ki, erməni şovinizmi əhatəsində azərbaycanlı məktəbləri üçün müəllimlər hazırlayan belə bir təhsil ocağının açılmasının nə qədər ağır və çətin mübarizədən yarandığı barədə fikrimizcə, artıq şərhə ehtiyac yoxdur.

İrəvan Türk Pedaqoji Texnikumunun açılması sayəsində Azərbaycan məktəblərində müəllim kadrlara olan ehtiyacın aradan qaldırılması işinin müəyyən dərəcədə qaydaya salınması sahəsində ilk addım atıldı.

Texnikumunun ilkin fəaliyyət dövründə nəzər saldıqda məlum olur ki, Mehdi Kazımov direktor və rus dili müəllimi, Bala Əfəndiyev ictimaiyyət müəllimi, Əsgər Əsgərzadə ana dili müəllimi, Cəmil Əliyev təbiət müəllimi, Kərim Məhərrəmov isə texniki işlər üzrə köməkçi kimi fəaliyyət göstərmişdir. Texnikumda təhsil verməyə İrəvanın tanınmış qadın maarifçilərindən olan Bülbül Kazımova da cəlb edilmişdir. Bülbül Kazımova texnikumda dərs deyən ilk azərbaycanlı qadın idi. Zəngin təcrübəyə malik olan bu fədakar kollektiv tükənməz enerji ilə fəaliyyətə başlamışdır. Bu mərhələni Mehdi Kazımovun, Cəmil Əliyevin, əsgər Əsgərzadənin, Bülbül Kazımovanın pedaqoji fəaliyyətinin ikinci dövrü kimi də xarakterizə etmək olar. Onların ikinci dövr pedaqoji fəaliyyəti istər forma, istərsə də məzmun və keyfiyyət baxımından daha məhsuldar olmuşdur.

Bülbül Kazımova

Yuxarıda adlarını qeyd etdiyimiz müəllimlər özlərinin zəngin pedaqoji təcrübəsindən istifadə edərək texnikumun ahəngdar fəaliyyətini təmin etməyə var qüvvələri ilə çalışırdılar. Yeni

açılmış pedoqoji texnikumun heyyəti bu təhsil ocağının direktoru Mehdi Kazımovun rəhbərliyi ilə tələbələr üçün proqram, dərsliklər əldə etməyə və hazırlamağa başladı. Demək olar ki, texnikum fəaliyyətə başladığı ilk vaxtda burada dərs deyən müəllimlərin bəziləri əsasən orta təhsilə, bəziləri isə natamam orta təhsilə malik idi. Texnikumun direktoru Mehdi Kazımov isə İrəvan gimnaziyasını bitirmişdir. Onlar müəllimlik fəaliyyətinə hələ inqilaba qədər fəaliyyət göstərən məktəblərdə başlamış, kifayət qədər zəngin pedaqoji təcrübəyə malik ziyalılar idi. Bu müəllimlərin nümunəvi pedaqoji mahiyyət daşıyan fəaliyyətlərində biz eyni zamanda onların öz şəxsiyyətini, vətəndaşlıq simasını da görürük.

Bu təhsil ocağı 1925-ci ildə Nəriman Nərimanov adına İrəvan Türk Pedaqoji Texnikumu adlandı.

Araşdırmalardan məlum olur ki, İrəvanda bütün azərbaycanlı məktəblərində mövcud olan problemlər bu texnikumda da mövcud idi. Yeni yaranmış bu təhsil ocağı bir çox problemlərlə üzləşmişdi. Heç bir tədris planı, proqram, dərslik belə yox idi. Hətta dərs demək üçün müəllim kadrları belə çatışmırdı. Erməni pedaqoji texnikumunun binasında fəaliyyət göstərən bu maarif ocağı 30 nəfər tələbəni əhatə edən darısqal bir sinif və iki yataq otağından ibarət idi. Müəllimlər otağı belə yox idi. Əlavə otaqların ayrılması üçün edilən müraciətlərə isə heç bir müsbət cavab verilmirdi.

Məlumdur ki, hər hansı bir təhsil müəssisəsinin normal və ahəngdar fəaliyyət göstərməsi üçün ilk növbə-

də onun müstəqil bina ilə təmin edilməsi, maddi-texniki bazasının yaradılması, tədris prosesi üçün əlverişli şəraitin olması vacib şərtdir. Yeni təşkil olunmuş İrəvan Türk Pedaqoji Texnikumunun tamamilə əlverişsiz və dözülməz bir şəraitdə fəaliyyət göstərməsi, dərslik və dərs vəsaitləri, tədris proqramları, laboratoriyalar, fənn kabinələri, yataqxana, yeməkxana və s. avadanlıqlarla təchiz edilməməsi, sözsüz ki, bu təhsil ocağının normal fəaliyyətini əngəlləyirdi. Ermənistanın "bolşevik" cildinə bürünmüş hakimiyyət orqanları nəinki texnikumda, eləcə də Azərbaycan məktəblərində mövcud olan problemlərin və çatışmazlıqların aradan qaldırılması üçün heç bir səy göstərmirdi. Erməni şovinistlərinin bütün sahələrdə azərbaycanlalara qarşı yürütdüyü qərəzli və ayrı-seçkilik siyasəti təhsil sahəsində də özünü qabarıq şəkildə göstərirdi. Pedaqoji texnikumda ana dilində kitab, dərslik və dərs vəsaitlərinə, tədris proqramlarına və s. ləvazimatlara böyük ehtiyac olduğu halda, Ermənistan Xalq Maarif Komissarlığı bu tələbatı ödəmək istəmirdi. Demək olar ki, Ermənistanın ilk Xalq Maarif Komissarı, 1924-1926-cı ildə isə EK(b)P MK-nin birinci katibi olmuş Aşot Hovanesyanın 1920-ci il 17 dekabr tarixdə verdiyi əmrdə təhsilin ana dilində aparılması, məktəblərin dövlət ixtiyarına keçərək pulsuz olması, yeni tipli sovet məktəblərinin zəhmətkeş balalarının üzünə açıq olması – bütün bunlar hamısı ilk növbədə ermənilər üçün nəzərdə tutulurdu.

İrəvan Türk Pedaqoji Texnikumun ilkin fəaliyyət dövrü ilə bağlı apardığımız araşdırmalardan məlum olur

ki, sinifdə parta və oturacaqlar belə olmadığından tələbələr yerdə oturmağa məcbur olurmuşlar.

Araşdırmalardan aydın olur ki, bu təhsil müəssisəsində tədris prosesi üçün heç bir əlverişli şərait olmadığı üçün 1925-ci ilin sonlarına qədər texnikuma əsaslı qəbul həyata keçirilməmişdir. Texnikumda yalnız 1926-cı ilə qədər altıaylıq və birillik kurslar fəaliyyət göstərmişdir (16, s.99). Texnikumun nəzdində müəllimlər hazırlayan bu hazırlıq kurslarında az-çox savadı olan, mollaxana və ibtidai rus məktəblərini bitirənlər müəllim kimi təkmilləşdirilərək məktəblərə göndərilirdi. 1925-ci ildə hazırlıq kursuna 25 nəfər tələbə qəbul olunmuşdu ki, onlar da 1926-ci ilin əvvəlində həmin kursu bitirdikdən sonra azərbaycanlılar yaşayan müxtəlif bölgələrdəki məktəblərə müəllim kimi göndərirdilər (33). Belə hazırlıq kursları qısa fasilələrlə sonrakı dövrlərdə də fəaliyyət göstərmişdir.

Onu da qeyd etmək lazımdır ki, texnikumun nəzdində fəaliyyət göstərən birillik müəllimlər kursu sonrakı dövrlərdə də fəaliyyət göstərmişdir. Ümumiyyətlə, müəllim kadrların çatışmadığı ilk vaxtlarda azərbaycanlı məktəblərinin pedaqoji kadrlarla təmin edilməsində hazırlıq kurslarının böyük rolu olmuşdur.

Araşdırmalar göstərir ki, Ermənistan Xalq Maarif Komissarlığı tərəfindən azərbaycanlı pedaqoji texnikumunda mövcud olan problemlərin aradan qaldırılmasına, tədris vəsaitləri, kitablar və digər ləvazımatlarla təmin edilməsinə heç bir əməli addım atılmamış, bu ehti-

yaclar uzun müddət Azərbqaycan Xalq Maarif Komissarlığı tərəfindən ödənilmişdir. Bu sahədə durğunluq uzun illər demək olar ki, davam etmişdir. Hətta mənbələrin verdiyi məlumatlardan məlum olur ki, "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyev və texnikumun direktoru Mehdi Kazımov bu tədris ocağının normal fəaliyyət göstərməsi üçün müstəqil bina ilə təmin edilməsinə, maddi-texniki, tədris bazasının yaradılmasına, müxtəlif avadanlıqlara böyük ehtiyac olduğu barədə dəfələrlə Ermənistanın şovinist dairələri qarşısında məsələ qaldırsalar da, öz müsbət həllini tapmamışdır. Texnikumun açıldığı vaxtdan 1 il keçməsinə baxamyaraq, bu təhsil ocağına əsaslı qəbul keçirmək mümkün olmamışdır. Texnikuma ilkin tələbə qəbulunun keçirilməsi prosesini ləngidən əsas səbəblərdən biri də burada tədris prosesi üçün əlverişli və dözülməz şəraitin olmaması ilə bağlı idi.

İrəvanda Azərbaycan ədəbi-mədəni ictimai-siyasi mühitinin önündə gedən, "Zəngi" qəzetinin redaktoru Mustafa Hüseynov həmin mətbuat orqanın səhifələrində milli məktəblərimizdə və o cümlədən pedaqoji texnikumda mövcud olan problemlər barədə dəfələrlə Ermənistanın şovinist dairələrinin və Xalq Maarif Komissarlığının bu ayrı-seçkilik münasibətini kəskin tənqid edən yazılarla çıxış etmişdir.

Sovet Ermənistanın daşnak hakimiyyəti erməni pedaqoji texnikumunu müstəqil bina ilə təmin etdiyi, hərtərəfli diqqət və qayğı göstərdiyi halda, azərbaycanlı pedaqoji texnikumu bu qayğılardan məhrum idi. Bu ayrı-seç-

kilik siyasəti bir tərəfdən Ermənistanda "Sovet hakimiyyəti"nin öz spesifik xüsusiyyətlərinə malik olduğunu göstərirdisə, digər tərəfdən də erməni kommunistlərinin sözdə bir, əməldə tamamilə əks prinsiplərdən çıxış etməsində özünü göstərirdi.

Çünki başqa respublikalardan fərqli olaraq, Ermənistanda sosial mühitin, partiya həyatının, milli siyasətin iki: birincisi – görünən, ikincisi – görünməyən tərəfi var idi.

Görünən tərəf – "proletar beynəlmiləlçiliyi", "bolşevizm ideyalarının həyata keçirilməsi", görünməyən tərəf isə rəsmi Ermənistan rəhbərliyinin gizli surətdə həyata keçirdiyi şovinist və antitürk siyasəti idi.

Varlığının ilk günlərindən İrəvan Türk Pedaqoji Texnikumu çox böyük çətinliklərlə üz-üzə qalmışdı.

Yuxarıda qeyd etdiyimiz kimi, milli maarifimizin inkişafını hər vasitə ilə əngəlləməyə çalışan erməni şovinistlərinin burada da məkrli məqsədlərindən biri gələcəkdə İrəvan Türk Pedaqoji Texnikumunun fəaliyyətinin dayandırılmasına zəmin hazırlamaqdan ibarət idi.

Amma bütün bu çətinliklərə və ciddi maneələrə baxmayaraq, yeni təşkil olunmuş texnikumun maddi-texniki bazasının möhkəmləndirilməsi, fəaliyyətinin canlandırılması, müəllim və tələbə kontingentinin formalaşdırılması, tədrisin yeni məzmunda təşkili, proqram və dərsliklərin əldə olunması və s. həlli vacib olan məsələlər qeyrətli ziyalılarımızın - "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyevin, texnikumun direktoru Mehdi Ka-

zımovun, "Zəngi" qəzetinin məsul redaktoru Mustafa Hüseynovun, ziyalılardan Əsgər Əsgərzadənin, Əkbər Rizayevin, Əhməd Əhmədovun, İsmayıl Babayevin və başqalarının qarşısında duran ən mühüm vəzifələrdən biri idi.

Onu da xüsusi qeyd etmək lazımdır ki, Qərbi Azərbaycanda milli məktəblərimizin ana dilində kitab, dərslik, dərs vəsaiti, tədris proqramları və s. ləvazımatlarla təmin edilməsində Azərbaycan Xalq Maarif Komissarlığı yaxından köməklik göstərirdi. Bala Əfəndiyevin, Mehdi Kazımovun, Mustafa Hüseynovun və sözün əsl mənasında fədailik edən digər ziyalılarımızın səyi nəticəsində texnikumda bəzi problemlər aradan qaldırılaraq, bu təhsil müəssisəsinə ilk qəbulun keçirilməsi mümkün olmuşdu. Beləliklə, texnikumun əsas kursuna ilk sənəd qəbulu 1925-ci il oktyabr ayının 15-dən 27-dək aparılmışdır. Mövcud dövrün tələbinə uyğun olaraq bura fəhlə-kəndli mənşəli gənclər qəbul olunurdu. Tələbə qəbulu Ermənistan Xalq Maarif Komissarlığının təsdiq etdiyi qaydalar əsasında həyata keçirilirdi. Təhsil müddəti isə 4 il idi (41, 16).

Texnikuma qəbul qaydalarında göstərilirdi ki, hər iki cinsdən olan, 15 yaşı tamam olmuş birinci dərəcəli məktəbi (dördillik) uğurla bitirən şagirdlər qəbul edilir. Qəbul zamanı qızlar üçün müəyyən üstün hüquqlar verilirdi ki, bu da qızların təhsilə cəlb edilməsinə stimul yaradırdı. Hətta 14 yaşı tamam olmuş qızlara da müsabiqədə iştirak etmək hüququ verilirdi. İlkin müsabiqə qəza maarif şöbələrində yaradılmış komissiya tərəfindən hə-

yata keçirilirdi. Bundan sonra həmin şagirdlər qəza maarif şöbələri tərəfindən verilmiş xasiyyətnamə əsasında texnikuma keçirilən müsabiqədə iştirak etmək hüququna malik idi. Qəbul üçün aşağıdakı fənlərdən imtahanlar nəzərdə tutulurdu. Türk dili (yazılı və şifahi), hesab (yazılı), coğrafiya (şifahi), ictimaiyyət (şifahi).

1925-ci il dekabr ayının 25-də "Zəngi" qəzetində dərc olunmuş "Müxtəlif məlumatlar" adlı məqalədən məlum olur ki, texnikuma ilk dəfə qəbul olunan tələbələrin sayı 32 nəfər olmuşdur ki, onlardan da 4 nəfəri gənc qızlar idi. 37 nəfər isə birillik müəllimlər kursuna daxil olmuşdu. Beləliklə, texnikumun direktoru Mehdi Kazımovun və fədakar kollektivin fəaliyyəti sayəsində tədris prosesinə hazırlıq işləri yekunlaşdıqdan sonra 1925-ci il noyabr ayının 17-də texnikumda ilk dəfə dərs günü elan edilmişdi (4).

İrəvanda Azərbaycan dilində yeganə mərkəzi mətbuat orqanı olan "Zəngi" qəzetinin sonralar isə "Qızıl şəfəq" adı ilə nəşr edilmiş bu mətbuat orqanlarının səhifələrində müntəzəm olaraq pedaqoji texnikuma qəbulun vəziyyəti və nizamı haqqında elanlar yerləşdirilir, bu təhsil müəssisəsinin müəllim kadrlarının hazırlanmasında üzləşdiyi çətinliklər və uğurları barədə yazılar dərc edilirdi. Həmin mətbuat orqanlarının səhifələrində dərc olunan bu tip yazılar pedaqoji texnikumda mövcud olan problemlərin aradan qaldırılmasına da ciddi təsir göstərirdi.

Amma texnikumun müstəqil bina ilə təmin edilməməsi, bir sıra fənlər üzrə müəllimlərin çatışmazlığı tədrisi lazımi səviyyədə qurmağa imkan vermirdi. Auditoriya çatışmazlığı səbəbindən dərslər iki növbədə keçirilirdi. Buna görə də çox vaxt dərslər cədvəldə nəzərdə tutulmuş ardıcıllıqla təşkil olunmurdu. 69 nəfər tələbələrin dərs keçməsi üçün cəmi bir sinif otağı var idi. Sinif otağının darısqal olması səbəbindən bəzən tələbələr dəhlizdə dərs keçməyə məcbur olurdular. Texnikumun tələbələri üçün ayrılmış yataqxana heç bir sanitar-gigiyena tələblərinə cavab vermədiyindən, bu da orada yaşayan tələbələrin səhhəti üçün cox ciddi fəsadlar yaradırdı. Hətta texnikumun yataqxanasında dözülməz hal almuş, antisanitariya Əlirza Yusifov, Qəmərli rayonunun Cəbəcili kəndindən olan Məhəmməd Məhəmmədov və digər tələbələr arasında ölüm hallarının baş verməsinə səbəb olmuşdu. Texnikuma qəbul olunmuş tələbələr belə bir acınacaqlı şəraitdə təhsillərini böyük həvəslə və əzmkarlıqla davam etdirirdilər.

Bütün ciddi maneələrə baxmayaraq, yeni yaranmış texnikumun fəaliyyətinin canlandırılması, tədrisin təşkili, müəllim və tələbə kollektivinin formalaşdırılması və s. həlli vacib olan məsələlər məhz "Azsaylı xalqlar şöbəsi"nin müdiri Bala Əfəndiyevin təşəbbüsü və səyi nəticəsində öz həllini tapmışdır. Həmçinin onun şəxsi təşəbbüskarlığı və əzmi sayəsində Azərbaycan Xalq Maarif Komissarlığına etdiyi müraciət əsasında texnikum üçün ana dilində müxtəlif adda kitabların, tədris proqramları-

nın, dərslik və dərs vəsaitlərinin əldə olunmasına nail olunmuşdur. Texnikumun fədakar kollektivi bu tədris ocağının mədəni quruculuq qüvvəsinə çevrilməsi üçün milli iradə nümayiş etdirmiş, əllərindən gələni əsirgəməmişdilər.

Texnikumun ilkin fəaliyyət dövrünə nəzər saldıqda pedaqoji heyətin, tədrisin təşkili və s. sahələrdə müəyyən irəliləyişin olduğu məlum olur. Qısa zaman ərzində Əşrəf Bayramov, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev kimi ziyalılar bu maarif ocağının pedaqoji heyətinə daxil olmuşdular. Qeyd etmək lazımdır ki, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyev ilk əmək fəaliyyətinə bu texnikumda başlamışdır. O, 1926-27-ci illərdə bu təhsil ocağında kimya-biologiya fənnini tədris etmişdir.

İrəvan Türk pedaqoji məktəbinin ilk müəllimlərindən biri də Azərbaycanda böyük müəllim nüfuzuna, xüsusi hörmətə malik olmuş, ömrünün 50 ildən artıq bir hissəsini təhsilimizin inkişafına, xüsusən coğrafiya elminin tədrisinə həsr etmiş Əşrəf Bayramov olmuşdur.

Əşrəf Hüseyn oğlu Bayramov 1902-ci ildə İrəvan quberniyası Sürməli qəzasının Aralıq Başkənd mahalında savadlı bir ailədə dünyaya gəlmişdir. O, 1908-ci ildə doğulduğu kənddəki rus-tatar məktəbinə daxil olmuş və 1913-cü ildə oranı bitirmişdir. Sonra isə İrəvan Müəllimlər Seminariyasına daxil olan Əşrəf Bayramov birinci kursda oxuyarkən müəyyən səbəblərə görə İrəvan Müəllimlər Seminariyası Şimali Qafqazın Armavir şəhərinə

köçdüyündən fəaliyyəti dayandırıldığından, təhsilini davam etdirə bilməmişdir. Müəllimlik peşəsinə yiyələnmək isə Əşrəf Bayramovun ən böyük arzularından biri idi.

1920-ci illərdə yeni tipli sovet məktəblərində dərs demək üçün müəllim kadrlara böyük ehtiyac yaranmışdı. Həmin ehtiyacı ödəmək üçün İrəvanda və bölgələrdə kurslar təşkil edilirdi. İrəvanda yay pedaqoji kursunu bitirən Əşrəf Bayramov yenidən Qəmərliyə qayıdır. O, erməni orta məktəbinin nəzdində ibtidai Azərbaycan məktəbinə müdir və müəllim təyin edilir.

1927-28-ci illərdə Əşrəf Bayramov İrəvandakı S.M.Kirov adına doqquzillik orta məktəbdə çalışmağa başlayır. O həm də yay aylarında Ermənistanın bir sıra rayonlarında müəllimləri təkmilləşdirmə kurslarında pedaqogika və metodikadan dərs deyirdi (17, s. 104-105).

Əşrəf Bayramov həm də İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında fəal iştirak edirdi. O, 1927-ci ildə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin nəzdində yaradılmış azərbaycanlı bölməsinin gənc yazıçı kimi ən fəal üzvlərindən biri idi. O, 1928-ci ildə Tiflisdə keçirilən Zaqafqaziya Proletar Yazıçılarının toplantısında Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin nümayəndə heyətinin tərkibində iştirak etmişdi.

O, 1941-ci ildə Ermənistan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsini uğurla bitirir.

Əşrəf Bayramov Ermənistanda azərbaycanlılar yaşayan müxtəlif bölgələrdə - Dərəçiçəkdə, Basarkeçərdə,

Gümrüdə və digər məktəblərdə müəllim kimi fəaliyyət göstərmiş, yay kurslarında yüzlərlə azərbaycanlı pedaqoji kadrların hazırlanmasında böyük rol oynamışdır. 1943-45-ci illərdə Kalinin rayonun Soyuqbulaq kənd məktəbində direktor işləmiş Əşrəf Bayramov 1945-ci ildə "Sovet Ermənistanı" qəzetində redaktor-stilist vəzifəsində çalışmağa başlayır və eyni zamanda İrəvan pedaqoji məktəbində coğrafiya fənnini tədris edirdi.

Onun İrəvanda Azərbaycan maarifinin inkişafında, azərbaycanlı balalarının elmə, təhsilə yiyələnməsində çox böyük xidmətləri olmuşdur.

Əşrəf Bayramovun tələbəsi olmuş akademik Budaq Budaqov müəllimi haqqında yazır: "Əşrəf Bayramovun böyük həvəslə dərs deməsi tələbələrdə oxumağa olan həvəsi artırırdı. Bizdə təhsil almaq istəyi çox güclü idi.

Əşrəf müəllim tələbələr arasında özünü coğrafi xəritələrin ali bilicisi kimi tanıtmışdı. Əşrəf müəllim öz ixtisasını – coğrafiya fənnini çox sevirdi. Biz tələbələr də onun arxasınca getməyi özümüzə şərəf bilirdik" (16, s.106).

Əşrəf Bayramov 1948-ci ildə Ermənistandan azərbaycanlıların köçürülməsi ilə əlaqədar olaraq Bakı şəhərinə köçmək məcburiyyətində qalır. O, bir müddət indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakültəsində, daha sonra isə Maştağa qəsəbəsindəki 187 saylı orta məktəbdə coğrafiya müəllimi vəzifəsində çalışır. O, fədakar, şərəfli əməyinə görə "Əməkdar müəllim"

adına layiq görülmüş, bir sıra fəxri fərman və medallarla təltif edilmişdir (48, s.105).

Texnikuma azərbaycanlılar yaşayan bütün bölgələrdən tələbə qəbul edilirdi. Amma texnikuma qəbulun sayı bölgələrdə yaşayan azərbaycanlı əhalinin sayına uyğun keçirilmirdi. Məsələn, 1927-ci ildə texnikuma 31 nəfər əsas kursa, 112 nəfər isə altıaylıq və birillik hazırlıq kursuna daxil olmuşdur ki, bunlardan 77 nəfəri – İrəvan, 14 nəfəri – Üçmüədzin, 7 nəfəri – Gümrü, 4 nəfəri – Loli-Pəmbək, 5 nəfəri – Nor-Bəyazid, 9 nəfəri – Dilican, 20 nəfəri – Zəngəzur, 4 nəfəri – Dərələyəz, 3 nəfəri isə Meğri bölgəsindən idi (16, s.106).

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanlı Pedaqoji Texnikumu təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda İrəvanda Azərbaycan ədəbiyyatının mədəniyyətinin, incəsənətinin inkişafı və formalaşması üçün də böyük rol oynayırdı.

Ümumiyyətlə, inqilabdan sonra İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin canlanması, inkişafı və formalaşmasında azərbaycanlı pedaqoji texnikumunun müəllim və tələbə kollektivinin misilsiz xidmətləri olmuşdur. Belə ki, İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Zəngi" (1924) qəzetinin azərbaycanlı kütlələri arasında yayılmasında və tirajının artırılmasında, yeni türk əlifbasının tətbiqində və təbliğində, savadsızlığın aradan qaldırılmasında texnikumun müəllim və tələbə heyəti çox böyük fədakarlıq göstərmişdilər. "Zəngi" qəzetinin ən aktiv müxbirləri və təbliğatçıları da

məhz bu təhsil ocağının müəllim və tələbələri idi. Tağı Camalov, Mehdi Bəşirov, Rüstəm Tağıyev, Nəriman Fəxri, Telman Nəzərli, Yunis Tağıyev, Qasım Əliyev, Əbülfət İbrahim, Əliqulu Səlimov, Abbas Tahir, Abdulla Mirzəyev, Əbülfət Rəhimov, Adil Axundov, Cəlil Quliyev, Musa Qafarov, Nurəli Qurbanov, Şamo Hətəmov, Mirzə Mirzəyev, Nəzər Paşayev, Məmməd Paşayev və başqaları "Zəngi" qəzetinin ən fəal müxbirləri idi. 1927-ci ildə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin nəzdində təşkil olunmuş azərbaycanlı bölməsinin canlandırılması və genişləndirilməsində də bu tədris ocağının müəllim və tələbələrinin böyük rolu olmuşdur.

Texnikumun müəllim və tələbə heyəti arasında yaradıcılıq qabiliyyətinə malik olan müəllimlərdən Əşrəf Bayramov, Əsgər Əsgərzadə, Mehdi Kazımov, tələbələrdən Leylan Əliyeva, Sona Bağırova, Həsən Həsənov, Nurəli Qurbanov, Nəriman Fəxri, Telman Nəzərli, Əbülfət Rəhimov, Əbülfət İbrahim, Abbas Tahir, Mirzə Mirzəyev və başqaları azərbaycanlı yazarlar bölməsinin ətrafına toplaşaraq öz ədəbi yaradıcılıqlarını inkişaf etdirməklə yanaşı, yerlərdə ədəbi dərnəklər təşkil edir, istedadlı gəncləri və ədəbiyyat həvəskarlarını aşkara çıxararaq onları Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin Türk Yazarlar bölməsinə cəlb edirdilər.

1926-27-ci illərdə texnikumda ədəbiyyat, teatr, hərbi və s. dərnəklər geniş fəaliyyət göstərirdi. Ədəbiyyat dərnəyinə şair Abbas Tahir, teatr dərnəyinə Cəmil Əliyev, hərbi dərnəyə isə Nəcəf Əliyev rəhbərlik edirdilər. Hərbi

hazırlığı artırmaq məqsədilə təşkil edilmiş hərbi dərnəyin fəaliyyəti hansısa səbəblərdən bir müddət sonra dayandırılmışdı. Bu dərnək və cəmiyyətlərdə müxtəlif sahələrə aid aktual mövzuların müzakirəsi təşkil edilir, teatr tamaşaları göstərilir, gənclərin ideya-siyasi səviyyəsinin yüksəldilməsi məqsədilə müntəzəm şəkildə tədbirlər həyata keçirirdilər. Həmin dövrlərdə bir sıra mənbələrdə dərnəklərin işi haqqında ətraflı məlumatlar verilmişdir.

Pedaqoji texnikumda yeni əlifba ilə "Mədəniyyət ocağı", "Mədəni hücum", "İrəli", "Şərq pioneri" adlı divar qəzetləri də çıxırdı. Bu qəzetlərdə texnikumda mövcud olan problemlər, bədii yaradıcılıq nümunələri, təlim və tədrisə, tələbələrin sosial və iqtisadi vəziyyətinə və s. mövzulara aid yazılar, xəbərlər dərc olunurdu. Texnikumun divar qəzetlərinin heyəti, həm də İrəvanda Azərbaycan dilində nəşr olunan "Zəngi" qəzetinin müxbirləri hesab edilirdi. 1928-ci ildə "Zəngi" qəzetinin texnikumda 40-dan artıq müxbiri var idi. 1928-ci ilin may ayında texnikumda həmin müxbir heyətinin geniş toplantısı keçirilmiş, heyətin sədri tələbə Kərəm Musayev məruzə ilə çıxış etmiş, sonra isə "Zəngi" qəzetinin baş redaktoru Mustafa Hüseynov həmin divar qəzetlərinin uğurları, nöqsan cəhətləri və müxbirlərin qarşısında duran vəzifələr haqqında ətraflı çıxış etmişdir (47;3).

Onu da xüsusi qeyd etmək lazımdır ki, "Zəngi" qəzetinin fədakar kollektivi və onun mübariz məsul redaktoru Mustafa Hüseynovun nəinki İrəvanda, bütün Qərbi

Azərbaycanda milli maarifimizin inkişafında böyük fədakarlıq göstərmişdir.

Bütün bunlara baxmayaraq, texnikumda mövcud olan çətinliklər və problemlər bu təhsil ocağının müvəffəqiyyət dərəcəsini daha da qaldırmağa imkan vermirdi.Amma texnikumun fədakar kollektivi tədrisin yaxşılaşdırılması, mövcud problemlərin aradan qaldırılması istiqamətində ciddi iş aparırdı.

Texnikumun yaranmasından keçən dörd il ərzində bu tədris ocağı, əsasən, təşkilolunma prosesi keçirərək fəaliyyəti müəyyən dərəcədə genişlənmiş, 1928/29-cu tədris ilində tələbə qəbulunun sayı artmışdı. 1928-ci ildə texnikuma 40 nəfər tələbə qəbul olmuşdur ki, onlardan da 8 nəfəri – İrəvan, 3 nəfəri – Gumrü, 5 nəfəri – Üçmüədzin, 3 nəfəri – Lori-Pəmbək, 4 nəfəri – Dilican, 3 nəfəri – Nor-Bəyazid, 1 nəfəri – Dərəläyəz, 6 nəfəri – Zəngəzur, 1 nəfəri - Megri bölgəsindən, 6 nəfəri isə uşaq evindən idi (9;16).

Miryusif Mirbabayev

Texnikumun pedaqoji şurasının iclaslarında maddi-texniki bazanın genişləndirilməsi, tədrisin günün tələbləri səviyyəsində qurulması, tələbələrə müvafiq proqramlar əsasında biliklər verilməsi və s. məsələlər müntəzəm müzakirə edilə-

rək vacıb qərarlar qəbul edilirdi. 1928-ci ildə texnikumun rəhbərliyi tədrisin təşkilini yaxşılaşdırmaq və bəzi strukturların yaradılması məqsədilə bir sıra vəzifə təyinatları həyata keçirmişdi. Bu məqsədlə Miryusif Mirbabayev tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin edilir. Amma o bu vəzifədə 1933-cü ilə qədər işləmişdi. İrəvanda Azərbaycan ədəb-mədəni mühitinin canlanmasında və inkişafında fəal iştirak edən Miryusif Mirbabayev 1930-cu illərdə başlanan repressiyadan xilas olmaq üçün 1934-cü ilin əvvəllərində İrəvanı tərk etməyə məcbur olmuşdu.

Bunlara baxmayaraq, texnikumun rəhbərliyi bu təhsil müəssisəsinin fəaliyyətinin canlanması üçün var qüvvəsi ilə çalışırdı. 1929-cu ildə texnikumun təsərrüfat işləri üzrə müdiri vəzifəsinə Cəfər Cəfərov təyin olunmuş, yeni təşkil olunmuş tibb məntəqəsi isə Məmməd Kazımova həvalə edilir. Artıq 1929-cu ildə texnikumda pedaqoji və texniki işçilərin sayı artaraq 13 nəfərə çatmışdı. Müxtəlif vaxtlarda Seyidov Mamed, Ələkbərov Əkbər, Qafarov Zeynal texnikumun təsərrüfat şöbəsinin müdiri olmuşdur. Texnikumun rəhbərliyinin kadr işi sahəsində apardığı məqsədyönlü və ardıcıl iş isə getdikcə oz bəhrəsini verirdi.

İrəvan Azərbaycanlı Pedaqoji məktəbinin ilk buraxılışı. 1929

1929-cu ilin iyun ayında texnikumun ilk buraxılışı olmuşdu. 1926-cı ildə qəbul olunmuş 32 nəfər tələbədən 20 nəfəri texnikumu bitirməyə müvəffəq ola bilmişdi ki, onlardan da 18 nəfəri oğlan, 2 nəfəri isə gənc qızlar idi (4).

İrəvan Türk Pedaqoji Tenikumunun ilk buraxılışı İrəvanda və bölgələrdə milli maarifimiz üçün böyük şadlıq xəbəri kimi yayılmışdı. Mənbələrin verdiyi məlumatlardan məlum olur ki, tələbələrdən 3 nəfəri təhsil aldığı müddətdə ağır və yoluxucu xəstəliyə tutularaq dünyasını dəyişmiş, 9 nəfəri isə müxtəlif səbəblərdən təhsilini yarımçıq qoyaraq texnikumu tərk etməyə məcbur olmuşdu.

Beləliklə, İrəvan Türk Pedaqoji Texnikumu Ermənistanda fəaliyyət göstərən azərbaycanlı məktəblərin müəllim kadrlarına olan ehtiyacını ödəməyə başlamışdır.

Texnikumda ilk buraxılış münasibəti ilə əlaqədar bir sıra qurumların nümayəndələrinin iştirakı ilə təntənəli yığıncaq keçirilmişdi. Yığıncaqda texnikumun direktoru Mehdi Kazımov bu tədris ocağının mövcud olduğu 5 il ərzindəki fəaliyyəti haqqında çıxış edərək, əldə olunmuş nailiyyətlərlə yanaşı, bir sıra nöqsanlar barədə də fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdıraraq demişdi: "Texnikumu ilk zaman təşkil edəndə burada oxumaq üçün tələbələr tapa bilmirdik. Sonra get-gedə texnikum öz adını doğrultduğu üçün indi bura daxil olmaq istəyənlərin sayı günbəgün artmaqdadır, ilk vaxtında texnikumun iqtisadi vəziyyətinin yaxşı olmaması, kitab və proqramların yoxluğu, peşəkar müəllimlərin olmamasına baxmayaraq, bu il bu çətinliklərin çoxunu aradan qaldırıb müəyyən müvəffəqiyyətlər əldə edilmişdir". (3 s.76) Mehdi Kazımov çıxışının sonunda texnikumun ilk qaranquşları olan 20 nəfər məzuna uğurlar arzulamış, sonra isə onların azərbaycanlı məktəblərində pedaqoji fəaliyyətlərini mövcud dövrün tələbləri əsasında həyata keçirəcəkləri vəzifələr barədə bəhs etmişdir.

Əkbər Rizayev

İlk buraxılış münasibətilə texnikumun kollektivini və məzunları "Qızıl şəfəq" qəzetinin heyəti adından həmin vaxtlarda bu mətbuat orqanının redaktoru əvəzi vəzifəsində çalışan Əkbər Rizayev, 9 illik İrəvan türk məktəbinin direktoru Lütfullah Muğanlinski və digər qonaqlar təbrik etmişdilər. Tədbirin sonunda "Azsaylı xalqlar şöbəsi"nin müdiri Əhməd Əhmədovun təbriki oxunmuşdu. Vaxtilə bu təhsil ocağının yaranmasına maneçilik törədən, sonralar isə onun ahəngdar fəaliyyətini əngəlləməyə çalışan Ermənistanın müvafiq şovinist qurumları da ilk buraxılış münasibətilə texnikumun kollektivini və məzunları təbrik etməyə məcbur olmuşdular.

İrəvan Türk Pedaqoji Texnikumun ilk məzunları arasında Əmir Abasquluyevin, Adil Axundovun, Nəriman Əliyevin, Paşa Makinskinin, Əbülfət İbrahimin, İmamqulqu Kərimovun, Nəriman Fəxrinin, Rübabə Bağırbəyovanın, Nəsir Əliyevin, Musa Qafarovun, Əbülfət Rəhimovun, Tağı Bağırovun, Nəzər Paşayevin, Mirzə Bəşirovun və başqalarının adlarını çəkmək olar. Onu da qeyd edək ki, Rübabə Bağırbəyova pedaqoji Texnikumun ilk qadın məzunu idi. Həmin məzunlar müəllim kadrlarına böyük ehtiyac yaranmış bölgələrə göndərilirdilər.

Texnikumu bitirənlərə məcburi olaraq təyinat yerlərində üç il müəllim işlədikdən sonra ali məktəbə daxil olmaq və digər idarə və müəssisələrdə işləmək imkanı verilirdi. Bölgələrə göndərilən məzunlar yerlərdə müəllimlik fəaliyyəti ilə yanaşı, mədəni-maarif quruculuğu və s. sahələrdə də yaxından iştirak edirdilər. Yerlərdə

fəaliyyət göstərən həmin müəllimlər həm də "Zəngi" qəzetinin ən aktiv müxbirləri idi. Mövcud dövrün tələbələrinə uyğun olaraq, "Qızıl şəfəq" qəzetində kollektivləşmənin gedişi, kənd şuralarının işləri, kəndin ictimai vəziyyəti, mədəni-maarif işləri və s. sahələrə aid yazılar dərc etdirmək, mətbuatla sıx təmasda olmaq həmin müəllimlərin qarşısında bir tələb kimi qoyulurdu.

1929-cu ildə pedaqoji texnikuma 32 nəfəri qəbul olunmuşdu. Onlardan 16 nəfəri oğlan, 16 nəfəri isə gənc qızlar idi. Bunlardan 6 nəfəri – İrəvan, 3 nəfəri – Dilican, 2 nəfəri – Dərələyəz, 1 nəfəri – Meğri, 4 nəfəri – Gümrü, 3 nəfəri – Zəngəzur, 3 nəfəri – Nor-Bəyazid, 3 nəfəri – Üçmüədzin bölgəsindən, 3 nəfəri isə uşaq evi şagirdlərindən idi (4).

Bütün bunlara baxmayaraq, 1930-cu ildə ümumi məcburi təhsilin tətbiq edilməsi istər məktəblərin, istərsə də orada təhsil alan şagirdlərin sayının sürətlə artmasına təkan verdi. Belə ki, Qərbi Azərbaycanda 1922/23-cü tədris ilində 36, 1924-cü ildə 62 azərbaycanlı məktəbi fəaliyyət göstərirdi. 1929/1930-cu tədris ilində bu məktəblərin sayı artaraq 112-yə, 1931-ci ildə isə 245-ə çatmışdı ki, bunlardan da 45-i İrəvan qəzasında idi (3, s.55). Həmin məktəblərin idarə edilməsi, müəllim kadrları ilə təmin olunması isə günün ən vacib məsələlərindən idi. Çünki pedaqoji texnikumun ildə 20-30 nəfər məzun buraxması milli məktəblərimizin müəllim kadrlara olan tələbatını tam ödəyə bilmirdi. Müəllim çatışmazlığı üzündən bölgələrdəki bir çox məktəblər ikiaylıq, üçaylıq hazırlıq

kurslarında təhsil almış şəxslərin ümidinə qalmışdı. Müəllim kadrları çatışmadığından pedaqoji texnukumun tələbələri növbə ilə İrəvan qəzasında fəaliyyət göstərən I dərəcəli türk məktəblərində, kəndli evində, qadınlar klubunda müəllim kimi fəaliyyət göstərirdilər. Azərbaycanlı məktəblərində pedaqoji kadrlara olan ehtiyacı, qismən də olsa, aradan qaldırmaq üçün hətta 9 illik İrəvan türk məktəbini bitirənləri müəllim kimi işləməyə göndərirdilər.

Amma bütün bunlara baxmayaraq, azərbaycanlı məktəblərində müəllim kadrlara böyük tələbat olduğu halda, yüzlərlə azərbaycanlı müəllim və tələbələrə "bəy", "xan", "mülkədar", "qolçomaq", "kulak", "mövhumatçı", "millətçi" və s. damğası vurulur və onlar təhsil müəssisələrindən xaric edilirdilər. "Təmizləmə komissiyası" adlandırılan yoxlama zamanı "ictimai halları təşkilata uyğun gəlmir" adı ilə texnikumun tələbələri Mikayıl Əliyev, Fəraməz Kazımbəyov, Xəlil Əfəndiyev, Ələkbər Həsənzadə, Rza Əli bəy oğlu, Fərhad Əsgərov, Tərifə İsmixanova, Əli Xəlilov, Məhəmməd Rzayev, Məhərrəm Xəlilov, Əkbər Cabbar Hacı Həsənoğlu, Qədimalı Vəliyev, Ənvər Qazıyev, İdris Hüseynov, Ağayar Həsənov, Məmmədəli Əsədov, Oruc Şumalov, Fərman Kazımov, Mirağa Seyidov, Ziyad Şərifov və başqaları "kulak", "ünsür", kimi "aşkar olunaraq" xaric edilmişdir. Azərbaycanlı ziyalılar nəinki repressiyaya, həmçinin fiziki terrora da məruz qalırdılar.

Erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdilkəri vəhşiliklərə baxmayaraq, qeyrətli azərbaycanlı ziyalıları və pedaqoji texnikumun fədakar kollektivi öz fəaliyyətlərini inamla davam etdirirdilər.

İrəvan Azərbaycanlı Pedaqoji məktəbinin ikinci buraxılışı, İrəvan 1930

1930-cu ildə texnikumunun ikinci buraxılışı olmuşdur. Mənbələrdən aydın olur ki, 31 nəfər tələbədən 29 nəfəri texnikumu bitirməyə müvəffəq ola bilmişdir. Tələbələrdən 2 nəfəri isə müxtəlif səbəblərdən təhsilini yarımçıq qoyaraq texnikumu tərk etmişdir. Texnikumun ikinci buraxılışının məzunlarından olan gənc qızlar Laçın Əliyeva, Sürəyyə Kazımova Amasiya, Məsmə Əsədova isə Zəngibasar rayonuna təyinatla göndərilmişdilər.

İrəvan Azərbaycan Pedaqoji məktəbinin 2-ci buraxılışının qadın məzunlarından Soldan: 1-ci Məsmə Əsədova, 2-ci Sürəyya Kazımova, 3-ci Laçın Əliyeva, İrəvan 1930

Yüksək ixtisaslı müəllim kadrların yetişdirilməsi üçün texnikum kollektivinin mütəşəkkil səyi nəticəsində getdikcə tədrisin keyfiyyətinin yüksəldilməsi və s. sahələrdə də ciddi uğurlar əldə edilirdi. 1930-cu ildə texnikumun direktoru Mehdi Kazımovun təşəbbüsü sayəsində bu tədris ocağında dərs demək üçün Azərbaycandan və başqa yerlərdən ali təhsilli müəllimlər dəvət edilmişdi. Amma Azərbaycan məktəblərini müxtəlif fənn müəllimləri ilə təmin etmək üçün təkcə pedaqoji texnikumun məzunları ilə bu ehtiyacı ödəmək mümkün deyildi. Azərbaycan Xalq Maarif Komissarlığı öz imkanlarından istifadə edərək Ermənisranda yaşayan azərbaycanlı gənclərin təhsil alması üçün 1930-cu ildə 10 yer Bakıda Nəriman

Nərimanov adına pedaqoji texnikuma, 10 yer isə Gəncə texnikumuna ayırmışdı. Azərbaycanın müxtəlif ali və orta məktəblərinə göndərilmiş həmin gənclər həm də təqaüdlə təmin olunmuşlar. Bütün görülən bu tədbirlər Ermənistanda Azərbaycan məktəblərinin müxtəlif fənlər üzrə pedaqoji kadrlara olan tələbatını ödəyə bilmirdi.

1930-cu ilin iyul ayında texnikuma tələbə qəbulu qaydalarında müəyyən dəyişikliklər edilmişdi. Yeni qəbul qaydalarına görə, texnikuma o şəxslər qəbul edilirdilər ki, yaşı 15-dən aşağı, 20-dən yuxarı olmamalı və 5-ci sinfi bitirmiş olmalı idilər.

1929/30-cu tədris ilini qənaətbəxş göstəricilərlə başa vuran texnikum növbəti 1930/31-ci tədris ilinə ciddi hazırlıq görmüş, həmin ildə daha yaxşı nəticələrə nail olmaq üçün bütün qüvvəsini səfərbər etmişdi. 1931-ci ildə texnikuma bölgələr üzrə qəbul olmuş tələbələrin sayı aşağıdakı kimi olmuşdur.

İrəvan şəhərindən – 3 nəfər, Razdandan – 4 nəfər, Ağbabadan – 3 nəfər, Vedibasardan – 4 nəfər, Basarkeçərdən – 3 nəfər, Dərələyəzdən – 2 nəfər, Zəngəzurdan – 4 nəfər, Stepanavandan – 2 nəfər, Krasnoselodan (Qırmızıkənddən) – 2 nəfər, Meğridən – 1 nəfər, Qəmərlidən – 2 nəfər, Maarif Komissarlığı tərəfindən isə 5 nəfər göndərilmişdi. Qəbul olunmuş 35 nəfər tələbədən 18 nəfəri oğlan, 17 nəfəri isə qızlar idi (16, s.116).

Ümumiyyətlə, texnikumun təşkilində və müəyyən uğurlara nail olmasında bu tədris ocağının ilk direktoru olmuş Mehdi Kazımovun böyük xidmətləri olmuşdur.

Mehdi Kazımov 1890-cı ildə İrəvan şəhərində anadan olmuşdur. O, İrəvan oğlan gimnaziyasını bitirdikdən sonra bir müddət İrəvandakı müsəlman oğlan məktəbinin müdiri və qızlar məktəbinin rus dili müəllimi kimi fəaliyyət göstərmişdir. 1914-cü ildə Vənənd məktəbinin müdiri vəzifəsində çalışmışdır. Mehdi Kazımov tədris etdiyi fənndən başqa tələbələrin ümumi ədəbi, mədəni inkişafı üçün də böyük səylə çalışmışdır.

O, İrəvanda yerli aktyorlar sırasında Azərbaycan teatrının inkişafında da yaxından iştirak etmiş və teatrın səhnəsində bir sıra rollar ifa etmişdir. 1918-ci ildə İrəvanda erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər və qətliamlar zamanı qəddarcasına qətlə yetirilməkdən xilas olmaq üçün İrəvanı tərk edərək Gəncə şəhərinə köçməyə məcbur olmuşdur. Gəncədə məskunlaşdığı müddətdə burada Cavad bəy Çuvarlının təşkil etdiyi üçaylıq pedaqoji kursda oxuyub biliyini daha da təkmilləşdirmişdir. Sonra tale onu Gədəbəyə çəkib aparmış, 1920-ci ildə orada oğlan məktəbinin direktoru, 1921-ci ilin ortalarına qədər isə Dəllərdə maarif şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ilin sonlarında öz doğma vətəni İrəvana qayıtmışdır. 1922-ci oldə Ermənistan Xalq Maarif Komissarlığı nəzdində təşkil olunmuş "Azlıqda qalan millətlər bürosu"nun müdiri təyin edilmişdir. 1923-cü ilin yanvar ayında Moskvada keçirilən azsaylı xalqların I Ümumrusiya qurultayında nümayəndə qismində iştirak etmişdir. O, 1925-ci ildə İrəvan Yeni

Türk Əlifba Komitəsinin sədr əvəzi, 1928-ci ilin sonlarına qədər isə büro üzvü kimi fəaliyyət göstərmişdir. Mehdi Kazımov böyük istedada, gözəl təşkilatçılıq qabiliyyətinə malik şəxs idi.

Azsaylı xalqların 1-ci Ümümrusiya qurultayı
Sağdan 4-cü sıradan birinci Mehdi Kazımov

O, 1925-ci illərdə "Zəngi" qəzeti səhifələrində Azərbaycan dilinin qrammatikasına, tədrisinə, yeni türk əlifbasının əhəmiyyəti, təbliği və tətbiqinə dair bir sıra dəyərli məqalələrin, məktəb dərsliklərinin müəllifi olmuşdur. 1924-cü ildən 1932-ci ilin otralarına qədər, sonrakı dövrlərdə isə müxtəlif vaxtlarda İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun direktoru vəzifəsində işləmişdir.

1932-33-cü illərdə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı bölməsinin məsul katibi vəzifəsində çalışmışdır. Mehdi Kazımov ömrünün 50 ildən artıq müddətini, bütün qüvvəsini, bilik və bacarığını yorulmadan, fədakarcasına İrəvanda Azərbaycan maarifinin, mədəniyyətinin inkişafına sərf etmişdir. 1948-ci ilin noyabr ayında İrəvan Pedaqoji Məktəbinin Azərbaycanın Xanlar rayonuna köçürülməsi ilə əlaqədar Mehdi Kazımov da ailəsi ilə birlikdə həmin rayona deportasiya edilmişdir. O, 1949-50-ci illərdə Xanlar Pedaqoji Məktəbində rus dili fənnini tədris etmişdir. 1951-53-cü illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində rus dili müəllimi vəzifəsində çalışmış, 1954-cü ildə Bakı şəhərində vəfat etmişdir (3, s.56).

Öz məhdud imkanları hesabına azərbaycanlı məktəblərini müəllim kadrlarla təmin edən pedaqoji texnikumun müəyyən nailiyyətlərinə baxmayaraq, müstəqil bina ilə təmin edilməsinə, tələbə kontingentinin sayının artırılmasına böyük ehtiyac var idi. Mehdi Kazımovun hesabatlarından da məlum olur ki, bu tədris ocağının müstəqil bina ilə təmin edilməsi və tələbə qəbulunun sayının artırılması üçün dəfələrlə Ermənistan Xalq Maarif Komissarlığına və müvafiq qurumlara edilən müraciətlər öz həllini tapmamışdır. Çünki sovet Ermənistanının şovinist dairələri aydın dərk edirdilər ki, İrəvan Azərbaycanlı Pedaqoji texnikumunun müstəqil bina ilə təmin edilməsi onun böyük inkişafına və yeni keyfiyyət yüksə-

lişinə, milli pedaqoji kadrların hazırlanması işinin daha da genişlənməsinə və yüksəlməsinə gətirib çıxaracaqdır.

1930-cu illərdə Ermənistanda 7-dən artıq erməni texnikumu fəaliyyət göstərirdi ki, onların da hər biri müstəqil bina, tədris üçün lazımi şəraitlə təmin edildiyi, bütün zəruri ehtiyacları ödənildiyi halda belə, İrəvanda yeganə Azərbaycanlı Pedaqoji Texnikumu olan bu təhsil müəssisəsi bütün bu qayğılardan tamamilə məhrum idi. Ermənistanın "bolşevik" cildinə bürünmüş şovinist-daşnak dairələri azərbaycanlı pedaqoji texnikumunun yeni bina ilə təmin edilməsi və yaxud da yeni tərdis binasının tikilməsi məsələsini hər dəfə müxtəlif bəhanələrlə təxirə salırdılar. İrəvanda yeganə pedoqoji kadrlar hazırlayan bu təhsil ocağı elə varlığının ilk günlərindən çox böyük problemlər və çətinliklərlə üz-üzə qalmışdı. Müxtəlif vaxtlarda Ermənistanın Xalq Maarif komissarları olmuş A.Hovanesyan, S.Mikaelyan, A.Yegirazayan, B.Martirosyan və başqaları İrəvanda Azərbaycan təhsili üçün əlverişli şəraitin yaradılmasına heç vaxt imkan verməmişdilər. Texnikumda mövcud olan problemlərə baxmayaraq, bu tədris ocağının fədakar kollektivi bu təhsil müəssisəsinin fəaliyyətinin daha da canlandırılması və möhkəmləndirilməsi üçün yüksək əzmkarlıqla çalışırdılar. Bu barədə "Qızıl şəfəq" qəzeti səhifələrində, erməni məktəblərindən fərqli olaraq, azərbaycanlı məktəblərinə və pedaqoji texnikuma Ermənistan hökuməti tərəfindən lazımi köməkliyin göstərilməməsi, laqeyd münasibət sərgiləməsi barədə kifayət qədər kəskin yazılar dərc olunmuşdu.

Texnikumun rəhbərliyi bütün çətinliklərə baxmayaraq, bu təhsil ocağını tədris-material bazası ilə təmin etmək, ali təhsilli pedaqoji kadrlar cəlb etmək, tələbə kontingentinin sayını artırmaq və pedaqoji texnikumun daha ahəngdar fəaliyyət göstərməsi üçün imkanlar axtarıb tapırdılar. Texnikumun pedaqoji şurasının demək olar ki, hər iclasında bu tədris ocağının bütün sahələri ilə bağlı məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul edilirdi.

Pedaqoji texnikumun həyatında tələbə təşkilatının yaradılması və onun fəaliyyət göstərməsi də xüsusi yer tutur. Tələbə təşkilatı və onun sədri səsvermə yolu ilə bir il müddətinə tələbələr tərəfindən seçilirdi.

Tələbə təşkilatı pedaqoji texnikumda tədris prosesində tələbələrin fəaliyyətini fəallaşdırmaq, tələbələrin mənafeyini müdafiə etmək, mədəni-kütləvi və s. tədbirlərin keçirilməsi işində nizamnamə çərçivəsində yaxından fəaliyyət göstərirdilər.

1931-ci ildə texnikumda yeni yaranmış tələbə təşkilatına pedaqoji texnikumun fəal tələbələrindən olan Nadir Talıbov rəhbərlik etmişdir. Sonrakı dövrlərdə isə Əbil Rızayev, Əli Rəhimov, Binnət Əbdüləzimov, Muxtar Bayramov, Budaq Budaqov və başqaları tələbə təşkilatının sədri olmuşlar.

Pedaqoji texnikumda kitabxananın təsis edilməsi də günün ən vacib və təxirəsalınmaz məsələlərindən biri olsa da, bu təhsil ocağının erməni pedaqoji texnikumunun binasında darısqal bir otaqda yerləşməsi buna heç cür

imkan vermirdi. Bu da tədris prosesi ilə yanaşı, tələbələrin bilik səviyyəsinin artırılmasına da öz mənfi təsirini göstərməyə bilməzdi.

Bütün bunlara baxmayaraq, texnikumun pedaqoji heyəti ilə yanaşı, tələbə kollektivi də azərbaycanlı əhalinin savadlanması, təhsilə cəlb edilməsi üçün böyük səy göstərirdilər. Pedaqoji texnikumun tələbələri yay tətili dövründə azərbaycanlılar yaşayan bölgələrə gedir, orada savad kursları təşkil edir, onların savadlanmasına çalışırdılar. Pedaqoji texnikumun tələbələri Həsən Həsənov, Firudin Quliyev, Tamam Yusubova, Məhəmməd Əliyev, Səfəralı Məhərrəmov – Meğridə, Ənvər Qazıyev – Qəmərli dairəsinin Qaraqoyumlu kəndində, İdris Hüseynov – Bala Məzrə kəndində, Nurəli Qurbanov, Həbib İsmayılov, Əbil Rzayev, Cahangir Rüstəmov, Həsənalı Həsənov, Əyyub Babayev – Qafanda, Şıxzadə İrzayev, Heydər Məhəmməd Əliyev, Nəzər Paşayev, Cəlil Əliyev – Vedibasarda, Nəsir Əliyev, Laçın Əliyeva, Bəhlul Hüseynov – Ağbabada, Tərlan Həsənova, Bağır Rzazadə, Fəridə Məmmədova, Kübra Məmmədova və başqaları İrəvanda savadsızlığın aradan qaldırılmasında və milli maarifimizin inkişafında çox böyük rol oynamışlar.

1931-ci ildə pedaqoji texnikumda müxtəlif fənnlər tədrisi ilə yanaşı "Musuqi" fənni də tədris olunurdu ki, həmin fənni də bu təhsil ocağının tar müəllimi İbrahim Məmmədov tədris edirdi.

Məlumdur ki, icbari ibtidai sisteminin tətbiq edilməsi nəticəsində istər məktəblərin, istərsə də orada oxuyan

şagirdlərin sayı xeyli artdığından, həmin təhsil ocaqlarında pedaqoji kadrlara da böyük tələbat var idi. Bu baxımdan azərbaycanlı məktəblərində müəllim kadrlara olan tələbatı aradan qaldırmaq üçün pedaqoji texnikumun sonuncu kurs tələbələrinin hər il vaxtından əvvəl buraxılması bir zərurətə çevrilmişdi. 1931-ci ildə sentyabr ayının sonlarında pedaqoji texnikumun 3-cü buraxılışı olmuşdur ki, həmin məzunlar oktyabr ayının 1-dən qəza məktəblərində müəllimlik fəaliyyətinə başlamışlar. Əbülfət İbrahimin "Qızıl şəfəq" qəzetində ki, "Məcburi təhsil cəbhəsinə daha yeni 39 mübarizlər" adlı məqaləsindən məlum olur ki, pedaqoji texnikumda təhsil alan 40 nəfər tələbədən 39 nəfəri buranı bitirməyə müvəffəq ola bilmiş, 1 nəfəri isə təhsil aldığı müddətdə texnikumdan xaric edilmişdir (11, s.120-121). Texnikumun 1931-ci il buraxılışında məzunlar arasında yalnız bir nəfər gənc qız olmuşdur ki, bu da Sona Bağırova idi. Yeri gəlmişkən onu da qeyd edim ki, Sona Bağırova Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı bölməsinin gənc üzvü kimi, iştirak edirdi. O, hələ pedaqoji texnikumda təhsil aldığı illərdə "Qızıl şəfəq" qəzeti səhifələrində bədii nümunələr çap etdirir, inqilabdan sonra İrəvanda yaranan Azərbaycan poeziyasının aparıcı nümayəndələrindən biri kimi ədəbi mühitdə fəal iştirak edirdi.

1931-ci tədris ilində pedaqoji texnikuma tələbə qəbulu sayının artırılmasında mühüm dönüş baş verdi. Belə ki, texnikuma tələbə qəbulunun sayı əvvəlki illərlə

müqayisədə artaraq 60 nəfərə çatdırılmışdı. 1932-ci ildə pedaqoji texnikuma tələbə qəbulu bölgələr üzrə aşağıdakı kimi olmuşdur. Onlardan 5 nəfəri – İrəvan, 4 nəfəri – Üçmüədzin, 2 nəfəri - Qəmərli, 2 nəfəri – Axta, 4 nəfəri – Qarakilsə, 8 nəfəri – Vedibasar, 5 nəfəri – Basarkeçər, 3 nəfəri – Hamamlı, 3 nəfəri – Allahverdi, 8 nəfəri – Ağbaba, 5 nəfəri – Qafan, 5 nəfəri – Sisian, 3 nəfəri – Gorus, 5 nəfəri isə Dilican bölgələrindən idi (15). Texnikuma qəbul olunmuş həmin tələbələrdən 23 nəfəri qızlar idi ki, onlardan da 3-ü İrəvan şəhərindən, 1-i Üçmüədzin, 2-si Qarakilsə, 3-ü Vedibasar, 2-si Basarkeçər, 1-i Stepanovan, 3-ü Ağbaba, 1-i Allahverdi, 2-si Qafan, 1-i Gorus, 2-si Sisian, 2-si isə Dilican bölgələrindən idi (16).

Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, pedaqoji texnikumda əvvəlki illərdə olduğu kimi, 1932-ci tədris ilində də dərslər vaxtında başlamamışdır. Hər il dərslərin 25-30 gün gec başlamasına səbəb burada tədris prosesi üçün lazımi şəraitin olmaması ilə bağlı olmuşdur.

Texnikumda laboratoriyalar və tədris üçün kifayət qədər zəruri dərs kitabları olmadığından dərslər bəzən nəzəri keçirilirdi. Hətta tələbələrin məskunlaşdığı yataqxanada işıq belə olmadığından, tələbələr dərslərinə çıraq işığında hazırlaşmağa məcbur olurdular. Yuxarıda qeyd etdiyimiz kimi, tələbə və müəllimlərin yaşayış şəraiti hədsiz dərəcədə ağır olduğu kimi, dərs keçməyə sinif otaqları da çatışmırdı.

Bəhlul Yusifov

1932-ci ildə Bəhlul Yusifov texnikuma direktor təyin olunduqdan sonra bu tədris ocağının həyatında ciddi dönüş baş verir. Bəhlul Yusifov 1903-cü ildə Vedibasarda anadan olmuşdur. O, 1920-ci ildə partizan hərəkatına qoşularaq, Abasqulu bəy Şadlinskinin yaratdığı "Qırmızı tabor"un tərkibində erməni daşnaklarına qarşı vuruşmuşdur. 1921-26-cı illərdə Vedidə müəllim işləmiş, azərbaycanlı əhali arasında savadsızlığın aradan qaldırılmasında, gənclərin təhsilə cəlb edilməsində böyük xidmətləri olmuşdur. 1927-ci ildə Gümrü qəza komitəsinin Amasiya nahiyəsində təlimatçı vəzifəsində çalışmışdır. 1928-ci ildə Zaqafqaziya Kommunist Universitetinə daxil olmuş, 1933-cü ildə oranı bitirdikdən sonra elə həmin ildə İrəvan Türk Pedaqoji texnikumuna direktor təyin olunmuşdur.

1933-cü ildən 1942-ci ilədək pedaqoji texnikumun direktoru vəzifəsində çalışmışdır. 1940-cı ildə təhsil sahəsindəki xidmətlərinə görə "Əməkdar müəllim" adına layiq görülmüşdür. 1942-43-cü illərdə Zəngibasar rayonu MTS-ni siyasi şöbə rəisi vəzifəsində işləmişdir. 1946-cı ildə Bəhlul Yusifov aspiranturaya daxil olur və 1952-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi alır. 1950-ci ildən Neft və

Kimya İnstitutunda müəllim, dosent, kafedra müdiri vəzifələrində çalışmışdır. Ömrünün böyük bir hissəsini elmə, təhsilə, milli pedaqoji kadrların hazırlanması işinə həsr etmiş, gözəl təşkilatçı, tanınmış maari xadimi Bəhlul Yusifov 1984-cü ildə Bakı şəhərində vəfat etmişdir (3).

Bəhlul Yusifov texnikuma direktor təyin olunduqdan sonra tədrisin keyfiyyətinin yüksəldilməsi, tədris üzrə proqramların, dərs vəsaitlərinin əldə olunması, tələbə kontingentinin sayının artırılması sahəsində ciddi iş aparmışdır. Texnikumun rəhbərliyi və kollektivi tədris prosesini və ictimai həyatı, eləcə də digər məsələləri qaydaya salmaq üçün məqsədyonlü fəaliyyət göstərmişdir. 1933-cü ilin ortalarından vəzifəsinin icrasına başlayan Bəhlul Yusifov qısa müddətdə tələbələrin paltar, ayaqqabı və s. ləvazımatlarla təmin edilməsinə, dəhlizdə və yerdə dərs keçmək kimi halların aradan qaldırılmasına, tələbələr üçün yeməkxana və burada olan 5 qrupun hər birinin xüsusi dərs otağı ilə təmin olunmasına nail ola bilmişdi. Amma texnikumda tələbə yataqxanası sarıdan vəziyyət olduqca acınacaqlı idi. Balaca, basırıq, darısqal, rütubətli bir otaqda 30-dan artıq tələbə yaşayırdı.

Tələbələrin mədəni rahatlığı üçün minimum şərait belə yox idi. Texnikumun rəhbərliyi aydın dərk edirdi ki, təhsilin keyfiyyətini və müvəffəqiyyət dərəcəsini qaldırmaq üçün bu tədris ocağının müstəqil bina ilə təmin edilməsinə kəskin zərurət var.

Texnikumun rəhbərliyinin və digər qeyrətli ziyalılarımızın təşəbbüsü və səyi nəticəsində uzumüddətli gər-

gin mübarizədən sonra pedaqoji texnikum 1934-cü ildə müstəqil bina ilə təmin edildi. Beləliklə, texnikum rəhbərliyi burada dərs demək üçün ali təhsilli müəllimlərin cəlb edilməsi məsələsini də təcili olaraq nəzərdən keçirib, bu işin də qaydaya salınmasına nail ola bilmişdi. Çünki texnikum ali təhsilli pedaqoji kadrlar sarıdan kifayət qədər təmin edilməmişdi. Qısa vaxt ərzində texnikumda dərs deyən ali təhsilli pedaqoji kadrların sayı nəzərə çarpacaq dərəcədə artmağa başladı.

1933-cü ildə texnikumun nəzdində həm də birillik müəllimlər kursu açılmışdı ki, bu kursa da 36 nəfər qəbul edilmişdi. Onu da qeyd edək ki, hazırlıq kursları texnikumun yarandığı ilk illərdə də səmərəli fəaliyyət göstərirdi. Amma 1929-cu ildə həmin kursların fəaliyyəti dayandırılmış, 1933-cü ildə isə yenidən bərpa edilmişdi.

İlk dəfə bir neçə müəllimlə fəaliyyətə başlayan İrəvan Türk Pedaqoji Texnikumuna 1934-cü illərdə ali təhsilli müəllimlər cəlb olundu. Azərbaycan dili və ədəbiyyatından Nəsib Əfəndiyev, Müzəffər Nəsirli, Abbas Azəri, tarixdən – Nəzər Paşayev, pedaqogika və psixologiyadan Tacirə Bağırova, Zəhra Abbasova, fizika və riyaziyyatdan Mamed Həsənov, kimyadan Ramazan Əliyev, Əziz Əzizov, Zərri Qurbanova və Kərəm Abbasov kimi ali təhsilli, parlaq simalar dərs deyirdilər.

Texnikuma yüksək səviyyəli ali təhsilli pedaqoqların cəlb edilməsi tələbələrin dərin elmi biliklərə yiyələnməsi ilə yanaşı, tədrisin keyfiyyətinin daha da yüksəlməsinə ciddi təsir göstərirdi.

Müzəffər Nəsirli

Zəhr Abbasova

Nəsib Əfəndiyev

Nəzər Paşayev

Abbas Azəri

Kərəm Abbasov

Mamed Həsənov

Tacirə Bağırova

Belə ki, erməni şovinizmi əhatəsində qarşılaşdığı bütün çətinliklərlə, maneələrə baxmayaraq, azərbaycanlı pedaqoji texnikumu təhsil sistemində öz uğurları ilə mövqeyini daha da möhkəmləndirərək Cənubi Qafqazda ali məktəb səviyyəsində böyük uğur qazana bilmişdi. İrəvan Türk Pedaqoji Texnikumu 1934-cü ildə Ümumittifaq texnikumlar yarışında birincilik qazanaraq 7 min manat məbləğində pul mükafatına layiq görülmüşdür.

Texnikumun məzunu olmuş görkəmli alim, akademik Budaq Budaqov milli pedaqoji kadrların hazırlanması işində böyük xidmətləri olmuş bu təhsil ocağı haqqında yazır: "İrəvan Pedaqoji məktəbi oraya toplanmış müəllimlərin pedaqoji ustalığı, ensiklopedik biliyi və hazırlanan kadrların savadının pedaqoji məktəb səviyyəsindən universitet tələbələri səviyyəsinədək qaldırılması bu məktəbə haqlı şərəf, şöhrət, nüfuz gətirmişdi. İrəvan Pedaqoji məktəbinə daxil olmaq ən yüksək müsabiqəli ali məktəbə qəbuldan çətin idi. Məktəbdə olan daxili intizam, yığcamlıq, yüksək təhsil vermək ənənəsi, yaxşı oxuyanların hörmətini layiq olduğu səviyyəyə qaldırmaq bizi valeh edirdi" (15,s.93).

Texnikumun 4 mərtəbəli bina ilə təmin edilməsi tədrisi lazımi səviyyədə qurmağa əlverişli şərait yaratmışdı. Vaxtilə bir tədris otağına malik olan texnikumda artıq 18 sinif otağı var idi. 2-ci və 3-cü mərtəbələrində dərslər keçirilir, 4-cü mərtəbəsi isə 75 nəfərlik yataqxana kimi fəaliyyət göstərirdi. Bundan başqa, tələbələr üçün yeməkxana, idman zalı təşkil edilmiş, onların mədəni eh-

tiyacını ödəmək üçün bir kino aparatı alınmış, kino üçün böyük bir klub yaradılaraq tələbələrin ixtiyarına verilmişdi. Bütün kabinet və laboratoriyalar müəyyən qədər avadanlıqla təchiz edilmişdi. Texnikumda fizika, kimya, biologiya, coğrafiya, hərbi və s. kabinet və laboratoriyaların olması dərslərin daha da keyfiyyətli keçirilməsinə və onların təcrübə ilə əlaqələndirilməsinə müsbət təsir göstərirdi. İsa Həsənov tarix, Xəlil Xəlilov Azərbaycan ədəbiyyatı, Səkinə Nəcəfova pedaqogika, Abbasov Kərəm fizika, Bəşir Məmmədov bədən tərbiyəsi kabinetlərinə rəhbərlik edirdilər. Texnikumda xüsusi sənətxana da fəaliyyət göstərirdi ki, bu da politexnik işlərini daha da gücləndirirdi. Tələbələrin maddi və məişət vəziyyətinin yaxşılaşdırılması, texnikumun maddi-texniki bazasının möhkəmləndirilməsi, inventar, avadanlıq və s. ləvazımatlarla təmin edilməsi bu tədris ocağının müvəffəqiyyət dərəcəsinin ildən-ilə artmasının nəticələrində də özünü göstərirdi.

1934-cü ildə İbrahim Axundov texnikuma tədris işləri üzrə şöbə müdiri təyin olunur. Texnikumun yeni rəhbərliyinin apardığı uğurlu fəaliyyət nəticəsində 1934/35-ci tədris ili üçün tələbə qəbulunun sayının artırılmasında da böyük irəliləyiş əldə edilmişdir. Belə ki, texnikuma tələbə qəbulunun sayı xeyli artaraq 120 nəfərə çatdırılmışdı. Texnikumun rəhbərliyinin ciddi çalışmaları nəticəsində tədris prosesi üçün həlli vacib olan bir sıra məsələlər yüksək peşəkarlıqla həll edildiyindən

1934-cü tədris ilində dərslər vaxtında – sentyabr ayının 15-də başlamışdı.

Texnikumda kitabxananın təsis edilməsi tədris prosesinin uğurla davam etməsinə, istərsə də tələbələrin bilik səviyyələrinin, ümumi dünya görüşlərinin artmasına çox böyük təsir göstərirdi. Məlumdur ki, hər hansı bir tədris müəssisəsində kitabxanasız keçinmək mümkün deyil. Texnikumun rəhbərliyi Azərbaycandan və digər başqa şəhərlərdən müxtəlif adda ən qiymətli kitablar, qəzet və jurnallar alırdı ki, bununla da kitabxana fondu getdikcə daha da zənginləşirdi. Kitabxana fondunun zənginləşməsində və sahmana salınmasında buranın müdiri olmuş Şövkət Məmmədovanın, Qüdrət Mamedovun və başqalarının da böyük əməyi vardır. Texnikumda çatışmayan coğrafiya, tarix, ədəbiyyat, təbiət dərslikləri isə Azərbaycandan gətirirdilər. Tələbələr bu dərsliklərlə pulsuz təmin edilirdi.

Faktlar göstərir ki, İrəvan Türk Pedaqoji Texnikumun müəyyən uğurlara nail olmasında, pedaqoji kollektivlə yanaşı, tələbə heyətinin də rolu olmuşdur. Beləliklə, texnikum coşğun fəaliyyət göstərir, özünün pedaqoji kadrlar hazırlanması işinin öhdəsindən layiqincə gəlirdi. Hər qrupa təhkim edilmiş müəllimlər sinif rəhbəri kimi tələbələrin tədris nizam-intizam işlərinə rəhbərlik edir, zəif tələbələrlə müəyyən ardıcıllıqla iş aparırdı. Texnikumda təlim-tərbiyə işini yüksəldilməsi üçün ardıcıl olaraq tədbirlər həyata keçirilmiş valideynlərlə

məktəbin əlaqəsi daima teknikum rəhbərliyinin və kollektivinin daima diqqət mərkəzində olmuşdur.

Hətta sinif rəhbərləri üç ayda bir dəfə tələbələrin valideynlərinə övladlarının vəziyyəti, təhsilə davamiyyəti, nizam-intizam səviyyəsi ilə bağlı məktub göndərirdilər. Tələbələrin müvəffəqiyyət dərəcəsini yüksəltmək texnikumun rəhbərliyi qarşısında duran ən mühüm məsələlərdən biri idi. 1935-ci tədris ilində pedaqoji texnikumun tələbələrinin müvəffəqiyyət dərəcəsinə dair rəqəmlər sübut edir ki, əvvəlki illərə nisbətən bu göstərici daha da yüksələrək 95 faiz təşkil etmişdir.

Bir sıra çətinliklərə baxmayaraq, İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu 1934/35-ci tədris ilini uğurla başa vurmuşdu. 1935-ci ildə texnikumu 21 nəfər, birillik müəllimlər hazırlığı kursunu isə 29 nəfər bitirmişdi. Həmin il pedaqoji texnikumu bitirənlər dövlət imtahanlarını ən yaxşı göstəricilərlə başa vurmuşdular. İrəvan Türk Pedaqoji Texnikumu ilə bağlı əldə etdiyimiz sənədlərdən aydın olur ki, illərlə müxtəlif qrupda oxuyan hər bir tələbə üçün qazandığı nailiyyətlərə görə "əlaçı", "zərbəçi", "nümunəvi" adlandırılmış, "əlaçı" və "zərbəçi" tələbələr tədris müddətində mənimsəmə faizi yüksək olduğuna görə mükafatlandırılmışlar. İmtahanların nəticələri haqqında məlumatlardan aydın olur ki, Hüseyn Əliyev, Həsən Həsənov, Ağayəddin Telanov, Qulu Mahmudov, Tanriverdi Qasımov, Lətif Göyüşov, Əli Mirzəyev dövlət imtahanlarını müvəffəqiyyətlə vermişvə texnikumun rəhbərliyi tərəfindən mükafata layiq görülmüşdülər. Yu-

xarıda adlarını qeyd etdiyimiz məzunlar hələ tələbəlik illərində texnikumun ictimai, mədəni həyatında fəal iştirak etdiklərinə görə tədris müəssisəsinin rəhbərliyi tərəfindən bir neçə dəfə mükafata layiq görülmüşlər.

Texnikumun pedaqoji şurası 1934/35-ci dərs ilinə yekun vurarkən tələbələrin müvəffəqiyyət dərəcəsinin yüksəldilməsində böyük əmək sərf etmiş müəllimlərdən 4 nəfərini və imtahanlarda yüksək bilik nümayiş etdirən tələbələrdən isə 16 nəfərini istirahət evinə göndərməklə mükafatlandırmışdı.

Tərcüməçi-publisist Zahid Əhmədov pedaqoji texnikum haqqında yazırdı: "O vaxtlar bu məktəbə qəbul olmaq istəyənlərin sayı qədərindən çox idi. Odur ki, burada ancaq yaxşıların-yaxşısı oxuya bilərdi. Məktəb mahalda öz ənənələri, müəllim kollektivi və yetişdirmələri ilə sayılıb-seçilən təhsil ocaqlarından biri idi" (16,s.128) .

1935-ci ildə Məmməd Səid Ordubadi, Mikayıl Müşfiq, Mehdi Hüseyn və başqalarından ibarət nümayəndə heyəti İrəvanda səfərdə olarkən İrəvan Türk Pedaqoji Texnikumun müəllim və tələbə kollektivi ilə görüş keçirmişlər. Məmməd Səid Ordubadi texnikumun müəllim və tələbə heyəti qarşısında çıxış edərkən bu tədris ocağının fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Türk Pedaqoji Texnikumu bizdə böyük intibalar yaratdı. Türk mədəniyyətinin nə qədər böyük inkişafda olduğunun canlı şahidi olduq" (3, s.54).

Mikayıl Müşfiq, Məmməd Səid Ordubadi, Yusif Vəzir Çəmənzəminli, Mehdi Hüseyn İrəvan Azərbaycanlı Pedaqoi Məktəbində. İrəvan , 1935

Ümumiyyətlə, Azərbaycanın bir çox görkəmli ziyalıları – Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal, Yusif Vəzir Çəmənzəminli, Sabit Rəhman, Səməd Vurğun, Məmməd Arif, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Əbülhəsən, Mikayıl Rəfili, Vəli Xuluflu, Həmid Araslı, Süleyman Rüstəm və bir çox başqaları bu təhsil ocağının qonağı olmuşlar. Pedaqoji texnikumda belə ədəbi toplantıların, yaradıcılıq gecələrinin, elmi konfransların keçirilməsi tələbələr arasında şəxsi yaradıcılıq işlərinin genişlənməsinə, onların elmi-ədəbi dünya görüşlərinin artmasına da müsbət təsir göstərirdi.

Texnikumun pedaqoji şurasının iclaslarında nailiyyətlərlə yanaşı mövcud nöqsanlar da müzakirə edilir və onların aradan qaldırılması üçün ciddi tədbirlər görülürdü. Pedaqoji şuranın 25 iyun 1935-ci il tarixli iclasında qəbul edilən qərarlarından biri də Ermənistan Xalq Maarif Komissarlığının inşaat şöbəsi tərəfindən texnikumda aparılan təmir işlərinin gecikdirilməsi ilə bağlı idi. Texnikumun yeni bina ilə təmin edilməsinə baxmayaraq, burada təmir-tikinti işləri hələ də tamamlanmamışdı. Bu barədə məlumatlara texnikumun direktoru Bəhlul Yusifovun hesabatlarında da rast gəlinir. O yazırdı: "Təhsil ilinə hazırlıq işlərində nöqsan cəhət məktəbin təmiratının gecikdirilməsidir. Bu səbəbdən məktəbə hələ su çəkilməmişdir. Qışa hazırlıq üçün məktəbin odun damı hələ hazırlanmamış, bir sıra yarımçıq işlər görülüb qurtarmamışdır. Xalq Maarif Komissarlığı göstərilən nöqsanların tezliklə aradan qaldırılmasına, gələcəkdə İrəvan Azərbaycanlı Pedaqoji texnikumunun daha keyfiyyətli və bacarıqlı kadrlar hazırlanmasını təmin etməyə çalışmalıdır" (56, s.4).

Amma bütün bunlara baxmayaraq, texnikum qarşısına tədrisi keyfiyyətcə daha da yaxşılaşdırmaq, növbəti tədris ilinə hazırlıq prosesini vaxtında başa çatdırmaq, daha keyfiyyətli pedaqoji kadrlar hazırlamaq məqsədi qoymuşdu.

Texnikumun rəhbərliyi tərəfindən milli pedaqoji kadrların hazırlanması və təhsilin keyfiyyətinə ciddi fikir verilirdi. Hər sesiyanın sonunda tələbələrin imtahan-

lardan aldıqları qiymətlər pedaqoji şuranın iclaslarında ciddi şəkildə müzakirə olunur, zəif tələbələrlə aparılacaq işlər müəyyənləşdirilir, tədris zamanı yol verilmiş nöqsanlar ətraflı təhlil edilirdi. Mənbələrdə 1935-ci ildə Pedaqoji Texnikumu uğurla bitirən məzunlar arasında Lətifə Axundova, Feyzullah Ramazanov, Abbas Rzayev, Cəfər Əsgərov, İsmət Hacıyeva kimi məzunların adlarına rast gəlinir.

Texnikumun rəhbərliyi 1935/36-cı tədris ili üçün tələbə qəbulu ilə əlaqədar hazırlıq işləri aparmağa başlamış, tam otra olmayan məktəbləri əla qiymətlərlə bitirən gəncləri daha çox texnikuma cəlb etmək üçün müəllimlərdən bir neçəsini rayonlara ezam etmişdi. Zaman Vəliyev Basarkeçər, Ədil Cabbarov Amasiya, Tağı Musayev Zəngibasar, Əli Heydərov Sisian, Bəhlul Süleymanov Vedibasar, Yaqub Mahmudov isə Qarabağlar rayonlarına ezam edilmişdi. Onu da qeyd etmək lazımdır ki, texnikumun nüfuz dairəsi artdıqca bura qəbul olmaq istəyənlərin sayı da ilbəil artırdı.

Texnikumun direktoru Bəhlul Yusifovun hesabatlarında 1935/36-cı tədris ilində texnikuma 175 nəfər tələbə qəbul olunacağı haqqında məlumat verilir. Sözsüz ki, bu rəqəm texnikuma tələbə qəbulunun əvvəlki illərlə müqayisədə ən yüksək göstəricisi idi. Amma məlum olmayan səbəblərdən Bəhlul Yusifov 1935-ci ilin iyul ayında texnikumun direktoru vəzifəsindən azad edilərək onun yerinə Mustafa Mustafayev direktor təyin edilir. Onu da qeyd edək ki, Mustafa Mustafayev texnikumun

direktoru vəzifəsində cəmi iki ay işləyə bilmişdir. O, "yoxlama komissiyası" adlandırılan qurum tərəfindən aparılan yoxlama zamanı təhlükəli "ünsür" kimi aşkar olunaraq, tutduğu vəzifədən azad edilərək repressiyaya məruz qalmışdır.

1935-ci ildə pedaqoji texnikumun nəzdində qiyabi şöbə yaradıldı. Qiyabi şöbənin yaradılmasında və inkişafında Bəhlul Yusifovun və Mehdi Kazımovun böyük xidməti olmuşdur. Qiyabi şəbənin müdiri Nəzər Paşayev təyin edilmişdir. Qiyabi şöbədə Ermənistan Xalq Maarif Komissarlığı tərəfindən təsdiq olunmuş qaydalar əsasında, xüsusən maarif sahəsində çalışan adamlara qiyabi oxuyaraq təhsil almağa imkan yaratmaq nəzərdə tutulurdu.

1935/36-cı tədris illərdə texnikuma bölgələr üzrə cəmi 175 nəfər tələbə qəbul edilmişdir. 1935/36-cı dərs ilinin əvvəlində texnikumda cəmi 11 qrupda 397 tələbə təhsil alırdı (16,s.131;3). Göründüyü kimi, əvvəlki illərlə müqayisədə texnikuma tələbə qəbulu, tələbələrin ümumi sayı nəzərə çarpacaq dərəcədə artmışdı.

Təkcə 1935-ci illərdə Qaraqoyunlunun Göyərçin kəndindən 6 nəfər: Abdullayev Konsul Süleyman oğlu, Qarayev Ömər Paşa oğlu, Qarayev Nəcəf Süleyman oğlu, Cəfərov Cəfər Aslan oğlu, Abdullayev Ənvər Vəli oğlu, Mərdanov Cumayıl Alı oğlu İrəvan Pedaqoji Texnikumuna qəbul olmuşdular.

1935-ci ilin yanvar ayında texnikumun direktoru vəzifəsinə yenidən Bəhlul Yusifov, katib vəzifəsinə isə

Elyaz Ramazanov təyin edilir. Texnikuma təyin olunan tibb bacısı Roza Axundovanın da öz peşə vəzifəsini şərəflə yerinə yetirmiş, hər zaman kollektivin və tələbələrin sağlamlığının keşiyində durmuşdur.

Texnikumun yeni rəhbərliyi 1936/37-ci tədris ilinə hazırlıqla yanaşı məktəbin texniki bazasının möhkəmləndirilməsi və bir sıra avadanlıqlarla təchiz olunması ilə bağlı lazımi işləri davam etdirirdi. Onu da qeyd edək ki, hələ də bəzi fənlər üzrə ali təhsilli müəllimlərin olmaması, sinif otaqlarının çatışmadığı bir vaxtda texnikumun 4 otağının erməni kukla teatrı tərəfindən zəbt edilməsi, dərsliklərin və dərs vəsaitlərinin çatışmaması, tədris prosesinin gedişinə mənfi təsir göstərsə də, texnikum yaşayır və geniş fəaliyyət göstərən mədəni quruculuq qüvvəsinə çevrilirdi.

1935-ci ildə İrəvan Türk Pedaqoji Texnikumu İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi adlanır. Texnikumun rəhbərliyi tərəfindən bu tədris ocağında dərs demək üçün daha 4 ali təhsilli müəllim dəvət olunur. Ali təhsilli müəllim heyətinin sıralarının artması texnikumun ahəngdar fəaliyyəti üçün çox mühüm şərt idi.

Pedaqoji məktəbdə tədris ləvazimatı, fizika, kimya kabinetlərinin təchizatı, kitabxananın ədəbiyyatla zənginləşdirilməsi və s. sahələrdə də xeyli işlər görülmüşdür. Bundan başqa, 319 ədəd idman forması alınaraq tələbələrə paylanmışdı. 1936-cı dərs ilində 3000 manatlıq tədris ləvazimatı, 4000 manatlıq isə yeni mikroskoplar alınmış, yeni açılan siniflərin inventarla təmin edilməsi

üçün 60 stol-stul dəsti, 12 yazı taxtası, tələbə yataqxanası üçün asılqan, çarpayı, dolab və s. inventarların alınmasına 24000 manat vəsait xərclənmişdi.

Pedaqoji məktəb rəhbərliyinin Meğri, Dilican, Sisyan və digər azərbaycanlılar yaşayan bölgələrə ezam etdiyi bir qrup müəlimin səyi və təbliği sayəsində bu tədris ocağına qəbul olmaq üçün ərizə verilənlərin sayı 1935-ci ildə 245 nəfərə çatdırılmışdı. Amma onlardan yalnız 120 nəfəri pedaqoji məktəbin tələbəsi olmaq hüququnu qazana bilmişdi.

1936-ci dərs ilində pedaqoji məktəbin qiyabi, əyani və birillik müəllimlər hazırlığı kursuna qəbul olunanların sayı cəmi 165 nəfər olmuşdu. Texnikuma qəbul olunmaq istəyən qızlara üstün hüquqlar verilmişdi ki, bunun da nəticəsində 1936-cı ildə burada təhsil alan tələbə qızların sayı artaraq 40 nəfərə yüksəlmişdi (46; 55).

Əziz Əzizov

1936-ci ildə texnikumda tələbələrin ideya-siyasi səviyyəsini yüksəltmək, onların istedad və bacarıqlarını, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, cəmiyyətin fəal qurucularına çevirmək məqsədilə tar, foto, alman dili, rus dili, coğrafiya, xor, rəqs və s. fənn dərnəkləri yaradılmış və bu dərnəklərə xeyli sayda tələbə cəlb edilmişdi. Bu dərnəklərə texnikumun direkto-

ru Mehdi Kazımov, tədris hissə müdiri Əziz Əzizov, müəllimlərdən Nəzər Paşayev, İsmayıl Şükürzadə, tələbələrdən 3-cü kurs tələbəsi Əsəd Məmmədov, 4-cü kurs tələbəsi Məsim Əkbərov rəhbərlik edirdilər. Mənbələrin verdiyi məlumatlarda həmin dərnəklərdə öz bilik səviyyələrini yüksəltmək üçün müntəzəm iştirak edən tələbələrdən Bulud Zeynalov, Qurban İsmayılov, Qasım Əsgərov, Əhəd Rəcəbov, Tapdıq Əmiraslanov, Səməd Qarayev, Pərviz Tagızadə, Əbülfət İsmayılov, Cabbar Quliyev, Teymur Haqverdiyev, Cabbar Həsənov, Ələsgər Əbdilov, Möhsüm İbrahimov, Məsmə Məmmədova, Foqiyə Əsgərova, Möhsüm Abbasov, Abbas Ağayev, Hüseyn Məmmədov, Əsgər Rzayev, Müzəffər Namazov, Bəhram Rzayev, Zübeydə Həsənova, Əhməd Kələşov, Gəncəli Quliyev, Hidayət Hacıyev, Ələsgər Mustafayev və başqalarının adlarına rast gəlinir.

Texnikumun rəhbərliyi burada fəaliyyət göstərən dərnəklər sırasında dram dərnəyinin olmasına xüsusi əhəmiyyət verirdi. Mehdi Kazımov, Əşrəf Bayramov repertuar seçimində, rol bölüşdürülməsində dərnək üzvlərinə yaxından köməkklik edər, məşq zamanı dəyərli məsləhətlər verərdilər. Onların təşəbbüsü ilə texnikumun dram dərnəyi tərəfindən Nəriman Nərimanovun "Nadanlıq", "Şamdan bəy", "Ağac kölgəsində", "Bəxtsiz cavan", Əbdürrəhim Haqverdiyevin "Çinar altında məhəbbət" əsəri tamaşaya qoyulmuşdur. Tamaşa texnikumun müəllim və tələbə kollektivi tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Texnikumda zərb alətləri və musiqi dərnəyi yaradılmışdı ki, bu dərnəklərə də onlarla tələbə cəlb olunmuşdu. Tələbələrdən Mirzəyev Rza, Bayramov Vəli, İsmayılov Eyvaz, Əliyev Mamed, Həsənov İvan, Zeynalov Oruc zərb alətləri dərnəyinin, Həsənov Yaqub, Zeynalov Zeynal, Hüseynov Şirin, Yolçuyev Abdulla, Mamedov Məmmədəli, Quliyev Abbas isə musiqi dərnəyinin ən fəal üzvləri idi. Həmin tələbələr texnikumun mədəni həyatında fəal iştirak etdiklərinə görə bu təhsil ocağının rəhbərliyi tərəfindən Fəxri fərmanla təltif edilmişlər (7, s.41).

Texnikumda tələbələrin asudə vaxtının səmərəli təşkili həmişə kollektivin diqqət mərkəzində olmuşdu. Azərbaycanın görkəmli yazıçıları, şairləri, tanınmış incəsənət xadimləri, adlı-sanlı şəxsiyyətləri ilə görüşlər keçirilirdi. Böyük Azərbaycan şairi Nizaminin 800, Məmməd Səid Ordubadinin 70, Cəfər Cabbarlının 40 illik yubileyləri, Mirzə Ələkbər Sabirin yaradıcılığına həsr olunmuş "Sabir axşamı" texnikumda geniş qeyd edilmişdi. Texnikumda xalqımızın görkəmli elm, mədəniyyət, ədəbiyyat xadimlərinin yubileylərinin, ədəbi-bədii gecələrin keçirilməsində aktiv təşkilatçılarından olan coğrafiya müəllimi Əşrəf Bayramovun, musiqi müəllimi Məhərrəm Mamedovun da fəaliyyəti təqdirəlayiqdir. Texnikumun direktoru Bəhlul Yusifov onların ictimai-ədəbi fəaliyyətini yüksək qiymətləndirərək 24 iyun 1940-cı il tarixli 14 №-li əmr ilə Əşrəf Bayramova və Məhərrəm Mamedova təşəkkür elan etmişdir.

Onu da qeyd etmək lazımdır ki, pedaqoji məktəbin bir sıra uğurlara nail olmasında adlarını yuxarıda qeyd etdiyimiz və fəal tələbələrin də danılmaz rolu vardır. Həmin tələbələr yaxşı təhsil almaqla yanaşı Ermənistanda yaşayan azərbaycanlıların yeganə mərkəzi mətbuat orqanı olan "Qızıl şəfəq" qəzetinin yayılması və abunə yazılışı işində, milli maarifçiliyimizin inkişafında da fəal iştirak edirdi. "Qızıl şəfəq" qəzetinin redaksiya heyəti bu mətbuat orqanına xeyli sayda abunə yazdıran tələbələrdən Teymur Haqverdiyevi, Cabbar Həsənovu, Möhsün İbrahimovu, Əsgər Abbasovu, Rüstəm Tağıyevi müxtəlif hədiyyələrlə mükafatlandırmışdır.

İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu ilə bağlı ələ etdiyimiz müəyyən sənədlərdən aydın olur ki, hər tədris ilinin yekununda müxtəlif qruplardan olan əlaçı və nümunəvi tələbələrin siyahısı müəyyənləşdirilmiş, onlar tədris müddətində qazandığı nailiyyətlərə və yüksək müvəffəqiyyət göstəricilərinə görə mükafatlandırılmışlar. Texnikumun direktoru Mehdi Kazımovun 28 iyun 1937-ci il tarixli 37 №-li verdiyi əmrdə yazılır: "Tədris müddətində müvəffəqiyyət qazanmış əlaçı tələbələr mükafatlandırılsın: Qasımov Sədi 30, İsmaylov Əbülfət 30, Qaraisayev Sadıx 30, Şəkərəliyev Həsən 30, Əmiraslanov Tapdıq 30, Mamedov Əsəd 30, Abdullayev Vəli 25, Bağırov İsa 25, Rzayev Bəhram 25, Abdullayev Abdulla 25, Sərdarov Bala 25, Əhmədov Nuru 25, Mamedov Bünyat 25, Əsgərov Ələkbər 25, Zeynalov Bulud 25, Camalov İrza 25, Mamedov Hüseyn 25, Abdiyev Ələsgər 25, Mamedov

Bəşir 20, Ağayev Abbas 20, Abdiyev Vəli 20, Mamedov Əlisa 20, Babayev Əli 20, Tağızadə Pərviz 20, Kazımov Abdulla 30, Cəfərov Əli 50 rubl" (7, v 41).

Qeyd etmək lazımdır ki, tələbələr arasında siyasi və mədəni-kütləvi işlərə ciddi fikir verilirdi. Məlumdur ki, sovet hakimiyyəti qurulduqdan sonra bütün sahələrdə olduğu kimi, təlim-tərbiyə işi də mövcud dövrün tələbləri və prinsipləri əsasında qurulmağa başladı. Tələbələrin ideya-siyasi tərbiyəsinə pedaqoji məktəbin ilk partiya təşkilatı rəhbərlik edirdi. Tələbələrin ideya-siyasi baxışlarının formalaşmasında elmi və siyasi mövzularda oxunan məruzələrin də böyük rolu olurdu. Eyni zamanda hərbi və bədən tərbiyəsi fənlərinin tədrisinə də xüsusi fikir verilirdi. Hərbi vətənpərvərlik tərbiyəsi müxtəlif formalarda aparılırdı. Pedaqoji məktəbin tələbələri hərbi biliklərə ruh yüksəkliyi ilə yiyələnirdilər. Bu işdə Əli Heydərovun rəhbərlik etdiyi tarix kabineti öz fəallığı ilə seçilirdi. Həmin məşğələlərdə tələbələrdən Eyvaz İsmayılov, Firudin Nəbiyev, İsmayıl Şahverdiyev, Həbib Həsənov fəal iştirak etmişlər.

Tələbələr atıcılıq idmanına daha çox maraq göstərirdilər. 1936-cı ildə 120 tələbə "Voroşilov nişançısı" adını almışdı. "Motoçikl" dərnəyində isə 20 nəfər müəllim və tələbə böyük həvəslə iştirak edirdi. 1936-cı ildə texnikumda 3 partiya tarixi, 4 siyasi savad dərnəkləri də təşkil edilmişdir ki, burada 217 nəfər gənc fəal iştirak edirdi.

30-cu illərdə, xüsusilə 1937-38-ci illərdə bütün SSRİ-də həyata keçirilən repressiyalar İrəvan pedaqoji məktə-

binin müəllim və tələbələrindən də yan keçməmişdi. Bu repressiyalarla əlaqədar ermənilərin azərbaycanlılara qarşı təzyiqi müxtəlif bəhanələrlə daha da güclənmişdi.

1936-38-ci illərdə pedaqoji məktəbin müəllimlərindən Mehdi Kazımov, Əşrəf Bayramov, Abbas Azəri, Məhərrəm Əhmədov, tələbələrdən Rza Əli bəy oğlu, Mikayıl Əliyev, Məmməd Tağı Qədiməliyev, Rəşid Baxşəliyev, Əli Xəlilov, Mirağa Seyidov, Xalid Əfəndiyev, Məhəmməd Rzayev, Süleyman Süleymanov, Qədimalı Vəliyev, Məhərrəm Xəlilov, Beytulla Rzayev, Tahar Abbasov, İdris Hüseynov, Əkbər Məşəmməd Bağır Ağa oğlu, Ağayar Həsənov və başqaları repressiyaya məruz qalmışlar. Texnikumun direktoru Mehdi Kazımov isə yuxarıda adlarını qeyd etdiyimiz müəllim və tələbələri "əks-inqilabçı" olduğu halda himayə etməkdə suçlanırdı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra qızğın ictimai-pedaqoji fəaliyyət göstərən, amma 30-cu illərdə başlanmış repressiya nəticəsində neçə-neçə müəllim yoldaşlarını, tələbələrini itirən Mehdi Kazımov dərin mənəvi sarsıntılar keçirmişdir.

Amma bütün bunlara baxmayaraq, pedaqoji məktəbin fədanan kollektivinin səyi sayəsində 1936/37-ci dərs illərində müəllim kadrların hazırlanması işində bu təhsil ocağı daha çox uğurlara nail ola bilmişdi.

Ümumiyyətlə, 1936-40-cı illər pedaqoji məktəbin həyatında mühüm mərhələ təşkil edir. Bu, bir tərəfdən tələbə kontingentinin artırılması ilə bağlı idisə, digər tərəf-

dən isə ali təhsilli ixtisaslı müəllimlərin pedaqoji məktəbə cəlb edilərək fəaliyyət göstərmələri ilə bağlı idi.

Həmin illərdə İrəvan Türk Pedaqoji Texnikumunun şəxsi heyətinə nəzər saldıqda ali təhsilli müəllimlərin diqqətlə əhatə olunduğu məlum olur. Ali təhsilli müəllimlərdən Bəhman Xudiyev, Balaca xanım Əhmədova dil-ədəbiyyat, Cabbar Məmmədov kimya, Bəşir Məmmədov bədən tərbiyəsi, Əkbər Əliyev rəsm, İsa Mamedov musiqi, Zəhra Abbasova pedaqogika, Cəlal Əsgərov fizika-riyaziyyat, Abbas Orucov tarix, Sadiq Heydərzadə biologiya, Qalustov Aslibey hərbi hazırlıq fənlərini tədris edirdilər. Bu müəllimlər bilik verməkdə əvəzsiz pedaqoqlar idi.

1936-cı ildə yanvar ayının 27-də İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi açıldı. İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda işləyən, kifayət qədər pedaqoji ustalığa malik olan ən yaxşı müəllimlər – Bəhlul Yusifov, Mehdi Kazımov, Müzəffər Nəsirli, Əşrəf Bayramov, Mamed Həsənov, Nəzər Paşayev və başqaları eyni zamanda İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitunun Azərbaycan şöbəsində dərs deyirdilər.

Ümumiyyətlə, 15 il ərzində pedaqoji texnikumda dərs deyən müəllimlərin sayı xeyli artmış, həm də keyfiyyətcə yaxşılaşmışdı. Texnikumun yarandığı ilk illərdə burada 4 müəllim olduğu halda, 1940-cı ildə artıq 26 müəllim var idi ki, onların da əksəriyyəti ali təhsilli idi. İsmayıl İsmayılov, Əli Heydarov, Əşrəf Bayramov, Mamed Həsənov, Bəhman Xudiyev, Zəhra Abbasova, Zaman Və-

liyev, Musa Tağıyev, Rza Məmmədov pedaqoji məktəbin ali təhsilli qabaqcıl müəllimləri idi. Texnikumun ali təhsilli müəllimlərlə əhatə olunması, bütün bunlar hamısı tədrisin keyfiyyətcə yaxşılaşmasına öz müsbət təsirini göstərirdisə, digər tərəfdən isə bu təhsil ocağının nüfuz dairəsini daha genişləndirirdi. Texnikumun ilk fəaliyyəti dövründə heç bir kabinet və laboratoriya olmadığı halda, 1938-ci ildə artıq 11 kabinet və laboratoriyası vardı.

İrəvan Türk Pedaqoji Texnikumunda 1939-cu ilin yay imtahan sessiyasının keçirilməsi üçün texnikumun direktoru Bəhlul Yusifovun 35 №-li əmrinə əsasən komissiya yaradılmış, Xəlil Xəlilov komissiyanın sədri, Əşrəf Bayramov və Musa Tağıyev isə komissiyanın üzvü təyin edilmişdir (10, s.9).

Belə ki, 1938/39-cu tədris ilində 2 il eyni sinifdə qalanların sayı 8 nəfər olduğu halda, 1939/40-cı dərs ilində bunların sayı 3 nəfər olmuşdur (49).

1939-cu dərs ilində əlaçı tələbələrin sayı 21 nəfər olduğu halda, 1940-cı ildə əlaçı tələbələrin sayı 34 nəfər olmuşdur (49). Mənbələrdə əlaçı tələbələrdən Həbib Həsənov, Zəhra Hüseynova, Əli Qədiməliyev, İsrafil Şahverdiyev, Muxtar Bayramov, Fərman Həsənov, Oruc Zeynalov, Zeynal Zeynalov, Hüseyn Məmmədov, Cəfər Paşayev, Firudin Nəbiyev, Eyvaz İsmayılov, Müseyib Allahverdiyevin adlarına rast gəlmək olar. 1939-cu ildə texnikumun məzunlarından 61 nəfər müəllim kadrlarına böyük ehtiyacı olan rayonlara göndərilmişdi ki, onların da əksəriyyəti II kursu əla qiymətlərlə bitirənlər idi.

Araşdırmalar göstərir ki, texnikumda təhsil alan qızların sayı ilbəil artmışdır. 1940-cı ildə pedaqoji məktəbdə oxuyan qızların sayı artaraq 50 nəfər olmuşdur ki, onlardan da Nəcibə Fərhadova, Ceyran Zeynalova, Zəhra Hüseynova kimi əlaçı tələbələrin adlarını qeyd etmək olar. Onu da qeyd edək ki, Zəhra Hüseynova sonralar İrəvan Şəhər Sovetinin deputatı olmuşdur.

İrəvan Türk Pedaqoji Texnikumu fəaliyyətinin müstəqil bina ilə təmin edildiyi gündən başlayaraq metodiki kabinetlər, tələbə təşkilatı, yataqxana, yeməkxana, musiqi dəstəsi təşkil edərək tədris və təlim-tərbiyə sahəsində görünməmiş dərəcədə böyük işlər gördü.

Məlumdur ki, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin yaradılması Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların həyatında mühüm hadisə idi. Amma bir sıra tədqiqat əsərlərində, məqalələrdə və digər yazılarda pedaqoji məktəbin yaranma tarixi haqqında müxtəlif təhriflərə rast gəlinir. Bir çox mənbələrdə onun 1925-ci və 1926-cı illərdə yarandığı bildirilir. Əldə etdiyimiz mənbələr təsdiq edir ki, İrəvan Azərbaycanlı (Türk) Pedaqoji Məktəbi 1925 və 1926-cı illərdə deyil, 1924-cü ilin oktyabr ayının 15-də açılmışdır. Amma buna baxmayaraq pedaqoji məktəbin yaranmasının 15 illik yubileyi 1940-cı ildə dekabr ayının 6-da məktəbin böyük iclas zalında təntənəli şəkildə qeyd edilmişdir. İrəvan Türk Pedaqoji Texnikumun kütləvi tədbirlər sırasında 15 illik yubileyinin keçirilməsi xüsusi bir yer tutur. Bu münasibətlə yaradılan komissiyada "Sovet Ermənistanı" qəzetindən Cəfər Vəli-

bəyov, texnikumun müəllimləri Mehdi Kazımov, Əşrəf Bayramov, İsmayıl İsmayılov, Qulam Fərhadov üzv, texnikumun direktoru Bəhlul Yusifov isə komissiyanın sədri seçilmişdi. Komissiyada Ermənistan Xalq Maarif Komissarlığından və MİK-dən də təmsil olunanlar var idi.

Bu təhsil ocağının yubiley tədbirində bir sıra qurumların nümayəndələri də iştirak etmişdi. Texnikumun yubiley mərasimində pedaqoji məktəbin direktoru, Əməkdar müəllim Bəhlul Yusifov bu tədris ocağının 15 ildə keçdiyi çətin və şərəfli yol haqqında geniş məruzə etmişdir. Məktəbin müəllim və tələbələrdən bir neçəsi çıxış edərək, pedaqoji məktəbin 15 ildə əldə etdiyi uğurlardan ətraflı söhbət açmışlar. Ermənistan KP MK-nin və MİK-in Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Sovet Ermənistanı" qəzeti texnikumun 15 illiyi münasibəti ilə iki səhifəsini bu təhsil ocağına həsr etmişdir. Qəzetdə texnikumun direktoru Bəhlul Yusifovun "15 illik yubiley", texnikumun ilk məzunu olmuş Adil Axundovun "Unudulmaz günlər", ilk partiya təşkilatının sədri Əli Heydarovun "Partiya işi qələbəmizin əsasını təşkil edir", texnikumun riyaziyyat müəllimi Mamed Həsənovun "Daha enerjili işləyəcəyəm", III sinif tələbəsi Muxtar Bayramovun "Mən necə əlaçı oldum", texnikumun tədris hissə müdiri İsmayıl İsmayılovun "Həyatım məktəbə bağlıdır" kimi məqalələri dərc edilmişdir. Pedaqoji texnikumun məzunlarının xatirələri də bu təhsil ocağının pedaqoji kollektivinin bir məqsədin, bir amalın ətrafında

birləşən işgüzar bir kollektiv olduğunu və burada sağlam bir mühitin hökm sürdüyünü qeyd edir.

Pedaqoji məktəbin ünvanına bir sıra yerlərdən, o cümlədən İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Sovet Ermənistanı" qəzetinin redaksiya heyəti və bölgələrdə fəaliyyət göstərən bir sıra qabaqcıl təhsil işçiləri adından da təbriklər gəlmişdi.

Yubiley mərasiminin rəsmi hissəsindən sonra məktəbin xor dərnəyinin, Cəfər Cabbarlı adına İrəvan Azərbaycanlı Teatrının solistləri Nəcibə Səfərovanın və Nvard Əlixanovanın iştirakı ilə geniş konsert proqramı olmuşdur.

Apardığımız araşdırmalardan aydın olur ki, 1924-cü ildə yeni təşkil olunarkən burada 30 nəfər tələbəni əhatə edən bir sinif otağı olduğu halda, 1940/41-ci dərs ilində 400-dən çox tələbəni əhatə edən 18 sinif otağı, 75 nəfərlik yataq otağı, xüsusi bu təhsil müəsissəsinin yeməkxanası, idman zalı, səsli kino aparatı vardı. Texnikumun yubiley ilində ən böyük uğurlarından biri də 1940/41-ci tədris ilində tələbə qəbulunun sayının xeyli artaraq 232 nəfərə çatdırılması olmuşdur" (49).

1940-cı tədris ilində məktəbdə 26 nəfər müəllim çalışmış, onlardan 4 nəfəri həmin tədris ilində texnikumda fəaliyyətə başlamışdır. Həmin tədris ilində texnikumda çalışan müəllimlər ixtisas üzrə belə bölünmüşdülər: Azərbaycan dili və ədəbiyyatı müəllimi-4, rus dili müəllimi-2, tarix müəllimi-2, fizika müəllimi-2, riyaziyyat müəllimi- 2, təbiət müəllimi-1, pedaqogika müəllimi-1, coğ-

rafiya müəllimi-2, hərbi müəllim-2, musiqi müəllimi-2, bədən tərbiyəsi müəllimi-2, rəsm müəllimi-1, kimya müəllimi-2, biologiya müəllimi-1. Bu müəllimlərdən 13 nəfəri ali təhsilli, 8 nəfər ali-orta təhsilli, 5 nəfəri isə orta təhsilli idi. Orta təhsillilərdən 2 nəfəri musiqi müəllimi, 1 nəfəri rus dili, 1 nəfəri bədən tərbiyəsi, 1 nəfəri isə rəsm müəllimi idi.

Ümumiyyətlə, İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi 15 il ərzində azərbaycanlı məktəbləri üçün 1228 nəfər müəllim hazırlayıb buraxmışdır ki, bunlardan 242 nəfəri qiyabi, 150 nəfəri isə birillik müəllimlər hazırlığı kursunun məzunları idi.

Məktəbin ilk məzunu olmuş Adil Axundov vaxtilə təhsil aldığı bu təhsil ocağının 15 illik yubileyi ilə bağlı təbrikində yazır: "Mənim gəncliyimin çiçəklənməsi tarixi İrəvan azərbaycanlı pedaqoji məktəbinin açılması ilə əlaqədardır. Mən pedaqoji məktəbə qəbul olunduğum zaman iclaslarda çıxış etməyi arzu edirdimsə də, fikirlərimi izah edə bilməyəcəyimdən utanaraq dinməz-söyləməz durardım. Çox keçmədi ki, mən özümü doğrultdum. Məktəbin dram dərnəyinin aktiv həvəskarlarından olaraq bir sıra pyesaların qoyuluşunda mühüm rollar ifa etdim və bundan sonra iclaslarda danışmağı da bacardım.

Adil Axundov

Mənim birinci buraxılışı münasibətilə yazdığım və mətbuatda dərc olunan "Kəndə gedirəm" sərlövhəli şeirimin temasını da mən bu məktəbdən almışam. Pedaqoji məktəbdə keçirdiyim günlər mənim üçün əziz və unudulmazdır" (49).

Yeri gəlmişkən onu da qeyd edim ki, məktəbin ilk məzunlarından olmuş Adil Axundovun İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında böyük rolu olmuşdur. Adil Axundov 1909-cu ildə may ayının 17-də İrəvanda anadan olmuşdur. O, 1926-cı ildə pedaqoji məktəbə oxuduğu müddətdə "Zəngi" qəzetində bədii nümunələr çap etdirir və eyni zamanda İrəvanın ədəbi-mədəni, ictimai və siyasi həyatında fəal iştirak edirdi.

1927-ci ildə yaradılmış Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı bölməsinin fəal üzvü idi. Onun 1930-cu illərdə "Qızıl şıfıq" qəzetində xeyli sayda oçerkləri, felyetonları çap olunmuşdur. O, felyetonlarını "Tənqidçi" imzası ilə çap etdirirdi.

Adil Axundov 1930-31-ci illərdə Amasiya rayonunu Güllü-bulaq kənd məktəbinin müdiri olmuş, 1932-ci ildə İrəvan türk orta məktəbində müəllim işləmiş, 1933-cü ildə isə Vedi firqə məktəbində tarix fənnini tədris etmişdir. 1935-ci ildə Vedibasar rayon partiya komitəsinin orqanı olan "Bolşevik sürəti" qəzetinin baş redaktoru olmuşdur. 1937-ci ildə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı ixtisasına daxil olmuş və buranı bitirmişdir. 1938-1939-cu ildə İrəvanda Azərbaycan dilində çıxan "Kommunist" qəzetinin mədəniyyət şöbəsinin,

1939-cu il sentyabr ayının 26-da isə "Sovet Ermənistanı" adı nəşr edilən qəzetin iqtisadiyyat şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1945-ci ildə Zəngibasar rayon maarif şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1948-ci ildə Adil Axundov da digər soydaşlarımız kimi, Azərbaycana deportasiya olunmuşdur. Adil Axundov deportasiya olunduğu o zamankı Qasım İsmayılov (indiki Goranboy rayonu) rayonunda 1948-1950-ci illərdə həmin rayonun "Stalin məhsulu uğrunda" indiki "Mübariz" qəzetinin baş redaktoru olmuşdu. 1952-1956-cı illərdə Goranboy rayon maarif şöbəsinin müdiri, 1958-1965-ci illərdə Naftalan şəhər məktəbinin direktoru, 1965-1970-ci illərdə Goranboy rayon internat məktəbində tərbiyəçi vəzifəsində çalışmışdır.

Ümumiyyətlə, Adil Axundovun və eləcə də İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin bir çox məzunlarının Qərbi Azərbaycanda milli maarifimizin, ədəbiyyatımızın, incəsənətimizin inkişafında və formalaşmasında böyük xidmətləri olmuşdur.

Əbülfət Rəhimov

İrəvan Pedaqoji Texnikumunun ilk məzunlardan biri də Əbülfət Rəhimov olmuşdur. Əbülfət Rəhimov 1906-cı ildə Göyçə mahalının Zod kəndində anadan olmuşdur. Hələ texnikumda oxuduğu müddətdə özünün ədəbi, ictimai fəaliyyəti ilə azərbaycanlı ziyalılar arasında kifayət qədər tanınan, böyük nüfuza

malik olan şəxslərdən biri idi. O, texnikumu bitirdikdən sonra bir müddət öz doğma Zod kəndində müəllimlik etmişdir. O, pedaqoji fəaliyyətindəki uğurlarına görə bir neçə dəfə mükafatlandırılmışdır.

Əbülfət Rəhimovun 1928-ci ildə Göyçədə Azərbaycan dilində nəşr olunan "Qırmızı Basarkeçər", İrəvanda nəşr olunan "Zəngi", sonralar isə "Qızıl şəfəq" adı ilə nəşr olunan bu mətbuat orqanlarının səhifələrində xeyli sayda şeirləri və məqalələri dərc edilmişdir.

Onun 1931-ci ildə İrəvanda nəşr olunan "Zərbə", 1934-cü ildə isə "Gənc səslər" adlı almanaxlarda bir sıra şeirləri dərc olunmuşdur. 1933-cü ildə onun "Din əleyhinə" adlı şeirlər kitabçası çap olunmuşdur. O, keçmiş SSRİ Yazıçılar İttifaqının üzvü idi. 1931-ci ildə Ermənistan Proletar Yazıçılar İttifaqının azərbaycanlı bölməsinin katibi vəzifəsinə təyin edilmişdir. 1935-ci ildə Azərbaycan Dövlət Teatr Texnikumuna tələbə qəbulu üzrə komissiyasının İrəvanda nümayəndəsi kimi də fəaliyyət göstərmişdir. 1940-cı ildə onun "Dəmir qanad" adlı şeirlər kitabı çap olunmuşdur.

Əbülfət Rəhimov İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin tərəqqisində fəal iştirak edən ən aktiv ziyalılarımızdan biri idi.

1941-ci ildə Böyük vətən müharibəsinə yollanan Əbülfət Rəhimov müharibədə həlak olmuşdur. Onun əlyazmaları yeganə övladı olan oğlu Həsən tərəfindən toplanaraq "Axan ulduzun işığı" adlı şeirlər kitabı şair Məmməd Aslanın "Güllələnmiş palıd ağacı" adlı ön sözü

ilə 1950-ci ildə nəşr edilmişdir. Onu da qeyd edək ki, Əbülfət Rəhimovun yaradıcılığı bu gün də kifayət qədər öyrənilməmiş, onun xeyli sayda əlyazmaları, şeirləri hələ də tam toplanmamışdır.

İrəvan ədəbi-mədəni həyatında fəal iştirak edən pedaqoji texnikumun ilk məzunlarından biri də Əbülfət İbrahim (İbrahimov) olmuşdur. Əbülfət İbrahim 1912-ci ildə İrəvanda yoxsul bir ailədə anadan olmuşdur. Yazıçı, tərcüməçi Əbülfət İbrahim 1930-cu illərdə müxtəlif dillərdən dilimizə bir sıra bədii əsərlər tərcümə etmişdir. O həm də "Qızıl şıfıq" qəzetinin fəal müxbiri olmaqla yanaşı, Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı bölməsinin ən fəal üzvlərindən biri idi. O, 1935-ci ildə Ermənistan Proletar Yazıçılar Cəmiyyətinin azərbaycanlı bölməsinin üzvlərinin yaradıcılığı haqqında kitab hazırlasa da, onu nəşr etdirə bilməmişdir.

Ermənistanda yüzlərlə erməni müəllimi orden və medallarla, fəxri adlarla təltif edildiyi halda, milli maarifimizin inkişafında, azərbaycanlı gənclərin elmə, təhsilə yiyələnməsində böyük əmək sərf etmiş azərbaycanlı müəllimlərdən 1920-ci ildən 1988-ci ilə qədər yalnız 6 nəfər "Lenin" ordeni, 24 nəfər "Qırmızı əmək bayrağı", 48 nəfər "Şərəf nişanı" ordeni, 159 nəfər "Əmək igidliyinə görə" medalı, 98 nəfər "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmiş, 77 nəfər isə "Əməkdar müəllim" fəxri adına, 30 nəfər "Xalq maarifi əlaçısı" döş nişanına layiq görülmüşdür ki, bunların da əksəriyyəti İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun məzunları olmuş-

dur. Ermənistan şovinist dairələrinin bütün sahələrdə azərbaycanlılara qarşı apardığı qərəzli və məkrli ayrı-seçkilik siyasəti maarifçilik sahəsində də özünü aydın şəkildə göstərir. Belə ki, sovet hakimiyyəti illərində yüzlərlə, minlərlə erməni müəllimləri Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, Oktyabr inqilabı ordeni, "Şərəf nişanı" ordeni, "Əməkdə fərqlənməyə görə" və "Əmək igidliyinə görə" medalları, "Xalq maarifi əlaçısı" döş nişanı "H.K.Krupskaya adına medal", "Əməkdar müəllim" fəxri adı və s. təltiflərə verildiyi halda, yuxarıda qeyd etdiyimiz sayda azərbaycanlı müəllimlərə orden, medallar və fəxri adlar verilmişdir. Erməni şovinist dairələrinin bu milli ayrı-seçkilik münasibətlərinə baxmayaraq, qeyrətli azərbaycanlı müəllimlər öz üzərlərinə düşən missiyanı fədakarcasına yerinə yetirərək, fəaliyyətlərini böyük əzmkarlıqla və inamla davam etdirmişdilər.

İrəvan Azərbanlı Pedaqoji Texnikumunun məzunları sırasında vaxtilə Qərbi Azərbaycanda bir sıra məsul vəzifələrdə çalışmış Zəngibasar rayon Maarif Şöbəsinin müdiri Adil Axundov, Basarkeçir rayon Maarif Şöbəsinin müdiri Tapdıq Əmiraslanov, görkəmli ictimai xadim Məhərrəm Bayramov, pedaqoji məktəbin dərs hissə müdiri İsmayıl İsmayılov, Vedi Rayon Partiya Komitəsinin katibi Məmməd Məmmədov, görkəmli hüquqşünas, xalq hakimi Şahmar Əhmədov, Əməkdar rəssam Cabbar Quliyev, Ermənistan SSR Ali Məhkəməsinin kollegiya üzvü Yaqub Bayramov, əməkdar müəllimlər – Şəfiqə Məhərrəmova, İdris Mahmudov, Cahangir Rüstəmov, Əliş Qara-

yev, Səriyyə Həsənova, Həsən Şəkərəliyev, Həbib Bayramov, Ağabala Babayev, Məsmə Məmmədova, Şəmşəd Əliyev, Gilas Məmmədova, Heydər Əliyev, Amasiya rayon Maarif Şöbəsinin müdiri Cəlil Əliyev, Balı Sərdarov, İbrahim Həsənov, İrəvan Əzizbəyov adına tam orta məktəbin direktoru Tacirə Bağırova, ordenli müəllimlərdən – Məcid Əliyev, Fərman Kazımov, Oruc Abbasov, Məmməd Həsənov, şair Tahir Abbasov, Məmməd Tagı Qədiməliyev, Çaykənd məktəbinin müdiri Şamo Hətəmov, pedaqoji elmlər namizədi Mamed Hüseynov, şair Surxay Şahquluyev, Bakı Dövlət Universitetində uzun müddət məsul vəzifədə çalışmış, professor Qurban Bayramov və başqalarının da adını qeyd etmək olar.

Təvəkkül Kərimov

Böyük Bətən müharibəsi illərində pedaqoji məktəbin müəllim və tələbələrindən də cəbhəyə gedənlər oldu. İsmayıl İsmayılov, Mamed Həsənov, Cabbar Mamedov, Musa Əliyev, Bəhmən Xudiyev, Bəşir Mamedov, Mirzə Əsgərov, Təvəkkül Mamedov, Əli Heydərov, Təvəkkül Kərimov və başqaları səfərbərliyə alınaraq ordu sıralarına göndərilmişdilər. Müharibənin sərt reallıqları pedaqoji məktəbin fəaliyyətini də mövcud dövrün qaydalarına uyğunlaşdırmağı zəruri etmiş. Həmin dövrdə hərbi və vətənpərvərlik



Sadiq Heydərzadə

tərbiyəsi fənlərinin tədrisinə ciddi fikir verilirdi. Hər yerdə olduğu kimi, pedaqoji məktəbdə də müəllim və tələbələr arasında hərbi hazırlıq və kütləvi müdafiə işi nümunəvi qurulmuşdu. Əsgər Cəfərov texnikumda yaradılmış özünümüdafiə dəstəsinin rəisi, Həsənov Əsgər müavin, İsmayılova Raziyə tibb bacısı, Bəşir Məmmədov nizam-intizam, Xəlil Xəlilov, Sadiq Heydərzadə, Mehdi Həsənov isə manqa komandirləri təyin olunmuşdu. Bundan başqa, texnikumun bütün tələbləri proqram əsasında sistematik təlimlər keçir, sıra təlimi, silahdan istifadə etmək, atəş işi və s. hərbi yönümlü işlər mənimsəmiş, hərbi dərslərdə aktiv iştirak edənlər mükafatlandırılmış, pis iştirak edənlər isə cəzalandırılmışdır.

Orduda döyüşən əsgərlərə məktub yazmaq və məktub oxumaq üçün texnikumun tələbələrindən 63 nəfəri ailələrə təhkim edilmişdir. 46 nəfər əsgər uşağına ayaqqabı, əsgərlərə dəsmal, kağız, qələmdən ibarət 13 bağlama, texnikumun səfərbərliyə alınan əməkdaşlarının uşaqlarının hər birinə bir dəst paltar və dərs ləvazımatları verilmişdir.

Tələbələrdən 250 nəfəri I və II dərəcəli hərbi hazırlıq normasını uğurla yerinə yetirmişdir. 1941/42-cı tədris

ilində pedaqoji məktəbdə xeyli sayda tibb bacısı, Voroşilov atıcısı və bəzi sahələr üzrə təlimatlar hazırlanmışdı. Pedaqoji məktəbin özünümüdafiə qrupu və mükəmməl hərbi kabinet təşkil edilmişdi. Onların ayda beş dəfə məşğələləri keçirilmiş, müəllimlər tərəfindən 6 dəfə hərbi xarakterli mühazirələr oxunmuşdur (57). Texnikumda müdafiə işləri yüksək səviyyədə qurulduğundan Ermənistan Maarif Komissarlığının keçici bayrağı 4 il pedaqoji texnikumun kollektivinin əlində olmuşdur.

1941-1942-ci tədris ilində müəllim və tələbələr tərəfindən əsgərlərə 22 bağlama, 500 manat istiqraz vərəqi, xeyli sayda əl-üz sabunu, 32 ədəd yun corab, 14 ədəd əlcək göndərilmişdir. Tələbələr müntəzəm olaraq vətəni müdafiə mövzusunda kinolara tamaşa etmişlər.

Pedaqoji məktəbin müəllimləri və tələbələri dərnək məşğələlərində, divar qəzeti və müxtəlif fənn kabinetlərinin işində aktiv iştirak edirdilər. Həmin illərdə pedaqoji məktəbdə hərbi fənni Aslibey Qalustov, Musa Cəfərov, bədən tərbiyəsi fənnini Bəşir Məmmədov, rəsm fənnini Əkbər Əkbərov tədris edirdi. Müxtəlf vaxtlarda pedaqoji texnikumda rəsm fənnini Yusif Kazımov və Rza Mamedov da tədris etmişdir.

İkinci Dünya müharibəsinin əvvəllərində hər yerdə olduğu kimi, pedaqoji məktəbdə də ağır vəziyyət yaranmışdı. Müəllim və tələbələrdən bəzilərinin cəbhəyə getməsi azərbaycanlı məktəbləri üçün pedaqoji kadrların hazırlanması işini çətin vəziyyətə salmışdı. Amma bütün bunlara baxmayaraq, pedaqoji məktəb öz fəaliyyətini

mövcud dovrün tələblərindən doğan dəyişiklikləri dərk edərək, inamla davam etdirirdi.

1941/42-ci tədris ilində pedaqoji məktəbin tədris-proqram və siyasi tərbiyə işində, müəllim və tələbə heyəti arasında əmək intizamını möhkəmləndirmək və s. sahələrdə ciddi tədbirlər görülmüşdü. Mənbələrdən məlum olur ki, həmin illərdə pedaqoji məktəbdə imtahan sessiyaları daha yüksək tələbkarlıq şəraitində keçirilmişdir.

Müharibənin başlanması ilə əlaqədar olaraq xalq maarifi sistemində də böyük bir durğunluq yaranmışdı. Azərbaycanlı məktəblərində çalışan müəllimlərin əksəriyyəti döyüş cəbhələrinə yollanmışdı. Müharibəyə gedən müəllimlər müxtəlif vaxtlarda qısa müddətli kursları bitirənlərlə əvəz olunurdu ki, bu da dərs keyfiyyətinə təsir etməyə bilməzdi.

Texnikumda oxuyan gənc qızlar – Zəhra Əliyeva, Şəfiqə Məhərrəmova, Ceyran Zeynalova, Lətifə Əhmədova, Dilarə Qələndərova, Zəkiyyə Səfərova və başqaları Böyük Vətən müharibəsinin ən ağır günlərində üçillik təhsil müddətini iki ildə başa vuraraq müəllim kadrlarına böyük ehtiyac yaranan müxtəlif bölgələrdə dərs deməyə yollandılar. 1942-ci ildə diplom alıb müəllim adını daşıyan bu gənclər– Zəhra Əliyeva Zəngibasar rayonunun Aşağı Necili kəndində, Ceyran Zeynalova, Şəfiqə Məhərrəmova, Lətifə Əhmədova, Dilarə Qələndərova, Zəkiyyə Səfərova isə Ağbabada böyük həvəslə Azərbaycan balalarına dərs demişdi. O dövrlərdə ucqar, iqlimi olduqca sərt

bir dağ rayonuna gedən bu müəllimlər nə qədər problemlərlə üzləşsələr də bütün çətinliklərə mərdliklə sinə gərib öz xalqına əzmlə xidmət etmişlər.

İlk dəfə pedaqoji fəaliyyətə Amasiya rayonunda başlayan bu fədakar qadınlar ilk əmək haqlarını digər müəllim yoldaşları ilə birlikdə müharibəyə kömək fonduna keçirmişdilər. Əsl müəllimə xas olan ən yaxşı keyfiyyətləri özündə cəmləşdirmiş bu müəllimlər bütün bilik və bacarıqlarını, gənc nəslin yüksək savada, təhsilə yiyələnməsinə, onların təlim-tərbiyə işinə sərf etmişdilər.

Böyük Vətən müharibəsi illərində pedaqoji məktəbin müəllimləri və şagirdləri də kolxoz tarlalarına çıxır, məhsul yığımında kolxozçulara, əsgər ailələrinə yaxından köməklik edir, qırmızı ordu döyüşçülərinə isti paltar və s. ləvazımatların toplanaraq cəbhəyə göndərilməsində fəal iştirak edirdilər.

Müharibə şəraitində pedaqoji kadrlara yenidən böyük ehtiyac yarandı və bu ehtiyacı ödəmək üçün, hər yerdə olduğu kimi, tezliklə pedaqoji məktəbdə də qiyabi təhsilin yenidən təşkili və inkişafı məsələsini qarşıya qoydu. Müharibə illərində qiyabi təhsilə xüsusi əhəmiyyət verildiyindən qiyabi şöbələrin işinə ciddi diqqət yetirilirdi. Qiyabi təhsil alan tələbələrin ədəbiyyatla və s. ləvazimatlarla təmin edilməsi, onlara vaxtlı-vaxtında məsləhət saatlarının ayrılması və s. işlərdə onlara yardım göstərilirdi.

Müharibə illərində hər yerdə olduğu kimi, pedaqoji məktəbdə də aktual siyasi mövzularda elmi konfranslar

və tədbirlər keçirilirdi. 1940-cı ildə "Bir ölkədə sosializmin qabiliyyəti" adlı konfransda 14 məruzə dinlənilmişdi (11, s.145).

"Dünya iqtisadi krizisi" və s. mövzularda da konfranslar təşkil edilmişdi. Bu konfrans və tədbirlər, əsasən, məktəbin partiya təşkilatının sədri Əli Heydərov tərəfindən təşkil edilirdi. Texnikumun partiya təşkilatı tərəfindən məktəbdən kənar evdar qadınlar üçün siyasi cəhətdən hazırlıqlı müəllim və tələbələrdən ibarət təşviqatçılar qrupu təşkil edilmişdir ki, bunlardan da Cabbar Məmmədov, Həsən Həsənov, Hüseyn Mamedov aktiv fəaliyyət göstərirdilər. Qiyabi şöbədə təhsil alan tələbələrlə işləmək üçün şöbənin təlimatçısı Dadaş Orucəliyev Basarkeçər, Dilican, Ağbaba-Şörəyel və s. bölgələrə ezam edilirdi.

Qiyabi şöbəyə sənəd qəbulu hər il iyun ayının 1-dən avqustun 31-nə kimi həyata keçirilirdi. Qiyabi şöbənin 1-ci kursuna 7-ci və 8-ci sinfi bitirənlər qəbul oluna bilərdi. II kursa isə 9-10-cu sinfi bitirən və müəllim işləyən şəxslər qəbul edilirdi.

İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin qiyabi şöbəsi də işini mövcud dövrün tələblərinə uyğun qururdu. Məktəbin qiyabi şöbəsinin illik təhsil haqqı 100 manat idi.

1941/42-ci tədris illərində pedaqoji texnikumun katibi vəzifəsində çalışmış Qulam Fərhadov qiyabi şöbənin müdiri təyin edilir. Ümumiyyətlə, qiyabi şöbəsinin təşkilində və fəaliyyətində müxtəlif vaxtlarda bu şöbənin müdirləri olmuş Nəzər Paşayev, Qulam Fərhadov, Həbib Ələkbərov qiyabi şöbənin katibi Hidasyət Hüseynovun,

təlimatçıları Həsənov İsa, Dadaş Orucəliyev, Əhdi Abdullayev və başqaları var qüvvəsi ilə çalışmışdılar. Boyük əməyi olmuşdur.

Qulam Fərhadov İrəvan gimnaziyasının məzunu olmuş, sovetləşmədən sonra İrəvanda savadsızlığın aradan qaldırılmasında, Azərbaycan maarifinin, mətbuatının inkişafında və yeni əlifbanın təbliğində və tətbiqində misilsiz xidmətlər göstərmişdir.

1942-ci ildə Bəhlul Yusifov texnikumun direktoru vəzifəsindən azad edildikdən sonra onun yerinə İrəvan Azərbaycanlı Kənd Təsərrüfatı Texnikumunun direktoru Həbib Məhəmmədzadə təyin edilir. O, bu vəzifədə 1948-cı ilə qədər işləmişdi. Məlumat üçün onu da qeyd edək ki, Həbib Məhəmmədzadə İrəvanın tanınmış Məhəmmədzadələr nəslinin nümayəndələrindən idi. Pedaqoji texnikumun böyük nailiyyətlər qazanmasında bilavasitə onun direktoru, istedadlı, geniş dünyagörüşlü, bacarıqlı təşkilatçı Həbib Məhəmmədzadənin böyük xidməti vardır. Həbib Məhəmmədzadənin fədakar fəaliyyəti sayəsində 1943/44-cü dərs ilində məktəbdə bir sıra üstünlüklər əldə edilmişdi. Qısa müddət ərzində məktəbin yataqxanası əsaslı

Həbib Məhəmmədzadə

şəkildə yenidən qaydaya salınmış, yeməkxana, kitabxana və s. məsələlərlə bağlı problemlər aradan qaldırılmışdı.

Mənbələrdə məktəbin partiya sədri Əli Heydərovun, komsomol təşkilatının katibi Möhsün İbrahimovun, və o cümlədən həmkarlar təşkilatının pedaqoji məktəbi mədəni-maarif ocağına çevirmək üçün qızğın fəaliyyət göstərdikləri və yüksək tədris keyfiyyəti uğrunda ciddi dönüş yaratdıqları, nizam-intizam məsələlərinə tələblərdə təşəbbüskasrlıq, təşkilatçılıq bacarının formalaşdırılmasına böyük əhəmiyyət verildiyi məlum olur.

Qanlı-qadalı müharibə illərindən sonra müəllim və tələbə gənclərdən bəziləri pedaqoji məktəbin auditoriyalarına qayıtdılar. Məktəbin siyasi və təlim-tərbiyə işinin təşkilində böyük həyat təcrübəsi olan müharibə iştirakçılarından səmərəli istifadə olunurdu.

Pedaqoji texnikumun müəllim və şagirdləri İrəvanın ictimai və siyasi həyatında fəal iştirak edirdilər. Pedaqoji məktəbdə fəaliyyət göstərən siyasi dərnəyin 130 üzvü vardır ki, burada da texnikumun təşviqatçı müəllimlərin-

Cəfər Ələkbərov

Həbib Ələkbərov

dən Cəfər Ələkbərovun, Həbib Ələkbərovun, Təvəkkül Kərimovun fəaliyyəti təqdirəlayiq idi. Ümumiyyətlə, İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda mədəni, siyasi, kütləvi tədbirlərin yüksək səviyyədə aparılmasına xüsusi fikir verilirdi.

Texnikumun fəaliyyəti ilə bağlı 1946-cı ilin bir sıra sənədlərində müəllimlərdən Zərri Qurbanova, Əkbər Əkbərov, tələbələrdən Budaq Budaqov, Rəşid Hətəmov, Xatın Mustafayeva, Roza Allahverdiyeva və başqalarının ictimai fəallığı haqqında məlumatlara da rast gəlmək olur.

Yuxarıda qeyd etdiyimiz kimi, bir sıra çətinliklərə baxmayaraq, İkinci Dünya müharibəsi illərində pedaqoji məktəb öz işini uğurla davam etdirmiş və pedaqoji kadrların hazırlanması vəzifəsinin öhdəsindən layiqincə gəlmişdir. Beləliklə, tələbələrin sayı və eyni zamanda müvəffəqiyyət göstəricilərinin sürətlə atrması məktəbin rəhbərliyinin və müəllim kollektivinin gərgin əməyinin nəticəsi idi.

Pedaqoji məktəbin qiyabi şöbəsində Vedibasar, Amasiya, Basarkeçər, Zəngibasar, Qafan, Sisyan və azərbaycanlılar yaşayan digər bölgələrdən də tələbələr var idi. Əvvəlki illərdə olduğu kimi, 1947-ci il iyunun 25-də başlanan yay sessiyasında 171 nəfər tələbə iştirak etmişdir. Məktəbin direktoru Həbib Məhəmmədzadənin ciddi fəaliyyəti sayəsində pedaqoji texnikumda dərs demək üçün İrəvanın qabaqcıl azərbaycanlı müəllimləri cəlb

edilmiş, tələbələr lazımi dərs ləvazimatı və yeni vəsaitlərlə təmin edilmişdi.

Tədris-tərbiyə işlərində məktəbin dərs hissə müdiri Həbib Əkbərovun da xidmətləri təqdirəlayiq idi. Onun vəzifəsini layiqincə yerinə yetirməsi, dərs və imtahan cədvəlinin vaxtında tərtib etməsi (1947-ci tədris ilinin istər əyani, istərsə də), qiyabi şöbəsinin yay imtahan sessiyasının mütəşəkkil şəraitdə keçməsinə zəmin yaratmışdı. 1947-ci tədris ilində qiyabi şöbədə birinci kursun 23 tələbəsindən 5 nəfər, ikinci kursun 56 tələbəsindən 2 nəfər, üçüncü kursun 91 tələbəsindən 7 nəfər imtahanlara buraxılmamışdı (17, s.147; 55; 1).

Birinci və ikinci kursların yoxlama nəticələri qənaətbəxş olmuş, üçüncü kursun 91 nəfər tələbəsindən 50 nəfəri isə yüksək qiymətlərlə yay imtahan sessiyasını başa vuraraq texnikumun qiyabi şöbəsini müvəffəqiyyətlə bitirməyə nail ola bilmişdi. 36 nəfər zərbəçi kimi bitirmiş, 5 nəfər isə eyni sinifdə qalmışdı. Pedaqoji texnikumun qiyabi şöbəsini əla qiymətlərlə bitirən 10 nəfər isə ali məktəblərə daxil olmaq hüququ qazana bilmişdi.

Qeyd etmək lazımdır ki, pedaqoji texnikumun rəhbərliyi qiyabi şöbədə tədrisin keyfiyyətini lazımi səviyyəyə qaldırmağa ciddi səy göstərsə də, amma yay imtahan sessiyasının nəticələri tələbələrin hələ də lazımi qədər öz üzərlərində çalışmadıqlarını göstərmişdi.

Məktəbin rəhbərliyi növbəti tədris ili üçün qiyabi təhsil alan tələbələri lazımi qədər dərslik, dərs vəsaiti və s. ləvazimatlarla təmin etməyi və onların üzərində nəza-

rəti gücləndirməyi qərara almışdı. Qiyabi tələbələrə kömək məqsədilə məsləhət saatları təşkil olunur və onlarla müntəzəm aparılan işlər uğurla həyata keçirilirdi. İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi yarandığı gündən –1924-cü ildən 1947-ci il daxil olmaqla qiyabi şöbə və birlik müəllimlər kursu ilə birlikdə 1370 nəfər orta təhsilli pedaqoji kadr hazırlamışdı.

Surə Babayeva

1947-ci illərdə texnikumun fəaliyyəti ilə bağlı əldə etdiyimiz sənədləri ardıcıl izlədikdə aydın olur ki, məktəbin müəllimlərindən Mehdi Kazımovun, Məmməd Həsənovun, Əyyub Babayevin, Rəziyyə İsmayılovanın, Sadiq Heydərzadənin, Zərri Qurbanovanın, Təvəkkül Kərimovun, Həbib Əkbərovun, Hüseyn Əliyevin, Cəfər Ələkbərovun, **ŞURA FƏRHADOVANIN, SURƏ BABAYEVANIN**, Raziyə Abdullayevanın və başqalarının fədakar əməyi sayəsində tələbələrin yüksək təhsil səviyyəsi təmin edilirdi. 1947-ci tədris ilində pedaqoji texnikumun sonuncu kurs tələbələrinin buraxılış imtahanı iyun ayının 2-də olmuş, 62 nəfər tələbə imtahanları uğurla verərək məzun adını qazanmışdı (16, s.148).

Şura Fərhadova

İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun tələbələri idman dərsində 1946

İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun tələbələri fizika dərsində təcrübi məşğələ zamanı , 1946

Texnikumun direktoru Həbib Məmmədzadənin pedaqoji fəaliyyəti də təqdirəlayiqdir. İrəvanda gənc müəllim kadrlarının hazırlanmasında onun da adını fəxrlə çəkmək olar. O fəaliyyətində ayrı-ayrı fənlər üzrə dərnəklərin, fənn kabinetlərinin fəaliyyət göstərməsini, sinifdənxaric tədbirlərin hazırlanmasını, tələbələrin fəallığını, dünyagörüşünün artırılması və s. bu kimi məsələləri önə çəkmiş, bu istiqamətdə əməli fəaliyyət göstərmişdir.

İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun tələbələri, müəllimləri Mehdi Kazımov, Mir Cəfər Ələkbərov, məktəbin direktoru Əsgər Cəfərov və başqaları ilə birlikdə, 1947

1947-ci ildə Həbib Məhəmmədzadə texnikumun direktoru vəzifəsindən azad edilərək onun yerinə coğrafiya müəllimi Əsgər Cəfərov direktor təyin edilmişdi.

Əsgər Cəfərov

Əsgər Cəfərov İrəvan şəhərində anadan olmuşdur. Bütün mənalı ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu 1948-ci ildə Azərbaycanın Xanlar rayonuna deportasiya ediləndən sonra da o 1952-ci ilə qədər bu təhsil müəssisəsiin direkoru vəzifəsində çalışmışdır. O, 1960-cı illərdə Bakı dəmiryol məktəbləri idarəsinin təhsil şöbəsinin müdiri vəzifəsində işləmişdir.

1948-ci ilin noyabr ayının ortalarına kimi İrəvanda fəaliyyət göstərən İrəvan Türk Pedaqoji Texnikumu təkcə tədris müəssisəsi kimi deyil, eyni zamanda Qərbi Azərbaycanda ədəbiyyatımızın, mədəniyyətimizin, incəsənətimizin inkişafında, formalaşmasında və qorunmasında çox böyük rol oynamışdır. Bolşevik cildinə bürünmüş erməni daşnaklarının məkrli siyasəti nəticəsində təhsil tariximizin ən şanlı səhifələrindən birini təşkil edən böyük, şərəfli tarixi bir yol keçmiş İrəvan Müəllimlər Seminariyasının davamı olan İrəvan Türk Pedaqoji Texnikumu da deportasiyaya məruz qoyularaq 1948-ci ilin noyabr ayında müəllim və tələbə kollektivi ilə birlikdə Azərbaycanın Xanlar rayonuna köşürülmüşdü. 1949-cu

ildə İrəvan Türk Pedaqoji Texnikumu Ermənistanda 53 erməni texnikumu, 14 ali məktəb, 3 qiyabi təhsil müəssisəsi olduğu halda, İrəvanda Azərbaycan dilində pedaqoji kadrlar hazırlayan yeganə təhsil ocağı idi. Azərbaycanın Təhsil tarixinə İrəvan Türk Pedaqoji texnikumu kimi daxil olmuş bu təhsil ocağı 24 illik fəaliyyəti dövründə Ermənistanda Azərbaycan məktəbləri üçün pedaqoji kadrların hazırlanmasında misilsiz xidmətləri olmuşdur. İrəvan Türk Pedaqoji Texnikumu Azərbaycanın Xanlar rayonuna köçürülməmişdən bir ay əvvəl Ermənistanın Maarif Naziri 07 oktyabr 1948-ci il tarixli 719 №-li əmr imzalamışdır. Əmrdə yazılır: "İrəvanda Azərbaycan dilində fəaliyyət göstərən təhsil müəssisələrinin Azərbaycan SSRİ-yə köçməsi ilə əlaqədar olaraq həmin təhsil müəssisələrində işləyən müəllim kontingenti 7 oktyabr 1948-ci ildən etibarən işdən azad edilsinlər".(8,v42)

İrəvan Türk Pedaqoji texnikumunda çalışan, İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin aparıcı nümayəndələri olan 50-yə qədər müəllim, 8 inzibati işçi, I, II, III kurslarda təhsil alan 400-ə qədər tələbə Azərbaycanın Xanlar rayonuna köçürüldü. Həmin müəllim və tələbə heyəti Xanlar Pedaqoji Texnikumunda pedaqoji fəaliyyətlərini və təhsillərini davam etdirməyə məcbur oldu. Əsgər Cəfərov Xanlar Pedaqoji Texnikumunun direktoru, Təvəkkül Kərimov tədris hissə müdiri və riyaziyyat müəllimi, Sadiq Heydərzadə biologiya, Mənzərə Nəzərəliyeva coğrafiya, Cəfər Ələkbərov hərbi, Bəhman Xudiyev dil-ədəbiyyat, Mamed Həsənov riyaziyyat, Rəziyə İs-

mayılova tarix, Bəşir Mamedov bədən tərbiyəsi, Tarix Şirinov tarix, Surə Fərhadova dil-ədəbiyyat, Mehdi Kazımov isə rus dili müəllimi kimi burada da pedaqoji fəaliyyətlərini ləyaqətlə davam etdirmişdilər. Araşdırmalardan məlum olur ki, 1950-ci ildən sonra texnikumun müəllimlərindən Mehdi Kazımov, Əşrəf Bayramov, Əyyub Babayev, Səkinə İsmayılova pedaqoji fəaliyyətlərini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişlər.

1948-1953-cü illərdə Ermənistandan öz doğma tarixi torpaqlarından azərbaycanlıların məkrli və məqsədli köçürülmə siyasəti nəticəsində təhsillərini Xanlar Pedaqoji Məktəbində davam etdirən, sonralar Azərbaycanda elm, təhsil və s. sahələrdə öz önəmli töhfələrini vermiş professorlar Qurban Bayramov, Süleyman Məmmədov, Abbas İsmayılov, ictimai-siyasi xadim, yazıçı Qəşəm Aslanov, dosent İmamverdi Hacıyev, dosent Nəcəf Nəcəfov və başqaları bu məktəbin məzunları olmuşdur. Ermənilərin apardığı məkrli siyasət nəticəsində 1971-ci ildə Xanlar Pedaqoji Məktəbinin də fəaliyyəti dayandırılmışdır.

Azərbaycanda elm, mədəniyyət, ictimai-pedaqoji fikrin inkişafında misilsiz xidmətləri olan İrəvan Türk Pedaqoji Texnikumunun fəaliyyətindən, təhsil tariximizdəki rolundan danışarkən, onun bir sıra məzunlarından söz açmamaq günah olar. İrəvan Türk Pedaqoji Texnikumunun məzunları ömrünü, həyatını elm və təhsil sahəsinə həsr etmiş, bu sahədə yorulmadan, fədakarcasına çalışmışlar. Azərbaycanın bir sıra tanınmış elm, mədəniyyət və ədəbiyyat xadimləri bu təhsil ocağının yetirmələridir.

Onlardan bir çoxu dosent, professor elmi adlarını almış, akademik səviyyəsinə yüksəlmiş, respublikanın "Əməkdar elm xadimi", "Əməkdar müəllimi", "Dövlət mükafatı laureatı" və s. fəxri adlara, mükafatlara layiq görülmüşdülər. Texnikumun məzunları təkcə elm və təhsil sahəsində deyil, dövlət orqanlarında, dövlət quruculuğunda da ləyaqətlə çalışıb, öz önəmli töhfələrini vermişlər.

Bunlardan Azərbaycanın görkəmli alimi, AMEA-nın həqiqi üzvü, coğrafiya elmləri doktoru, professor Budaq Əbdüləli oğlu Budaqovu xüsusi qeyd etmək olar. O, 1928-ci ildə Qərbi Azərbaycanın Zəngibasar rayonunun Çobankərə kəndində anadan olmuşdur. O, 1940-cı ildə rayonun Mehmandar kəndindəki natamam orta məktəbi bitirdikdən sonra 1941-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinə daxil olmuşdur. Müharibənin başlanması üzündən Budaq Budaqov təhsilini yarımçıq qoymağa məcbur olmuş, 1941-44-cü illərdə Çobankərə kolxozunda briqadir köməkçisi kimi çalışmışdır.



Budaq Əbdüləli oğlu Budaqov

1945-ci ildən təhsilini davam etdirmiş və 1947-ci ildə İrəvan Pedaqoji Məktəbini bitirmişdir. Hələ Pedaqoji məktəbdə oxuduğu illərdə tələbə təşkilatının sədri işlə-

yən Budaq müəllim öz ictimai fəallığı ilə də həmkarlarından fərqlənirdi.

Budaq müəllim hələ pedaqoji məktəbdə oxuduğu vaxtlardan istedadı, ictimai fəaliyyəti ilə müəllim və tələbə kollektivinin böyük rəğbətini qazana bilmişdi. Budaq müəllimlə görüşəndə o, İrəvan Pedaqoji Məktəbindən söhbət düşərkən ona dərs demiş Rus dili müəllimi Mehdi Kazımovu, coğrafiya müəllimi Əşrəf Bayramovu, riyaziyyat müəllimi Təvəkkül Kərimovu, Surə müəlliməni, riyaziyyat müəllimi Mamed Həsənovu, pedaqogikadan dərs deyən Səkinə müəlliməni, Raziyyə müəllimini, məktəbin direktoru Həbib Məhəmmədzadəni və başqalarının əvəzsiz pedaqoqlar olduğunu böyük minnətdarlıqla xatırlayardı.

Budaq müəllim 1947-51-cı illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakültəsində təhsil alıb.

APİ-nin coğrafiya fakültəsini fərqlənmə diplomu ilə bitirən Budaq müəllim 1951-55-ci illərdə keçmiş SSRİ EA-nın Coğrafiya İnstitutunun aspirantı olub.

1955-cı ildə "Cənub-Şərqi Qafqazın Şimal yamacının geomorfologiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək coğrafiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

1955-58-ci illərdə indiki Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda elmi işçi, sonra baş elmi işçi kimi çalışan Budaq müəllim 1967-ci ildə "Böyük Qafqazın Azərbaycan hissəsinin geomorfoligiya-

sı və tektonikası" mövzusunda dissertasiya müdafiə edərək coğrafiya elmləri doktoru alimlik dərəcəsi almışdır. Budaq Budaqov 1974-83-cü və 1986-89-cu illərdə AMEA-nın Coğrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini, 1989-cu ildən ömrünün sonunadək həmin İnstitutun direktoru vəzifəsində çalışmışdır.

1976-cı ildə AMEA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.

Coğrafiya elminin görkəmli nümayəndələrindən olan Budaq Budaqovun coğrafiyaşünaslıq elminin inkişafında böyük və səmərəli xidmətləri olmuş, alim bütün mənalı ömrünü bu elmin inkişafına sərf etmişdir.

Budaq Budaqovun tədqiqatlarının nəticələri ölkəmizdə və onun hüdudlarından kənarda nəşr edilmiş 800-ə yaxın elmi əsərdə, o cümlədən 30 monoqrafiyada öz əksini tapmışdır. Budaq müəllim bir sıra dərslik və metodik vəsaitin müəllifidir. 20-yə qədər xəritənin müəlliflərindən biri olan B.Budaqov 80-dən artıq elmi əsərin redaktorudur.

Görkəmli alim ömrü boyu ekologiya və ətraf mühitin qorunmasını, ölkəmizin zəngin sərvətlərindən səmərəli istifadə olunmasını təbliğ etmişdir. B.Budaqovun elmi, ictimai və pedaqoji fəaliyyəti vəhdət təşkil etmişdir.

Akademik Budaq Budaqovun "Təbiət və poeziya" adlı əsəri onun hərtərəfli, böyük istedad sahibi olduğunu bir daha təsdiq edir. Əsəri oxuyan hər bir insanda onun tənqidçi, böyük ədəbiyyatşünas olduğu təsəvvürü yaranır.

O, əsərdə görkəmli şair və yazıçıların təbiətlə poetik nümunələrini təhlil süzgəcindən keçirərək, insanlara təbiətlə təmasda olarkən diqqətli olmağı, təbiəti qorumağı, sevməyi, onun gözəlliklərindən zövq almağı tövsiyə edir.

Budaq müəllimin "Çobankərə eli" adlı əsəri də onun ədəbiyyatçı, tarixçi, elmin müxtəlif sahələrinə dərindən bilən böyük alim olduğunu bir daha təsdiq edir.

Budaq Budaqov ölkəmizin hüdudlarından kənarda, beynəlxalq simpozium və konfranslarda, ən mühüm tədbirlərdə, yüksək tribunalarda məruzə və çıxışları ilə hər zaman elmimizi yüksək səviyyədə təmsil edən görkəmli alim, həm də bacarıqlı elm təşkilatçısı idi.

Coğrafiya elminə böyük töhfələr vermiş Budaq Budaqov həm də Azətbaycan Respublikası Ağsaqqallar Şurasının sədri olmuşdur. Fədakər alim, yorulmaz tədqiqatçı Budaq Budaqov elm tariximizdə ədəbi yaşamaq haqqını qazanmış alim və şəxsiyyətlərdəndir.

Azərbaycanlı Pedaqoji Texnikumun məzunlarından biri olan **Zərifə İsmayıl qızı Budaqova** (Əliyeva) 1929-cu il aprel ayının 28-də qədim İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində anadan olmuşdur.

Zərifə xanım 1942-ci ildə İrəvan Pedaqoji Məktəbinə daxil olmuş və bu təhsil ocağını 1946-cı ildə bitirdikdən sonra İrəvan Azərbaycanlı Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuş, 1949-cu ildə həmin İnstitutu bitirmişdir. Zərifə xanım 1953-cü ildə namizədlik, 1963-cü ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir.

Zərifə Budaqova

Zərifə xanım dilçilik elminə dair bir sıra dəyərli elmi əsərlərin - "Azərbaycan dilinin qrammatikası", "Müasir Azərbaycan dilində sadə cümlələr", "Azərbaycan bədii dilinin üslubiyyatı", "Azərbaycan dilində durğu işarələri" və s. bu kimi elmi nəşrlərin müəllifi olaraq Azərbaycan elminə öz sanballı töhfəsini vermişdir.

AMEA-nın müxbir üzvü Zərifə xanım Budaqova uzun müddət AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru və müxtəlif vəzifələrdə çalışmışdır.

Əli Fərəcov

Pedaqoji Tenikumun məzunlarından biri də Azərbaycan elmi ictimaiyyətinin görkəmli nümayəndələrindən olan dəyərli alim, onu tanıyanların qəlbində özünə əbədi heykəl ucaldan böyük şəxsiyyətlərdən biri də Əli Abbas Ağa oğlu Fərəcovdur. Əli müəllim 1927-ci il iyunun 7-də qədim İrəvan şə-

hərinin Dəmirbulaq məhəlləsində, sayılıb-seçilən ziyalı bir ailədə - Fərəcovlar ailəsində dünyaya gəlmişdi. Professor Aydın Hacıyev 1997-ci ildə "Azərbaycan müəllimi" qəzetində Əli müəllimin atası Abbas Ağa Fərəcov haqqında yazırdı: "Abbas Ağa dovrünün sayılan, seçilən, mütərəqqi fikirli, dərin intellektual səviyyəli ziyalılarından olmuşdur. O, İrəvan gimnaziyasını bitirib, Almaniyanın Leypsiq Universitetinin iqtisadiyyat fakültəsində təhsilini başa vurmuşdur. Vaxtilə İrəvan ziyalıları İrəvan şəhərinin Dəmirbulaq məhəlləsində yaşayan Abbas Ağanın evinə toplaşar, elmi-ədəbi mövzularda söhbətlər, disputlar keçirərdilər. Bir sözlə, onun evi elmi-ədəbi məclisə çevrilərdi. Bu bir həqiqətdir ki, İrəvan şəhərinə su çəkdirən, Ermənistan ərazisində yaşayan soydaşlarımızın maariflənməsi uğrunda çalışan xeyriyyəçilərdən biri də Əli Fərəcovun atası Abbas Ağa olmuşdur. Əli müəllimə xas olan gözəl ziyalı keyfiyyətləri atası Abbas Ağa Fərəcovdan gəlmişdir" (26). O, hələ orta məktəbdə oxuduğu illərdə öz sərrast cavabları, zəkası, istedadı ilə öz həmyaşıdlarından fərqlənirdi, həm də xasiyyətinə görə müəllimlərin sevimlisinə çevrilmişdi.

Əli müəllim İrəvan Pedaqoji Texnikumunda təhsil almaqla yanaşı, həm də İrəvandakı hərbi zavodda çilingər kimi çalışmışdı.

Pedaqoji məktəbi bitirdikdən sonra 1944-46-cı illərdə Ermənistanın Qəmərli rayonunun Çiləxanlı kənd 7 illik məktəbində müəllim işləmişdir.

1946-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olan Əli Fərəcov 1951-ci ildə oranı uğurla bitirdikdən sonra təyinatla təhsil aldığı universitetdə laborant saxlanılmışdı. 1952-ci ildə "Toxucular" pioner düşərgəsinin rəisi təyin edilmişdi. 1952-60-cı illərdə Azərbaycan Dövlət Nəşriyyatında kiçik redaktor, böyük redaktor vəzifələrində çalışmışdır. Əli müəllim 1960-cı ildə "Azərtədrisnəşr"ə böyük redaktor təyin edilmişdir. 1957-ci ildə rus məktəblərinin 6-cı sinfi üçün "Azərbaycan dili" dərsliyini nəşr etdirən Əli müəllim 1964-cü ildə "Müxtəsər dilçilik lüğəti" kitabını çap etdirmişdi. 1961-ci ildə indiki ADPU-nun aspiranturasına daxil olan Əli Fərəcov 1964-cü ildə oranı uğurla bitirərək 1965-ci ildə namizədlik, 1972-ci ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Əli Fərəcov bir sıra elmi-metodik kitabların, həmçinin Azərbaycan və rus ümumtəhsil məktəbləri üçün dərs vəsaiti və dərsliklərin müəllifidir.

Professor Həsən Balıyev Əli Fərəcovun elmi-metodik fəaliyyəti haqqında yazır: "Bəli, o, nə üçün, necə yazacağını bacaran elm adamı idi. Onun 15 il ərzində yazıb çap etdirdiyi əsərlər bəzi, dırnaqarası "50 illik tədqiqatçıların" yazıb çap etdirdiyi əsərlərdən qat-qat çoxdur.

Əli Fərəcovun elmi və pedaqoji fəaliyyəti indiki Azərbaycan Dövlət Pedaqoji Univerditeti ilə sıx bağlı olmuşdur. O, burada müəllim, baş müəllim, dosent, professor, dekan müavini, dekan, institutun "Elmi əsərləri"nin məsul katibi kimi vəzifələrdə çalışmışdır.

Əli Fərəcov 11 may 1977-ci ildə qəflətən vəfat etmiş, onun vəfatı respublikamızın elmi ictimaiyyətini və eyni zamanda digər ölkələrin elmi nümayəndələrinə də böyük təsir göstərmişdir. Keçmiş SSRİ Pedaqoji Elmlər Akademiyasının akademik, pedaqoji elmlər doktoru, professor A.V.Tekuçev görkəmli alim Ə.Fərəcovun vəfatı münasibətilə göndərdiyi teleqramda yazırdı: "Mən Əlidəki təmkinliyi, zəkanı, istedadı, səmimiliyi yüksək qiymətləndirirdim. Bu keyfiyyətlər hər kəsə nəsib olmur. Təəssüf ki, Azərbaycan yüksək səviyyəli bir alimi ömrünün çiçəkləndiyi bir vaxtda itirdi" (40).

Yusif Yusifov

Pedaqoji Texnikumun görkəmli məzunlarından biri də Yusif Bəhlul oğlu Yusifovdur. O, 1929-cu ildə sentyabr ayının 23-də Qərbi Azərbaycanın (Ermənistanın) Vedibasar mahallının Böyük Vedi kəndində anadan olmuşdur. 1943-cü ildə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinə daxil olan Yusif Yusifov 1946-cı ildə həmin məktəbi bitirdikdən sonra təhsilini Sank-Peterburq şəhərindəki Dövlət Universitetində davam etdirmişdir.

1952-ci ildə həmin universitetin İran filologiyası şöbəsini bitirmiş, elə həmin ildə də Azərbaycan Milli Elmlər Akademiyasının Tarix və Fəlsəfə İnstitutunda ilk

əmək fəaliyyətinə başlamışdır. Yusif müəllim 1953-1956-cı illərdə görkəmli şərqşünas alim İ.M.Dyakonovun aspirantı olmuşdur. O, 1958-ci ildə namizədlik, 1965-ci ildə isə tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. Yusif Yusifov 1967-ci ildən ömrünün sonunadək indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışmışdır.

Göründüyü kimi, Yusif müəllimin pedaqoji fəaliyyətinin ünvanları çox olmasa da, işlədiyi Pedaqoji Universitetdə öz elmi, təşəbbüskarlığı ilə layiqli hörmət qazanmışdır. Ömrünü pedaqoji kadrların hazırlanmasına həsr edən Yusif müəllim hər zaman öz hazırlığı, elmi savadı ilə xalqına xidmət etməyə çalışmışdır. O, alman, ingilis, türk, ərəb, fransız, rus, erməni dillərini gözəl bilməklə yanaşı, həm də ölü dillərdən sayılan qrabar, şumer, akkad və elam dillərini bilirdi.

Dilimizin və tariximizin qədimliyini, açılmamış qatların elmi dövriyyəyə gətirib çıxaran Yusif müəllim heç zaman yaradıcılıq işindən uzaqlaşmamış, müntəzəm olaraq elmi-pedaqoji və digər mövzularda yazdığı əsərləri ölkəmizdə və eyni zamanda ölkəmizdən kənarda da nüfuzlu elmi nəşrlərdə çap olunmuşdur. Onun yazdığı "Qədim Şərq tarixi", akademik Ziya Bünyadovla birlikdə yazdığı "Azərbaycan tarixi" və s. əsərləri Azərbaycan tarixşünaslığı üçün olduqca dəyərli töhfədir.

Yusif Yusifovun qədim dilləri mükəmməl bilməsi, dünya elmi aləmində ona böyük nüfuz qazandırmışdır. Haqlı olaraq görkəmli dilçi alim, professor Firudin Ağası

oğlu Yusif Yusifovu "Azərbaycan elminin nuru" və "Azərbaycan tarixində nadir simalardan biri" adlandırır.

Yusif müəllimin 2 monoqrafiyası, 5 dərslik, 150-dən çox elmi əsəri nəşr edilmişdir. Onu da qeyd edək ki, Yusif müəllim uzun müddət İrəvanda Azərbaycanlı Pedaqoji Məktəbinin direktoru işləmiş, milli maarifimizin inkişafında böyük xidmətləri olmuş Bəhlul Yusifovun oğludur.

Nəriman Əliyev

Pedaqoji Texnikumun yetirmələri arasında Nəriman Əliyevin də adı həmişə minnətdarlıqla çəkilir. O, 1911-ci ildə Böyük Vedidə dünyaya gəlmişdir. Atası bir vaxtlar Böyük Vedi kəndinin kəndxudası olmuşdur. İbtidai təhsilini Böyük Vedidəki rus-tatar məktəbində alan Nəriman, sonra İrəvandakı N.Nərimanov adına Türk Pedaqoji Texnikumuna daxil olur. 1929-cu ildə təhsilini başa vurub, əvvəl Basarkeçərdə, 1930-cu ildə isə oxuduğu İrəvan şəhərindəki 9 illik məktəbdə, həm də İrəvan Kənd Təsərrüfatı Texnikumunun Azərbaycan şöbəsində dərs deyir.

Nəriman Əliyev İrəvanın ədəbi-mədəni həyatında da fəal iştirak etmişdir. O, 1927-ci ildə Ermənistan proletar yazıçılar cəmiyyətinin azərbaycanlı bölməsinin ən fəal üzvlərindən biri olmuşdur. İrəvanın ədəbi-mədəni həyatında Nəriman Fəxri imzası ilə çıxış edirdi. 1927-ci

illərdə onun İrəvanda nəşr edilən "Zəngi" qəzetində xeyli sayda şeirləri, dəyərli məqalələrin dərc edilmişdir. O həm də həmin mətbuat orqanının ən fəal müxbirlərindən biri idi.

O, 1930-cu ildə Azərbaycan Tibb İnstitutuna daxil olur. 1934-cü ildə oranı bitirib, rektor Əziz Əliyevin şəxsi təçəbbüsü ilə institutda saxlanır, mikrobiologiya kafedrasının aspiranturasına qəbul olunur. 1935-ci ildə Moskva Elmi-Tədqiqat Mikrobiologiya İnstitutuna göndərilir. 1937-ci ildə təhsilini başa vuraraq vaxtilə çalışdığı doğma kafedrasına qayıdır.

Böyük Vətən müharibəsi illərində həkim kimi sovet ordusu tərkibində Bakıdan göndərilən həkimlər qrupuna rəhbərlik edir. 1942-ci ildə İrandan Bakıya çağırılan Nəriman Əliyev həkim qrupu ilə Dağıstanda yayılan epidemiyanın qarşısını almaq üçün təcili bu bölgəyə göndərilir. Bu işi uğurla başa çatdırıb Bakıya dönür, burada ön cəbhə üçün lazım olan dərmanların hazırlanması işinə rəhbərlik edir. Az sonra onun rəhbərliyi ilə qanqrenə qarşı preparat hazırlanır. Bu dərman kəşfi ona böyük şöhrət qazandırır.

Böyük Vətən müharibəsindən sonra Nəriman Əliyev Mikrobiologiya İnstitutunda şöbə müdiri işləyir. 1948-ci ildə namizədlik, 1970-ci illərdə doktorluq dissertasiyalarını müdafiə edir. Onlarla elmi məqalə və dərsliyin, çoxlu ixtiraların müəllifi olan N.Əliyev iyirmi il kafedra müdiri işləyir. Rubin, nakordin, aurantin kimi yeni bioloji aktiv maddələr kəşf edir. Kənd təsərrüfatın-

da ət məmulatlarının saxlanmasında geniş istifadə olunan aktiv bioloji maddələrin kəşfi, lentospiroz, madrominoz, geotrixoz, serrasioz, kandidoz xəstəliklərinin aşkarlanması və s. onlarla ixtira və patent onun adı ilə bağlıdır.

Professor Nəriman Əliyev həm də Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Müxtəlif orden və medallarla təltif olunub. Tibb elmləri doktoru, professor Namiq Əliyev atasının sənətini bu gün də ləyaqətlə davam etdirir.



Fərhad Fərhadov

Fərhad Qulam oğlu Fərhadov 27 sentyabr 1919-cu ildə Zəngibasar rayonunun Rəncbər kəndində anadan olmuşdur. İrəvan gimnaziyasının məzunu olmuş atası Qulam müəllimin uzun müddət İrəvanda və eləcə də azərbaycanlılar yaşayan müxtəlif bölgələrdə maarifçiliyin inkişafında böyük rolu olmuşdur. Qulam müəllim Ermənistanda Yeni Türk Əlifba Komitəsinin fəal əmək daşlarından biri olmaqla yanaşı, həm də yeni əlifbanın azərbaycanlı əhali arasında təbliğində və tətbiqində böyük fəaliyyət göstərmişdir. Qulam müəllim "Zəngi" qəzetinin fəal müxbirlərindən biri kimi, 1925-ci ildə yeni əlifbanın

əhəmiyyəti haqqında həmin mətbuat orqanında dərc olunmuş bir sıra dəyərli məqalələrin müəllifidir.

Fərhad Fərhadov 1933-cü ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1936-cı ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil olan Fərhad müəllim 1941-ci ildə institutu bitirdikdən sonra elə həmin ildə Pedaqoji Texnikumda müəllim vəzifəsində çalışmağa başlamışdır.

Filologiya elmləri doktoru, professor Fərhad Fərhadov indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim, dosent olmuş, həmçinin kafedra müdiri, dekan və bir sıra mühüm vəzifələrdə çalışmışdır. Fərhad müəllim "Qədim və Orta əsrlər ədəbiyyatına dair oçerklər" (1945), "Klassik ədəbiyyatda tarixçilik prinsipləri" (1953) və bir sıra elmi əsərlərin müəllifidir.

Cəfər Cəfərov

Cəfər Əsəd oğlu Cəfərov görkəmli dilçi alimlərimizdən biridir. Onun fəaliyyəti, elmi fəaliyyəti haqqında çox yazmaq, danışmaq olar. Mən onu yaxından tanıyan bir şəxs kimi qeyd etmək istərdim ki, Cəfər müəllimin dünyaya göz açdığı, suyunu içdiyi, havasını udduğu doğma kəndi Hamamlıdan başlayan keçdiyi şərəfli ömür yolunun özü böyük bir əsərdir.

O, 1932-ci ildə iyulun 1-də Ermənistan SSR-in Əştərək rayonunun Hamamlı kəndində dünyaya göz açmışdır. Bu kənd Azərbaycan xalqının ən görkəmli simalarından biri olan ictimai xadim, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin parlaq şəxsiyyəti sayəsində tarixə düşmüşdür. Görkəmli alim, ictimai xadim, professor Əziz Əliyev 1897-ci ildə bu kənddə dünyaya göz açmışdır.

Cəfər Cəfərov 1945-ci ildə Hamamlı kənd 7 illik məktəbini bitirərək İrəvan Azərbaycanlı Pedaqoji məktəbinə daxil olmuşdur. İrəvan Azərbaycanlı Pedaqoji məktəbi Cəfər müəllimin həyatında silinməz izlər buraxmış, onun ali təhsilə yiyələnməsində, böyük inkişaf yolu keçməsində bu məktəbin böyük rolu olmuşdur. Cəfər müəllim 1948-ci ildə pedaqoji məktəbi bitirdikdən sonra Hamamlı kənd 7 illik məktəbinə müəllim təyin edilmiş, iki il həmin məktəbdə müəllim işləmişdir.

1948-ci ildə Cəfər müəllim ailəsi, əksər azərbaycanlı ailələri kimi, deportasiyaya məruz qalaraq Azərbaycan Respublikasının Salyan rayonuna köçürülmüşdür. Onların ailəsi, el-obası artıq 3-cü dəfə idi ki, (1905-1906, 1918-1920, 1950-ci illərdə) ermənilər tərəfindən soyqırıma və deportasiyaya məruz qalaraq öz isti ocağından, dədə-baba yurdundan didərgin salınırdı.

Cəfər müəllim böyük həyat yolu keçmiş, elmdə yüksək nailiyyətlərə nail olmuş, professor səviyyəsinə yüksəlmişdir. Əştərək rayonunun Hamamlı kəndi, onun adamları, təbiəti, bu qədim mədəniyyət abidələri, adət-

ənənələr Cəfər müəllimin yaddaşında dərin kök salmışdı. O, illərlə yaddaşında saxladığı, qürur duyduğu, fəxr etdiyi el-obasını əbədiləşdirmək, tarixin yaddaşına yazmaq məqsədilə bu yerlərin onomastik vahidləri haqqında "Qərbi Azərbaycanın Əştərək rayonunun bəzi onomastik vahidlərinin tarixi-linqvistik təhlili", "Hamamlı kəndi ilə bağlı etnonim və şəxs adları", "Hamamlı şivəsinin leksikasına dair terminəoxşar leksika", "Hamamlı şivəsinə aid lüğət" adlı əsərlərini yazaraq Əştərək rayonu və Hamamlı kəndinin adlarını əbədiləşdirmişdir.

Cəfər Cəfərov 1950-1952-ci illərdə Qazax ikiillik Müəllimlər İnstitutunda oxumuş, oranı fərqlənmə diplomu ilə bitirərək, Salyan şəhəri 4 № -li məktəbə dil və ədəbiyyat müəllimi təyin edilmişdir. 1953-cü ildə ADU-nun filologiya fakültəsinin I kursuna qəbul edilmişdir. O, 1958-ci ildə həmin institutu qırmızı diplomla bitirərək, təyinatla Mirbəşir rayonunun Qaradağlı kənd orta məktəbinə dil və ədəbiyyat müəllimi göndərilmiş və iki il orada müəllim işləmişdir.

Cəfər Cəfərov 1960-1963-cü illərfə APİ-nin Dilçilik kafedrasının aspirantı olmuşdur. 1964-cü ilin sentyabrında Azərbaycan dilçiliyi kafedrasına müəllim keçirilmişdir. Cəfər Cəfərov 1965-ci ildə namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almış, 1992-ci ildə doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almış və 1993-cü ildə Müasir Azərbaycan dili kafedrasının professoru vəzifəsinə seçilmişdir. O, səmərəli pedaqoji fəa-

liyyətinə görə Azərbaycan Respublikası Təhsil Nzirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" döş nişanı (2006) və "Əməkdar müəllim" (2012) fəxri adına layiq görülmüş, eləcə də Təhsil Nazirliyinin (1973), dəfələrlə ADPU-nun rəhbərliyinin fəxri fərmanlarına layiq görülmüşdür.

Cəfər müəllim səmərəli pedaqoji fəaliyyətinə görə 2021-ci ildə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür.

Qasım Mustafayev

Həyatın enişli-yoxuşlu yollarından keçib, ömrünün yarıdan çoxunu elmə həsr edən İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun məzunlarından biri də istedadlı alim, böyük şəxsiyyət Qasim Əli oğlu Mustafayevdir. O, 1928-ci ildə Amasya (Ağbaba) rayonunun Güllübulaq kəndində anadan olmuşdur.

O, 1935-ci ildə Güllübulaq kənd məktəbinin birinci sinfinə daxil olmuşdur. 1942-ci ildə 7 sinfi bitirdikdən sonra ailənin maddi çətinliyi 14 yaşlı Qasımı iki il kolxozda işləməyə məcbur etmişdir. O, 1945-ci ildə kənd səkkizlik məktəbini bitirdikdən sonra İrəvan Pedaqoji Məktəbinə daxil olmuş, oranı 1947-ci ildə bitirmişdir. Həmin il İrəvan Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə daxil olmuşdur.

1950-ci ildə İrəvan Pedaqoji İnstitutunun azərbaycanlı şöbələri Azərbaycana deportasiya edildiyindən,

təhsilini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişdir. 1951-ci ildə təyinatla Naxçıvan Müəllimlər İnstitutuna işləməyə göndərilmiş və 1956-cı ilədək orada işləmişdir. 1956-1965-ci illərdə indiki Azərbaycan Milli Elmlər Akademiyasının Mexanika və Riyaziyyat İnstitutunda işləmişdir. Həmin ildən o, Azərbaycan Pedaqoji İnstitutunda "Riyazi analiz" kafedrasında çalışmışdır. O, 1965-ci ildə dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdı. Onun çoxillik elmi-pedaqoji fəaliyyəti Azərbaycan Pedaqoji İnstitutut (indiki ADPU) ilə yanaşı, Naxçıvan Pedaqoji İnstitutu (indiki NDPU) ilə bağlı olmuşdur. Uzun illər bu mötəbər təhsil müəssisələrində riyazi analiz və funksional analiz fənlərindən mühazirələr oxumuşdur.

O, 1972-ci ildə Xankəndində Pedaqoji İnstitut açıldıqdan sonra APİ-də işləyə-işləyə, həm də orada "Riyazi analiz" kafedrasının müdiri olmuşdu.

Qasım müəllim 1979-cu ildən Naxçıvan Pedaqoji İnstitutunun elm və tədris işləri üzrə prorektoru, 1984-cü ildən 1987-ci ilədək isə rektor əvəzi vəzifəsində çalışmışdır. Onun Naxçıvan Pedaqoji İnstitutuna rəhbərlik etdiyi dövrdə institut respublikanın nüfuzlu ali məktəblərindən birinə çevrilmişdir.

O, respublikada yeganə riyaziyyatçı alim idi ki, riyazi analiz fənnindən üç dildə - Azərvaycan, rus və erməni dillərində mühazirələr oxuyurdu.

Orta məktəblərdə riyaziyyatın tədrisindəki boşluqları, çatışmazlıqları Qasım müəllim yaxşı bilirdi. Buna

göra də orta məktəbdə riyazi analiz elementlərinin tədrisinə dair və fakültativ məşğələlərə aid ilk dərsliklər, otra məktəblərdə xətti proqramlaşdırmanın tədrisinə aid ilk metodiki vəsaitlər onun qələmindən çıxmışdı. Qasım müəllim uzun illər Azərbaycan Televiziyasında "Orta məktəblərdə riyaziyyat" televiziya-tədris proqramının aparıcısı olmuşdur.

Bir alim kimi, o, respublikamızın riyaziyyatçıları arasında böyük nüfuza malik idi. Qasım Mustafayev funksional analiz ixtisası üzrə Azərbaycanda tanınmış mütəxəssislərdən hesab olunurdu. Onun "Orta məktəblərdə riyazi analiz elementlərinin tədrisi" (Bakı, 1967), "Riyaziyyat terminləri lüğəti" (ingiliscə-rusca-azərbaycanca, prof.H.Ağayev, prof.F.Maqsudovla birgə, Bakı, 1979) və s. kitabları uzun illər çəkilən gərgin əməyin məhsulu idi. Qasım müəllimin yüzdən çox elmi, elmi-metodiki məqalələri şap olunmuşdu.

Qasım müəllimin əməyi, elmi və pedaqoji fəaliyyəti SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili nazirliyi və Azərbaycan SSR Maarif Nazirliyi tərəfindən yüksək qiymətləndirilmişdir. O, "SSRİ Ali Məktəbi" və "Qabaqcıl maarif işçisi" döş nişanlarına, bir sıra fəxri fərmanlara və mükafatlara layiq görülmüşdür.

Nəriman Yusifov 1927-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Böyük Vedi kəndində anadan olub. O 6 yaşında ikən Böyük Vedidəki orta məktəbin 1-ci sinfinə getmişdir. Xalq qəhrəmanı Abbasqulu bəy Şadlinski-

nin kiçik oğlu Məmmədlə, vedililərin yaxşı tanıdıqları Ovçu İslamla, Leonid Adurovla bir sinifdə oxuyub. O, 1940-cı ildə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinə daxil olur. Ağır müharibə illərində orada oxuya-oxuya doğma kəndlərindəki orta məktəbdə müəllimlik fəaliyyətinə başlayır. Eyni zamanda kolxozun idarəsində hesabdar, yayda isə yaylaqdakı fermanın anbar müdiri işləyir.

Nəriman Yusifov 1945-ci ildə İrəvandakı Pedaqoji İnstitutun coğrafiya fakültəsinə daxil olur. 1946-cı ildə isə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə daxil olur. Amma buna baxmayaraq, yarım ildən sonra təhsilini hüquq fakültəsində davam etdirmək qərarına gəlir. O, oxuduğu illərdə məktəblərində birində tarix müəllimi, Azərbaycan LKGİ MK-da təlimatçı kimi çalışır. 1950-ci ildə ali təhsilini başa vurur.

Nəriman Yusifov 1950-1960-cı illərdə Qarabağ Vilayət Prokurorunun köməkçisi (Xankəndi rayonu üzrə), Bakı şəhəri Orconikidze rayon prokurorunun köməkçisi, Bakı şəhər prokurorluğunda müstəntiq, Bakı şəhər Caparidze rayon prokuroru, şəhər prokurorluğunda şöbə prokuroru, Bakı çəhər Dzerjinski rayon prokurorluğunda müstəntiq, Bakı şəhər Oktyabr rayon prokurorluğunda müstəntiq, Bakı şəhər Artyom rayon prokuroru vəzifələrində işləmişdir.

Hüquq elmləri namizədi Nəriman Yusifov 1963-cü ilin oktyabr ayında indiki AMEA-nın Fəlsəfə İnstitutunda elmi işçi və baş elmi işçi vəzifəsində çalışmışdır. N.Yu-

sifov uzun müddət SSRİ Ali Sovetində hüquq bölməsinin müdiri vəzifəsində çalışmışdır.

1977-ci ildə Bakı şəhər prokuroru, 1978-ci ildə isə Ədliyyə naziri vəzifəsinə təyin edilmişdir.

Zəhra Əliyeva

İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun məzunları arasında qadınlar da vardır ki, onların da Azərbaycanın elm, təhsil və s. sahələrdə böyük xidmətləri olmuşdur. Bunlardan Zəhra Cabbar qızı Əliyevanı qeyd etmək olar. 1928-ci ildə yanvar ayının 28-də Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərində anadan olmuşdur. Zəhra xanımın mənəvi inkişafında atası Cabbar Bağır oğlu Əliyevin, anası Münəvvər Rza bəy qızı Sultan Hüseynbəyovanın da böyük təsiri olmuşdur. Zəhra xanım uşaqlıq və gənclik illərini İrəvanda keçirmişdir. O, 1942-ci ildə İrəvan şəhərində nümunəvi məktəb sayılan "Haşımbəyin məktəbi"ni bitirdikdən sonra elə həmin ildə İrəvan Pedaqoji Məktəbinə daxil olmuşdur. Pedaqoji məktəbdə oxuduğu müddətdə müəllim və tələbə kollektivinin rəğbətini qazanan Zəhra xanım məktəbin komsomol komitəsinin katibi seçilmişdir. Pedaqoji məktəbi əla qiymətlərlə bitirən Zəhra xanım 1945-46-cı illədrə Zəbgibasar rayonunun Aşağı Necili kəndindəki yeddiillik məktəbdə müəllim işləmişdir. O,

1946-cı ildə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı şöbəsinə qəbul olmuşdur.

1948-ci ildə azərbaycanlıların Ermənistandan deportasiya edilməsi ilə əlaqədar institutun azərbaycanlı şöbəsi də ləğv olunaraq indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinə köçürülmüşdür. ADPU-da təhsilini davam etdirən Zəhra xanım 1950-ci ildə ali təhsilini başa vurduqdan sonra Yasamal rayonundakı 51 nömrəli fəhlə-gənclər məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir. 1953-1962-ci illərdə Yasamal rayonundakı 199 nömrəli məktəbdə işləyən Zəhra xanımın pedaqoji fəaliyyəti, qabaqcıl müəllim kimi təcrübəsi Bakı şəhərində geniş yayılmışdır. 1961-ci ildə AMEA-nın Dil və Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olan Zəhra xanım 1966-cı ildə uğurla dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Zəhra xanım müxtəlif vaxtlarda Maarif Nazirliyində metodist (1964-1967), Proqram-metodika idarəsində orijinal dərsliklər üzrə elmi-metodik şöbələrin elmi katibi, Bakı Məktəblər İdarəsinin rəisi və s. vəzifələrdə çalışmışdır.

Öz pedaqoji və ədəbi fəaliyyətini milli mədəniyyətimizin, ədəbiyyatımızın inkişafına və zənginləşməsinə həsr edən Zəhra xanım 15 dərslik və metodik vəsaitin, 160-dan artıq elmi, publisistik, ədəbi-tənqidi və s. əsərlərin müəllifidir. Onun rus, ukrayna, belarus, türkmən, qazax və başqa dillərdə nəşr olunan nüfuzlu mətbuat orqanlarında bir sıra əsərləri çap edilmişdir. Zəhra xanımın

pedaqoji, ədəbi və ictimai fəaliyyəti hökumət tərəfindən yüksək qiymətləndirilmiş, 1971-ci ildə "SSRİ maarif əlaçısı" döş nişanı, 1981-ci ildə "Şərəf nişanı", 1988-ci ildə "Əmək veteranı" medalı və digər fəxri fərman və adlarla təltif edilərək mükafatlandırılmışdır. 1982-90-cı illərdə "Azərbaycan məktəbi" jurnalının baş redaktoru olmuş fədakar pedaqoq Zəhra xanımın elmi, pedaqoji fəaliyyəti bu gün də böyük hörmət və ehtiramla yad edilir.

Tarverdiyeva Kövsər Məhəmməd qızı

İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun qadın məzunlarından Tarverdiyeva Kövsər Məhəmməd qızını da xüsusi qeyd etmək olar. O, 1914-cü ildə iyun ayının 14-də qədim İrəvanda bağban ailəsində dünyaya gəlmişdir. İlk təhsilini Haşim bəyin məktəbin aldıqları, sonra İrəvan Pedaqoji Texnikumuna daxil olmuş və 1931-ci ildə oranı bitirmişdir. İrəvanda Azərbaycan dilində ali məktəb olmaması səbəbindən 1931-ci tədris ilində Tibb İnstitutunun erməni bölməsinə daxil olub. İrəvanda gələcək perspektivin olmadığını görən Kövsər Tarverdiyeva 1932-ci ildə ailəsi ilə Bakıya köçür və bununla əlaqədar olaraq təhsili yarımçıq qalır.

1933-cü ildə Bakıda Hacı Zeynalabdin Tağıyevin inşa etdirdiyi keçmiş Lenin adına toxuculuq fabriki nəzdin-

də olan məktəbdə müəllim işləmiş və həmin ildə Nəsrəddin Tusi adına Pedaqoji universitetin dil-ədəbiyyat fakültəsində daxil olub, 1937-ci ildə oranı bitirmişdir. Bir müddət tələbəlik illərində Azərnəşrdə korrektor, sonra da Bakı Dövlət Universitetinin kitabxanaçı vəzifəsində işləmiş və 1937-ci ildən 1939-cu ilə qədər isə dil-ədəbiyyat fakültəsinin dekanı olmuşdur. Kövsər Tarverdiyev 1952-ci ildə uğurla dissertasiya müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1952-ci ildən 1954-cü ilə qədər Pedaqoji Universitetin qiyabi şöbəsində məktəbəqədər tərbiyə fakültəsinin dekanı vəzifəsində işləmişdir. Bir neçə dil bilməyi nəticəsində müxtəlif jurnallar və dövri mətbuat orqanlarında yüzə yaxın altmış çap vərəqindən artıq elmi-kütləvi məqalələri və monoqrafiyaları nəşr edilmiş və bir çox tərcümələr etmişdir.K.Tarverdiyeva 52 il fasiləsiz olaraq ancaq H.Tusi adına Pedaqoji Universitetdə çalışmışdır. Müəllim kadrların yetişdirilməsində uzun illər səmərəli fəaliyyətini nəzərə alaraq iki dəfə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı, xalq maarifi sahəsində uzunmüddətli səmərəli xidmərinə görə "Əməkdar ali məktəb işçisi" kimi fəxri adla təltif olunmuşdur. "Qafqazın müdafiəsi uğrunda", "Böyük Vətən müharibəsində fədakar əməyinə görə "Əmək veteranı" və başqa medallarla təltif edilmişdir.

Bütün şəxsi marağını, səy və bacarığını ancaq azərbaycanlı balalarının maariflənməsi uğrunda mübarizəyə sərf edən fədakar müəllimlərdən biri də Şəfiqə xanım Məşədi Ələsgər qızı Məhərrəmova idi. Şəfiqə Məhərrə-

mova (Avşarova) 1925-ci ildə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin tanınmış zadəganlarından olan Məşədi Ələsgər Avşarovun ailəsində anadan olmuşdur.

Şəfiqə Məhərrəmova

Şəfiqə xanımgilin İrəvanda yaşadığı ev Daşlı küçəsində, İrəvan Müəllimlər Seminariyası ilə üzbəüz binada yerləşirdi. İrəvanın görkəmli ziyalılardan olan Məşədi İsmayıl Hacı Kazımzadənin açdığı İrəvan 3 sinifli şəhər məktəbi də bu küçədə yerləşirdi.

Atası Məşədi Ələsgər Hüseynqulu oğlu İrəvanın məşhur tacirlərindən idi. 1918-20-ci illərdə erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdikləri qətliamlar zamanı Avşarovlar tayfasının bir qismi Türkiyəyə, bir qismi Bakıya, bir qismi isə İrana köşməyə məcbur olur. Bu tayfadan xeyli sayda adlı-sanlı ziyalılar, mədəniyyət, incəsənət və ictimai xadimlər çıxmışdır. Xalqımızın görkəmli ziyalısı, xalq artisti Muxtar Avşarov da həmin nəslin layiqli nümayəndələrindən biridir.

Avşarovlar ailəsi "zadəgan", "mülkədar", "bəy" nəslindən olduğuna görə 1928-ci ildən başlayaraq repressiya bu ailədən də yan keçməmiş, bu ailə də amansız represiyaya məruz qalmışdır.

1940-cı ildə İrəvan Pedaqoji Texnikumuna daxil olan Şəfiqə xanım 1943-cü ildə buranı əla qiymətlərlə başa vurur və təyinatla Amasiya rayonunda ilk əmək fəaliyyətinə başlayır. Şəfiqə xanım Amasiya rayonunun Güllücə, Güllübulaq, Oxçoğlu kənd məktəblərində uzun müddət pedaqoji fəaliyyət göstərmişdir. Həmin kəndlərdə həm də qadınlar şurasının sədri olub. 1961-ci ildə Moskvada müəllimlər qurultayının nümayəndəsi olan Şəfiqə xanım pedaqoji və ictimai fəaliyyətinə görə bir sıra orden və medallara layiq görülüb. Bu fədakar maarif işçisi 1913-cü ildə Əməkdar müəllim adına layiq görülmüşdür.

Onun dərs dediyi şagirdlərin arasından xeyli sayda alimlər, müəllimlər və müxtəlif sahələrdə çalışan onlarla ziyalılar, peşə adamları çıxaraq bu gün cəmiyyətimizin inkişafına öz töhfələrini verirlər. Yarım əsrə yaxın Qərbi Azərbaycanda milli maarifimizin inkişafı uğrunda çalışan yüzlərlə azərbaycanlı balalarının savadlanması, ali təhsilə yiyələnməsi üçün heç bir qüvvə və bacarığını əsirgəməyən əsl maarif fədaisi Şəfiqə xanım Məhərrəmova bu gün də minnətdarlıqla yad edilir.

Nəzər Paşayev 1908-ci ildə Böyük Vedidə anadan olmuşdur. 1915-ci ildə atasını itirmiş, 1920-23-cü illərdə uşaq evində yaşamış, 1923-25-ci illərdə Goravan kəndində, 1925-27-ci illərdə isə Böyük Vedi kəndindəki uşaq bağçasında təlimatçı işləmişdir.

1927-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olan Nəzər Paşayev 1930-cu ildə həmin təd-

ris ocağını bitirmişdir. Elə həmin ildə Böyük Vedi kəndindəki Kəndli Gənclər məktəbinə müdir təyin edilmişdir. 1932-ci ildə Vedi rayon partiya komitəsinin və Ermənistan Maarif Komissarlığının göndərişi ilə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində qəbul olunmuş, 1936-cı ildə isə oranı bitirmişdir. 1936-1939-cu illərdə İrəvan Azərbaycanlı Pedaqoji Məktəbində və İrəvandakı Pedaqoji İnstitutun qiyabi şöbəsində tarix fənnini tədris etmişdir.

Elə həmin illərdə İrəvandakı Kirov rayon Partiya Komitəsində təlimatçı kimi fəaliyyət göstərmişdir. 1939-cu ildə Azərbaycan Dövlət Universitetinə daxil olan Nəzər Paşayev həm də Müəllimləri Təkmilləşdirmə İnstitutunda dərs demişdir.

1942-ci ilin aprelində aspiranturanı yarımçıq qoyub müharibəyə getmiş, 1946-cı ildə cəbhədən geri qayıtdıqdan sonra təhsilini davam etdirmiş, Azərbaycan Dövlət Universitetində tarix fənni tədris etmiş və 1949-cu ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi adına layiq görülmüşdür.

12 mart 1958-ci ildə dosent elmi vəzifəsinə seçilmişdir. 1947-1959-cu illərdə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda, 1959-cu ildən ömrünün sonuna kimi isə indiki Azərbaycan Dövlər Pedaqoji Universitetində çalışmışdır. Nəzər Abdulla oğlu Paşayev 1960-cı ildə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru, alimlik dərəcəsinə layiq görülmüşdür.

Həbib Həsənov

Həbib Rəhim oğlu Həsənov 1922-ci ilin avqustun 5-də Qərbi Azərbaycanın (indiki Ermənistan) Novo-Bayazit qəzasının Ağzibir kəndində anadan olmuşdur. 1938-ci ildə 7 illik məktəbi bitirdikdən sonra İrəvan Azərbaycan Pedaqoji Məktəbinə daxil olmuşdur. 1940-42-ci illərdə Novo-Bayazit rayonunun Ağqala kənd 7 illik məktəbində müəllim, sonra isə məktəbin direktoru vəzifəsində çalışmışdır.

1943-47-ci illərdə həmin rayonun Ağzıbir kəndində məktəb direktoru işləmişdir. 1947-1949-cu illərdə Ermənistan Respublikasının 2 illik partiya məktəbində təhsil almişdır. 1949-50-ci illərdə Ermənistan Respublikasının Əzizbəyov rayonu partiya komitəsinin təbliğat-təşviqat şöbəsinin müdiri, 1950-53-cü illərdə "Sovet Ermənistanı" qəzetinin partiya həyatı şöbəsinin müdiri, 1953-56-cı illərdə Üçmüədzin partiya komitəsinin ikinci katibi, 1956-60-cı illərdə Amasiya qayonunun Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmişdir. 1959-60-cı illərdə Moskvada Ali Partiya Məktəbinin müdavimi olmuşdur. 1960-74-cü illərdə "Sovet Ermənistanı" qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır. Mətbuat sahəsində səmərəli

fəaliyyətinə görə "Əməkdar jurnalist" adına layiq görülmüşdür.

1957-75-ci illərdə davamlı olaraq Ermənistan KP MK-nın üzvü, Ermənistan SSR Ali Sovetinin 4, 5, 6, 7 və 8-ci çağırışlarının deputatı, Ermənistan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin müavini olmuşdur.

1974-cü ildən Azərbaycanın Tovuz rayonu Partiya Komitəsinin birinci katibi, 1980-ci ildən Azərbaycan SSR Dövlət Meşə Təsərrüfatı Komitəsinin sədri, 1981-1989-cu illərdə Azərbaycan Respublikası Meşə Təsərrüfatı naziri vəzifələrində çalışmışdır. 1976-cı ildən Azərbaycan KP MK-nın üzvü, Azərbaycan SSR Ali Sovetinin 9-cu və 10-cu çağırışlarının deputatı seçilmişdir.

2 dəfə "Qırmızı Əmək bayrağı" ordeni və digər orden və medallarla təltif edilmişdir. 1989-cu ildə "Ümumittifaq təqaüdçüsü" statusunda təqaüdə çıxmışdır.

1997-2004-cü illərdə Azərbaycan mətbuatında Qərbi Azərbaycan, Qarabağ münaqişəsi və s. mövzularda məqalələrlə müntəzəm çıxış etmişdir.

1997-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında Həbib Həsənovun "Silinməz adlar, sağalmaz yaralar" kitabı ictimai-siyasi xadim, yazıçı–şair, böyük şəxsiyyət Hidayət Orucovun yazdığı "Yaddaş kitabı" adlı ön sözü ilə nəşr olunmuşdur. Əvvəllər bu kitabı geniş xalq kütləsindən gizlədirdilər. Qatı açılmamış tarixi faktlarla zəngin olan bu əsərdə ilk dəfə olaraq qədim Oğuz diyarında – Qərbi Azərbaycanda son 200 il ərzində azərbaycanlıların soyqırımı faktı demoqrafik və statistik məlumatlar

əsasında sübuta yetirilmişdir. Dördillik gərgin əməyinin nəticəsi olan "Silinməz adlar, sağalmaz yaralar" kitabının ərsəyə gəlməsi üçün o, həm şəxsi kitabxanasının nadir materiallarından, həm də dövlət arxivlərinin sənədlərindən istifadə etmiş, əldə etdiyi stasistik məlumatlar əsasında tam yeni və orijinal cədvəllər tərtib etmiş, nadir xəritələr üzə çıxartmış və kitabda 656 azərbaycanlı kəndinin təsnifatını vermişdir.

Kitabda xalqımızın tarixinə edilən təcavüzdən, soyqırımından, deportasiyadan söhbət açılır. Ermənistan ərazisində olan və bu gün adları silinmiş 656 azərbaycanlı kəndinin təsnifatı ilə yanaşı, bu ərazilərin qədimdən rəsmi adları tarixi qaynaqlardan tapılıb bərpa olunmuş, 1918-ci ildən sonra bu yerlərin ermənisayağı dəyişdirilmiş adları, onların hamısının coğrafi koordinatları verilmişdir. Bu təsnifatda verilmiş həmin kənd və rayonlarda yaşamış azərbaycanlıların iki yüz il ərzində, yəni 1831, 1873, 1886, 1905, 1914, 1931-ci illərdə tədricən və soyqırım illərində dəfələrlə azalan sayı göstərilir. Bu da Azərbaycan xalqına qarşı daşnakların planlaşdırdığı genosidi təsdiqləyən tarixi faktdır. İrəvan ziyalıları arasında Həbib Həsənovun da adı həmişə minnətdarlıqla yad edilir.

Həmid Zeynalabdin oğlu Əliyev 1924-cü ildə Qaraqoyunlu mahalının Əmirxeyir kəndində anadan olmuşdur. Atası Zeynalabdin kişi Qaraqoyunlu mahalının sayılıb-seçilən, böyük nüfuza malik el ağsaqqallarından biri idi. H.Əliyev Əmirxeyir kənd ibtidai məktəbini, sonra

isə 1936-cı ildə Çaykəddəki yeddiillik məktəbi bitirdikdən sonra elə həmin ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olur. 1939-cu ildə pedaqoji texnikumu bitirdikdən sonra 1940-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olmuşdur. 1941-ci ildə İkinci Dünya müharibəsinin başlanması Həmid müəllimə təhsilini davam etdirməyə imkan vermişdir. O, 1942-ci ildə ordu saralarına çağırılan Həmid müəllim 1943-cü ilə qədər Şimali Qafqaz cəbhəsindəki döyüşlərdə fəal iştirak etmişdir.

1945-ci ildə ali təhsilini başa vurduqdan sonra Krasnoselk (Çəmbərək) rayonuna qayıdır və Toxluca kənd orta məktəbinə direktor təyin olunur. 1947-ci ilə qədər burada çalışdıqdan sonra Gölkənd məktəbinə direktor təyin olunur. Onun elmə olan həvəsi onu 1949-cu ildə Moskva Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına aparır. 1953-cü ildə aspiranturanı bitirən Həmid müəllim 1954-cü ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alır.

1955-ci ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində dərs demişdir. 1967-ci ildə doktorluq dissertasiyası müdafiə edərək tarix elmləri doktoru elmi adına layiq görülür. 1968-ci ildə professor elmi vəzifəsinə seçilən Həmid müəllim 1991-ci ilə qədər beynəlxalq icmalçı kimi də fəaliyyət göstərmişdir.

1959-cu ildən AMEA-nın Şərqşqnaslıq və Tarix İnstitutunda çalışan Həmid müəllimin rəhbərliyi altında 10

elmlər doktoru və 20 elmlər namizədi müdafiə edərək alimlik elmi dərəcəsi almışdır.

Həmid Əliyevin Azərbaycanda türkologiya elminin inkişafında böyük xidmətləri olmuşdur. Həmid müəllimin 100-dən artıq elmi əsəri və 10-dan artıq monoqrafiyası çap edilmişdir. Türkologiya elminin inkişafındakı xidmətlərinə görə Respublikanın Əməkdar mədəniyyət işçisi adına layiq görülmüş, I dərəcəli "Vətən müharibəsti", "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif edilmişdir.

Həmid müəllim təkcə böyük türkoloq-alim deyildi, o həm də yüksək bədii yaradıcılıq qabiliyyətinə malik idi.



Sabir Səfərov

O, 1988-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamları, azərbaycanlıların öz doğma yurdlarından zorla, silah gücünə qovulmasını qələmə aldığı "Qaraqoyunlu" poemasında bədii lövhələrlə əks etdirmişdir. Görkəmli alim Həmid Əliyev 2005-ci ildə Bakı şəhərində vəfat etmişdir.

İrəvan mahalının tanınmış böyük şəxsiyyətlərindən ziyalılarından olan Sabir Xəlil oğlu Səfərov 1924-cü ildə Haçaparaq kəndində anadan olmuşdur. 1938-ci ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş, 1942-ci ildə ora-

nı bitirərək orduya çağırılmışdır. O, cəbhəyə yollanmazdan əvvəl Bakı birinci piyada hərbi məktəbində altıaylıq kurs keçmiş, leytenant rütbəsi alaraq 1943-cü ildə tağım komandiri kimi ön cəbhəyə yollanmışdır. Sonradan tağım komandiri kimi Şimali Qafqaz döyüşlərndə, Ukraynanın və Belarusun azad olunmasında rəşadət göstərmiş, döyüşlərdə üç dəfə ağır yaralanmış, II dərəcəli "Vətən müharibəsi" ordeni, "Qafqazın müdafiəsi" və "Qırmızı Ulduz" medalları ilə təltif olunmuşdur.

Müharibədən qayıtdıqdan sonra 4 il Rostov-Donda xüsusi nəzarətlə mühafizə olunan Semlyansk su hövzəsinin rəis müavini işləmiş, 1950-ci ildə doğma yurda qayıdaraq qonşu Qaraqışlaq kənd məktəbində bir il tarix fənnindən dərs demişdir. 1951-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olinmuş, 1955-ci ildə İnstitutu bitirərək yenidən Qaraqışlaq kənd orta məktəbində müəllimlik fəaliyyətini davam etdirmişdir.

1967-1988-ci illərdə İrəvan Dövlət Pedaqoji İnstitutunda çalışan Sabir Səfərov 1974-cü ildə Azərbaycan EA-nın Fəlsəfə İnstitutunuda dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almış, 1982-ci ildə isə dosent elmi dərəcəsinə layiq görülmüşdür. İndiyədək onun fəlsəfə və sosiologiyaya dair 50-dən artıq elmi əsəri işıq üzü dörmüşdür.

Sabir Səfərov uzun müddət Azərbaycan Texniki Universitetində və Müstəqil Azərbaycan Universitetində fəlsəfədən dərs demişdir.

Nəriman Kazımov 1926-cı ildə Böyük Vedi kəndində anadan olmuşdur. 1938-ci ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuş, müəllim kadrlara böyük tələbat olduğundan 1941-ci ildən həm də Vedi rayonunua müəllim göndərilmişdir. 1942-ci ildə texnikumu bitirən Nəriman Kazımov Şirazlı, Qaralar, Goravan, Taytan, Böyük Vedi kəndlərində müəllim, dərs hissə müdiri vəzifələrində işləmişdir. 1951-ci ildə Azərbaycana deportasiya olunmuşdur.

Sonralar təhsilini Bakıda APİ-nin fizika-riyaziyyat fakültəsində davam etdirən Nəriman Kazımov 1955-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirir və institutda qalıb müəllim işləyir.

1975-ci ildə dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır. 12 elmi kitabın, 50-yə qədər elmi-mütodik məqalənin müəllifidir.

Abbas Tahir 1912-ci ildə Qəmərli rayonunun Məsimli kəndində anadan olmuşdur. İbtidai təhsilini birinci dərəcəli kənd məktəbində aldıqdan sonra 1926-cı ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olmuş, 1931-ci ildə isə texnikumu bitirmişdir.

1928-ci ildən ədəbi yaradıcılığa başlamış, həmin ildən İrəvanda Azərbaycan dilində işıq üzü görən yeganə mətbuat orqanı olan "Qızıl şəfəq" qəzetində və ədəbi almanaxlarda müntəzəm olaraq əsərləri dərc edilmişdir. O həm də "Qızıl şəfəq" qəzetinin ən aktiv müxbirlərindən idi. Abbas Tahir İrəvanda fəaliyyət göstərən Proletar Yazıçılar Birliyinin azərbaycanlı bölməsinin fəal üzvü kimi

ədəbi mühitin inkişafında və formalaşmasında da fəal iştirak etmişdir. O, 1943-cü ildə İrəvan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirmişdir. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlı şairlərin şeirlərinin ayrıca kitab halında ilk dəfə nəşri Abbas Tahirə nəsib olmuşdu. Belə ki, 1934-cü ildə onun "İlham mənbəyi" adlı ilk şeirlər kitabı işıq üzü görmüşdür. 1947-ci ildə isə onun "Qələbə baharı" adlı şeirlər kitabı nəşr edilmişdir.

Tapdıq Əmiraslanov

Qərbi Azərbaycanın maarif və ictimai xadimlərindən biri də Tapdıq Muxtar oğlu Əmiraslanov olmuşdur. O, 1918-ci ildə Ulu Göyçənin qədim kəndlərindən biri olan Zodda dünyaya gəlmişdir. Zod kəndi hələ XIX əsrdə öz məktəbi və ziyalıları ilə məşhur idi. Hələ 1885-ci ildə dövrün qabaqcıl ziyalıları Səməd Ağanın, Mirzə Bəylərin təşəbbüsü ilə Zodda rus-tatar məktəbi açılmışdı.

Tapdıq müəllim orta məktəbi bitirdikdən sonra 1933-cü ildə İrəvan Pedaqoji Məktəbinə daxil olmuşdur. Öz qabiliyyəti, dərin biliyi ilə müəllimlərinin dərin hörmətini qazanmış Tapdıq müəllim texnikumda oxuduğu müddətdə bir neçə dəfə mükafatlandırılmışdır. 1937-ci il-

də həmin təhsil ocağını bitirdikdən sonra ali təhsilini İrəvandakı Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişdir. O, bir müddət Zod kənd məktəbində müəllim və direktor vəzifələrində işlədikdən sonra, 1950-ci ildə Basarkeçər rayon Partiya Komitəsinə şöbə müdiri vəzifəsinə irəli şəkilmişdir. 1953-cü ildə isə Basarkeçər rayon Partiya Komitəsinin ikinci katibi vəzifəsinə təyin edilmişdir. 1948-53-cü illərdə Ermənistandan azərbaycanlıların köçürülməsi, əhalinin 90%-ni azərbaycanlılar təşkil edən Basarkeçər rayonunu ciddi çətinliklərlə üzləşdirmişdi. O dövrdə bu müqaviməti təşkil edən, azərbaycanlı əhalinin önündə gedən təşkilatçılar Tapdıq Əmiraslanov, Yunis Rzayev, Talıb Musayev və başqa qeyrətli azərbaycanlı ziyalılar idi. Həmin dövrdə dövlət aparatında erməni şovinistlərinin əhatəsində işləməsinə baxmayaraq, həmişə xalqının milli mənafeyini qətiyyətlə müdafiə etmişdir.

Tapdıq Əmiraslanov 1959-cu ildə Basarkeçər rayon Maarif şöbəsinin müdiri təyin edilmişdir. O öz imkanlarından istifadə edərək, azərbaycanlı məktəblərinin tikilməsi, təmiri, onların maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində çox böyük işlər görmüşdür. Tapdıq müəllim azərbaycanlı kəndlərində tədrisin yüksək səviyyədə qurulması üçün əlindən gələni əsirgəməmişdir.

Tapdıq müəllimin səyi və diqqəti sayəsində azərbaycanlı məktəblərinin əksəriyyəti tam orta məktəbə çevrilmiş, məktəblərdə tədrisin keyfiyyəti yüksək səviy-

yəyə çatdırılmışdır. 1975-ci ildə dünyasını dəyişən Tapdıq müəllim bu gün də minnətdarlıqla yad edilir.

İrəvan Azərbaycanlı Pedaqoji texnikumun yetirmələrindən biri də 1925-ci ildə Haçaparaq kəndində anadan olmuş **Məsim Məmmədovdur.** O, orta məktəbi bitirdikdən sonra İrəvan Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir.

Məsim Məmmədov 1947-ci ildə ali təhsil almaq üçün Bakıya gəlir və APİ-yə daxil olur. İnstitutu bitirdikdən sonra İrəvana geri dönür.

Orta məktəbdə müəllim işləyə-işləyə İrəvan Dövlət Pedaqoji İnstitutuna dəvət edilir. 1964-cü ildən 1988-ci ilə qədər orada çalışır və elmi axtarışlarını davam etdirir. 1974-cü ildə "Erməni dilində işlənən Azərbaycan sözləri" mövzusunda dissertasiya müdafiə etsə də, ermənilər bu işin təsdiqini xeyli gecikdirmiş və yalnız 1976-cı ildə o, filologiya elmləri namizədi alimlik dərəcəsi ala bilmişdir. M.Məmmədov 12 monoqrafiya və 2 kitab müəllifidir.

Cabbar Quliyev

Xalqının, millətinin adi bir kəlməsinin belə qoruyucusu olan M.Məmmədov Bakıda 20 Yanvar hadisələrindən az sonra dünyasını dəyişmişdir.

Cabbar Əli oğlu Quliyev 1922-ci il mayın 19-da Haçaparaq kəndində anadan olmuşdur. İrəvan Pedaqoji

Texnikumunu bitirdikdən sonra Böyük Vətən müharibəsinə yola düşmüş, bir sıra cəbhələrdə döyüşmüş, müharibədən qayıtdıqdan sonra müəllim işləmişdir.

Heç bir rəssamlıq təhsili olmasa da,bu sənətə sonsuz məhəbbəti C.Quliyevi fırça sənəti ilə məşğul olmağa sövq etmiş, az vaxtda bir-birindən gözəl sənət əsərləri yaratmışdır.

1961-ci ildən 1988-ci ilə qədər İrəvan Dövlət Pedaqoji İnstitutunun azərbaycanlı şöbəsində təsviri sənət, incəsənət tarixi və estetikadan dərs demiş, 1967-ci ildə "Əməkdar rəssam" fəxri adına layiq görülmüşdür.

Cabbar Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında 10-dan artıq tamaşaya bədii tərtibat vermiş, 1972-ci ildə Bakıda İncəsənət İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir.

1988-ci ildə erməni daşnakları tərəfindən doğma yurddan qovulan rəssam təkcə el-obasını itirmədi, on illər boyu yaratdığı xeyli sayda tablosu da düşmən əlində qaldı. Bir çox soydaşları kimi, o da Bakı şəhərinə pənah gətirdi. Burada məskunlaşdı.

Lakin Cabbar Quliyev yenə də yorulmadan çalışdı, yüzlərlə yeni əsərlər yaratdı. Cabbar Quliyevin yaradıcılığında Qərbi Azərbaycanın müxtəlif mənzərələri, tarixi abidələri, şəxsiyyətləri mühüm yer yer tutur. Bunu rəssamın məşhur "Ağrı dağı", "Cəfərabad türbəsi", "Qarasu çayı", "Zəngi çayı", "Qaçqınlar", "Göyçə gölü", "Aşıq Ələsgər", "Miskin Abdal" və s. tabloları da təsdiq edir.

Ömrünü vətən övladlarının elmə, təhsilə yiyələnməsinə həsr edən böyük şəxsiyyətlərin adı həmişə hörmət və ehtiramla çəkilir. Belə görkəmli şəxsiyyətlərdən biri də Qərbi Azərbaycanda milli maarifimizin inkişafında mühüm yer tutan, azərbaycanlı müəllim kadrların yetişdirilməsində böyük rol oynayan, xalqımızın mənəvi təkmilləşməsinə, milli yüksəlişinə xidmət edən tanınmış, fədakar ziyalılarımızdan biri də Baba Mehrəli oğlu Məmmədov olmuşdur. Onun bu sahədəki xidməti həyatlarını İrəvanda xalqımızın savadlanması, maariflənməsi yolunda əvəzedilməz işlər görmüş Mehdi Kazımov, Əşrəf Bayramov, Mustafa Hüseynov, Əhməd Əhmədov, Əkbər Rizayev, Cəfər Əhmədov, Həbib Məhəmmədzadə kimi əsil milli maarif mücahidlərimizin nəcib əməlləri ilə yanaşı duracaq dərəcədə mühüm olmuşdur.

Baba Məmmədov

Baba müəllim 1937-ci ilin dekabr ayında Ağbaba mahalının Göllü kəndində anadan olmuşdur. Baba müəllim Ağbaba mahalının sayılıb-seçilən və böyük tarixi ənənəsi olan, bölgədə nəcib və xeyirxah əməlləri ilə böyük nüfuz qazanmış dərzililər tayfasından idi. Stalin represiyasının vurduğu ağır yaralar, çəkdiyi çalın-çarpaz

dağlar bu ailədən də yan keçməmişdir. Babası Dərzili Məmməd "kulak" adı ilə Qazaxstana sürgün edilmişdir. Stalin vəfat etdikdən sonra geri qayıdıb, bir neçə il yaşadıqdan sonra vəfat etmişdir. Amma bu ağrılara, acılara, çətinliklərə baxmayaraq, təhsil almaq Baba müəllimin ən böyük arzularından idi. O vaxtlar Göllü kəndində məktəb olmadığından Baba müəllim hər gün kilometrlərlə yol qət edib, orta təhsilini qonşu kəndlərində tamamlamışdır. Onun böyük arzularından biri də İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsində ali təhsil almaq idi. Amma taleyin qisməti ilə Baba müəllim Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olur.Universiteti bitirdikdən sonra öz doğma kəndinə qayıdır.

1959-cu ildə ilk pedaqoji fəaliyyətinə Göllü kənd yeddillik məktəbində başlayır. Qısa zamanda öz pedaqoji fəaliyyəti, bilik və bacarığı, yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilən Baba müəllim 1963-cü ildə Göllü kənd 8 illik məktəbinə Azərbaycan dili və ədəbiyyatı, 1964-cü ildə məktəbin tədris hissə müdiri, 1969-cu ildə isə direktoru vəzifəsinə təyin olunur.

Baba müəllimin fəaliyyət dairəsi təkcə onun pedaqoji fəaliyyəti ilə məhdudlaşmır. O pedaqoji fəaliyyətlə yanaşı Amasiya rayonunun ictimai həyatında da aktiv iştirak etmiş, həmçinin kolxoz ilk partiya təşkilatının katibi vəzifəsində də çalışmışdı. Mövcud dövrün tələbləri baxımından bu sahəyə xüsusi siyasi savad tələb olunurdu. Baba müəllimin dərin biliyə və erudisiyaya malik ol-

ması onun bir sıra sahələrdə uğurlu fəaliyyətinə zəmin yaratmışdır.

1970-ci illərin əvvəllərində kənd sovetinə ali təhsilli kadrlar yerləşdirilərkən Qara Namaz və Göllü kəndlərini birləşdirən Qara Namaz kənd sovetinə sədr seçilmişdi. O bu vəzifədə uzun müddət ləyaqətlə çalışmışdır. Onun milli və siyasi iradəsi sayəsində həmin sovetliyə daxil olan kəndlərin içməli su məsələsi, kəndlərarası yolların təmiri, klub-kitabxana işinin qaydaya salınması, kəndlərdə kino qurğularının qoyulması, gənc azərbaycanlı ailələrinə yaşayış evlərinin tikilməsi üçün torpaq sahələrinin ayrılması və bir çox məsələlərin həll edilməsində böyük xidmətləri olmuşdur.

1970-ci illərdə Amasiya rayonunda mövcud olan problemlərdən biri kəndlərin rayon mərkəzi ilə gəliş-gedişini təmin etmək üçün nəqliyyat probleminin aradan qaldırılması idi. Bu problemin aradan qaldırılması hər zaman Baba müəllimi dərindən düşündürmüş, onun təşəbbüsü, səyi və bacarığı sayəsində Qara Namaz-Göllü-Sultanabad-Təpəköy-Amasiya nəqliyyat marşrutu açılmışdı. Həmin nəqliyyatdan Düzkənd, Çaybasar, Balıqlı kəndlərinin əhalisi də yararlanırdı.

Baba müəllimin milli ictimai zəminə söykənən fəaliyyəti haqqında çox danışmaq olar. Onun milli təəssübkeşliyi, ömrü boyu xalqına bağlılığı və xidməti barəsində olan bir sıra məqamlardan birini xüsusi qeyd etmək istərdim. Bir dəfə Amasiya rayonunun birinci katibi büro iclaslarının birində rayondakı tarixi abidələrin qorunması

haqqında söhbət açarkən, o vaxt Qara Namaz kənd sovetinin sədri işləyən Baba müəllim söz alıb danışmaq istədiyini bildirir. O, hər bir kəndin söykəndiyi dağda olan qalacalardan danışıb, əsl tarixi abidələrimizin elə qəbirstanlıqlar olduğunu büro üzvlərinin diqqətinə çatdırır. Kəndlərin qəbirstanlıqlarının əksəriyyətinin yol kənarında olduğunu və mal-qaranın onların içindən keçdiyini bildirərək, sovetliklərin büdcəsi hesabına qəbirstanlıqların ətrafına çəpər çəkilməsi təşəbbüsünü irəli sürür. Çox çəkmədən Baba müəllim bu təşəbbüsünü gerçəkləşdirərək Qara Namaz və Göllü kəndlərindəki qədim qəbirstanlıqlara paslanmayan metal torla çəpər çəkdirir. Onu da qeyd edək ki, Göllü qəbirstanlığında əski qarapapaq qəbirləri də vardır və Qaçaq Yusifin də qəbri həmin məzarlıqda yerləşirdi.

Uzun müddət direktoru olduğu Göllü kənd 8 illik məktəbin 10 illik tam orta məktəbə çevrilməsi də Baba müəllimin iradəsi və qətiyyəti sayəsində olmuşdur. Çünki şagirdlərin tam orta təhsil alması üçün qonşu kəndlərə gediş-gəlişi qış aylarında çox böyük çətinlik törədirdi. O sədri olduğu sədrliyin inzibati-ərazi vahidliyinə daxil olan kənd məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kitabxana fondlarının yeni kitablarla zənginləşdirilməsi və digər məsələlərin həll edilməsi hər zaman onun diqqət mərkəzində olmuşdur. Baba müəllim səmərəli pedaqoji-ictimai fəaliyyətinə görə "Əməkdə fərqlənməyə görə", "Əmək veteranı" adına, bir sıra fəxri fərman və mükafatlara layiq görülmüşdür.

Erməni şovinizmi əhatəsində Baba müəllimin bu fədakar, milli təəssübkeşlik fəaliyyəti heç də asan olmamışdır. Erməni şovinist dairələrinin təqib və təzyiqlərinə baxmayaraq, Baba müəllim azərbaycanlı kəndlərinin ictimai-mədəni, sosial həyatının yüksəldilməsi üçün var qüvvəsi ilə çalışmışdır.

Nəcib və xeyirxah əməlləri ilə böyük bir mahalın, elin, obanın yaddaşına, mənəvi və ictimai tarixinə daxil olmuş Baba müəllim bu gün də minnətdarlıqla yad edilən böyük ziyalılarımızdan və şəxsiyyətlərimizdəndir. Onun xeyirxah, nəcib əməllərini, işıqlı yolunu bu gün fəxr və qürur duyduğumuz övladları ləyaqətlə davam etdirirlər.

Hüseynqulu Rzayev

İrəvan Azərbaycan Pedaqoji Texnikumunun məzunlarından biri də Rzayev Hüseynqulu Əli oğludur**.** O, 1907-ci ildə fevral ayının 15-də Zəngibasar (Uluxanlı) rayonunda anadan olmuşdur. İlk təhsilini Uluxanlı məscidinin nəzdində fəaliyyət göstərən mollaxanada almışdır. Müəllimli Molla Ələsgərdən şəriət dərsi almış, ərəb və fars dillərinə yiyələnmişdir. Yüksək istedada malik olan Hüseynqulu Rzayev 1931-ci ildı İrəvan Azərbaycanlı Pedaqoji Texnikumuna daxil olmuş, 1934-cü ildə oranı uğurla başa vurduqdan sonra bir müd-

dət Uluxanlı məktəbində riyaziyyat fənnini tədris edir. O, 1939-cu ildə İrəvanda yeni açılmış İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutuna daxil olur. Burada İrəvanın tanınmış maarif xadimləri Bəhlul Yusifov, Müzəffər Nəsirli, Nəzər Paşayev, Mehdi Kazımov və başqalarından dərs almışdır. Hüseynqulu müəllim Qərbi Azərbaycanın Göyçə, Amasiya, Zəngibasar, Qəmərli və başqa bölgələrində dərs demiş, olduqca uğurlu pedaqoji fəaliyyət göstərmişdir. Onun pedaqoji ustalığı dərs dediyi şagirdlərə, insanlara olan isti münasibəti ona böyük nüfuz qazandırmışdır.

İkinci Dünya müharibəsi başlayanda Hüseynqulu müəllim də cəbhəyə yollanmışdır. Keçmiş SSRİ Daxili İşlər Nazirliyinin Dənizçi-sərhəd qoşunlarının tərkibində hərbi xidmətdə olmuşdur. 1943-cü ildə müharibədə ağır yaralanan Hüseynqulu müəllim hərbi xidmətə yararsız sayılaraq tərxis olunmuşdur. 1948-ci ildə Zəngibasar rayon sovetinin deputatı seçilmişdir. Müqəddəs müəllimlik sənətini özünün həyat qayəsi hesab edən Hüseynqulu müəllim Zəngibasar rayonunun Sərvanlar kənd orta məktəbində pedaqoji fəaliyyətini davam etdirir. Səmərəli pedaqoji fəaliyyətinə görə 1975-ci ildə SSRİ Ali Sovetinin fərmanı ilə "Əmək veteranı" medalı, 1979-cu ildə isə "Əməkdə fərqlənmə"yə görə medalı ilə təltif edilmişdir. Hüseynqulu müəllim Qərbi Azərbaycanda milli maarifçilik mühitinin inkişafına yorulmadan, var qüvvəsi, bilik və bacarığını sərf etmişdir. Hüseynqulu müəllim bölgədə öz xeyirxahlığı, əməksevərliyi, saflığı, səmimiyyəti və müdrikliyi ilə sayılıb-seçilən ziyalılardan idi. O, vətən

niskili, yurd həsrəti ilə 1992-ci ildə dünyasını dəyişmişdir.

Həsənova Səriyyə Mirzəxan qızı 1921-ci ildə Ermənistan SSRnin Qafan rayonun Yuxarı Gödəkli kəndində anadan olub. 7 illik məktəbinin I sinfinə qəbul olub. 1935-1936-cı dərs ilində həmin məktəbin VII sinfini bitirib.

1936-1937-ci dərs ilində İrəvan Pedaqoji Texnikumuna daxil olub, 1938/39-cu dərs ilində həmin məktəbi əla qiymətlə bitirib. 1939/1940-cı dərs ilindən 1947/48-ci dərs ilinə qədər Yuxarı Gödəkli 7 illik məktəbində müəllim və dərs hissə müdiri vəzifəsində çalışıb. 1947/1948-ci dərs ilindən Oxtar 8 illik məktəbində müəllim və dərs hissə müdiri vəzifəsində çalışıb. Sonra isə 1966-1967-ci dərs ilində həmin məktəbə direktor təyin olunub.

1949-cu ildə "Əməkdə fərqlənmə"yə görə, 1979-cu ildə isə "Əmək veteranı" medalına layiq görülmüşdür.

1951-ci ildə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakultəsini bitirmişdir. 1965-ci ildə Ermənistan SSR-nin "Əməkdar müəllim" adı almışdır.

Ceyran Zeynalova keçən əsrin 40-ci illərində Qərbi Azərbaycanın Ağbaba bölgəsində milli maarifimizin tərəqqisi yolunda xalqımızın qeyrətli, qabaqcıl ziyalıları ilə çiyin-çiyinə bir azərbaycanlı qadın ziyalısı da çalışırdı. Bu ziyalı qadın ömrünün 40 ildən artıq hissəsini azərbaycanlı balalarının təlim-tərbiyəsinə, onların gələcək inkişafına həsr edən Ceyran Zeynalovadır.

Ceyran Mamed qızı Zeynalova 1924-cü ildə fevral ayının 20-də qədim İrəvan şəhərində qulluqçu ailəsində

anadan olmuşdur. 1931-ci ildə M.F.Axundov adına orta məktəbin birinci sinfinə qədəm qoyan Ceyran Zeynalova, 1940-cı ildə təhsilini davam etdirmək üçün İrəvan azərbaycanlı pedaqoji texnikumuna daxil olur.

1942-ci ildə Böyük Vətən Müharibəsi illərində bölgələrdə azərbaycanlı müəllimlərinə böyük ehtiyac olduğundan pedaqoji texnikumun sonuncu kursunda təhsil alan qabaqcıl tələbələr vaxtından əvvəl bölgələrə müəllim kimi göndərilirdi. Ceyran xanım Zeynalova da 1942-ci ilin noyabr ayında Ağbaba mahalının Düzkənd kəndinə tam olmayan 7 illik orta məktəbinə riyaziyyat müəllimi təyin edilir. 1943-cü ilin avqust ayının ortalarına qədər burada çalışan Ceyran xanım 1943-cü ilin avqust ayından Göllü kənd ibtidai məktəbinə müdir təyin edilir. 15 avqust 1944-cü ildən Amasiya rayon mərkəzindəki orta məktəbdə riyaziyyat müəllimi vəzifəsində çalışmışdır.

Ceyran xanım müəllimlik sənətinə əsaslı yiyələnmək üçün 1944-cü ildə İrəvan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakultəsinə daxil olur. Amma ailənin ağır iqtisadi vəziyyəti onun təhsilini davam etdirməsinə imkan vermir. O, pedaqoji fəaliyyəti ilə yanaşı rayonun ictimai həyatında da fəal iştirak edirdi.

Ceyran xanım 1960-1965-ci illərdə Amasiya rayonun qadınlar şurasının sədri və bir neçə dəfə rayon sovetinin deputatı seçilmişdir.

1960-cı ildə IV müəllimlər qurultayının nümayəndəsi seçilmiş və həmin qurultayda "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1962-ci ildə "Ermənistan"da qabaqcıl

müəllimlərin respublika müşavirəsində nümayəndə kimi iştirak etmişdir.

1966-cı ildə müəllimlər günü münasibətilə fədakar əməyinə, pedaqoji fəaliyyətinə görə "Əməkdar müəllim" adına layiq görülmüş, 1979-cu ildə isə "Əmək veteranı" medalı ilə təltif edilmişdir.

Qurban Bayramov

Görkəmli ziyalılarımızdan olan Qurban Məmməd oğlu Bayramov 1934-cü ilin sentyabr ayında Qərbi Azərbaycanın Qarğabazar kəndində anadan olmuşdur.

17 sentyabr 1934-cü ildə anadan olmuşdur. 1948-ci ildə İrəvan Pedaqoji Texnikumuna daxil olmuşdur. 1952-ci ildə Xanlar rayonunda Pedaqoji texnikumu bitirmişdir. 1952-1958-ci illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır. 1959-1962-ci illərdə Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının aspirantı olmuşdur. 1962-1972-ci illərdə AMEA-nın Tarix İnstitutunda kiçik elmi işçi, baş elmi işçi vəzifələrində işləmişdir. 1975-1988-ci illərdə Bakı Dövlət Universitetinin Partiya Komitəsinin katibi seçilmişdir. 1991-ci ildən Azərbaycanın yeni və ən yeni tarixi kafedrasının müdiri vəzifəsində işləmişdir.

1965-ci ildə namizədlik, 1985-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. "Azərbaycan Demokratik Respublikası", "Tarixi həqiqətlər", "Azərbaycan parlamenti", "Azərbaycanın 1917-1920-ci illər tarixi və onun tədrisi: yeni təfəkkür tərzi və yeni baxış", "Azərbaycan Xalq Cümhuriyyəti", "Heydər Əliyev və Azərbaycan tarix elmi", "Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti haqqında" və s. əsərlərin müəllifidir.

"Qırmızı Əmək Bayrağı" ordeni, Azərbaycan SSR Ali Sovetinin və Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür.

İsgəndər Qurbanəli oğlu Hacıyev 29 fevral 1905-ci ildə anadan olmuşdur. O, Kəsəmən kənd məktəbini bitirdikdən sonra 1930-32-ci illərədə bu məktəbdə direktor işləmişdir. İsgəndər Hacıyev 1932-37-ci illərdə Satanaxaç kəndində ibtidai məktəbin direktoru vəzifəsində çalışmışdır.

1939-cu ildə İrəvan Pedaqoji Texnikumunu qiyabi bitirən İ.Hacıyev 1937-1940-ci illərdə Canəhməd kəndində, 1940-ci ildən İkinci Dünya müharibəsinə gedənə qədər İnəkdağı kəndində məktəb direktoru işləmişdir.

İsgəndər Hacıyev 1944-cü ildə müharibədən II dərəcəli əlil kimi qayıtmış və 1971-ci ilə kimi Kəsəmən kəndindəki orta məktəbdə direktor işləmişdir. Sonralar isə 1987-ci ilə qədər müəllimlik etmişdir.

İsgəndər Hacıyev 1956-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitir-

mişdir. 1950-ci ildə "Əməkdar müəllim" adına layiq görülmüşdür. Müharibədə və arxa cəbhədə fəal iştirakına görə 18 dəfə müxtəlif orden və medallarla təltif olunmuşdur. İsgəndər Hacıyev 28 sentyabr 1992-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Cumayıl Alı oğlu Mərdanov 1918-ci il sentyabrın 16-da Göyərçin kəndində anadan olub. O, ibtidai məktəbi Göyərçin kəndində, 7 illik məktəbi isə Çaykənddə bitiribdir. Sonra İrəvan şəhərindəki Azərbaycan Pedaqoji məktəbinə daxil olmuş və 1938-ci ildə 20 yaşında həmin məktəbi bitirmişdir. Texnikumu bitirdikdən sonra 20.08.1938-ci il tarixdən 21.06.1941-ci il tarixə qədər Göyərçin kənd ibtidai məktəbində əvvəl müəllim, sonra məktəb direktoru vəzifəsində çalışır. 1941-ci ildə İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar hərbi xidmətə çağrılır. İlk hərbi hazırlığı Türkiyə ilə sərhəddə yerləşən keçmiş Qarakilsə (sonrakı Leninakan) şəhərində keçir.

Hərbi xidmətdən qayıdandan sonra Cumayıl Mərdanov 20.08.1942-ci il tarixdən 01.09.1945- ci il tarixədək Göyərçin kəndində müəllim işləyir, daha sonra 01.02.1945-ci il tarixdən 20.02.1948-ci ilə qədər Göyərçin Kənd Sovetinin sədri vəzifəsində çalışmışdır. 1948-1950-ci illərədə o Göyərçin kənd kolxozunun sədri vəzifəsində çalışır.

1950-ci ildə Salah və Göyərçin kəndlərini birləşdirib, adını Salah kolxozu qoyurlar. Cumayıl məllim 1950-ci ildən 1958-ci ilə qədər fasiləsiz olaraq həmin kolxozun sədri vəzifəsində işləyir. 1957-ci ildə o zamankı Kirova-

bad (Gəncə) Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakultəsinə daxil olur və 1963-cü ildə oranı qiyabi yolla bitirir.

Cumayıl müəllim 1958-ci ilin fevralından 1959-cu ilə qədər Salah kənd 7 illik məktəbinin dərs hissə müdiri, 1959-cu ildən 1960-cı ilə qədər Polad kəndində kolxoz sədri vəzifəsində çalışmışdır. 1960-1973-cü illərədə Salah kənd kolxoz sədri vəzifəsində fəaliyyət göstərir və 1973-cü ildən 1981-ci ilə qədər Salah kənd sovetinin sədri vəzifəsində çalışır.

1950-ci illərdə Cumayıl müəllim Ermənistanın qabaqcıl işçiləri sırasında Moskvaya Xalq Təsərrüfatının nailiyyətləri sərgisində nümayəndə qismində iştirak etmişdir.

Bu, o dövr üçün çox böyük hadisə idi. Dəfələrlə Ermənistan Kommunist Partiyasının qurultaylarının nümayəndəsi olmuşdur. 1971-ci ildə o dövrün ən nüfuzlu ordenlərindən biri olan "Şərəf nişanı" ordeni və bir neçə medalla təltif edilmişdir. 1982-ci ilin fevralın 26-dan 1989-cu ilin martın 6-na qədər yuxarıda adını qeyd etdiyimiz nazirlikdə İnzibati-təsərrüfat şöbəsinin rəisi vəzifəsində işləmişdir.

Həsənov Müseyib

İrəvan Türk Pedaqoji Texnikumunun məzunlarından biri də Həsənov Müseyib Allahverdi oğludur. O 1920-ci ildə Ağbabanın Quzu kəndində anadan olub. Müseyib Həsənov ibtidai təhsilini doğma Quzukənd kəndində, 7 illik məktəbi isə Güllücə kəndində bitirmişdir.

Müseyib müəlllm 1936-cı ilda İrəvan Pedaqoji texnikumuna daxil olmuşdur. Müseyib Həsənov 1939-cu ildə texnikumu bitirdikdən sonra təyinatla Qarabağlar rayonunun Hortul kənd məktəbinə müəllim göndərilmişdir. Bir il burada müəllim işlədikdən sonra doğma rayonuna qayıtmış, Çivilli kənd 7 illik məktəbində müəllim işləmişdir. 1941-ci il müharibənin başlanması ilə əlaqədar Müseyib Həsənov da ordu sıralarına çağırılmış, 1944-cü ilədək müharibədə zabit kimi iştirak etmişdir. O, müharibədən qayıdandan sonra Amasiya rayonunun Maarif Şöbəsinin inspektoru vəzifəsində işləmişdir. Müseyib müəllim inspektor işləsə də, ali təhsil almaq arzusunu həyata keçirmək üçün 1944-cü ildə sənədlərini İrəvan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə verib, həmin ali məktəbə daxil olsa da, 1951-ci ildə Moskva şəhərinə gedib Moskva Ümumittifaq Həmkarlar Mərkəzi Şurasının Ali Məktəbinin hüquq fakültəsinə qəbul olmuş,

bu ali məktəbi 1955-ci ildə yüksək qiymətlərlə başa vurmuşdur.

Müseyib Həsənov 1944-cü il Amasiya rayon Xalq Maarif şöbəsinin inspektoru, 1956-67-ci illərdə Amasiya Rayon Xalq Maarif şöbəsinin müdiri, həmçinin Amasiya rayon Soveti İcraiyyə Komitəsinin sədrinin müavini vəzifəsində çalışmışdır.

Sonralar Müseyib müəllim Rayon Mülki-Müdafiə Qərargahının sədri, yük- sərnişin avtomobil idarəsinin direktoru, Oksuz və Daşkörlü kənd məktəblərinin direktoru vəzifəsində işləmişdir.

Müseyib Həsənov 23 iyul 1988-ci ildə Amasiya rayonunda vəfat etmişdir.

Süleyman Məmmədov

İrəvan Azərbaycanlı Pedaqoji məktəbinin məzunlarından biri də Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, professor Süleyman Abbas oğlu Məmmədovdur. Süleyman müəllim 1932-ci ildə Vedibasar mahalının Xalisa (Xalsa) kəndində anadan olmuşdur. Atası Abbas kişi 1930-cu illərdən başlanan amansız repressiyaya məruz qaldığından, Süleyman müəllimin uşaqlıq illəri həyatın çətin sınaqları ilə üzləşməli olmuşdur. O, İrəvanda Azərbaycanlı Pedaqoji məktəbində oxuduğu illərdə öz biliyi, fikir və mülahizələri və s. keyfiyyətləri ilə özünü göstərir,

müəllim və tələbə kollektivinin dərin hörmətini qazanır. 1951-ci ildə pedaqoji məktəbi fərqlənmə diplomu ilə bitirən, onun həyat salnaməsində ən başlıca yer tutan, hələ uşaq yaşlarında ona təsir edən, tarix elminə ciddi marağı olan Süleyman müəllimi tale Bakı Dövlət Universitetinin tarix fakultəsinə gətirib çıxarır. Maddi imkansızlıqdan təhsilini davam etdirə bilməyən Süleyman müəllim doğma kəndinə qayıdaraq Xalisa kənd yeddillik məktəbində müəllim işləmişdir. 1954-cü ildə Süleyman müəllim yenidən BDU-nin tarix fakultəsinə daxil olur. Universiteti bitirdikdən sonra AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda laborant, 1971-ci ildən ADPU-də müəllim, dosent, professor vəzifələrində çalışmışdır. S.Məmmədov hal-hazırda ADPU-də "Azərbaycan tarixi" kafedrasının müdiri vəzifəsində çalışır. Tarix elmləri doktoru, professor S.Məmmədov 400-dən artıq elmi-publisistik məqalənin, 5 monoqrafiyanın, 15 dərs vəsaitinin müəllifidir.

Daim İrəvan Pedaqoji Məktəbinin məzunu adını şərəflə qoruyan, dövlət mükafatı laureatı, tarix elmləri doktoru, professor Süleyman Məmmədovun vaxtilə təhsil aldığı İrəvan Pedaqoji Məktəbi haqqında düşüncələri, xatirələri də olduqca maraqlıdır. Həmişə deyərdi: "İrəvan Pedaqoji məktəbi haqqında düşünəndə gəncliyimin ən qaynar vaxtları yadıma düşür, 1948-ci il iyulun sonları idi. Pedaqoji məktəbə qəbul olmaq üçün bir neçə nəfər həmkəndlilərimlə İrəvana gəlmişdik. İrəvan mühiti, abhavası, adamların davranışı kənd uşağına bir təhər gəlirdi. Sənədlərimizi qəbul komissiyasına verdikdən sonra

bizi əvvəlcə aşağı mərtəbədə – zalda yerləşdirdilər, axşam çağı III mərtəbədə yataqxanada yer verdilər. Ertəsi gün qəbula gələn abituriyentlərlə tanışlıq üçün bizi akt zalına topladılar. Zalda xeyli adam vardı. Abituriyentlər 2 nəfər qarşısında çıxış elədi. Onlar ədəb və qəbul qaydaları, yataqxana, yeməkxana barədə danışdılar. Sonralar öyrəndim ki, onlar Texnikumun direktoru Həbib Məhəmmədzadə və tələbə sovetinin sədri, sonradan məşhur alim kimi tanıdığımız akad. Budaq Budaqov imiş. Zalda keçirilən yığıncaq da Budaq müəllimin nitqinə çox məmnuniyyətlə qulaq asdım. Sonralar bizim ünsiyyətimiz yarandı.

Yeri gəlmişkən deyim ki, biz texnikuma işlərimizi verəndə Budaq müəllimgil son kursda idilər. Yaxşı yadımdadır, sentyabrın əvvələrində Budaq müəllim birinci kurslarla görüş üçün elanı mənə yazdırdı. Xəttim onun xəttinə oxşadığı üçün çox xoşuna gəldi və bundan sonra bəzi yazılarının üzünü köçürməyi mənə etibar edirdi. Ötən illərdə, hər dəfə Budaq müəllimlə görüşəndə yadıma 1948-ci ildə İrəvan Pedaqoji məktəbində təhsil aldığım illər düşürdü. Birinci mərtəbədən aşağıda yeməkxana, I-II mətəbədə dərs keçir, III mərtəbədə yaşayırdıq. Sonralar Budaq müəllim Ərəboğlu ilə birlikdə otaqları gəzəndə bildim ki, o, tələbə sovetinin sədridir. Uca, şümşad qamətli, qapqara şəvə saçları, aram-aram danışığı diqqətimi çəkirdi. Ərəboğlu Rəşid Hətəmov, Heydər Salahov və digər tələbə yoldaşları ilə Şircanyan küçəsində gəzdikləri anları, axşam qapıçı Hüseyn kişinin onları sor-

ğu-suala tutmasını da yaxşı xatırlayıram. O vaxtlar özümüzü bizə dərs deyən gözəl, təmkinli, savadlı bəlkə də indiki bəzi Ali məktəblərimiz səviyyəsinə bərabər dərs deyən müəllimlərimizə - Məmməd Həsənov, Təvəkkül Kərimov (dərs hissə müdiri və riyaziyyat müəllimi), Raziyə İsmayılova (tarix), Surə Babayevaya (coğrafiya) oxşatmağa çalışırdıq. Çox təəssüf ki, bədxahlar bu xoş günlərimizi bizə çox gördülər. Pedaqoji məktəbin I kursunu İrəvanda bitirdikdən sonra bizi Xanlara indiki (Göygöl) rayonuna köçürdülər - deportasiya etdilər. Burada üç illik məktəb illərimiz yaxşı keçdi. Lakin İrəvandakı xatirələrim unudulmazdır. Xanlarda İrəvan pedaqoji məktəbinin əsasını qoyan gözəl psixoloq, pedaqoq Mehdi Kazımovun xatirəsi həmişəlik qəlbimdədir. Mehdi müəllim rübün sonunda «üç» verəcəyi tələbəni psixoloji cəhətcə elə hazırlayırdı ki, «beş» verdiyi tələbə barədə dinə bilmirdi.

Xanlar Pedaqoji məktəbində aldığımız bilik İrəvanda aldığımız biliyin bünövrəsi üzərində quruldu. Azərbaycan tarixindən biliyimin əsasını ağdaşlı müəllimim Vəli Məhərrəmov qoydu. İndi də əziz müəllimlərim Sadiq Heydərzadə (biologiya), Tarix Şirinovu (ədəbiyyat), Qaytaran Məmmədovu (tarix), Mənzərə Namazəliyevanın (coğrafiya) dərsə daxil olub, mövzunu başlamalarını, əsl pedaqoq kimi dərsi yekunlaşdırmalarını yaxşı xatırlayıram. Təhsil illərində Xanlarda məktəbin direktoru İsa Cəfərovu, hərbi hazırlıq və idman, musiqi dərslərini aparan Cəfər, Bəşir, Təvəkkül və Mamo müəllimləri o illər-

dən xatirəmdə qalan, sonra Naxçıvan Dövlət Univerditetinin prorektoru işləmiş, riyaziyyatçı Qasım Mustafayevi, pedaqoji məktəbi fərqlənmə diplomu ilə bitirənlərdən: BDU Partiya komitəsinin katibi işləmiş, tarix elmləri doktoru, professor, kafedra müdiri, Qurban Bayramovu, Əmrahı, İmamverdi Hacıyevi həmişə yada salıram. Sonralar Təhsil Nazirliyində kadrlar, Nəşriyyat və Poliqrafiya şöbələrinin müdiri işləmiş, hazırda "Məktəb" jurnalının baş redaktoru Nəcəf Nəcəfov, Xanlarda (Göygöl) yaşayan Abdulla Qasımov, ADPU-nun Pedaqogika kafedrasının dosenti Abbas İsmayılov, Yazgül, Billurə, Giləxanım, Yaqut adlı qız, əmim oğlu Qasım Məmmədov, Hüseyn Hüseynov, əziz dostum Yunis Abbasov fəal tələbələr sırasında idilər, onlar xatirimdə və düşüncələrimdə yaşayırlar".

Abbas Kərbəlayı Məhəmməd oğlu İsmayılov 1927-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Ardanış kəndində varlı ailədə anadan olmuşdur.

1935-ci ildə Ardanış kənd yeddiillik məktəbinin birinci sinfinə daxil olub və həmin məktəbi 1941-1942-ci dərs ilində bitirmiş, 1945-ci ilin may ayına kimi kolxozda çalışmışdır. 1945-ci ilin may ayında Basarkeçər RHK-nın göndərişi ilə Kirovakan Kimya zavodunda işləmişdir.

1946-cı ilin avqust ayında İrəvan Pedaqoji məktəbinə daxil olduğu üçün işdən ayrılmışdır. Amma bəzi səbəblərə görə həmin il Pedaqoji məktəbdə oxuya bilməmişdir. Buna baxmayaraq 1947-ci ildə yenidən Pedaqoji məktəbə imtahan verərək qəbul olmuşdur. Pedaqoji mək-

təbin Azərbaycanın Xanlar şəhərinə köçürülməsi ilə əlaqədar təhsilini dərs ilində Xanlar rayonunda bitirən Abbas müəllimin müəllimlərin təkidi ilə keçmiş V.İ.Lenin adına APİ-yə oxumağa göndərilmişdir. Elə həmin il İnstitutun tarix fakültəsinin birinci kursuna daxil olub, 1955-ci ildə oranı bitirib, təyinat ilə Salyan rayonunun Parça-Xalac kənd yeddiillik məktəbinə direktor təyin edilmişdir. 1956-59-cu dərs ilində Bakı şəhər Novxanı kənd yeddiillik məktəbində, 1959-60-cı tədris ilində Bakı şəhər 30 №-li beynəlmiləl orta məktəbində tədris hissə müdiri vəzifəsində işləmişdir. 1965-ci ildə uğurla müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi adını almışdır. 1968-ci ildən dosent, 1990-cı ildən isə professor elmi adını almışdır.

1967-69-cu illərdə İnstitut yerli komitəsinin üzvü, 1966-69-cu illərdə ictimai peşələr fakültəsində 2 il dekan müavini, sonra isə ictimai peşələr fakültəsinin dekanı vəzifəsində, 1978-82-ci illərdə tarix fakültəsi həmkarlar təşkilatının sədri vəzifəsində işləmişdir.

Səmərəli fəaliyyətinə görə SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyinin və SSRİ Maarif Nazirliyinin əlaçı döş nişanlarına layiq görülmüşdür. Onun 70-dən çox elmi məqaləsi, 80-dən çox ictimai-siyasi, publisistik məqalələri, 16-ya qədər monoqrafiya, dərs vəsaiti, metodik vəsaiti çapdan çıxmışdır:

Qəşəm Novruz oğlu Aslanov 1935-ci ildə Ulu Göyçənin Kəsəmən kəndində anadan olub. 1947-ci ildə İrəvan Türk Pedaqoji Texnikumuna daxil olan Qəşəm müəl-

lim 1948-ci il deportasiyası ilə əlaqədar olaraq Xanlarda Pedaqoji məktəbi, 1954-cü ildə Bakıda Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini, 1966-1968-ci illərdə Moskvada Ali Partiya məktəbini bitirib. 1962-ci ildə "Sevan" qəzetinin redaktoru vəzifəsində çalışıb. Qəşəm müəllimin həyatı, fəaliyyəti, keçdiyi yol çoxlarına bir örnəkdir.

Basarkeçər rayon komsomol komitəsinin birinci katibi (1959), Basarkeçər rayon partiya komitəsi katibinin idealoji iş üzrə müavini (1962), Azərbaycan KP MK-nın məsul təşkilatçısı (1968), "Azərbaycan gəncləri" qəzetinin redaktoru (1970), Şuşa rayon partiya komitəsinin birinci katibi (1972), 1975-1984-cü illərdə İsmayıllı və Abşeron rayon partiya komitələrinin birinci katibi vəzifələrində işləmişdir. 1966-cı ildə SSRİ Jurnalistlər İttifaqının üzvü seçilmişdir.

Böyük ziyalı, ictimai xadim Qəşəm müəllimin yazıçı-publisist kimi ədəbi fəaliyyəti də təqdirəlayiqdir. Qəşəm müəllim həm də xeyli sayda bədii, publisistik əsərlərin müəllifidir. Onun "Saymazovun salamı", "Qeyrətin nağılları" adlı şeirlər kitabları çap olunub.

1984-cü ildə avtomobil qəzası nəticəsində həlak olmuşdur. Məzarı Bakı şəhərindəki ikinci fəxri xiyabandadır. Qəşəm müəllimin xidmətləri bu gün də dərin minnətdarlıq hissi ilə yad edilir.

İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun Xanlar Pedaqoji Məktəbinə köçürülən tələbələrin siyahısı (Siyahı tam deyil)

1. Hümbətov Səməd Əhməd oğlu
2. Cəfərov Yolçu Yusif oğlu
3. Abdıyev Vəli Ələs oğlu
4. Cəfərov Tahar Əsəd oğlu
5. Qafarov Paşa Rəcəb oğlu
6. Şamilov Sirac Mustafa oğlu
7. Şamilov Cahangir Yusif oğlu
8. Əliyev Allahverdi Qafar oğlu
9. Şabanov Nuru Mirzə oğlu
10. Yusifov İsaxan Veyis oğlu
11. Kazımov Kazım Qənbər oğlu
12. Beydullayev Əvəz Bayram oğlu
13. Abbasov Alaş Cəmil oğlu
14. Mamedov Ələsgər Ələkbər oğlu
15. İbrahimov Əhməd Bayram oğlu
16. Səfərov Mürsəl Teymur oğlu
17. Əliyev Adil Abbas oğlu
18. Abbasov Cavanşir İsa oğlu
19. Abdullayev Məmmədəli Əliisgəndər oğlu
20. Məhərrəmov Cabbar Ələsgər oğlu
21. Bərxudarov Əsəd Kələş oğlu
22. Həsənov Cəmil İsgəndər oğlu
23. Vəliyev İsa Ömər oğlu
24. Rzayev Rza Ələsgər oğlu
25. Quliyev Teymur Qənbər oğlu

26. Əliyev Nəriman Əyyub oğlu
27. Bağırov Firudin Nəsib oğlu -Vedi rayonu, Kolanlı kəndi
28. Əliyev Allahverdi Qafar oğlu- Əştərək rayonu, Sərimsəvəng kəndi
29. İsmayılov Sudeyif Qurbanəli oğlu
30. Qurbanov Hüseyn Mahmud oğlu
31. Xıdırov Mahmud Həsən oğlu
32. Alışov Kamran Bəhlul oğlu
33. Hacıyev İbad Mamed oğlu
34. Nağıyev Nağı Hüseyn oğlu
35. Qasımov Abbas Əbülfət oğlu
36. Hümbətov Zülfüqar Abbasəli oğlu
37. İsmayılov Heydar Hüsən oğlu
38. Həmzəyev Cəbrayıl Cəmil oğlu
39. Seyidova Rima Mamed qızı
40. İsmayılov Habil Hüseyn oğlu
41. Məmmədov Fəxrəddin Qara oğlu
42. Qocayev Fərhad Həmid oğlu
43. Abbasov Rəcəb Hüseyn oğlu
44. Yusifov Məmməd Əli oğlu
45. Mamedov İsmayıl Əkbər oğlu
46. Abbasov Əli Oruc oğlu
47. Abbasov Nəriman Munti oğlu
48. Abbasov Səmiyam Qafar oğlu
49. Rəhimov İsa Səyyad oğlu
50. Mamedov Azad Bayram oğlu
51. Əliyev Məmməd Səməd oğlu

52. Tarverdiyev Murtuz Riza oğlu
53. Qarayev Hidayət Hüseyn oğlu
54. Abdullayev Həbib Əli oğlu
55. Zeynalov Əhməd Həşim oğlu
56. Əliyev Mədjuc Abbas oğlu
57. Musayev Əzəsa Şaxlı oğlu
58. Rzayeva Almaz İbad qızı
59. Rzayev Abbasəli Məmmədbağır oğlu
60. Mehdiyev İbrahim Həsən oğlu
61. Vəliyev İsaq Məmmədalı oğlu
62. Məsimova Xanımzər Abdulla qızı
63. Mamedov Mahmud Musa oğlu
64. Mamedov Nurəli Müzəffər oğlu
65. Əliyev Şükür Həşim oğlu
66. Əhmədov Əli Hacı oğlu
67. Əhmədov Əhməd İsmayıl oğlu
68. Rəhimov Yunis Abbasəli oğlu
69. Mamedov Yunis Mamed oğlu
70. Haqverdiyev Həsən Abdulla oğlu
71. Hüseynov Hüseyn Bəhlul oğlu
72. Mamedov Mamed Nəzərəli oğlu
73. Rzayev Rəşid Almurad oğlu
74. Ələkbərova Lətifə Ələkbər qızı
75. Mustafayev Adil Cəfər oğlu
76. Hacıyev Valeh Tutulu oğlu
77. Fətəliyev Səməndər Həsən oğlu
78. Qurbanov Qəhrəman Haqverdi oğlu
79. Verdiyev İmamverdi Hilal oğlu

80. Əsədov Telman Mamed oğlu
81. Mamedov Mamed Nəsir oğlu
82. Mamedov Bəhlul İbrahim oğlu
83. Həsənov Əsəd Həsən oğlu
84. İbrahimov Abbas Səyyad oğlu
85. Mehdiyev Ənvər Qoca oğlu
86. Mustafayeva Səyyarə Əli qızı
87. İmanov Kamandar Sərdar oğlu
88. Haqverdiyev Yədulla Qoşqar oğlu
89. İsayev Tofiq Abuzər oğlu
90. Bayramov Nuru Əziz oğlu
91. Kərimov Hüseyn Paşa oğlu
92. Heydərov Heydər Nəcəf oğlu
93. Mamedov Qasım Həsən oğlu
94. Heydərov Karlen Əli oğlu
95. Qələndərov Mamed Şəfi oğlu
96. Həsənov Vəli Əli oğlu
97. Əliyev Müslüm Allahverdi oğlu
98. Məhərrəmov Ənvər Mamed oğlu
99. Əliyev Əli Ənnas oğlu
100. İsmayılov İsmayıl Əhməd oğlu
101. Mehdiyev Musa Fətəli oğlu
102. İsmayılov Abbas Məhəmməd oğlu
103. Hacıyev İmamverdi Abbasəli oğlu
104. Qurbanov Kazım Qulam oğlu
105. İlyasov Musa Məhərrəm oğlu
106. Xəlilov Xanlar Yunis oğlu
107. Aşurov Xıdır Əli oğlu

108. Hüseynov Toap Ramazan oğluğ
109. Verdiyev Əjdər Saleh oğlu
110. Rzayev Nuru Əşrəf oğlu
111. Mirzəyev İsa Zeynabdin oğlu
112. Hacıyev Zülfüqar Xanlar oğlu
113. Bayramov Qurban Mamed oğlu
114. Qafarov Əmrah Mahmud oğlu
115. Hüseynova Roza Müslüm qızı
116. Hacıyeva Şəfiqə Əsədulla qızı
117. Elyasov Cəlal Dursun oğlu
118. Əliyev Nəcəf Əhməd oğlu
119. Mamedov İlyas Hüseyn oğlu
120. Bəşirov Firudin Nəsib oğlu
121. Şabanov Miri Namaz oğlu
122. Osmanov Camal Hümbət oğlu
123. Hüseynov Həşim Abdulla oğlu
124. Əliyev Əziz Abbas oğlu
125. Süleymanov Əyyub Yaqub oğlu
126. Əliyev Əziz Məmmədəli oğlu
127. Əliyev Əhəd Oruc oğlu
128. Nəsibov Nəsib İsmayıl oğlu
129. Aşurov Füzuli Fazil oğlu
130. Həsənov Məmməd Cəfər oğlu
131. Şərifov Pris Hüseyn oğlu
132. İsmayılov Kamran Cəmil oğlu
133. Əzizov Fərman Qəhrəman oğlu
134. Camalov Əli Abbas oğlu
135. Ələkbərov Musa Şükür oğlu

136. Həsənov Abdulla Paşak oğlu
137. Abbasəliyev Yunis Mustafa oğlu
138. Həsənov Məmməd Zülfüqar oğlu
139. Novruzov İsmayıl Həmid oğlu
140. Eyvazov Vəli Adil oğlu
141. Tağıyev Əli Nağı oğlu
142. Mamedov Lətif Mazan oğlu
143. Mamedov Mamed Əhməd oğlu
144. Əhmədov İbrahim Rəsul oğlu
145. Hacıyev Qurban İsgəndər oğlu
146. Əliyeva Balaxanım Rzaqulu qızı
147. Qasımov Cəmşid Allahverdi oğlu
148. Haqverdiyev Yədulla Dağlar oğlu
149. İsayev Tofiq Abuzər oğlu
150. Bayramov Nuru Əziz oğlu
151. Kərimov Hüseyn Paşa oğlu
152. Mamedov Süleyman Abbas oğlu
153. Heydərov Heydər Nəcəf oğlu
154. Məmmədov Qasım Həsən oğlu
155. Heydərov Karlan Əli oğlu
156. Qələndərov Məmməd Şəfi oğlu
157. Həsənov Vəli Əli oğlu
158. Əliyev Müslüm Allahverdi oğlu
159. Məhərəmov Ənvər Məmməd oğlu
160. Əliyev Əli Ənnas oğlu
161. İsmayılov İsmayıl Əhməd oğlu
162. Mehdiyev Musa Ortalı oğlu
163. İsmayılov Abbas Məhəmməd oğlu

164. Hacıyev İmamverdi Abbasəli oğlu
165. Pibarov Kazım Gülalı oğlu
166. Elyasov Musa Məhərrəm oğlu
167. Xəlilov Xanlar Yunis oğlu
168. Aşurov Xıdır Əli oğlu
169. Hüseynov Tibar Ramazan oğlu
170. Verdiyev Əjdər Salah oğlu
171. Rzayev Nuru Əşrəf oğlu
172. Mirzəyev İsa Zeynaldin oğlu
173. Hacıyev Zülfüqar Xanlar oğlu
174. Əhmədov Ziyəddin- Amasiya, Düzkənd kəndi
175. Ələsgərov Abuzər Salman-Amasiya, Düzkənd kəndi
176. Əliyev Allahverdi Niftalı -Amasiya, Düzkənd kəndi
177. Şabanov Miri Namaz- Amasiya, Düzkənd kəndi
178. İsmayılov İsgəndər Abbas- Amasiya , Təpəköy kəndi
179. Aslanov Yolçu Bəşir - Amasiya, Təpəköy kəndi
180. İbrahimov Mustafa Əzim - Amasiya, Təpəköy kəndi

Ədəbiyyat

Azərbaycan dilində

1. Abdullayev Ə. Qiyabi təhsilin yüksək keyfiyyəti uğrunda. "Qızıl şəfəq" qəzeti, 1936, №74.
2. Ağayev Ə., Rzayev V. Güney Qafqaz xalqlarının pedaqoji əlaqələri tarixindən. Bakı: "Təhsil", 2004, 136 s.
3. Allahverdiyev C. İrəvan ədəbi mühiti. Bakı: "Elm", 2010, 250 s.
4. Allahverdiyev C. İrəvan pedaqoyi məktəbi. "Vedibasar" qəzeti, 2014, 16-31 yanvar
5. Allahverdiyev C. Ömrün illəri. Bakı, Orxan NPM, 2021. 270 s.
6. Adıgözəlov Ə. Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı: : "Təhsil", 2003, 92 s.
7. ARBDA, Fond №131, siyahı 1, vərəq 41
8. ARBDA, Fond №131, siyahı 1, vərəq 42.
9. ARBDA, Fond № 131, siyahı 1, vərəq 69.
10. ARBDA, Fond № 131, siyahı 1, vərəq 9.
11. Axundov A. Yoldaş Mayor. «Sovet Ermənistanı» qəzeti, 26 aprel 1946, № 52.
12. Ağbabalı A. Oğuz yurdu Güllübulaq. "Adiloğlu" nəşriyyatı. 2002, 310 s.
13. Bayramov A. ""Kitabi-Dədə Qorqud" və Qafqaz. Bakı, 2001.

14. Bayramov Ə., Sərdarov C. Pedaqoji məktəbdə. "Sovet Ermənistan" qəzeti, 1946, №70.
15. Budaqov B. Çobankərə eli. Bakı: Elm, 2007, 374 s.
16. Cəfərov C., Allahverdiyev C. İrəvanda milli maarifçilik mühiti. "Şərq-qərb", 2017, 440 s.
17. Cəfərzadə Ə. Güllübəyim məktəbi. "Azərbaycan qadını" jurnalı, №12, 1969.
18. Ermənistanda Sovet hakimiyyəti qurulmasının və Ermənistan Kommunist Partiyası yaradılmasının 40 illiyi (1920-1960- cı illər). Marksizm-Leninizm İnstitutunun Ermənistan filialının tezisləri. Yerevan, Ermənistan Dövlət Nəşriyyatı, 1960, 41 səh.
19. Ələkbərli Ə. Qərbi Azərbaycan. I cild, Vedibasar mahalı, Bakı: "Ağrıdağ", 2000, 736 s.
20. Əliyev H. Vətənimizin, xalqımızın müstəqil dövlətimizin mənafelərini daim sədaqətlə və sayıqlıqla qorumalı. «Sərhəd» qəzeti, 17 aprel 1999, № 7
21. Əhmədli N. İrəvan əyalətinin kameral təsviri. I cild. Bakı: "Turxan" NPB, 2018, 328 s.
22. Əhmədli N. İrəvan əyalətinin kameral təsviri. II cild. Bakı: "Sky E", 2018, 392 s.
23. Əhmədov H. Şərəfli yol. Xəbərlər (pedaqoji və psixoloji elmlər deriyası), 2009, №2
24. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: 2006, 580 s.

25. Fərhadov Q. Aramsız gözətləyirlər. «Zəngi» qəzeti, 16 aprel 1926, № 17.
26. Hacıyev A. Fəhləlikdən alimliyə gedən yol. "Azərbaycan" müəllimi" qəzeti, 25 mart, 1997.
27. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı. Azərnəşr, 1897, 682 s.
28. Heydərov Ə. Bizim məktəbimiz. "Sovet Ermənistan" qəzeti, 1941, №273.
29. Hidayət. Burdan min atlı keçdi. Bakı. "Apostroff" MMC. 2016. 744 s.
30. Hidayət. Sözün vaxtı. Bakı. "Şərq-Qərb". 1999, 676 s.
31. Xəlilov T.Naxçıvanda maarifçilik ideyalarının təşəkkülü və inkişafı (XIX əsrin sonu və XX əsrin əvvəllərı). Naxçıvan-2020, 205 s.
32. İbrahimov N. İrəvan müəllimlər seminariyası. "Azərbaycan məktəbi" jurnalı, 1982, №7
33. İbrahim və Lentroş. İkinci buraxılış münasibəti ilə. "Qızıl şəfəq" qəzeti, 1930, №58
34. İrəvan Türk Pedaqoji texnikumuna qəbul şərtləri. "Zəngi" qəzeti, 1926, 14 sentyabr
35. İrəvan Türk Pedaqoji Texnikumunun gedişatı. "Zəngi" qəzeti, 1926, 12 fevral
36. Kərimov S. XIX əsrin əvvəllərində İrəvan şəhərinin urbanologiyası. "Elm və həyat" jurnalı. Mart 1991, №3.

37. Kərimov B. XX əsrin əvvəllərində İrəvan şəhərində maarif sisteminin vəziyyəti. "Yeni dövr" Tarix və onun problemləri, 2014, №2
38. Qızdırmalı. Təəssüf. "Molla Nəsrəddin" 1906, № 8
39. Maarif sahəsində. "Zəngi" qəzeti, 31 mart 1928.
40. Məhərrəmov Z. Xatirələrdə yaşayan Əli müəllim 80. "Günəş", Bakı: 2006.
41. Məmmədov E. İrəvandan başlanan yol. Bakı, 2018, 136 s.
42. Məmmədov İ. Tariximiz, torpağımız, taleyimiz. Bakı: 2002, 639 s.
43. Məmmədova S., Musayeva S. Mirzə Məmmədvəli Qəmərlinski kimdir? "Palitra" qəzeti, 10 iyun 2015.
44. Məmmədquluzadə C. Seçilmiş əsərləri. III cild, Bakı:Azərnəşr, 1984, 291 s.
45. Mərdanov M. Azərbaycan təhsil tarixi. II cild (1920-1991-ci illər), Bakı: Təhsil, 2011, 704 s.
46. Miralayev T., Əfəndiyev B. Yerevan, Ayastan nəşriyyatı, 1972, 152 səh.
47. Müəllim və məktəb işlərimiz. "Zəngi" qəzeti, 1928, 7 oktyabr
48. Müəllimliyin Əşrəf Bayramov ucalığı. Tərtib edən Ə.Bayramov. Bakı, 2002. 256 s.
49. Mustafa N. İrəvan şəhəri. Baki: "Red N line", 2020, 292 s.

50. Mustafa N. Ermənistanda azərbaycanlıların repressiyası (1920-1930-cu illər) «Xalq qəzeti», 22 aprel 2001, № 90
51. Nağıyev Ə. İrəvan Türk Pedaqoji Texnikumunda. "Qızıl şəfəq" qəzeti, 1935, №89
52. On illik yubiley. "Qızıl şəfəq" qəzeti, 1935, №28
53. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı: 1997, 260 s.
54. Rüstəmov F. Pedaqogika tarixi. Bakı: "Nurlan", 2006, 748 s.
55. Rüstəmov F. Milli müəllim kadrları hazırlayan təhsil ocağı. "Azərbaycan müəllimi" qəzeti. 20 yanvar 2022, №3
56. Rzayev S., İrəvanlı Ə. Yunis Nuri. İrəvan. 1980.
57. Sarıyeva İ. Milli təhsil tariximizin əsası olan seminariyalar. Bakı: "Xəbər", 2016, №201
58. Süleymanov Q., Süleymanov N. Qaraqoyunlunun ilk təhsil ocağı. "Nərgiz" nəşriyyatı, 2009, 376 s.
59. Şuralar Ermənistanının 15-ci ildönümünə şüarlar. «Qızıl şəfəq» qəzeti, 22 noyabr 1935, № 264
60. Şükürov S. Gəncə məktəblərinin tarixindən. Bakı, 1990, 208 s.
61. Tarverdiyeva K. Məslək dostları. Bakı: 1992, 80 s.
62. Tərsəçaylı Q. Ermənistanda Türk maarifi. "Zəngi" qəzeti, 21 dekabr, 1926

63. Tərbiyət M. Danışməndani-Azərbaycan. Bakı, Azərnəşr, 1987, 464 s.
64. Təhməzoğlu R. Ucalıq yurdu. "Qismət" nəşriyyatı, 2004, 392 səh.
65. Yusifov B. 15 illik yubiley. "Sovet Ermənistan" qəzeti, 7 dekabr, 1940
66. Zamanov A., Nəcəfov M. Rəssam İbrahim Səfi. "Ədəbiyyat və İncəsənət" qəzeti, 1969, 15 mart.
67. Vəlibəyov R. Keçmişdən səhifələr. İrəvan, 1969.

Rus dilində

68. Большая Советская Энциклопедия. II изд. Том VI, 1950, 626 стр.
69. Кавказский календарь на 1874 годь. XXIX
70. Кавказский календарь на 1882 годь.
71. Кавказский календарь на 1883 годь. XXXVIII
72. Кавказский календарь на 1884 годь. XXXIX
73. Кавказский календарь на 1891 годь. XLVI
74. Кавказский календарь на 1909 годь. LXIV
75. Кавказский календарь на 1903 годь. LVIII
76. Кавказский календарь на 1904 годь. LIX
77. Кавказский календарь на 1907 годь. LXII
78. Кавказский календарь на 1908 годь. LXIII
79. Кавказский календарь на 1910 годь. LXV
80. Кавказский календарь на 1912 годь. LIX
81. Кавказский календарь на 1913 годь. LXVIII

82. Кавказский календарь на 1916 годь.
83. Кавказский календарь на 1917 годь.
84. Российский Государственный Историиский Архив. Фонд 1263, оп 25, д 55.
85. Шорен И.И. Исторический памятник состояния Армянский области в эпоху её присоединения к Российской империи. Санкт-Петербург, 1852.
86. Кулиева В.А. Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Ереванской губернии и Зангезура в XIX - начале XX вв.

Mündəricat

İRƏVANDA AZƏRBAYCAN TÜRKLƏRİNİN İCTİMAİ-SİYASİ VƏ MƏNƏVİ DURUMU.....6

CƏNUBİ QAFQAZDA DÜNYƏVİ TƏHSİL VERƏN MƏKTƏB – İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI.....38

İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASININ XƏLƏFİ İRƏVAN AZƏRBAYCANLI PEDAQOJİ MƏKTƏBİ.....108

Ədəbiyyat.....262

CƏLAL ALLAHVERDİYEV

İRƏVAN MÜƏLLİMLƏR SEMİNARİYASI

“Elm və təhsil” nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 06.02.2022
Şərti çap vərəqi 17. Sifariş № 189
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4